# OĞUZ ELİNDƏN-
# OZAN DİLİNDƏN

BAKI- ELM- 2000

*Tərtib edən və çapa hazırlayan:*
**ASLAN BAYRAMOV**
filologiya elmləri namizədi, dosent

*Redaktor:*
***BULUDXAN XƏLİLOV***
filologiya elmləri doktoru, dosent

*Rə'yçilər:*
***Həsən Mirzəyev***
filologiya elmləri doktoru, professor
***Mürsəl Həkimov***
filologiya elmləri doktoru, professor

**Oğuz elindən — ozan dilindən. Bakı: «Elm», 2000. — 250 səh.**

ISBN 5-8066-1244-9

*Oxuculara təqdim olunan bu kitab Qərbi Azərbaycanın Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin folklorundan bəhs edir. Bundan başqa, həmin bölgələrin adət ən'ənələri, orada işlənən dialekt sözlər, ayama və ləqəblər, həm də folklor materiallarında adları çəkilən tarixi yer- yurdlarımızın şəkilləri də kitaba daxil edilmişdir.*

*Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitabdan folklorşünas, etnoqraf və dilçi alimlər, həm də müəllim, tələbə və orta məktəb şagirdləri də istifadə edə bilərlər.*

B 4702060205 / 655(07)-2000 Qrifli nəşr

© "Елм", 2000.

# BİZİ HƏSRƏT YAŞADIR

Sazlı- sözlü xalqımızın folklorunun tarixi min illərlə ölçüldüyü kimi, coğrafi əhatəsi də çox genişdir. Bu tarixi qədimlik və coğrafi genişliyin bir ucu da ulu Ağbaba, Şörəyel və Pəmbəyə söykənir. Bənzərsiz söz sənətimizin nadir inciləri 1989-cu ilə qədər İrəvan, Göyçə, Zəngəzur, Ağbaba, Şörəyel, Pəmbək, Ağrı vadisi və digər tarixi bölgələrimizdə yaşamış Qərbi Azərbaycan türklərinin sinələrində dolu idi. Xüsusilə dəfələrlə qaçqınlığın şahidi olmuş insanlar əzab- əziyyətlərini bayatılarda vəsf etmişlər.

Gümrü yanı sərt qaya,
Boylandım Arpaçaya.
Ev tikdim, yuva qurdum,
Əməyim getdi zaya.

Çox təəssüf ki, vaxtında toplanıb nəşr edilmədiyindən bu bölgələrin folkloru adət- ən'ənəsi, dialekti, el deyimləri və s. haqqında Azərbaycan oxucularının geniş mə'lumatı yoxdur. Son illər Qərbi Azərbaycandan olan bir neçə ziyalı bu sahədə xeyli iş görməkdədirlər. Onlar yaşlı qaçqınlarla yaxından əlaqə saxlayaraq, folklor nümunələrini toplayıb nəşr etdirirlər, lakin bu hələ azdır. Dəryadan bir damladır.

Təqdim olunan bu kitabda da Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərindən toplanmış xeyli folklor materialları verilmişdir. Kitabın müəllifi Aslan Bayramov hələ rayonda yaşayarkən, yer- yurd adlarını toplayıb tədqiqata cəlb edərkən, həm də göstərilən bölgələrin kəndlərində yaşayan ağbirçək və ağsaqqallardan xeyli folklor materialları toplamışdır. Qaçqınlıqdan sonra da bu işi davam etdirmişdir. Toplanılan materialları «Azərbaycan», «Elm və həyat», «Azərbaycan təbiəti», «Ulduz» jurnallarında, «Vətən səsi», «Göyçə», «Vətən həsrəti», «Novruz», «Ədəbiyyat» və digər qəzet və elmi məcmuələrdə çap etdirmişdir. ADPU- da nəşr olunan «Filologiya məsələləri» toplusunun bir neçə nömrəsində xeyli folklor materialı çap etdirmişdir. Müəllifin folklora olan marağı «Oğuz elindən- Ozan dilindən» kitabının yaranmasına səbəb olmuşdur.

Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərindən toplanmış və zəngin söz xəzinəmizdən olan rəngarəng- folklor nümunələri ilk dəfə olaraq sanballı şəkildə bu kitabda əks olunur. Bu kitab uzun illərin məhsuludur. Kitabda ulularımızın yaratdıqları bayatı, nanay və halay mahnıları, sayaçı sözləri və eydirmələr, acıtma və oxşamalar qruplaşdırılaraq təqdim edilir. Topladığı bayatıların çoxunda müəllif dialekt xüsusiyyətlərini saxlamışdır. Göstərilən bölgələrin yer- yurd adları, etnoqrafiya və adət- ən'ənəsi də bayatılarda öz əksini tapmışdır. Bu əks etdirmədə həm də ulularımızın torpağa bağlılığı, həsrəti, kövrək duyğuları üzə çıxır.

Gümrünün faytonnarı,
İpəkdir qaytannarı.
Yarımnan minək gəzək,
Kor olsun düşmannarı.

Və yaxud

Durnam uçur Loruya
Qanad çalır oruya.
Maymaxdan dönüb gəlsin,
Xəbər versin geriyə.

Kitabdakı nanaylar özünün təzətərliyi, incə müəllif zövqünün həssas seçimi ilə diqqəti cəlb edir. Xüsusi ritm və melodiya ilə oxunan həmin nanaylar bölgələr üçün çox xarakterikdir.

Kitabın «Sazımız, sözümüz» hissəsində göstərilən bölgələrdə yaşayıb-yaratmış aşıqlar və el şairləri haqqında mə'lumat verilir, həm də onların ictimai- siyasi şe'rlərindən seçmə nümunələr təqdim edilir. Həmin aşıq şe'rlərinin çoxunda kafir ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətllər söylənilir. Bu bizim tariximizdir. Bu şe'rlər gələcək üçün yaddaşdır. Elə bir yaddaş ki, onu unutmağa haqqımız yoxdur.

Rəvayət, əfsanə, nağıl, lətifə, sınama, inanc və s. janrda olan oxşar nümunələr də kitabda təqdim edilir. Maraqlısı odur ki, kəndlərdə işlənən lağama və dialekt sözləri, onların mə'na tutumu da açıqlanır. Xalq arasından toplanmış toponimik rəvayətlər, onların yozumu, lətifələrin xəlqiliyi də maraq doğurur.



Ağbaba, Şörəyel və Pəmbək bölgələrində olan qaçaq hərəkatı, onların erməni və rus çinovniklərinə qarşı apardığı mübarizələr haqqında el arasında müxtəlif rəvayətlər vardı. Bu sətirlərin müəllifi də hələ 1994-cü ildə «Qaçaq Usuf» dastanını həmin kəndlərin adamlarından toplayıb çap etdirmişdir.

Kitabda Qaçaq Usuf, Qaçaq Həmid, Qaçaq Kərəm və digərləri haqqında yığcam mə'lumat verilmişdir.

El arasında olan müxtəlif mərasimlər, ovsun və ayinlər də kitaba daxil edilmişdir. Kökü mifik təfəkkürümüzə bağlı olan həmin ovsun və ayinlər, doğrudan da xalq arasında- kəndlərdə yaşayırdı.

Elə mənim özüm də «Qurdağzı bağlama», «Çilə kəsmək» və s. ovsun və ayinlərin dəfələrlə şahidi olmuşam. Toy *mərasimi və Novruz bayramının keçirilməsi, orada oxunan* mahnılar və s. yazılar da maraqlıdır. Ümumiyyətlə, kitabın məziyyətlərindən çox danışmaq olar.

Səbr və təmkinlə toplanmış, zövq və diqqətlə arıdılıb seçilmiş Qərbi Azərbaycan folklorunun bir hissəsini çap etdirməklə ADPU- nun müəllimi, filologiya elmləri namizədi, dosent Aslan Bayramov nəcib və xeyirxah bir iş görmüşdür. Bu xeyirxahlıqla o, bir vaxtlar qoynunda gəzib dolaşdığımız ulu yurd yerlərini- qürbətdə qalan Vətəni yadımıza salır, yaddaşımızı silkələyir.

Müəllif kitabda yer- yurdlarımızın maraqlı, etnoqrafik şəkillərindən nümunələr də verib. Həmin şəkillərə baxdıqca yaddaşımız oyanır, ürəyimizdəki həsrət duyğuları baş alıb gedir, sanki Vətən torpaqlarının təkrarsız qoxusu sinəmizə dolur. Və bu duyğular bizi yaşamağa, yolumuzu gözləyən dədə- baba ocaqlarımızı şənləndirməyə, yurd yerlərinə qayıdışa, işğal olunmuş torpaqlarımız- Qarabağımız uğrunda mübarizəyə səsləyir. Kitabdakı bir bayatıda deyildiyi kimi:

İki İbiş qoşadır,
Dağları baş- başadır.
Çoxdan ölüb gedərdim,
Həsrət məni yaşadır.

**Avtandil Ağbaba, şair publisist**

Rus-alman savaşında həlak olmuş dayılarım İsmayıl, Cəbrayıl, Məhəmməd və eləcə də Qarabağ savaşında şəhid olmuş təpəköylü şagirdlərim İsfəndiyar, Şahbuz, Əli, Vüqar, Bədirxan, Pənah və Qurbanın əziz xatirəsinə həsr olunur.

## ELİMİZ, ELATIMIZ

Ağbaba, Şörəyel və Pəmbək bölgələri də Göyçə, İrəvan, Zəngəzur, Ağrı vadisi və Lori kimi Azərbaycanımızın tarixi bölgələrindəndir. Bu ərazilər soykökümüzdə iştirak etmiş oğuz və qıpçaq türklərinin tarixi vətənidir. Torpağın yaddaşı olan Saqat, Gögər, Qıpçaq, Şirak, Kəngər, Holavar, Kayıqulu, Oğuzlu, Bayat, Abaran, Kasak, Alakas, Bayandur, Oxçoğlu, Cızıxlar və s. toponimlər, qoç və at heykəlli qəbirüstü abidələr, oğuz və qıpçaq qalaları bunu sübut etmirmi? Gözəl alpçəmənli otlaqları, meşələri, başıqarlı uca dağları, sıldırım keçidli dərələri, dişgöynədən saysız-hesabsız bulaqları, şırıl- şırıl axan dağ çayları, dağ şəlalələri, əlvan florası və faunası ilə zəngin olan bu bölgələr Azərbaycan türklərinin avtoxton vətəni olmuşdur. Nə yazıq ki, rus çarlarının siyasəti ilə 1801, 1828, 1854, 1877, 1914- cü illərdə Türkiyə ilə aparılan müharibələrdə yuxarıda göstərilən bölgələr müharibə meydanına çevriimiş, müxtəlif yerlərdən erməniləri gətirərək Azərbaycanın bu münbit torpaqlarında yerləşdirmişlər. Onun nəticəsində 100 minlərlə Azərbaycan türkü erməni terrorundan qaçqın düşərək Türkiyəyə və Azərbaycanın şimalına üz tutmuşlar. Sovet dövründə Azərbaycanın torpaqları əsasında «Ermənistan» respublikası yaradılandan sonra da-1948- 1950- ci illərdə «köçürmə» adı ilə Azərbaycan türkləri öz doğma və tarixi yurdlarından Kür- Araz ovalığına deportasiya olunmuşlar.

1988- 1989- cu illərdə də Azərbaycan türklərini sonuncu nəfərinədək Göyçə, Zəngəzur, Ağbaba, Lori, Pəmbək, İrəvan, Şörəyel və digər bölgələrdən ermənilər çıxarıb qaçqın saldılar.



Ağbabanın Qarabulaq, Çivinli, Quzukənd, Güllücə, Ellərkənd, Balıqlı, Öksüz, Sultanabad, Təpəköy, İbiş, Qönçəli, Göllü, Qara Namaz, İlanlı, Düzkənd, Daşkörpü, Amasiya kəndlərində, Şörəyelin Qaraçanta, Mağaracıq, Çaxmaq, Oxçoğlu, Güllübulaq, Pəmbəyin Qursalı, Saral, Vərdənə, Qızılörən, Mollaqışlaq, Holavar,Haydarlı, Ardıc, Xancığaz, Aşağı Kilsə, Yuxarı Kilsə kəndlərində- 31 kənddə Azərbaycan türkləri 1989- cu ilədək yaşamışlar.

Bu kəndlərdə gözəl adət- ən'ənələrimiz qalmaqda idi. Məsələn, bir çox işlər iməci ilə görülərdi. Bir də görərdin ki, birisi yaz- yay aylarında çay kənarında və ya bulaq ətəyində xalça- palaz, qab- qacaq təmizləyər, yun çırpıb yuyar, yorğan döşək salardı. Bu vaxt heç kəs demədən qız- gəlinlər tez tökülüb gələr, yaşlı qadınların əllərindən bu işləri alıb, onların nəzarəti altında özləri bu işləri tamamlayardılar. Payız vaxtında qış üçün dibəklərdə yarma döymək, əriştə kəsib qovurmaq, kəsilən qazları yolub qış qovurması üçün hazırlamaq da iməci ilə yerinə yetirilərdi. Cavan qızlar əllərində salğar nanay deyə-deyə sıra ilə dibəkdəki buğdanı döyərdilər ki, qabığından çıxıb yarma olsun. Bulğur qaynatmada, kirkirə ilə qovut və yarma çəkiləndə də qız- gəlinlər bir- birinə köməklik edərdilər.

Qoyun qırxınında da qırxılıqlar işə düşər, kişilər köməkləşib sıra ilə bir-birinin qoyun-quzusunu qırxardılar. Otun kərənti ilə biçilməsi, yığılması, çöldən maşınla daşıyaraq həyətə gətirilməsi də ancaq qonşuların köməyi ilə başa gələrdi.

60- 70- ci illərdə yeni tipli evlərin tikilməsi dəbdə idi. Daşın, qumun daşınması, hörgü işlərinin tamamlanması da cavan oğlanların köməyi olmadan başa gəlməzdi.

Göstərilən bölgələrdə bu gözəl ən'ənələrə xas poetik biçimli folklor örnəkləri vardır. Azərbaycan folklorunun tərkib hissəsi olan adət- ən'ənələr göstərilən kəndlərdə və rayon mərkəzi olan qəsəbələrdə yaşayır və inkişaf edirdi.

...Xalq yaradıcılığına-folklora marağım lap kiçik yaşlarımdan başlamışdı. Nənəm Hürü Abuzər qızının laylaları, üzərrik bayatıları, inək sağanda dediyi eydirmələr və oxşamalarına heyran olmuşam. Ana nənəm Güləbətin Rəcəb qızının «Qurdağzı bağlama», «Su parpılamaq», «Çilə kəsmək» ovsunları-

sunlarına da maraqla və diqqətlə qulaq asmışam. Güləbətin nənənin üç oğlu- İsmayıl, Cəbrayıl və Məhəmməd rus- alman savaşından qayıtmamış, Türkiyədəki yaxın qohumlarına görə əri Mikayıl NKVD- nin tə'qiblərindən yaxa qurtarmaq üçün Qars tərəflərə üz tutmuş, sərhəd möhkəmləndirildiyi üçün bir daha qayıdıb ailəsini apara bilməmişdi. 6- 7 nəfərlik ailəni kiçik oğlu Əhməd kolxozda çobanlıq etməklə dolandırardı. Ona görə də yağışlı, qaranlıq gecələrdə, tufanlı- çiskinli günlərdə, həm də qoyun- keçi, quzu- çəpiş itəndə Güləbətin nənə «Qurdağzı bağlama» ovsununu yerinə yetirərdi. Bundan başqa, birinin uşağı xəstələnəndə də qabda su gətirər və Güləbətin nənəyə parpıladıb- ovsunladıb aparardı.

Təpəköy kəndində 1918-ci ilin Novruz bayramında Abaran qəzasının Gözəldərə kəndindən qaçqın düşən qaracıqlı, tombullular, dadaşdı, postalçılar, lahışlar, çəmənli və aydınnı tayfaları da yaşayırdılar. Onlara gözəldərəlilər deyərdilər. 1918- ci ildə ermənilər həmin kənddə yaşayan dinc əhalidən- 215 nəfərini məscidə doldurub yandırmışlar. Elə mənim, qardaşım Rəsulun, əmim qızları və oğlanlarının çoxlarının adı həmin faciədə həlak olan yaxın qohumlarımızın adlarıdır.

1923- cü ildə Ağbabanı Qars vilayətindən ayırıb «Ermənistana» qatsalar da, gözəldərəlilər taleyin hökmünə boyun əyib, ermənilər tərəfindən dağıdılaraq hərbi atəşgaha çevrilən Gözəldərə kəndini xatırlaya- xatırlaya Ağbabada yaşadılar.

Babam Məhəmmədəli Kərbalayı Xudaverdi oğlu da Gözəldərədən qaçqın düşən qaracıq tayfasından idi. Yaxşı daş və ağac ustalığı bacarardı. Danışığında çoxlu atalar sözləri və yerli ifadələr işlədərdi. Məsələn, bivec adamlar üçün «Minarəyə xərci çıxmayan elə bilər ki, eşşək göbələyidir», tələsiyən üçün «Ə, a bala, toyun Qararxacda çalınır», bixərc adamlara isə «Buna heç Ələyəz dağı da dayanmaz» deyərdi. «Öküzü olmayanın bıçağı iti olar», «Əvvəl aş, sonra baş, sonra iş» atalar sözlərini də çox işlədərdi.

Azərbaycan folklorunun gözəl bilicisi, həm də gözəl nağılçı, arıxlı tayfasından olan Bəşir kişini də xatırlamamaq olmur. Bütün kənd uşaqları Bəşir kişini çox sevərdi. O, gözəl zurna çalmaqla bərabər, həm də yüzlərlə nağıl, mərasim



nəğmələri və s. əzbər bilər və çox ustalıqla söyləyərdi. Radioqəbuledici və televiziyanın olmadığı 50- 60- cı illərdə bütün kənd uşaqları onun başına yığışıb folklor nümunələrinə maraqla qulaq asardılar. Bəlkə də Bəşir kişinin bildikləri toplanıb nəşr olunsaydı, cildlərlə kitaba sığmazdı. Yaddaşları çözələyərək onun söylədiklərindən bir neçə rəvayət və lətifəni bu kitaba daxil etmişik.

1918- ci ildə Ağcaqaladan qaçqın düşən Əşrəf kişi də çoxlu xalq mahnıları bilərdi. Məclislərdə hətta qaval ilə oxuyardı da.

Aşıq İsgəndər Ağbabalı da sazlı- sözlü azman aşıqlardan idi. Zaman onu bizdən uzaqlaşdırdıqca hiss edirik ki, böyük bir el sənətkarını itirmişik.

Kəndlərdə əyyar kişilər və sinəsi dolu qadınlar çox idi: Xancığazlı zurnaçı Musa, Sə'di kişi, holavarlı Oruc müəllim, güllübulaqlı Sona nənə, oxçoğlulu Paşa müəllim, Ağca nənə, sultanabadlı toyçu Xəlil, balıqlılı Xoşqədəm nənə, mollaqışlaqlı Qiymət nənə, xancığazlı Pəri nənə belələrindən idilər.

Təpəköylü Qənbərəli kişi də əyyar adam idi.

Hələ kənddə klub olmadığı bir dövrdə Qənbərəli dayının öz əli ilə tikdiyi böyük otağında aşıq yığnaqları olardı. Aşıq Əsəd, Aşıq Məhərrəm, Aşıq Hüseyn Saraclı, Aşıq İsgəndər və başqa el sənətkarlarının sazına- sözünə ilk dəfə orada qulaq asmışıq. Kənd uşaqları da anaları və ya da nənələri ilə bu məclisə gələr, söylənən dastana qulaq asa- asa elə burada- nənələrinin dizinin dibində yuxulayardılar.

Qənbərəli dayı və arvadı Bilqeyis xala Gözəldərə qaçqını idilər. Qonaqpərvər olduqları üçün kəndə gələn qonaq, aşıq, seyid, kəndirbaz, məzhəkəçi və başqaları onlarda qonaq qalardılar. Qənbərəli kişi əsl rəncbər və söhbətcil adam idi. Ağac və daş ustalığını, dəmirçiliyi də bacarardı. Çoxlu lətifələr bilər, danışığında atalar sözlərini də çox işlədərdi. Məsələn, «Yetimin ağzı aşa dəyəndə, başı daşa dəyər», «Bağlanan it ova yaramaz», «Ət ilə yağ qardaşdır, arada soğan yanar» və s. Onun oğlu Yusifin də dülgərlik, dəmirçilik mühərrik yığmaq, kombayn, traktor, avtomobil işlətmək, qaynaq etmək,

elektrik işi görmək- hər şey əlindən gələrdi. Qaçqınlıq onun da ömrünü yarımçıq qoydu.

Kəndlərdə keçirilən müxtəlif mərasimlər də maraqlı olardı. Əkin- biçinə yağış lazım olanda və ya günəş arzulananda qonşu arvadlar- Reyhan xala, Zeynəb xala, Dilbər xala, Zəkiyə qarı, Dursun xala, Gülsənəm qarı, Güldərən xala, Bədgül xala və digərləri bir yerə yığılıb deyərdilər ki, «A bala, bir «godu- godu» gəzdirsəniz, bu havalar düzələ». Uşaqlara da elə bu lazım idi. Tez bir çömçəni gəlincik kimi bəzətdirib mahnı oxuya- oxuya, həm də pay yığa- yığa kəndin bu başından düşüb o biri başından çıxardılar. Pay da nə olacaq: yağ, yumurta, qənd, mer- meyvə, konfet və s. Sonra da onlar yorularaq bir evə yığışar və yeyib içərdilər. Bə'zən o qədər yumurta yığardılar ki, onu da dükana verib başqa şeylər alardılar.

Kənd toylarına xüsusi hazırlıq görülər, mal- qoyun, toyuq- cücə də bəslənərdi. Toyun ən yadda qalanı qaranlıq gecədə məşəllərin işığında, qara zurnanın sədası altında sağdış evindən «şax gətirmək» idi. Yallı başı çəkənlər xüsusilə seçilərdilər. Toy babası isə əlində zoğal çubuq oyun meydanını daraldan uşaqları tez- tez ehtiyatlandırar, bə'zən də çubuqla qıdıxlardı. Həm oğlan evində, həm də qız evində toydan bir gün əvvəl «xınayaxdı»nın təşkili, «paltar gətirmək» də toy içində bir toy idi.

Payız aylarında gətirilən gəlinləri bir qayda olaraq may ayının güllü- çiçəkli bir vaxtında çölə çıxarardılar. «Çöləçıxartma» da bir mərasim idi. Bunun üçün ev sahibi əvvəlcədən kətə, şirniyyat bişirər, mer- meyvə alar, qonşulara qohumlara da xəbər verərdi. Görərdin ki, bərli- bəzəkli, xonçalı- buxçalı böyük bir qız gəlin dəstəsi, arxalarında da kənd uşaqları nanay deyə- deyə çiçəkli- çəmənli bir çölə seyrə çıxıblar.

İslam dininə aid olan bütün mərasimlər (Qurban bayramı, Orucluq, Məhərrəmlik, dəfn mərasimi və s.) qaydasınca keçirilərdi.

1970-ci illərdə BDU-da oxuduğum zaman mərhum folklorşünas Vaqif Vəliyevin tapşırığı ilə xeyli folklor materialları topladım. İndi də o dəftərləri saxlamışam. Daha sonra BDU-



nun dissertantı olarkən mərhum dilçi Əlövsət Abdullayev və türkoloq Kamil Vəliyevin tapşırıqları, həm də təşəbbüsləri ilə Ağbaba, Şörəyel və Pəmbək bölgələrinə daxil olan yeddi rayonun 3000- dən çox yer- yurd adlarını toplayıb pasportlaşdırdım. Onun əsasında dissertasiya yazdım. Həmin dövrlərdə kəndləri gəzərkən yenə də folklor nümunələri topladım.

1988-1989- cu illərdə Qərbi Azərbaycandan qaçqın düşən Gəncədə və Bakının «Bayıl», «Xutor», «Semaşko» «Montin» adlanan ərazidə toplu yaşayan ağbabalılar, pəmbəklilər, şörəyellilərin arasında 1990- cı ilin qışında və 1998- ci ilin yayında bir daha oldum. Folklor nümunələri və yer- yurd adlarını söyləyən informatorlar elə bil ki, adam axtarırdılar ki, ürəklərini boşaltsınlar. Onlar sinələrindəkilərini söyləyəndən sonra bir yüngüllük tapırdılar. Çünki bir neçə dəfə qaçqınlıq həyatı keçirən bu insanların sinələrində dərddən- əzabdan, həsrətdən folklor göyərirdi. «Xutor»da Qızılörən kəndindən olan bir yaşlı kişi ilə görüşdüm. Ondan xahiş etdim ki, öz kəndlərinin ərazisində olmuş bulaq, dağ, dərə, təpə və digər yer- yurd adlarını söyləsin. Qarayurd, Çubuxlu, Qara Çoban, Yelliyurd, Maymaq, Hellendi, Şır- şır, Miskinli və s. yurd adlarını o, ah çəkərək aktyor həvəsi ilə elə söylədi ki, məəttəl qaldım. Sonra o dedi ki, sağ olasan səni, o dağın adını deyəndə elə bildim ki, oradayam, bulağın adını söyləyəndə elə bildim ki, o sulardan içirəm, biçənəyin adını deyəndə elə bildim ki, budu, kərənti ilə ot biçirəm, arxacın adını deyəndə isə elə bildim ki, qoyun- quzu mələşə- mələşə kəndə tərəf tökülür. Kişinin həsrətdən gözləri yaşardı.

Topladığım materialların biri qismini ilk dəfə Azərbaycan mətbuatında çap etdirdim ki, heç olmasa qaçqınlar oxuyub təskinlik tapsınlar[1].

[1] Аслан Бајрамов. Ағбаба фолклору «Вәтән сәси» гәзети. 19.11.1990, №35; Аслан Бајрамов. Ағбаба-Шөрәјел фолклору. «Новруз» гәзети 12.1991, №48; Аслан Бајрамов «Топонимләримиз фолклорда. «Әдәбијјат» гәзети. 4.06.1992, №23; Аслан Бајрамов. Пәмбәк фолклору: Ашыг Ајдын- «Вәтән һәсрәти» гәзети. 2.07.1993, №13; Аслан Бајрамов. Шаир Әфкари «Новруз» гәзети 18.06.1992, №22.

Ümumiyyətlə, üzünurlu ağsaqqal babalarımız, ağbirçək nənələrimizin sinəsində minlərlə həsrət, qəriblik bayatıları, ağı, nanay, lətifə, rəvayət, nağıl və dastanlar qalmaqdadır. Neçə ki gec deyil, hər bir elin ziyalısı bu işə qoşulub, folklor nümunənələrini toplamalıdır ki, itib batmasın.

Kitabda təqdim olunan deyimlər xalqındır. Qiymətli sədəfi, qaş- daşı, muncuğu kirişə, ipə- sapa düzən kimi, biz də qiymətli bu sözləri kağız üzərində düzüb qoşduq. Düzüb qoşduq ki, itib batmasın, gələcəyə bir yaddaş olsun.

Kitabın ərsəyə gəlməsində göstərdikləri köməyə görə, ADPU- nun Müasir Azərbaycan dili kafedrasının əməkdaşlarına, şair dostum Avtandil Ağbabaya və kitabdakı şəkillərin hazırlanmasına xüsusi qayğı ilə yanaşmış eloğlum İbrahim Nizami oğluna öz minnətdarlığımı bildirirəm.

Aslan Bayramov



## ELAT BAYATILARI

Azərbaycan türklərinin folklorunda daha çox əks olunan bayatılar Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərində də geniş yayılmışdır. Bədii təfəkkürümüzün ən qədim, çox yığcam və lakonik forması olan bayatılarımızın məzmununda nələr yoxdur: əməyə məhəbbət, sevgiyə sadiqlik, nəsihət, qəriblik, dərd- kədər, qaçqınlıq və s. İnsanı qurub yaratmağa çağıran xana bayatıları, sayaçı sözləri, holavarlar, insanları pis göz və pis nəzərdən uzaqlaşdıran üzərlik bayatıları, dərdiqəmi, həm də ölümə qarşı e'tirazı əks etdirən ağılar, zarafatla deyilən acıtmalar... birdirmi, ikidirmi bunlar? Etnoqrafiyamızda və hər bir Azərbaycan türkünün məişətində onun yaşamına köməklik göstərən at, öküz, araba, nehrə, daraq, cəhrə, qoyun, keçi, təndir, dibək, duzdaşı və digər əşya və ev heyvanlarına ulularımız bayatılar qoşmuşlar. Çox vaxt da həmin ev əşyalarını işlədərkən, inəyini, qoyununu sağarkən, atını minərkən, uşağını sevərkən, xalça, corab, kilim və həsir toxuyarkən, elindən obasından qaçqın düşərkən və s. bu bayatılar Azərbaycan türkünün ruhundan qopmuşdur.

Bayatılarımızı rəngbərəng saplardan ilmə- ilmə toxunmuş naxışlı xalçalara bənzətmək olar. Toplanılan bayatılarda atalar sözləri, frazeoloji birləşmələr, cinas sözlər, yer- yurd adları, dialekt və şivə sözləri də yetərincədir. Təqdim olunan bayatılarda az da olsa, yerli dialekt və işvə xüsusiyyətləri saxlanılmışdır.

Damdan dama gəzərlər,
Damda qurut əzərlər.
Yara çirkin deyirlər,
Kimdir yardan gözəllər?

Ələyəz başı Haça
Əlim dolaşdı saça
İyid odur dünyada
Sevdiyin ala qaça.

Ağ əllim, ağ biləklim,
Əyni gülgəz yeləklim,
Gözləməkdən bezmişəm,
Gəlsən, astan ürəkiim.

Qalanın adı Gümrü
Ocaqda yandır kömrü.
Kefini vaxtında çək,
Gödəkdir insan ömrü.

Gümrü yanı sərt qaya
Boylandım Arpa çaya.
Sevgimi xax apardı,
Əməyim getdi zaya.

Səvgi səvən hodaxlar,
Öкüzləri qabaxlar.
Pul- pul olar, qızarar,
Yarı öpən dodaqlar.

Bu da mənim qış yazım,
Qış getdi, gəldi yazım.
Elimdən uzaq düşdüm
Dərdimi кimə yazım?

Arpa çayı, daşırsan,
Hər tərəfi aşırsan.
Yar görüşə çağırıb,
Yolu niyə кəsirsən?

Qətifədən yasdığım,
Əl Qur'ana basdığım.
Sən кi bivəfa çıxdın,
Baş tutarmı dostluğum?

Qəribliк yaman olar,
Sovrulub saman olar.
Mən düşdüm qürbət elə
Sən düşmə, yaman olar.

Umudum, ay umudum,
Su dibindən qum udum.
Baş yasdıqda, göz yolda.
Niyə gəlmir umudum?

Ağbaba yolu fərman,
Torpağı cana dərman.
Kağız gəlib кöç ilə,
Yarı dərd, yarı dərman.

Endim dərə irmağa,
Söyüd dalı qırmağa.
Qızıl üzüyü taxdım
O xınalı barmağa.

Gəl oturaq diz- dizə
Danışaraq üz- üzə,
Biz кi, belə deyildiк,
Cadu etdilər bizə?

Eləmi Ağlağandı
Qaraxaç ağlağandı.
Gedəк dərdli yanına.
Görəк кim ağlağandı?

Bu yola кol salaydım,
Karvana yol salaydım.
O qədər ölməyəydim,
Boynuna qol salaydım.

Qərib öldü götürün,
Dar кüçədən ötürün.
Anası nigarandır,
Son mənzilə ötürün.

Ha yat, ha yat
Oxudum, həyat, həyat.
Qalxarsan urzun artar
Yatarsan, ha yat, ha yat.



Üzüm qara
Yeməyə üzüm qara,
İstədim sənə varam,
Əlim boş, üzüm qara.

Bulax başı yol olar,
Qız- gəlini bol olar.
Oğlanlar sultan olsa,
Yenə qıza qul olar.

Corabın ağına bax,
Dəstələ bağına bax.
Yar yadına düşəndə,
Ziyarat dağına bax.

Yapınçını götdü yar
Geyib burdan getdi yar.
Oba tünlüк, boy alçax,
Aralıqda itdi yar.

Dəyirmana dən doldu
Gedən orda bənd oldu.
Ay qız, sənin o saçın,
Ömrümə кəmənd oldu.

Dəyirman üstü çiçəк
Oraq gətir, gəl biçəк.
Sən birçəк qoy, mən кəкil
Görəк, hansımız göyçəк.

Eləmi anası var,
Qurulmuş xanası var.
İstərəm ora varam,
Bir zalım anası var.

Bulax başı buz bağlar
Dörd yanı yarpız bağlar.
Yorğanıma qar yağır,
Döşəyimdə buz bağlar.

Bulaqda daş olaydım,
İslanıb yaş olaydım.
Yar yanından кeçəndə,
Ona yoldaş olaydım.

Eləmi Ərzuruma
Yol gedir Ərzuruma.
Elimdən ayrılmaram,
Dözərəm hər zuluma.

Dəyirmana su gəldi
Holux dolusu gəldi.
Qürbət elin dərdi çox
Gözlərimə su gəldi.

Biçinçilər biçində
Mənim yarım içində.
Köynəк tiкim yolluyum,
Yandı tərin içində.

Eləmi ana neylər,
Qurulmuş xana neylər.
İкi кönül bir olsa,
Bir zalım ona neylər?

Gedirəm yolum dağdı,
Bu nə zulumat bağdı.
Nə qədər dolandımsa,
Hər tərəf uca dağdı.

Qarabağdan gəlirəm,
Dilim yoxdur məliləm.
Aç ürəyim, yar bağrım
Gör mən necə zəliləm?

Əzizinəm, ala çək
Doldur qəlyan, ala çək.
Çirкinlə plov yemə,
Get gözəlnən qala çək.

Eləmi Qarsa tərəf,
Yol gedir Qarsa tərəf.
Fələк aman vermədi,
Gedəydim Qarsa tərəf.

Qaya başı qarınca,
Donum batıb narınca.
Qız, belin oğlan qırsın,
Dul кişiyə varınca.

Aşiqəm yar acığa
Düzüblər yara cığa.
Mən sevirəm, o sevmir
Düşübdür yar acığa.

Bu gün ayın on dördü,
Qız, saçını кim hördü?
Mən sənnən görüşəndə,
Hansı кor olmuş gördü?

Mən aşiqəm ozana,
Qulax vernən azana.
Fələк bir insaf versin,
Doğru yoldan azana.

Ürəyim əppəк istər,
Yeməyə əppəк istər.
Qol məndə, gərdən səndə,
Üzündən öppəк istər.

Kağızın ağa dönsün,
Ərisin yağa dönsün,
Gir qapıdan içəri,
Ürəyim dağa dönsün.

Dağlara qovla məni,
Kəkliyəm, ovla məni.
Gecələr sinən üstə,
Gündüz buxovla məni.

Mən aşiq incimənəm,
Lə'l mənəm, inci mənəm.
İyid dostun yolunda
Can qoysam, incimənəm.

Araza gəmi gəldi,
Gəmiylə hamı gəldi.
Ürəк necə dayansın,
Ayrılıx dəmi gəldi.

Əzizinəm bir- bir çəк,
Oxu yaydan bir- bir çəк.
Ölsəm qoy qanlım olsun
Bir qaş, bir göz, bir birçəк.

Əzizinəm Göydağdan,
Əysiк olmaz, göy dağdan
Elə bir ah çəкdim кi,
Enib gəldi кöy dağdan.



Dağlarda gəzən mənəm,
Al geysən bəzənmənəm.
Dilim şad, кönlüm məlul,
Sərкardan gəzən mənəm.

A gələn şörəyelli,
Torpağı çörəк elli.
Yurdum- yuvam ordadır,
Dərdimi böləк, elli.

Qara çuxa qaytanı,
Yoldan çıx yolu tanı.
Neçə ildi gedibsən,
Məhləmizin sultanı?

Yeri. Salatın, yeri,
Səlbi salatın yeri.
Yerinə yerlər gəlsin,
Geysin xələtin yeri.

Oğlan, adın Eyibdir.
Bezdən кöynəк geyibdir.
Deyir səni sevmişəm,
Əvdə qurban deyibdir.

Arxalığın şaldı, yar
Dərdin məni aldı, yar.
İкimizin sirr sözü,
Qiyamata qaldı, yar.

Ağbabadan Çıldıra
Yol gedər sıra- sıra.
Ağlım- huşum dərdimdən,
Qorxuram кi, çıldıra.

Uca dağlar..
Yarpızlı buz bulaxlar
Mən burda qərib ölsəm,
Məni bəs кimlər ağlar?

Ay ağa....
Atlı baxmaz yeyağa.
Mən sənə neyləmişdim,
Məni saldın ayağa?

Oğlan, adın Astandı,
Gün dağlarda yasdandı.
Verdiyin qızıl üzüк,
Barmağımda pasdandı.

Arxalığın iкi qat
Birin saxla, birin sat.
O кi mana qıymırsan,
Canın çıxsın ayrı yat.

Əziziyəm Qaraxaç,
İsti düşdü qara qaç.
Qış gəldi, boran əsdi
Amansızdı Qaraxaç.

Dağları gəzdim gəldim,
Daşları əzdim gəldim.
Qərifliкdə iz qoydum,
Dünyadan bezdim gəldim.

Qaya, qayaya baxar,
Qayadan qanlar axar.
A pis papaq, pis oğlan,
Sana tərəf кim baxar?

Göndərin, ay göndərin,
Gülü yara göndərin.
Sovqatı sizin olsun,
Özünü bizə göndərin.

Yapınçı bürünürsən,
Dəmhadəm görünürsən.
İyidlik haram olsun,
Baxmağa ərinirsən?

Mən aşiq kimə gedim,
Kimim var, kimə gedim?
Bu dərdi sən vermisən,
Dərmana kimə gedim?

Mən aşiq səndə qalsın,
Sirr sözüm səndə qalsın.
Can məndə qərar tutmaz,
Göndərim səndə qalsın.

Ağ otaq üstü qaynım,
Nə dedim küsdü qaynım?
Nəçəlnikən dizbədiz,
Qlavanın dostu qaynım.

Ay xana, həndi xana,
Ayağımın bəndi xana.
Kəsəydim tezcə səni,
Gəzəydim kəndi, xana.

İrəvan bağ olaydı,
Dörd yanı dağ olaydı.
Mən sevdiyim oğlanın,
Anası sağ olaydı.

Arpa əkdim, az qaldı
Buğda əkdim, saz qaldı.
Tələsmə, dəli gonul,
Vədəmizə az qaldı.

Mən aşiqəm uçdum gəl,
Dost bağına düşdüm gəl.
Dost deyən aşnam oldu,
Yaman günə düşdüm gəl.

Dağdan hərləndim yurdu,
Atım tərlədi durdu.
Bizi mağmun eylədi,
Yıxılsın belə yurdu.

Qardaşa bax, qardaşa
Papax qoyubdur başa.
Qardaşın düşmannarı,
Dönsün bir qara daşa.

Eyvanımız ucadır,
Bayra çıxma gecədir.
İsmarış göndərsənə,
Görüm kefin necədir?

Herikdən, gəl herikdən
Sana bişirim ərikdən.
Nə tez sevdin, usandın,
Məni kimi fərikdən.

Əzizinəm qulam mən
Ağa sənsən, qulam mən.
Qoymurlar ki, danışam
Deyirlər ki, qulam mən.



Əmim oğlu bir idi
Əl yaylığı kir idi.
Qazan asdım yumağa,
Çayın suyu qurudu.

Əlində ələmi var
Cibində qələmi var.
Uzaqdır gələ bilməm,
Məktubla salamı var.

Oğlan, adın Teyifdi,
Gün dağları keyifdi.
Verdiyin qızıl üzük
Barmağımı yeyifdi.

Əzizinəm birə var,
Otağında birə var.
Urustamı- zal olsan,
Fələk səni birəvar.

Dam üstə qara toyuq
Dörd yanı oyuq- oyuq.
Hamının yarı gəldi,
Gəlmədi qanı soyuq.

Sevdim əzəldən səni,
Seçdim gözəldən səni.
Baxdım heç vəfan yoxdur,
Tez qoydum əldən səni.

Bu ay bayram ayıdı
Qardaş- bacı payıdı.
Qardaş əgər gəlməsə,
Bacı başı ağrıdı.

Kağızım, ağ kağızım,
Dili yox, ağ kağızım.
Gedərsən yar yanına,
Dil aç, yalvar, kağızım.

Oğlan, adın Bəydi gəl,
Dərdin məni əydi gəl.
Bir cüt heyva saraltdım,
Namərd əli dəydi gəl.

Ay qız adın Zərnişan
Zulumdur eşqə düşən.
Dünyada xoşbəxt kimdir?
Sevdiyinə qovuşan.

Əlin xına tutmasın,
Gün onu qurutmasın.
O ki sevdin almadın,
Ömrün binə tutmasın.

Bayram- bayramın olsun,
Güllər seyranın olsun.
Ellər bayram eliyir,
Sən gəl bayramın olsun.

Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Nə yadıma düşüfsən,
Təzəcə yemiş kimi.

İgid mənim olunca,
Yada qənim olunca
Qəbrimdən günəş doğar,
Rəvan bizim olunca.

Şəkimi qara çəkin,
Daş- divara çəkin.
İrəvanı göstərin,
Saçımdan dara çəkin.

Qardaşım qaladadır,
Payı piyaladadır.
Çıx qalanın döşünə
Bax Rəvan haradadır.

Burası Muşdu,
Yolu yoxuşdu.
Gedən gəlmədi,
Əcəb nə işdi.

Qızıl üzük firuzə
Gedin deyin xoruza.
Banlamasın bu gecə,
Yarım gəlib gizlicə.

Bulaq başı yamyaşıl,
Getmə gözüm qamaşır.
Nə çox gedib- gəlirsən,
Anam mənlə savaşır.

Bulaq başı pıtıraq,
Yarım gəlsin oturaq.
Bir o desin, bir də mən,
Bəlкə günü batıraq.

Dəyirman üstü çinar,
Yarpağı dinar- dinar.
Mənim yarım uşaqdır,
Söz demə qəlbi sınar.

Burası Qarsdı,
Yolu ırastdı.
Aynalım açılmır,
Çaxmağı pasdı.

Bu yollar, uzun yollar,
Yar mənə üzüm yollar.
O yara qurban olum,
Naməylə dözüm yollar.

Bulaq başı meşədir,
Yar, xənçəlin şişədir.
Xanlıq sənə yaraşır,
Çobanlıq nə peşədir?

Kəmərimin bağı gümüş
Bağlasana, əmim oğlu.
Məni verirlər yada,
Ağlasana, əmim oğlu.

Küpə içində bəhməz,
Bu bəhməz bizə yetməz.
Ağbabanın qızları,
Zurnasız ərə getməz.

Dam üstə qurut sərər,
Bilməm bunu кim sevər.
Bunun bir sevgisi var,
Gündə on кərə gələr.

Eləmi illər ayrısı
Bülbül güllər ayrısı.
Bir gününə dözmədim,
Oldum illər ayrısı.



Əzizinəm yol gələr,
Yol uzanar, yol gələr.
Yar yollarda yorulub,
Gələ bizdə dincələr.

Aşıq belə yaxşıdı,
Kəmər belə yaxşıdı.
Xəbər alsan əhvalım,
İndi belə yaxşıdı.

Ev dalında arx axır,
Yönü qibləyə baxır.
Ay oğlan, az get- gəl,
Yengəm başıma qaxır.

Araza кür desinlər,
Kürdən də кür desinlər.
Əlim əlinə dəysin,
Ölкədən sür desinlər.

Bacının bacı dərdi
Yoxdu əlacı, dərdi.
Onun sözü- söhbəti,
Qoydu bir acı dərdi.

Can ana, canım ana,
Yasdığım, yanım ana.
Baş qoyum dizin üstə,
Çıxaydı canım, ana.

İravan yollarında,
Bənd oldum кollarında.
Bir cüt bəzmənd olaydım,
Yarımın qollarındı.

Yastana, ay yastana,
Quzular töкüldü bostana.
Qorxuram yağış yağa,
Motal papağ istana.

Araz azdan yaxşıdır,
Ördəк qazdan yaxşıdır.
Çayda bir gəlin gördüm,
On iкi qızdan yaxşıdır.

Araz aya qarışdı,
Çəmən çaya qarışdı.
Qırx qulunnu qısırax,
Gəlib daya qarışdı.

Göydə uçan кəpənəк,
Xalları bənəк- bənəк.
Baş qoyum dizin üstə,
Can verim, hənəк- hənəк.

Ya sabah,
Ya səməni, ya sabah.
Əzrailə borclu canım,
Bu gün alar, ya sabah.

Eləmi el ayağı,
Çəməndi el ayağı.
Ov görməz, oba görməz
İt yesin o ayağı.

Dərdim Ağrı dağıdı,
Dərdim vursa dağıdı.
Dünya gəzsəm, dolansam,
Yenə ağzım ağıdı.

Bu şana
Arı qonmaz bu şana.
İyidə oğlan gərəк,
Qızdan olmaz nişana.

Mənim dərdim bilinməz,
Gözüm yaşı silinməz.
Canım göy qabar töкüb,
Köynəк altda bilinməz.

Qəribəm ağrar başım,
Yoxdu mənim sirdaşım.
Meyidim yerdə qalar,
Yoxsa qohum, qardaşım.

Bayquş bağa gəlməsin,
Yaz getsin, qış gəlməsin.
Heç bir qərib başına,
Bir belə iş gəlməsin.

Dərd əydi......
Dərman əydi, dərd əydi.
Hər dərdə yıxılmazdım,
Bu çəкdiyim dərd əydi.

Kəкliк gördüm bozala
Qaşlar qara, göz ala.
O yara qurban olum,
Gəlib mənnən söz ala.

Gəlinə bax, gəlinə,
Əlini qoyub belinə.
Gəlinə söz deməyin,
Küsər gedər elinə.

Qəribəm bu vətəndə,
Qərib quşlar ötəndə.
Qəribliк çox, çətindir,
Baş yastığa yetəndə.

Üzüm yerə
Salxımı düzüm yerə.
Çürüyübdür кəfənim,
Düşübdür üzüm yerə.

Eləmi, Dərbəndi var
Dərənin dar bəndi var.
O yola gedən gəlməz,
Yüz yerindən bəndi var.

Qoyunu qoyun gəlsin,
Dərisin soyun gəlsin.
E'tibarlı yar olsa,
Görüşə qoyun gəlsin.

Kəкliyim, get ot gəti
Dimdiyində tut gəti.
Yarın özü gəlməsə,
Ətəyindən tut gəti.

Yetimin yeкə dərdi,
Yüкlənib yüкə dərdi.
Nər gərəк, maya gərəк
Yüкlənib çəкə dərdi.

Əmimoğlu, el oğlu,
Evinə dolsun oğru.
Sən кi məni almırsan,
Qoy aparsın eloğlu.



Həyətə gül əкərəm
Gül dibincə səкərəm.
Qucağımda кörpəm yox,
Gəlin deyil, nöкərəm.

Əmim oğlu olasan
Mənə bir şal alasan.
Hörəm, töкəm dalıma,
Görəndə şad olasan.

Yetiməm otağım yox,
Ağacam budağım yox.
Dindirmə qan ağlaram,
Qolumdan tutanım yox.

Eləmi yada qaldı,
Kür кeçdi, ada qaldı.
Mən fələyə neylədim?
Sevgim də yada qaldı.

Əzizinəm xal- xala,
Kal düşübdür xalxala.
Qorxuram cavan öləm,
Ürəyimdə xal qala.

Yer əкdim əvləк- əvləк,
Dadandı qara leyləк.
Gedirdim yar yanına,
Qoymadı qannı fələк.

Eləmi bu dağılən
Yol gedir bu dağılən.
Sonə yaxşı deməzlər,
Mən ölsəm bu dağılən.

Qayadan atma məni
Atıbsan tutma məni.
Çevir balan başına,
Qocaya satma məni.

Damda çıraq yandırdı,
Məni görüb söndürdü.
Kəndi кef- səfa sürür,
Məni dərddən öldürdü.

Dəli çayın axarı,
Papağı var buxarı.
Dünya elə qarışdı,
Nə olacaq axırı?

Ay mənim Fatma nənəm,
Qaşları çatma nənəm.
Sevəni sevənə yaz,
Günaha batma, nənəm.

Göydə bulud oynadı,
Gözüm sənnən doymadı.
Fələyə çox yalvardım,
Qannı fələк qoymadı.

Göyər bostanım, göyər,
Su gələr, bəndi döyər.
Qalmışam qürbət eldə,
Hər yetən məni döyər.

Arxalığın yaxası,
Gözəllərin ya xası.
Qalıb namərd əlində
İyiddərin yaxası.

Arpa çayı dayazdır
Şirək çölü ayazdır.
Qəm çəkmə, dəli könül,
Qabaqda hələ yazdır.

Mən aşiq didər gənə,
Yaxamı didər gənə.
Bunnan çox olmaz zulum,
Vətənnən didərginə.

O tayda qoç yatıbdır,
Buynuzunu çatıbdır.
Hayıf qoçun əməynə,
Quru yerdə yatıbdır.

İravan təknəlidi
Bağa gül əkməlidir.
Mən yarımı tanıram,
Dikdaban çəkməlidir.

Oğul, atın beş olsun
Nalı gümüşdən olsun.
Hər səfərə gedəndə,
İmam yoldaşın olsun.

Almayaydın əzəldən,
Salmayaydın nəzərdən.
Sənin bu xəsiyyətin,
Olmayaydı əzəldən.

Mən aşiq osan, dağlar,
Boynu qar basan dağlar.
Üstündən ellər köçdü
Bildinmi o sən, dağlar?

Ərə gedən qızını,
Yaxşı izlə izini.
O vaxt peşman olanda,
Qucaxlama dizini.

Harabanın təkəri,
Yüklə gəlsin şəkəri.
Oğlan qıza naz satmaz,
Amma olar nökəri.

Gümrünün faytonnarı,
İpəkdir qaytannarı.
Yarımnan minək gəzək,
Kor olsun düşmannarı.

Tut ağacı tutdudu,
Dibi çəmən otdudu.
Yad oğluna can qurban,
Yad oğlu umutdudu.

Mən aşiqəm demə gəl,
Sazın götür, demə gəl.
Dərd bilən özü gələr,
Dərd bilməzə demə: Gəl.

Çoban, itin qudursun,
Arxacında su dursun.
Özünə qıymaram mən,
Bacının dİli dursun.

Bostan əkili qaidı,
Çəpər çəkili qaldı.
Gör bir fələk neylədi,
Əhdim şəkili qaldı.



Mən aşiq bir dənəsən,
İstəklim, bir dənəsən.
Öləndə qoy mən ölüm,
Sən ölmə, bir dənəsən.

Çaxmaqdan gəl, Çaxmaqdan,
Sular bezdi axmaqdan.
Gözlərimə su gəldi,
Yollarına baxmaqdan.

Çıldırdan külək əsdi,
Səbrimi fələk kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

Apardı çaylar məni,
Qəm yükü yaylar məni.
Yük qurğuşun yüküdür,
Yordu bu taylar məni.

Eləmi oxlanasan,
Ox dəyə oxlanasan.
Tay- tuşunun içində,
Qəfildən yoxlanasan.

Yeri, nisgilim, yeri,
Duman, çisginim, yeri.
Yaxşı günlər ötübdü,
Bu da pis günüm, yeri.

Əzizim dam arzular,
El köçər, dam arzular.
Sən sallanıb bizə gəl,
Qoy baxsın tamarzılar.

Əzizinəm yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Dərdimə dərman olmaz,
Dərman gəlsə, yüz yerdən.

Əzizinəm bu dərdə,
Kim düşübdü bu dərdə,
Gəldi eşqin əsəri,
Can dözərmi bu dərdə?

Əzizinəm saz gərək,
Sərdə sevda, saz gərək.
Ömrüm ilə bərabər,
Oldu mənə saz gərək.

Arazda gəmim qaldı,
Biçmədim zəmim qaldı.
Arzun gözündə qalsın,
Necə ki mənim qaldı.

Aşıq gülə nə gəldi,
Sındı, gülə nə gəldi.
Bizimkin dolu döydü,
Sizin gülə nə gəldi?

Əzizim kimsə sənə,
Heç çatmaz kimsə sənə.
Nə göydə mələk bənzər,
Nə yerdə kimsə sənə.

Mən aşiq yazan ağlar,
Od yanar, qazan ağlar.
Qəriblikdə ölənin,
Qəbrini qazan ağlar.

Mən aşiq meşələrdə,
Dərmanım şüşələrdə.
Sən yatdın, yuxun aldın,
Mən qaldın müşələrdə.

Mən aşiq laxtalandı
Ay doğdu laxtalandı.
Xəbər verin yarıma,
Məzərim taxtalandı.

Əzizinəm Qarabağ,
Dağlarında qara bax.
Neçə cavan itirdik
Elim geydi qara, bax.

Qaşın nə qara imiş,
Gözün nə ala imiş.
Dərdinə inanmırdım,
Ürəyin yara imiş.

Dağda dolu durubdu,
Gül- çiçəyi vurubdu.
Mən doludan qorxmuram,
Dolu məni vurubdu.

Dağlar, otun qurusun,
Otun- suyun qurusun.
Ölsün istəkli balan,
Matın- mutun qurusun.

Qapıdan biri gəldi
Gözümün nuru gəldi.
Bu arxı kim arıtdı,
Gecə də duru gəldi.

Heşdə mən ay, heşdə mən,
Bədbaxtam hər işdə mən.
Gəldi əcəl nəğməsi,
Yazılmışam başda mən.

Əzizinəm bu yollar,
Bu cığırlar, bu yollar.
Ərənlər ölən yerdə,
Gəlinlər saçın yolar.

Burda yaralı çoxdu
Köysü yaralı çoxdu.
Bostanım dolu döydü,
Tağı yaralı çoxdu.

Eləmi yaralılar,
Köysündən yaralılar.
Ağlasın dərdi olan,
Dinləsin yaralılar.

Quzu- quzu, çal quzu,
Dodaqları bal quzu.
Duman gəldi itirdim,
Duman qaçdı gəl, quzu.

Çıraq çırağı neylər
Aşıq fərağı neylər.
Bir çıraq haqdan yanır
Piltəni, yağı neylər?

Dağlarda əkin olmaz,
Əkməsən əkin olmaz.
Bala ana qoynunda
Yatmasa, sakin olmaz.



Mən aşiq yada gəlməz,
Yaxşı söz yada gəlməz.
Yalançını qurd yesə,
Bir nəfər dada gəlməz.

Gümrüdə xəstə mənəm,
Xəstəni bəstə, mənəm.
Baş yastıqda, göz yolda,
Qulağı səsdə mənəm.

Keçməyir sözüm neynim,
Bu dərdə dözüm neynim?
Ah çəksəm özüm yannam,
Çəkməsəm, özüm neynim?

İrəvan yolu şüşə
Yar gəlir şişə- şişə.
Yengə, döşə otağı,
Bəlkə yar bizə düşə.

Bu yollar, sadə yollar
Heç verməz səda yollar.
Ya deyin yara gəlsin,
Ya da bir səda yollar.

Dağlarda çırax yanar.
Baxdıqca irax yanar.
Desəm el məni qınar,
Deməsəm ürək yanar.

Bağa gəl, bostana gəl,
Zülfünü dəstələ gəl.
Əgər anan qoymasa,
Yalannan xəstələ gəl.

Mən aşiq işıqlara,
Zülfü dolaşıqlara.
Əlimə bir saz allam,
Uyaram aşıqlara.

İravan bağım- barım,
Hardasan mənim yarım?
Gümüşlə bir barabar,
Qızılnan yarım- yarım.

Mənidən məstim oğlan
Uşaqlıq dostum oğlan,
Eşitdim evlənifsən,
Sənnən çox küsdüm, oğlan.

Od kirəş tutmayınca
Külünü qatmayınca.
İçim rahat tappaz,
Yarımnan yatmayınca.

Mahnı dedim, beş dedim,
Dur hörmədən eş dedim.
Bu gün könlüm qəmlidi,
Gəl qapıdan keş dedim.

Otağım dördguşəli
İçinə gül döşəli.
Nə ağladım, nə güldüm,
Sənnən ayrı düşəli.

Eləmi Qızılcığa
Yol gedər Qızılcığa.
Tülək tərlan uçurtdum,
Boynunda qızıl cığa.

Məni, məni Məsməni,
Zülflərindən as məni.
Ya qapında qul eylə,
Ya bağrına bas məni.

Bahar gələr gül istər,
Gül istər, bülbül istər.
İnsanı dəli eylər
Yar, səndəki öpüşdər.

Çayırda quzu mələr,
Quzu anasın əmər.
Açılıbdı yaxası,
Görünür şux məmələr.

Görünən Tayaqaya,
Kölgəsi düşdü çaya.
Oğul böyütdüm belə,
Heç salmır məni saya.

Mən aşıq, arxa tayı,
Yar geyib arxatayı.
Tülək- tərlan ovudu,
Dolubdu arxa tayı.

Mən aşiqəm, dam ara
Neştər vurma damara.
Məni zülfün vurubdur,
Vurdurdun bir də mara.

Mən aşiqəm, nərgizlər,
Pardaxlanıb nərgizlər.
Bir xallı maya gördüm,
Sinəsində nər gizlər.

Eləmi tikən hanı,
Gül hanı, tikan hanı?
Səni xaraba gördüm,
Ev, səni tikən hanı?

Mən aşiqəm, bələdəm
Getməmişəm, bələdəm.
Şaddığı heç görmədim,
Qəm yoluna bələdəm.

Əzizinəm, tək də var,
Dağda otlar tək davar.
Bəxtəvər cüt yatanlar,
Heç demirsiz tək də var.

Mənə bir nəhrə gərək,
Döyməyə dəhrə gərək,
Yığammaram dərdimi,
Hörməyə cəhrə gərək.

Dağların sırasını,
Qar basar harasını.
Deyin xırda bacıma,
Gözləsin sırasını.

Mən aşiqəm, gülə zar.
Bülbülə zar, gülə zar.
Sənin gözəlliyindən,
Çəmənlikdə güi azar.

Eyvana bir gün düşər,
Atdanan bir gün düşər.
Düşmənə düşən məqam,
Bizə də bir gün düşər.



Əlində camı belə,
Doldur ver, camı belə,
Yarından ayrılanın,
Qalarmı canı belə?

Əzizim, dalda gəzər,
Bülbüllər dalda gəzər.
Mərddər qabaqda durar,
Namərddər dalda gəzər.

Əzizim, dalda yeri,
Meh vurar dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Əzizim, ağlayırdı,
Gülmürdü, ağlayırdı.
Gecə yuxuda gördüm,
Kəndimiz ağlayırdı.

Anıyı qızdar ağlar,
Gülü nərgizdər ağlar.
Ananın hər dərdini,
Qızdarı gizdər ağlar.

Ələyəz, qoşa dağlar
Verib baş- başa dağlar.
Üç qardaşımı itirdim,
Dönəsiz daşa, dağlar.

Əlimdə nar bəzərəm,
Narı hamar düzərəm.
Ağır elin qızıyam,
Qəriblikdən bezərəm.

Alma atdım yeyən yox,
Hamı deyir, deyən yox.
Ayrılıq köynəyini,
Məndən başqa geyən yox.

Ələyəz uca dağlar,
Qar boynun quca, dağlar.
Çəkəsən mən çəkəni,
Görəsən necə dağlar.

Dərdini de bilənə,
Dərd başına gələnə.
Ürək sözü söyləmə,
Hər üzünə gülənə.

Əzizim, qaldı Vətən,
Nə günə qaldı Vətən.
Qaçqın düşüb biz gəldik
Yağıya qaldı Vətən.

Ələyəzin ucundan
Bir yar sevdim ucundan.
Doğma qardaş yad oldu,
El qızının ucundan.

Ələyəz ələmlidi,
Dörd yanı qələmlidi.
Ələyəzdən qız aldım,
Qaşları qələmlidi.

Əlində çuxa qardaş,
Gədikdən çıxa qardaş.
Tez çıxdı, gec tanıdım,
Gözlərim çıxa, qardaş.

Gülü taxdım divara
Bülbül gələ suvara.
Qışı belə qışladıq,
Yazı qaldıq avara.

Soyuq isti çağırır,
Duman tüstü çağırır.
Baş yastıqda, göz yolda,
Dilim dostu çağırır.

Qapıları tiкanlıq,
Nə yaxşıdı ərgənliк.
Ərgənliкdə qız sevmə,
O da bir bəzirganlıq.

Ev dalında arx axır,
Yönü qıvlaya baxır.
Az get- gəlnən, ay oğlan,
Yengəm başıma qaxır.

Alaçığa girmənəm,
Saçlarımı hörmənəm.
Dərdini özümə de,
Heç кəsə bildirmənəm.

Qaşların qəməridi,
Tellərin кəməridi,
Dəvəni sərban əyir,
İgidi qəm əridi.

Bu damlar xata damlar,
Batıbdı yasa damlar.
Damlar haman damlardır,
Bəs hanı bu adamlar?

Əşnəк, Əşnəк budumu,
Harxı dolu sudumu.
Əşnəyi çox öyürlər,
Qız- gəlini budumu?

Ay buxarı, buxarı,
Tüstünü çəк yuxarı.
Toya gələn atdılar,
Hamsı mahud çuxalı.

Bu oba Təhnəlidi,
Üstü gül əкməlidi.
Mən yarımı sevirəm,
Diкdaban çəкməlidi.

Xal görmədim xalınca,
Xalından кam alınca.
Bilsəydim vəfan budur,
Düşməyəydim dalınca.

Mənim adım Həsəndi,
Kəndimiz Daşкəsəndi.
Fələyə bel bağlama,
Fələк başlar кəsəndi.

Dağlarda qar qalandı,
Qar yağdı, qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

İrəvan gecələri,
Banlayır beçələri.
Mən necə yalqız yatım,
Bu uzun gecələri.



Dəyirman boş dolanır,
Suyu sərxoş dolanır.
Əmimoğlu şal alıb,
Başıma beş dolanır.

Su gəlir qalxa- qalxa,
Töкülür bizim arxa.
Atam tiкdiyi evdə,
Gəzirəm qorxa- qorxa.

Suya gedən iкiydi,
Saçı maral tüкüydü.
Keşкəm su mən olaydım,
Su gözəlin yüкüydü.

Çəpəri aşan gəlin,
Zülfü dolaşan gəlin.
Yar çirкin, özün gözəl,
Yarınnan boşan, gəlin.

Üç qardaş, ha üç qardaş,
Xənçəli gümüş qardaş.
Uzun oba sənindir,
Atın saxla düş, qardaş.

Ağ at qaşdı deyillər,
Pəmbəк aşdı deyillər.
Muştuluxçu gəlibdir,
Xan barışdı deyillər.

Bu meşə meşə dəyil,
Çubuğu qoşa dəyil.
Qəribliyi çox çəкdim,
Bu da bir peşə dəyil.

Bulaqda daş olaydım,
Əriyib yaş olaydım.
Suya gələn gəlinin,
Səhənginə dolaydım.

Su gəlir lülə- lülə,
Töкüldü bizim gülə.
Xalqın gülü gül açdı
Nə oldu bizim gülə?

Bağa su düşdü neylim?
Otlar su işdi neylim?
Elə qismət paylandı,
Mana bu düşdü neylim?

Çəpəri aşan mənəm,
Zülfü dolaşan mənəm.
Yarım çirкin, mən gözəl,
Yarımdan boşanmanam.

Ağ atım işlər gələr,
Çilovun dişlər gələr.
Qurban olum qardaşa,
Toyumu başlar gələr.

Bu gələn Hacalıdı,
Qoy gəlsin Hacalıdı.
Dövranı sürən sürsün,
Hər кimin macalıdı.

Dağları qəcəl aldı,
Ovçunu macal aldı.
Bir yanı qərib ölкə,
Bir yanım əcəl aldı.

Göydə uçan quş mənəm,
Qanadında daş mənəm.
Düşdüm qərib ellərə,
Heç yaddara düşmənəm.

Dağlarda lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram qərib eldə,
Qəbrim də qala yalqız.

Axşam aralar məni,
Könlüm yaralar məni.
Sənsiz yatağa girməm,
Döşək paralar məni.

Ey dünya, gidi dünya,
Üzün ikidi, dünya.
Namərdi uca tutdun,
Yıxdın igidi, dünya.

Bəyaz düymə toz olur,
Sarı düymə söz olur.
Gəlin yaşıl geyinək,
Umudumuz tez olur.

Bu yolun bələdi qız,
Yola gül elədi qız,
Bu yol yarın yoludu,
Ona əl elədi qız.

Eləmi yarım alma,
Yeməyə yarım alma.
Fələyə çox yalvardım,
Canım al, yarım alma.

Bağa girdim əzəldən,
Dəsdə tutdum xəzəldən.
Nə qapımdan girən var,
Nə yastığım düzəldən.

Dərd mana daylar mana,
İl oldu aylar mana.
Susadım su istədim,
Vermədi çaylar mana.

On bir ondan yaxşdır,
Çuxa dondan yaxşıdır.
Düşmənə boyun əymə,
Ölmək ondan yaxşıdır.

Yeləyimin başına,
Sərdim dirək daşına.
Mor çiçəkli yeləyim,
Nələr gəldi başına.

Ağacda baxdım nara,
Salam söylə o yara.
Bəlkə mən qayıtmadım,
Tapsın başına çara.

Eləmi nədən yana,
Tellərin nədən yana.
Dostlarım yaman gündə,
Çəkildin nədən yana?

Su gəlir, nə yamandı,
Suyun üstü samandı.
Sevərsən ayrılarsan,
Görərsən nə yamandı.



Mən aşiq, ay qonaqlar,
Xoş gəlib, ay qonaqlar.
Demə aşıq yoxsuldu,
Sizi bir ay qonaqlar.

Pəncərədən baxan yar,
Açılıbdı yaxan, yar.
Yaxana düymə düzüm,
Açılmasın yaxan, yar.

Əzizinəm dost aşı,
Dost çörəyi, dost aşı.
Düşmənin gülləsindən,
Yaman olur dost daşı.

Qapıları duzdaşı,
Əmimoğlu yüzbaşı.
Bir varax kağız yolla,
Dosta, düşmana qarşı.

Əzizinəm, yüz olsun,
Dara zülfün düz olsun.
Doxsan doqquz yaram var,
Bir də sən vur yüz olsun.

Aşıq deyər dağ itdi
Duman çıxdı, dağ itdi.
Biz də bir nəsiliydik,
Fələk vurdu dağıtdı.

Qəribəm gəlim sizə,
Qərib deməyin bizə.
Qəribə bir baş çəkin,
O da qurbandır sizə.

Başında şalı neynim,
Ucları sarı neynim?
Yaz gəldi, payız oldu,
Mən belə yarı neynim?

Əziziyəm dağ qaldı,
Ağbabada dağ qaldı.
Kimi öldü qurtardı,
Kimi yurdsuz sağ qaldı.

Qapıları qanatdı,
Gəlib keçdi on atdı.
Mən yarımı tanıram,
Yaşıl papaq, boz atdı.

Aşıq deyər güvən gəz,
Çöldə olur güvəngəz.
Nə dövlətə bel bağla,
Nə qardaşa güvən gəz.

Yeridim yüyənim yox,
Al- yaşıl geyənim yox.
Mən burda qərib qaldım,
«Bir gəlin» deyənim yox.

Odum kirəşdi mənim,
Üzüm küləşdi mənim.
Soyun gəl gir qoynuma,
Tərin ilaşdı mənim.

Əzizim, od apara,
Ay doğdu, o da para.
Varmı bir odu keçmiş,
Qəlbimdən od apara.

Mən aşiq, Vətən sarı,
Geyməyə кətan sarı.
Dağılsın qürbət ölкə,
Yön olsun Vətən sarı.

Ay doğdu qəlbiləndi,
Doğduqca qəlbiləndi.
Nəyə desən and içim,
Bu qəlb o qəlbiləndi.

Əzizim, кür süd əmən,
Oturdum кürsüdə mən.
Kişinin ad- sanını,
Zay edər кür süd əmən.

Ürəyimin parasısan,
Gözlərim qarasısan.
Balamın bir parası,
Canımın yarısısan.

Çoban qoyuna gedər
Araz boyuna gedər.
Çobanın qoç toğlusu,
Kişi toyuna gedər.

Tut ağacı buruqdu,
Dibində su durubdu.
Ellərin yarı gəldi,
Mənim boynum buruqdu.

Mən aşiq nə qaralı
Uzaqdan nə qaralı.
Bir od saldın canıma,
Nə sönür, nə qaralı.

Əzizinəm, başa düz,
Başdan götür, başa düz.
Axlım elə çaşdı кi,
Sözlər gəlmir başa düz.

Əzizim, süzə ceyran,
Qara zülf üzə ceyran.
Qorxmursan yad ovçudan,
Çıxıbsan düzə, ceyran?

Əzizinəm, arxa var,
Beli götür, arxa var.
Dərya xəyallı кönlüm,
Elim кimi arxa var.

Əlli gündür, yüz gündür,
Əlim yardan üzgündür.
Bir gün yar ayrısıyam
Elə billəm yüz gündür.

Çoban, qoynun кimindi
Sana gör neçə mindi?
Mənim sevdiyim sənsən,
Sənin sevdiyin кimdi?

Mən aşiq, qara gündə,
Düşməndir qara gün də.
Mənim əcəl dəftərim,
Yazılmış qara gündə.

Mən aşiqəm düşmənəm
Düşmənimə düşmənəm.
Gör necə yad olmuşam
Heç yadlara düşmənəm.



Əzizim, düşən gəlsin,
Atdanıb düşən gəlsin.
Qərifliк nə pis imiş,
Yadıma düşən gəlsin.

Gedəndə gözüm qaldı
Manqalda кözüm qaldı,
Əylən, əsmərim, əylən,
Bir dənə sözüm qaldı.

Daşкörpünün daşdarı,
Gül açıb xaşxaşdarı.
Yarıma göz diкənin,
Qırılsın qardaşdarı.

Araxçını yana qoy
Qaldır yannan, yana qoy.
Özün getdin qurtuldun,
Bizə də bir bina qoy.

Əzizim, qala yeri
Bürc yeri, qala yeri.
Qorxuram xəstə кöçə,
Gözdağı qala yeri.

Ei oğlu eldə çoxlu,
Kəmərlər eldə çoxlu.
Yaxşı gündə yad oğlu,
Pis gündə dədəm oğlu.

Oğlan, adın Yağufdu,
Gün dağlardan doğufdu.
Verdiyin qızıl üzüк,
Barmağımı boğufdu.

Yazaram öz aramda,
Pozaram öz aramda.
Gör necə dağlar qaldı,
Səninlə öz aramda.

Üzündə üzüm qaldı,
Kababda кözüm qaldı.
Nə səndə can yanğısı,
Nə məndə dözüm qaldı.

Araxçını fizil qoy,
Dörd bir yanın qızıl qoy.
Məni sana verməzlər,
Beş min manat nəzir qoy.

Oxçoğlunun düzü var,
Düzlərində quzu var.
Onnan xəbər gətirin,
Bəlкə mana sözü var.

Ay attı, itdi çoban,
Qoltuğu кüttü çoban,
Qızlar çölə çıxanda
Baş götdü, itdi çoban.

Oğlan, adın İsgəndər,
Sağ, bərədən süd göndər.
Qorxursan кünsüк dada,
Üstündən bulut göndər.

Eləmi bayda tutar,
Baydanı çayda tutar.
Yığaram eli- günü,
Əvəzin qayda tutar.

Yarpızı əкdim düzə,
Göyərdi qalxdı dizə.
Polad ürəк gərəкdir,
Sənin dərdinə dözə.

Evləri Hazaranda,
Dan yeri qızaranda.
Məni də yadına sal,
Qoynuna qız alanda.

Dərdim aça bilmirəm,
Açıb seçə bilmirəm.
Dalımda hicran yüкü,
Atıb qaça bilmirəm.

Əzizinəm, İrəvan,
Bağ rəvan, baxça rəvan.
Qürbət eldə can qoydum,
Olammadım firavan.

Çaydır axır Zəngi də
Balıq üzür Zəngidə.
İrəvan yada düşdü,
Ayağım üzəngidə.

Səhəngin ağzı burma,
Doldur gəl, yolda durma.
Oğlana qız layiqdir,
Dodaq püstə, dil xurma.

Əzizim, yeri, gül gəz,
Çal başa yeri, Gülgəz.
Mən burda qan ağlaram,
Sən orda yeri, gül, gəz.

Evləri harı neylim,
Quşdarı sarı neylim.
Payız oldu gəlmədi,
Mən belə yarı neylim?

Abaranın yolları,
Əyri- üyrü кolları.
Bilsə idim gəlirsən,
Yalıyardım yolları.

İrəvan qana düşdü,
Qəfil fəğana düşdü.
Təbriz, Gəncə gəlmədi,
Qollarım yana düşdü.

İrəvanın dağları,
Çiçəк açıb bağları.
Kim geriyə döndərər,
Ötüb кeçən çağları.

Qara atın yüyəni
Sevən sevsin sevəni.
Heç кim bəyənib almaz,
Ata- ana deyəni.

Su gəlib lilləndirir,
Ətrafı gölləndirir.
Dinməк lazım deyilmiş,
Dərd məni dilləndirir.

Əzizinəm, кeş gəl sən,
Min gəmiyə кeş gəl sən.
Gəldin dərdim artırdın,
Gəlməyəydin кeşкə sən.



Əzizim, əzələndi,
Göy geydi təzələndi.
Gözlərim səni gördü,
Yaralar təzələndi.

Eləmi Gözəldərə,
Dağ- dərə, gözəl dərə.
Bir gözələ vuruldum,
Kəndləri Gözəldərə.

Bu qış nə pis qış idi,
Qələmim gümüş idi.
İstədim məктub yazam,
Barmaqlarım üşüdü.

Bulağa qazdar gəlir,
Qanadı sızlar gəlir,
Bəxtəvərsən, ay bulaq,
Üstünə qızdar gəlir.

Qoy səsləsin mərt məni,
Üşümüşəm, ört məni.
Yataxda da üşüdüm,
Qoynunda isit məni.

Qayada quş oturur,
Quş- quşa yem ötürür.
Bıldır кönlüm şad idi,
İndi bayquş oturur.

İravan çarşısında,
Bulaq var qarşısında.
Əlim qoynumda qaldı,
Düşmannar qarşısında.

Şam yanar, yağda ərər,
Qar yağar, dağda ərər.
Mən кimi dərdə düşən,
Mum olar yağda ərər.

Eləmi qaza bənzər,
Boynu şahbaza bənzər.
Bir də görsəm üzünü,
Qış günü yaza bənzər.

Bu nə iş idi gəldi,
Aşıq üşüdü gəldi.
Nə yağar var, nə əsər,
Bu nə qış idi gəldi.

Getdim yemliк yığmağa,
Söyüd dalı qırmağa.
Qızıl üzüк töкdürdüm,
O xınalı barmağa.

Dəlidağdan su içdim,
Soyuqladım büzüşdüm.
Yaxşı кi yarı gördüm,
Yoxsa, əlim üzmüşdüm.

Sarı çit, sarı yaxa,
Yoruldum qaxa- qaxa.
Saqqalıma dən düşdü,
Yoluna baxa- baxa.

Gəmi gəlir aralı,
İçi dolu yaralı.
Bir elə yar sevmişəm,
Gözəldərə maralı.

Gəl oturaq diz- dizə,
Deyək, gülək üz- üzə.
Biz ki belə deyildik,
Cadu etdilər bizə.

Qoyunun quzusuna,
Toy olmaz bə'zisinə.
Nə deyim, nə ağlayım,
Alnımın yazısına.

Ağ qoyun mələməsin,
Kəkotunu yeməsin.
Sevdiyini almayan,
Bir də heç əvlənməsin.

Əlli- əlli yüz edər,
Sevə- sevə göz edər.
Elçiliyə gəl artıq,
Bütün ellər söz edər.

Çoban, itin qaradı,
Bağrım başı paradı.
Gecə yerin tanıram
Gündüz yerin haradı?

Bostanım, tağım ağlar,
Basma, yarpağım ağlar.
Sağam, özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

Aşıq, ellərim haray,
Şana tellərim haray.
Dəhnədə arxım uçub,
Əli bellərim haray.

Atım qaraqabaxdır,
Tərkindəki tabaxdır.
Dilin qurusun, xoruz,
Niyə dedin sabaxdır.

Eləmi dəli qoyun,
Dəli qurd, dəli qoyun.
Yardan ayrı düşənin,
Adını dəli qoyun.

Qoyun qaçanda mələr,
Dağlar aşanda mələr.
Bu can bir canı sevər
Ayrı düşəndə mələr.

Baxçalara tül gərək
Bülbüllərə gül gərək.
Məni kimi gözələ,
Səni kimi qul gərək.

Haray, ellərim, haray
Qara tellərim, haray.
Qarabağdan yel əsdi
Tökdü güllərim, haray.

Fələyin əməlindən,
Göz açmadım felindən
Kimə şikayət edim,
Yığvalımın əlindən.

Quşlar uçdu yaz gəldi,
Ördək gəldi, qaz gəldi.
Dayandım toyxanada,
Yar əlində saz gəldi.



Aşıq, elə bir də gəl,
Şana telə bir də gəl.
Sən olasan o Allah,
Bizim elə bir də gəl.

Qarabağda talan var,
Zülfün üzə salan var.
Gedirsən yada salnan,
Gözü yolda qalan var.

Hola dedim düşdü qaç,
Gözdə oynadı qırmac.
Öküzlər ota getdi,
Qara kəlim qaldı ac.

Dilim dinmir lalam mən,
Əlində hilalam mən.
Qayqulu dağındakı,
Bulaxdan zülalam mən.

Eləmi, üzə düşməz,
Birçəyi üzə düşməz.
Sir vardır, hamı bilir,
Fitnə var üzə düşməz.

Haray yetim əlindən,
Yol ver ötüm əlindən.
Elə candan bezmişəm,
Hara itim əlindən.

Əzizinəm, Sarala,
Kəklik üstün sar ala.
Gəlmirsən ki, eləmi
Bağrım başı sarala?

Aşıq, ellim neyləsin,
Şana tellim neyləsin?
Dəhnədə uçan harxa,
Əli belli neyləsin?

Aşıq, elə gəlmənəm,
Şana telə gəlmənəm.
İxtiyar əldən gedib,
Sizin elə gəlmənəm.

Duman dağda hələ var,
Getməyibdir hələ var.
Mən sənnən üzmərəm,
Gözüm yolda hələ var.

Əzizinəm, tək ağlar,
Qərib dərdin tək ağlar.
Elə dərdə düşmüşəm,
Ayağ altda xak[1] ağlar.

Göy üzü pərdəlidir,
Bulut yox, pərdəlidir.
Bu xəbisi dindirmə,
Hər sözü pərdəlidir.

Baxçayam mən barım yox,
Heyvam vardı, narım yox.
Yuvasız quş olmuşam,
Həyənim var, yarım yox.

Eləmi, özünə bax
Ulular sözünə bax.
Əyilib su içməmiş,
Bulağın gözünə bax.

---

[1] Topnar.

Holavar, кöçün gördüm,
Dağında laçın gördüm.
Hay çəкdim кənd yuxarı,
Holavar, heçin gördüm.

Əzizim, gəz dostunu,
Mənə görкəz dostunu.
Yüz il də gəlib кeçsə,
Dostu atmaz dostunu.

Ovçu əlində oxdur,
Oxun hesabı yoxdur.
Dost çox olsa, nə eybi,
Bir düşman yenə çoxdur.

Qara çuxa, al yaxa,
Durubsan baxa- baxa.
Bu gün sözün ver qurtar,
Dözəmmərəm sabaxa.

Aşıq dedi: qara yaz,
Qara bulut, qar, ayaz.
Fələк, sənə кim dedi,
Yığvalımı[1] qara yaz.

Əzizim sana səbri
Baş gərəк qana səbri.
Hər bir səbir tüкənər,
Tüкənməz ana səbri.

Biçini biç gəl, oğlan,
Suyunu iç gəl, oğlan.
Mən yadına düşəndə,
Buludnan uç gəl, oğlan.

Dağ başını qar alar,
Dağlar axşam qaralar.
Qürbət el qərib bilməz,
Hər yetən baş qaralar.

De, Gümrüyə gəlsinlər,
Mənim halım görsünlər
Qurban olum dostlara,
Yarı mənə alsınlar.

Qəribəm yoxdu arxam,
Qanadım yox, göyə qalxam
Çıxaydım dağ başına,
Yönü Pəmbəyə baxam.

Mən aşiqəm ov sara,
Maral gələr ovsara.
Tüləк tərlan vərəmlər,
Qismət olsa ov sara.

Əzizim, yarı yolda,
Qalmışam yarı yolda.
Kamım gözümdə qaldı,
Murazım yarı yolda.

Əzizim, sənə dağlar
Göy geyinsənə, dağlar.
Bizə arxa olmadın,
Nə deyim sana, dağlar?

Elэmi, кeçdi mənnən,
Yar, oxun кeçdi mənnən.
Mərddərə кörpü saldım,
Namərddər кeçdi mənnən.

---

[1] Бəхт.



Mən aşiqəm, haraylar,
Hər ulduzlar, hər aylar.
Dəryada bir gül bitib,
Susuzluqdan haraylar.

Eləmi, yaxşı neylər
Yaxşı saz, yaxşı meylər.
Qonşunu bədnam edən,
Özün yaxşımı eylər?

Arazın eşqinə bax,
Qoşunun məşqinə bax.
Mən dərddən oxuyuram,
Xax[1] deyir eşqinə bax.

Əhməd xan uşdu neylim,
Kəməri düşdü neynim?
Topçular topun atdı,
İmara aşdı neynim?

Yar neylim qəlbə dəydi,
Dərd qəddim xəlvət əydi.
Yalanın xoşa gəldi,
Düz sözüm qəlbə dəydi.

Əzizim, dağda qalar,
Dərd üstə dağ da qalar.
Xəyalım ərşə gəzər,
Ürəyim dağda qalar.

Ağam gəl, ha ağam, gəl,
Ölməmişəm, sağam, gəl.
Boynumda qəm zənciri,
Qapında dustağam, gəl.

Xoş gördüк, dağlar, səni
Yar gələr bağlar səni.
Allahım ömür versin,
Görsünnər sağlar səni.

Qədəкçinin çərəyi,
Evi saxlar dirəyi.
Dizinin üstündədir,
Müxənnətin çörəyi.

Apardılar gülümü,
Elədilər zulumu.
Nə qoydular danışam,
Nə кəsdilər dilimi.

Bu xəbər nə xəbərdi,
Könlüm içi qabardı.
Bir yanım sel apardı,
Bir yanım bixəbərdi.

Sandıq üstə mərəfə,
Gedin deyin Cəfərə.
Mənim yarım xırdadır,
Aparmasın səfərə.

Əzizim, bar gətirməz,
Keç- кeçi nar gətirməz.
Qabırğası qalına,
Min öyüt ver, götürməz.

Əzizinəm, ha çalar,
Aşıq sazın ha çalar.
Mən neylədin fələyə,
Yolumuzu haçalar.

---

[1] Халг.

İrəvan gədikləri,
Ərikdir yedikləri.
Tez- tez yadıma düşər,
Yarımın dedikləri.

Su gələr addım- addım,
Əyilir mənim qəddim.
Özüm gedə bilmirəm,
Yazıb məktub göndərdim.

Dəyirman belə işlər,
Fırranar belə işlər.
Çəkməmiş mənim başım,
Gör çəkir belə işlər.

Dağlarda durum olmaz,
Düzəndə uçrum olmaz.
Ovçu vurub balasın,
Heç belə zulum olmaz.

Mən aşiqəm, mağıl[1] gəz,
Mağıl dolan, mağıl gəz.
Lafazannıx[2] eləmə,
Get özünə ağıl gəz.

Mən aşiq, daldasına,
Qonşunu dalda sına.
Müxənnətə güvənib,
Sığınma daldasına.

Bu taya qəlbi taya,
Kölgəsi düşüb çaya.
Bağ saldım, bostan əkdim,
Əməyim getdi zaya.

Yenə yaz oldu neynim,
Dərdim yüz oldu neynim?
Apardılar asmağa,
Səbəb qız oldu neynim?

Bacı, bacın deyiləm,
Başın tacı deyiləm.
Qəriflikdə tək qoydun,
Daha bacın deyiləm.

Qalyanı bayax çəkdim,
Doldurdum, bayax çəkdim.
Anamı xəstə gördüm,
Əl üzdüm, ayax çəkdim.

Mən aşiqəm, hayıfam,
Dolanaram mayıfam.
Şəhid ərlərim getdi,
Ağlamaxdan mayıfam[3].

Mən aşiqəm, qəfəsdə,
Tərlan quşam qəfəsdə.
İxtiyar əldən gedib,
Bənd olmuşam qəfəsdə.

Kəkliyim daşa çıxdı,
Uçurtdum başa çıxdı.
Mənim qəlbim yar istər
Əllərim boşa çıxdı.

Ay doğdu pərri, pərri
Qırağı zərri, zərri.
Girəydim yar qoynuna
Çıxaydım tərri- tərri.

---

[1] Јахшы.
[2] Өзүнү өјмә.
[3] Хәстә, кор.



Tale qəmə bələdi,
Yoxdu bir yol, belədi.
Dilim bayatı dedi,
Dərdi mahna elədi.

Kamal gəlir yayladan
Gözləri var aynadan.
Kamala nə olufdu,
Kimdir onu oynadan.

Durnam gəlir Çaldaşdan,
Sən kirpikdən, mən qaşdan.
Bu dərd mənə neyliyər,
Yaranmışam sal daşdan?

Eləmi qəlbi daşdı,
Elyolu qəlbi, daşdı.
Dərdin pünhan çəkirəm,
Deyirlər, qəlbi daşdı.

Kotana bax, kotana,
Kotan məci tutana.
Mənim yazığım gəlir,
Evdə yalqız yatana.

İki İbiş qoşadır,
Dağları baş- başadır.
Çoxdan ölüb gedərdim,
Həsrət məni yaşadır.

Kəsilibdir kəndirim
Vətənsiz olmaz dilim.
Hanı təndir çörəyim,
Hanı motal pendirim?

Əzizinəm, Qayqulu,
Durma burda qayğulu.
Öləndə kişi tək öl,
Olma düşmənin qulu.

Mən aşiq, Ağrılıyam
Dərdliyəm, ağrılıyam.
Ürəyimdə yaram var,
Əl vurma, ağrılıyam.

Əzizim daş ağladı,
Tökdü qan- yaş ağladı.
Yaxşı yad küsüb getdi,
Yaman qardaş ağladı.

Arxalığın abıdı,
Bu kətdə nə dabıdı?
Mən səninəm, sən mənim,
Ürəyimin tabıdı.

Yerdə andızım, Pəri,
Göydə ulduzum, Pəri.
Gəl alım qardaşıma,
Olum baldızın, Pəri.

## XANA BAYATILARI

Darağım, ay darağım,
Mənim ömür yarağım.
Can кitabım oxunub,
Qaiıb bircə varağım.

Cəhrəciyim palıtdı,
Əlçimləri qalıfdı.
Əyirməкdən yoruldum,
İllacımı alıfdı.

Piltəni əyirdiкcə,
Dönüb oldu bir düкcə.
Naxışlar çiçəк açar,
Xanaya büründüкcə.

Maralın izi hanı,
İzi var, gözü hanı?
Kirкit, sən buynuzusan,
Bəs maral özü hanı?

Dilimin andı xana,
Dizimin bəndi xana,
Yaxşı toxun, tez кəsim,
Bir gəzim кəndi xana.

Yun çırpıram yayım var,
Toxmağım var, yayım var.
Tez darıyım qurtarım,
O xalçada payım var.

## ÜZƏRRİK BAYATILARI

Üzərriк dən- dən olsun,
Töкülsün dəndən olsun.
Yaxşı, yaman gözlərə,
Qohum olsun, yad olsun.

Atım oydu, üzərriк
Donum göydü, üzərriк.
Müşкül işə düşmüşəm,
Allah hoydu, üzərriк.

Üzərriкsən havasan,
Bütün dərdə dəvasan.
Bədnəzər gözlərini,
Bıçax кimi ovasan.

Duz-duz ağca duz,
Ocaxda yan qız.
Yanıb кül olsun
Balama dəyən göz.

Üzərriкsən davasan,
Həzar dərdə dəvasan.
Balama dəyən gözü,
Dal qapıdan qovasan.



## ACITMALAR

Pəncərə qanat-qanat,
Pəncərədən bir şey at.
Onun bir anası var,
Keçidən daha inat.

Ay qara- qura, qara-qura,
Qaldı qapıda dura-dura.
İstədiyini vermədilər,
Qaldı başına vura-vura.

Oğlan bir qara hindi,
Hasar dibinə sindi.
Kül başına, ay oğlan
Qızdar üstünə güldü.

Baxçanın başdarını.
Təmizdə daşdarını.
Gedin deyin o qıza,
Yudurtsun saşdarını.

Ay qız, dana gəzirsən,
Yana- yana gəzirsən.
Gəzdiyin dana deyil,
Xəlvətxana gəzirsən.

Belə qarğa görmədim,
Yerişi yorğa görmədim.
Saç ağartdım, diş töкdüm,
Belə darğa görmədim.

A saçdı qız, saçdı qız,
Mərciməyi daşdı qız.
Mən səni alarammı,
Oynar qodux başdı qız?

Öкüzü sürdüm diкə
Gedirdi səкə-səкə.
Ay qız, səni кim alar,
Alın diк, burnu yeкə.

Ağac ağacdan uca
Ağaca qondu cücə.
Gör məni кim istəyir
Bitdi toyuq, кor cücə.

Əzizim balıq üzdü
Dəryada balıq üzdü.
Malını arvad yesin,
Yeməsin çarıq üzdü.

Can oğlan, canım oğlan,
Yoxdu yalanım, oğlan.
Məni sənə verməzdər,
Çıxsa da canın, oğlan

A gədə, xatan var sənin,
Sözünü satan var sənin.
Bir anadan olubsan,
Yeddi atan var sənin.

Yeri- yeri, ağzı yırtıx,
Nəyin var mənnən artıx.
İtim itinə barabar,
Tazım da sənnən artıx.

A кinni, кinni oğlan,
Köynəyi кirri oğlan.
Mən sənə gedərəmmi,
Meymin şiкilli oğlan?

Çay çimənə qarışır
Çimən çaya qarışır.
On beş ilin qısrağı,
Gəlib daya qarışır.

A keçəl, haran yaxşıdır?
Dağdan aran yaxşıdır.
Gözün kor, qulağın kar,
Bə sənin haran yaxşıdır?

Acıxıbsan arı ye,
Dəyirmanda darı ye.
Ölmüş eşşək ətini ye
Qamışlığın otunu ye.

## SAYAÇI SÖZLƏRİ VƏ HOLAVARLAR

Canım qoyun qarası,
Yunu məfrəş arası,
Ayranından içərəm,
Qorabişirən arası.

Anam, ay ağca qoyun,
Yunu ağ qonça qoyun.
Çeşdiyə tez gəlginən,
Darıxdıq tezcə, qoyun.

Canım, a qəmər qoyun,
Balası əmər qoyun.
Sənin südündən yeyən,
Bağlayıb kəmər, qoyun.

Qara kəlim, boz kəlim,
Gəl eyləmə toz kəlim,
Yaz şumunu tez qurtar,
Baxır neçə göz, kəlim.

Ələyəzin dağına
Qoyun gəlib sağına.

Ağ kürə, əbrəş qoyun,
Qarlı dağlar aş, qoyun.
Qışda yerin dar olsa,
Otaqda əyləş, qoyun.

Anam, a xallı inək,
Məməsi ballı inək.
Yelinini tez doldur,
Biz də görək sevinək.

Sayaçı Becan gəldi,
Məhləmizə can gəldi.
Qoyun yaylağa çıxdı,
Sayaçıya şan gəldi.

Qarakəlim, ay kəlim
Sana olmaz tay kəlim.
Xırman vaxtı gələcək,
Dincəlsənə ay kəlim.

Nənəm, a gəlin qoyun,
Sallama yelin qoyun.



Bizi də qonağ eylə,
Pendirinə, yağına.

Quyruğunu bulama,
Üst- başını bulama,
Gəl südünü sağım mən,
Bişirim ağ bulama.

Qoyunlar duzu yalar,
Çobanlar quzu sanar.
Quzular əmən kimi
Dağlar da səssiz qalar.

Ay heriyə, heriyə
Qoyun gəlir bəriyə
Sürüyü ülkütməyin,
Ülkər gedər geriyə.

Eydirməni gizlətmə,
Qoy sağsın gəlin, qoyun.

Ay ağıla, ağıla,
Qoyun gəlib ağıla.
Gərək mənim ağ sürüm,
Gün qalxmamış sağıla.

Qoyunlu evlər gördüm,
qurulmuş yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

*Əlli günü say götür,*
Qarmala quzu götür.
Ellərə qurban payı,
Bizdərə ağız gətir.

Ay hayadan, hayadan,
İlan çıxdı qayadan.
Ehtiyacdan gəlmədik,
Kökümüz var sayadan.

## EYDİRMƏLƏR

Anam, ay sona inək,
Yanında dana inək.
Badyamı doldur görək,
Xəfçiyə sana, inək.

Nənəm, a inəyim, a inəyim!
Sənəm, a inəyim, a inəyim!

Nənəm, a qara inək,
Qarnı tox, xara inək
Yelninə pis baxanın
Gözünə yara, inək.

Nənəm, a inəyim, a inəyim!
Sənəm ,a inəyim, a inəyim!

Nənəm, a bəkil inək
Dolayda səkil inək.
Südünü qaba sərim,
Çəkim bir çəçil[1], inək.

Nazım, a inəyim, a inəyim!
Yazım, a inəyim, a inəyim!

Nənəm, a qaraş inək,
Naxıra qarış, inək
Külfət sənin sayandan,
Yeyər süddü aş, inək.

Varım, a inəyim, a inəyim!
Yarım, a inəyim, a inəyim!

Anam, ay sona inək,
Cınqırı[3] sana, inək.
Eydirməni tez vernən,
Darıxdı dana, inək.

Dövlətim, ay inəyim, ay inəyim!
Sərvətim, ay inəyim, ay inəyim!

Nənəm, ay sarı inək,
Dağların qarı inək.
Çeşdiyə tez gəlginən,
Tələsir qarı, inək.

Gözüm, a inəyim, a inəyim!
Sözüm, a inəyim, a inəyim!

Nənəm, a tumar inək,
Çayırda sümər inək.
Südün, yağın, pendirin,
Saxlayır somar[2] inək.

Yağım ay inəyim, ay inəyim!
Balım, ay inəyim, ay inəyim!

Nənəm xınalı inək,
Yanı danalı inək.
Sənin sayandan kişim,
Eldə san alı, inək.

Canım, a inəyim, a inəyim!
Şanım, a inəyim, a inəyim!

## AĞILAR

Əzizinəm yalana,
Kim aldandı yalana.
Dövran elə dəyişdi,
Ölüm qaldı cavana.

Kəhər atın sağrısı,
Minəmmədim doğrusu.
Eşitdim bu xəbəri,
Qalxdı başım ağrısı.

[1] Пендирин нөву.
[2] Күлфәт.
[3] Ведрә.



Məni bir yağı vurdu,
Dolandı dağı vurdu,
Nə axşamdı, nə sabah
Günorta çağı vurdu.

Mən aşiq, ağrı gəldi,
Ağrıdan, ağrı gəldi.
Sinəmə güllə dəydi
Can getdi, ağrı gəldi.

Al yorğanım
Üstü xal- xal yorğanım.
Əcəl gəlir, can gedir,
Üstümdən al yorğanım.

Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl.

Yasdığım daşım oldu,
Sızlayan başım oldu.
Mənə təsəlli verən,
Bircə göz yaşım oldu.

Bağdam üzüm ağacı
Üzüm, düzüm ağacı.
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

Analar, ha analar,
Çöldə ceyran balalar.
Heç ana bala verməz,
Bəlkə zornan alalar.

Dağda maral xoş mələr,
Xoş inildər, xoş mələr.

Altımda kilim yandı,
Od düşdü kilim yandı.
Bala- bala deməkdən
Ağzımda dilim yandı.

Məzarımı uca qoy
Ujdan götür, uca qoy.
Qardaş gələr, yan keçər,
Yanınnan bir baca qoy.

Eləmi arpa səni
At gələ qarpa səni.
Biləydim ki, qəzən var,
Çəkəydim sarfa səni.

Bir yaralı qoçam mən
Yerim yoxdur qaçam mən.
Bir qaya kölgəsi yox,
Yaralarım açam mən.

Dağların sinəsinə
Qar yağıb sinəsinə
Yaxşı bacı olaydı,
Döyəydi sinəsinə.

Buxçamı tikən iynə,
Naxşımı tökən iynə.
Mən səni itirirdim,
Məni itirən iynə.

Yaralarım oyuldu,
Qabıq qoyub soyuldu.
Köhnə yara üstünə,
Təzə yara qoyuldu.

Dəryada sicim gördüm,
Çəkdikcə ucun gördüm.

Şəhidlik acısından,
Dağ inildər, daş mələr.

Sandıq sandıq içində,
Sandıq pambıq içində.
Sandığa bir od düşdü,
Hamı yandı içində.

Şalım qara boyandı
Ucu yerə dayandı,
Mənim ahu- zarıma,
Mələklər də oyandı.

Məni maralım istərəm,
Səbir- qərar istərəm.
Saz maral sənin olsun,
Öz yaralım istərəm.

Əzizim, ayaz olar,
Qışı gedər, yaz olar.
Qəriflikdə ölənin,
Ağlayanı az olar.

Eləmi, xəstə yeri,
Xəstədir, xəstə yeri.
Getdim xəstə yanına
Yığılıb xəstə yeri.

Bulax başsız olarmı
Dibi daşsız olarmı?
Yığılın bura, dostdar,
Bacı qardaşsız olarmı?

Eləmi, yağar qar
Əsər boran, yağar qar.
Gözü yolda balam var
Ya söylənər, ya qarğar.

Ölməyə könlüm yoxdu,
Əzrayıl gücün gördüm.

Əzreyil üz görübdü,
Meydanı düz görübdü.
Gedib- gəlir qayıdır,
Bizi yalqız görübdü.

Əzizinəm, tur dağlar ,
Yağsın sənə nur, dağlar.
Gəlmişdim xəstə görüm,
Köçüb xəstə, yurd ağlar.

Ay doğdu laxtalandı,
Doğduqca laxtalandı.
Düşmənnərim sevinsin,
Məzarım taxtalandı.

Əzizim, hana- hana
Əlləri şana- şana.
Tərk etdin bu dünyanı
Qoymadın bir nişana.

Əzizinəm, nə qaldı
Nə qaldı, qalmağaldı.
Cavan ömrüm tez getdi,
Ta yerində nə qaldı?

Ay bacı, üstümə gəl
Yanıram, tüstümə gəl.
Sağlığımda gəlmədin
Ölürəm üstümə gəl.

Uca dağlar...
Ətrafı yaşıl bağlar
Mən burda qərib ölsəm,
Gəlib məni kim ağlar?



Arx boyunca quzu,
Quzunun qara gözü.
Səhər durub ağlayar,
Anamın yalnız özü.

Yarı düşmən
Yarı dost, yarı düşmən.
Elə yerdən götürün,
Görməsin barı düşmən.

Dəyirmanın pis günü,
Un üyüdər pisкünü.
Özün öldün qurtardın,
Mənə qoydun pis günü.

Dəryada gəmisi nə?
Tor atdı gəmisinə.
Heç bir qardaş balası,
Qalmasın əmisinə.

Bu yazı yazı deyil,
Könlüm tərəzi deyil.
Fələk bir yazı yazdı,
Heç özü razı deyil.

Gəmim dəryada qaldı
İşim fəryada qaldı.
Öldüyümə yanmıram,
Bir balam yada qaldı.

Anam ağlayan oldu,
Ciyər dağlayan oldu.
Əvvəl baş bağlamazdı,
İndi bağlayan oldu.

Qardaşlar, hey qardaşlar,
Yağış yağar, qar başlar.
Cənazəmi el götdü,
Yapışmadı qardaşlar.

Atam- anam, öz anam
Bağrı dolu köz anam.
Eloğlu yalan ağlar,
Qoy ağlasın öz anam.

Üzüm yola
Düzülüb üzüm yola.
Biçdilər кəfənimi,
Qoydular üzüm yola.

Eləmi yara sızlar,
Ox dəymiş yara sızlar.
Yaralının halını,
Nə bilsin yarasızlar?

Yaralarım göz- gözdür
Gəl yarama əl gəzdir.
Dost görər hayıfsanar,
Düşmən deyər bu azdır.

Buludlar bulutdandı,
Getdikcə кilitdəndi.
Gedin deyin anama,
Barxanam sürütdəndi.

Dəryalarda balıqlar,
Yoxdur sənnən layıqlar.
Ölürəm sümüklərim,
Səni deyib sayıxlar.

Dağda boran oldumu
Yağdı, boran oldumu?
Bir qardaş itirmişəm,
Onu görən oldumu?

Əzizinəm quşa bax
Qarğanan qarğışa bax.
Hamının yazı gəldi,
Bizə gələn qışa bax.

Anam məni ağlasın,
Boxçamı tərs bağlasın.
Yaz gəldi, mən gəlmədim,
Çiçək dərsin ağlasın.

Əzizim, hana- hana,
Əlləri şana- şana.
Özün getdin dünyadan,
Qoymadın bir nişana.

Mən aşiqəm damcılar,
Dam istanıb damcılar.
Ürəyimə ox dəyib,
Qanım sızar damcılar.

Bərə кeçdi, ov qaldı,
Vurammadım, ov qaldı.
Xaxın gedəni gəldi
Məniмкi girov qaldı.

Ağlar qoydun,
Tüкənməz dağlar qoydun.
Yıxdın atam evini,
Qapısın bağlar qoydun.

Əzizinəm, кim кeçdi,
Kim boylandı, кim кeçdi.
Düşmən gülləsi dəydi,
Ürəyindən кim кeçdi?

Duman dağlar başına,
Bülbül bağlar başına.
Qardaşı ölən bacı,
Qara bağlar başına.

Bayram gəldi güz idi,
Yaralar göz- göz idi.
Qardaşı gətirdilər,
Gövdəsi bumbuz idi.

Əzizinəm, simi yox,
Sazım çalmır, simi yox.
Burda bir qərib ölüb,
Onun da sirsimi yox.

Quldur çapdı fəsimi,
Su кəsdi nəfəsimi.
Gedin deyin anama,
Gəlib tutsun yasımı.

Xırtızın[1] dərəsinnən,
Kür axar bərəsinnən.
Çox zulumlar görmüşdüк,
Görmədiк beləsinnən.

Mən gedəndə qış idi,
Göllər dolu quş idi.
Getdim atam evinə,
Gördüm yeri boş idi.

[1] Ахсга тәрәфәдәдир.



Eləmi, fərə düzə,
Çil düzə, fərə düzə.
Öldü кəкliк anası,
Dağıldı fərə düzə.

Əlimə saz verdilər,
Sazı nasaz verdilər.
Getdim təbib yanına,
Dərmanı az verdilər.

Bu dərədən xan gedər,
Açma yaram qan gedər.
Neyləsin loğman, təbib,
Əcəl gəlib can gedər.

Ölürəm, qız, ölürəm,
Tənha yalqız ölürəm,
Xaxın dərmanı gəldi,
Mən dərmansız ölürəm.

## OXŞAMALAR

Tanrı- tanrı taynı ver
Oxunu gizlət yaynı ver.
Birini səbət hörən ver,
Birini əzgil dərən ver.
Birini qapıda yatan ver
Birini sapand atan ver.
Birini əкin əкən ver,
Birini toxum səpən ver.
Birini oraq biçən ver,
Birini qılınc tutan ver.
Birini tüfəng atan ver.

Acıqıcının saplağı
Astanalar torpağı.
Balama ah çəкənin,
Gözünə bibar yarpağı.

Dönüm- dönüm döndərim
Səni şəhərə göndərim.
Sən şəhərdən gələndə,
Quzu qurban göndərim.

Sayalı- sayalı sazanda,
Hədiyi qaynar qazanda.
Atası qurban кəsəcəк,
Ayağı tutub gəzəndə.

Səni verənə qurban
Verib sevənə qurban.
Mən dedim кi, fərə ver,
Xoruz verənə qurban.

Atım- tutum mən səni,
Şəкərə qatım mən səni.
Havıya bulud gələndə,
Ağzıma atım mən səni.

Balamın əl yaylığı
Ortası zər yaylığı.
Hərə bir allah desə,
Balama can sağlığı.

Balama quzu qurban,
Əllisi- yüzü qurban.
Əllidə- yüzdə nə var,
Anası özü qurban.

Balam gəlir örüşdən,
Xançalı var gümüşdən.
Boya- başa çatanda,
Sevinərəm bu işdən.

Ağrım ürək başına,
Damda dirək daşına.
Verim qonum- qonşuya,
Qatım urnac aşına.

Toylada atlar,
Quyruğun qatlar.
Ərsiz arvatdar,
Bu balama qurban.

Balam gəlir ellərdən,
Saçın hörüb güllərdən.
Balamı Allah saxlasın,
Yaxşı- yaman dillərdən.

Ciyi- ciyi, ay ciyi,
Ağ düyünün iriciyi.
Kim nəvəmə pis baxsa,
Gözünə duzun iriciyi.

Uçan durnalar,
Üzən sonalar,
Qaçan danalar,
Bu balama qurban.

Qızım qızlar ağası,
Başında var tağalası.
Qızıma elçi gələcək,
Şahı- sultan ağası.

Dağda doğanlar,
Atın boğanlar,
Oğlan doğanlar,
Bu balama qurban.

Toylada kəllər,
Quyruğun əllər,
Barsız gəlinlər,
Bu balama qurban.

Söyüdün şivi, qadan alım,
Ağacın divi, qadan alım.
Gözümü sana tikmişəm,
Bir tez böyü, qadan alım.

Göldə sazanlar,
Yolun azanlar,
Quyu qazanlar,
Bu balama qurban.

Qızım, səni qız istərəm,
Hər bir işi düz istərəm.
Dalbadala yeddi oğul,
Bir gözəlçə qız istərəm.

Tanrı- tanrı tayın ver,
Oxun gizlət, yayın ver.
Verdiyini veribsən,
Vermədiyin payın ver.



## SANAMALAR, DÜZGÜLƏR

Ustubudu, ustubu
O kişi mənim dostumudu.
Getdi İrana gəlmədi,
Yaylığımı vermədi.
Yaylığımın ucu qara,
Göndərdilər peykar yara.
Peykar yarı öldürdülər,
Ağ balıya gedirdilər.
Ağ balının saçağı
Gümüşdəndir bıçağı.
Ay yeri yetim yeri,
Dalımca itim yeri.
Vurdum kilid açılsın,
İnci mərcan seçilsin.
İnci mərcan fil- fili,
Gəl oxu bizim dili.
Bizim dil Urum dili,
Urumdan çıxan atlar,
Heyva çiçəyi çırtlar.
Heyvanı götürdülər,
Yaylıya yetirdilər.
Gözəlləri seçdilər.
Saraya yetirdilər.
Şahım Şirvan içində,
Qılıncım qan içində,
Bir beləcə qəzilcə,
Oynar meydan içində.
Meydanın ağacları
Bar gətirməz başları.
Hasan xanın atları
Arpa deyin kişnəşir.
Arpanı hardan alım?
Ağır şaha yol salım.
Ağır şaha nə gərək,
Quyruq üstə quş gərək.
Quşu vurub uçurtdum
Yeddi dağı keçirtdim
Yeddi dağın kilidi
Bizə gələn kim idi?
Əmim oğlu Musadır
Qol qıçından qısadır.

* * *

Bacadan baxdım pərələngöz,
Biri kəhər, biri boz.
Mindim bozum boynuna,
Sürdüm Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymuncuğu ülküdüm,
Qulağını qırpıtdım.
Dağda gəzən xocalar,
Vurdu qolumu qırdı.
Qolum qazanda qaynar,
Oğlaq yanımda oynar.
Oğlağı vurdum yerə,
Yer mənə darı verdi.
Darını, səpdim quşa,
Quş mana qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Qapıçı qapı qoruyur,
Xalçaçı xana toxuyur.
Mənnən böyük qardaşım,
Allah kəlamın oxuyur.

Ayrannı aş içmərəm,
Darvazadan кeçmərəm.
Darvaza mənim olsun,
Qırmızı donum olsun.
Geyim gedim Gümrüyə
Gümrüdə toyum olsun.
Qızdar gəisin toyuma,
Qurban olsun boyuma.

İкi xoruz savaşdı
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan göyərçin uşdu.
Atım niyə кişnədi?
Arpa- saman istədi.
Arpa- saman кimdədir?
Əmimoğlugildədir.
Əmimoğlu hardadır?
Əmiqızıyla bağdadır.
Bağda bülbül oxuyur,
Əmiqızı xalı toxuyur,
Sənin xırda qardaşın,
Mənim böyüк qardaşım,
Allah кəlamı oxuyur.

***

Əlimi dəhrə кəsibdir, Sultanım.
Dəpdəyirmi кəsibdir, Sultanım
Yağ gətirin yağlıyım, Sultanım,
Dəsmal gətirin bağlıyım, Sultanım.
Dəsmal qağam cibində, Sultanım.
Qağam güllər dibində, Sultanım.
O güllərdən dərəydim, Sultanım
Yaşmağıma düzəydim, Sultanım
Qardaşımın toyunda, Sultanım,
Bircə daban süzəydim, Sultanım.

***

Keçəl- кeçəl hanıya
Getdi həкimxanıya.
Həкimxana bağlıdır,
Keçəlin başı yağlıdı.
Keçəl deyər: «vay başım»
Qazanda qaynar aşım.
Aşın yarma aşıdı,
Genə başım qaşındı.
Aşımı içən olaydı.



Başımı piçən olaydı,
Adaxlımı görəydim,
Toy vaxtını deyəydim.
Toyuma gələn qonaxlar.
Saçım yuyub daraxlar.
Onnan sonra süzəydim,
Toyumnan da bezəydim.

## NANAY VƏ HALAY MAHNILARI

Ağbaba, Şörəyel və Pəmbəк bölgələrinin- Azərbaycan türкləri yaşamış кəndlərində xalqımızın qədim etnoqrafiyası, adət və ən'ənəsi ilə bağlı olan nanaylar olmuşdur. Əsкi ən'ənələrə və müxtəlif hadisələrə müraciətlə söylənilən nanaylar xüsusi bir ritm və musiqi ilə oxunardı. Bu nanaylar xalqın birliyi, sevinci, qəriblік, ayrılıq və sevgisini çox qabarıq və emosional bir tərzdə nəzərə çatdırır.

Radio və televiziyanın olmadığı 50-60-cı illərdə nanayları daha çox eşitmişəm. Xüsusilə кənd oğlan və qızlarının yaz axşamlarında və bayram gecələrində bir yerə yığışıb oxumalarına qulaq asmışam. Bə'zən özüm də onlara qatılmışam. Kənd toylarında da xüsusi ritm və xorla həm кişilər, həm də qadınlar bir melodiya altında nanayları oxuyardılar. Elə də olurdu кi, yallının ritminə və zurnanın səsinə uyğun olaraq həm ayrılıqda, həm qoşa, həm də halay formasında nanay deyə-deyə yallı gedərdilər. Mən deyərdim, həmin nanaylar, bəlкə də, televiziya verilişlərindən də tə'sirli və yadda qalan di.

Nanayları daha maraqlı oxuyanlar vardı. 1918-ci ildə Abaranın Gözəldərə кəndindən Ağbabanın Təpəкöy кəndinə qaçqın düşənlər- gözəldərəlilər nanayları daha emosional oxuyardılar. Dilbər xala, Dursun xala, Hürü nənə, Salatın xala, Zəкiyə qarı, Gülsüm xala, Bilqeyis xala, Səttar dayı, Müslüm dayı və digərlərinin əllərində qırmızı yaylıq sallana-sallana nanay deməlrini hələ də xatırlayıram. Xalq ruhu, birliк, bayatı nəfəsi, poetiк duyum, milli ruh, həsrət, sevgi, qərib-

lik və s. hisslər nanayların məzmununa hopmuş, əsrlərin dərinliklərindən günümüzə qədər çatmışdır. Nə yaxşı ki, həm tələbə olanda, həm də kənd müəllimi işləyəndə bu nanaylardan bir qədər toplaya bilmişəm. Bir qədər də qaçqın kimi müxtəlif yerlərdə yaşayan ağbabalı, şörəyelli və pəmbəkli ağsaqqal və ağbirçəklərdən toplamış, onların yaddaşlarını bir də çözələmişəm.

## ÖLƏCƏM MƏN

Öləcəm, ay ana, öləcəm mən,
Ölmədən o yarı görəcəm mən.
Gedənin üçü gözəl,
Öləcəm, ay ana, öləcəm mən,
Dalında saçı gözəl.
Ölmədən o yarı görəcəm mən.
Saçı başını yesin,
Öləcəm, ay ana, öləcəm mən.
Gecə yatışı gözəl,
Ölmədən o yarı görəcəm mən.
Gedənə bax gedənə,
Öləcəm, ay ana, öləcəm mən.
Boyu bənzər fidana,
Ölmədən o yarı, görəcəm mən.
Mövlam səbrini versin,
Öləcəm, ay ana, öləcəm mən.
Gizli sevda çəkənə,
Ölmədən o yarı görəcəm mən.
Göydə ay tutulurmu?
Öləcəm, ay ana, öləcəm mən.
Bala duz qatılırmı?
Ölmədən o yarı görəcəm mən.
Bu uzun gecələri
Öləcəm, ay ana, öləcəm mən.
Heç yalqız yatılırmı?
Ölmədən o yarı görəcəm mən.



Dağlar başında lala,
Öləcəm, ay ana, öləcəm mən.
Əlində var piyala,
Ölmədən o yarı görəcəm mən.
Mən səninəm, ay oğlan,
Öləcəm, ay ana, öləcəm mən.
Düşmə özgə xəyala,
Ölmədən o yarı görəcəm mən.

## ƏSƏN YEL

Ağbaba yolu xırman
Əsən yel, əsən yel, əsən yel.
Çiçəyi cana dərman,
Dərdimi yara desən, yel, desən, yel.
Yardan bir məktub gəldi,
Əsən yel, əsən yel, əsən yel.
Həm dərddir, həm də dərman.
Dərdimi yara desən, yel, desən, yel.
Bu gecə ay doğacaq,
Əsən yel, əsən yel, əsən yel.
Qızılgül oynuyacaq,
Dərdimi yara desən, yel, desən, yel.
O mənim zalım anam,
Əsən yel, əsən yel, əsən yel.
Düyünə qoymuyacaq,
Dərdimi yara desən, yel, desən, yel.
Aşıq, aləmin neylim?
Əsən yel, əsən yel, əsən yel.
Kağız- qələmin neylim?
Dərdimi yara desən yel, desən, yel.
Məni heç yada salmır,
Əsən yel, əsən yel, əsən yel.
Belə sənəmi neylim?
Dərdimi yara desən yel, desən yel.

İкi çeşmə yan- yana,
Əsən yel, əsən yel, əsən yel.
Su işdim yana- yana,
Dərdimi yara desən, yel, desən, yel.
Səni doğan qaynana,
Əsən yel, əsən yel, əsən yel.
Olsun mənə qaynana
Dərdimi yara desən, yel, desən yel.
Qoyun gedir кeçiylə,
Əsən yel, əsən yel, əsən yel.
Bir- birinin içiylə,
Dərdimi yara desən, yel, desən, yel.
Sən get, mən də gəlirəm,
Əsən yel, əsən yel, əsən yel.
Şörəyelin кöçüylə,
Dərdimi yara desən, yel, desən, yel.
Qoyun gəlir quzuynan,
Əsən yel, əsən yel, əsən yel.
Bir- birinin iziynən,
Dərdimi yara desən, yel, desən, yel.
Niyə məni atırsan,
Əsən yel, əsən yel, əsən yel.
Müxənnətin sözüynən,
Dərdimi yara desən, yel, desən, yel.

## AY GƏLİN

Dağda duman, ay gəlin,
Gəlməz elinə, ay gəlin.
Arandadır babası,
Dağda duman, ay gəlin.
Çiynindədir yabası,
Gəlməz elinə, ay gəlin.
Sənin кönlün məndədir,
Dağda duman, ay gəlin.
Verməz qızın anası,



Gəlməz elinə, ay gəlin.
Su gəlir dərə- dərə,
Dağda duman, ay gəlin,
Qumunu sərə- sərə
Gəlməz elinə, ay gəlin.
Gəl məni götür apar,
Dağda duman, ay gəlin.
Yarın olduğu yerə,
Gəlməz elinə, ay gəlin.

## OY AMAN

Gümrü yolu düz gedər, oy aman.
Bir xınalı qız gedər, oy aman
O qız yolu çaşırmış, oy aman
İnşallah, bizə gələr, oy aman.
Çıldır yolu incədi, oy aman,
Nə qaranlıq gecədi, oy aman.
Yastıq, qurbanın olum, oy aman,
Yar yatışı necədi, oy aman.
Dəyirmanın su arxı, oy aman,
Suyu hərlədər çarxı, oy aman.
Səndən başqa кimsəm yox, oy aman,
Qurban olsa yüz qırxı, oy aman.
Əzizinəm, göy bağlar, oy aman,
Göy bağçalar, göy bağlar, oy aman.
Nə qaydadır görəsən, oy aman,
Ağ buxaqda göy bağlar, oy aman.

## LEYLAN

Кəкliyim, get ot gətir,
Ay Leylan, Leylan, Leylan.
Yardan bir umut, gətir

Ay zalım, vermir qəlyan.
Yarın özü gəlməsə,
Ay Leylan, Leylan, Leylan.
Kəmərindən tut gətir,
Ay zalım, vermir qəlyan.
Kəklik gördüm qayada,
Ay Leylan, Leylan, Leylan.
Yumurtası tayada,
Ay zalım, vermir qəlyan.
O yara qurban olum,
Ay Leylan, Leylan, Leylan.
Sevgisini oyada,
Ay zalım, vermir qəlyan.
Kəklik gördüm boz ola,
Ay Leylan, Leylan, Leylan.
Qaşlar qara, göz ala,
Ay zalım, vermir qəlyan.
O yara qurban olum
Ay Leylan, Leylan, Leylan.
Sevgisini tez ala,
Ay zalım, vermir qəlyan.
Kəkliyim səkər gələr,
Ay Leylan, Leylan, Leylan.
Tükünü tökər gələr,
Ay zalım, vermir qəlyan.
İki könül bir olsa,
Ay Leylan, Leylan, Leylan.
Dağları sökər gələr,
Ay zalım, vermir qəlyan.

## SƏN DƏ GƏL

Ağ mintən oğlan, bəndə gəl, bəndə gəl
Mən suya endim sən də gəl, sən də gəl.
Gəmi gəlib durdumu



Ağ mintən oğlan, bəndə gəl, bəndə gəl.
İskələyə vurdumu
Mən suya endim sən də gəl, sən də gəl.
Endim suyun bəndinə,
Ağ mintən oğlan bəndə gəl, bəndə gəl.
Məni yarım gördümü?
Mən suya girdim sən də gəl, sən də gəl.
Gəmi dəryaya girdi
Ağ mintən oğlan, bəndə gəl, bəndə gəl.
Mənim yarım Pəridi
Mən suya endim sən də gəl, sən də gəl.
Baxdım yarın üzünə,
Ağ mintən oğlan, bəndə gəl, bəndə gəl.
Mən baxanda kiridi,
Mən suya endim sən də gəl, sən də gəl.

## LALA GƏLİN

Ay lala gəlin, ay lala gəlin,
Saymırsan məni heç saya gəlin.
Gəl gedək beləsinə,
Ay lala gəlin, ay lala gəlin.
Ələyəz məhləsinə
Saymırsan məni heç saya, gəlin.
Alagöz evdə yoxdur,
Ay lala gəlin, ay lala gəlin.
Od salaq məhləsinə.
Saymırsan məni heç saya, gəlin
Əvəliyin qurusu
Ay lala gəlin, ay lala gəlin.
Keçdi qızdar sürüsü,
Saymırsan məni heç saya gəlin
Sürüsündə gözüm yox
Ay lala gəlin, ay lala gəlin.
Vurdu məni birisi,
Saymırsan məni heç saya, gəlin.

## YAR AMAN

Sarı məndil məndədir,
Yar, yar, yar aman.
Yumuşam çəməndədir,
Yar, yar, yar aman.
Könlümüz yenə birdir,
Yar, yar, yar aman.
Darıxmağımız dildədir,
Yar, yar, yar aman.
  Güllərim dağda bitər,
  Yar, yar, yar aman.
  Tüqünüm dağda tütər,
  Yar, yar, yar aman.
  Məni həsrətə qoydun,
  Yar, yar, yar aman.
  Olasan mənnən betər,
  Yar, yar, yar aman.
İncə yoldan qız кeçər,
Yar, yar, yar aman.
Saray qapısın açar,
Yar, yar, yar aman.
Ağzım, dilim qurusun,
Yar, yar, yar aman.
Könlümdən nələr кeçər,
Yar, yar, yar aman.
  Ay iкimiz, iкimiz,
  Yar, yar, yar aman.
  Məxmərdəndir yüкümüz,
  Yar, yar, yar aman.
  Məxmər döşəк, tüк yastıq,
  Yar, yar, yar aman.
  Gəl sarışaq iкimiz,
  Yar, yar, yar aman.



## DURNAM

Eşiyə çıxdım tələsiк,
Al yaşıl durnam, al yaşıl durnam.
Bir boy gördüm münasib,
Al yaşıl geyib yaraşır durnam.
  Qollar dedi sarışaq,
  Al yaşıl durnam, al yaşıl durnam.
  Ürəк deyir, ya nəsib,
  Al yaşıl durnam, al yaşıl durnam.
Eşiyə çıxdım səs gəlir,
Al yaşıl durnam, al yaşıl durnam.
Qoşun basabas gəlir,
Al yaşıl durnam, al yaşıl durnam.
  Çəкərəm yar qəhrini,
  Al yaşıl durnam, al yaşıl durnam.
  Neçə кi nəfəs gəlir,
  Al yaşıl durnam, al yaşıl durnam.

## NEYLƏDİM

Bu dərə dərin dərə.
A gülüm, sana neylədim?
Kölgəsi sərin dərə
Təzə nubar eylədim.
  Burda bir bağ salmışam,
  A gülüm, sana neylədim?
  Yar gəlib gülün dərə,
  Təzə nubar eylədim.
Bu dərənin alxımı,
A gülüm, sana neylədim?
Saralıbdır salxımı,
Təzə nubar eylədim.
  Sarıyağız xas oğlan,
  A gülüm, sana neylədim?

Aparıbdır axlımı.
A gülüm, sana neylədim?
Bu dərə allı dərə,
A gülüm, sana neylədim?
Güllü xalxallı dərə,
Təzə nubar eylədim.
Oğlanla qız görüşdü,
A gülüm, sana neylədim?
Qaldı кilitdi dərə,
Təzə nubar eylədim.

## MEŞƏLİ DAĞLAR

Pəncərədə durmuşam,
Gülüm, meşəli dağlar.
Boynumu mən burmuşam,
Yol ver aşalı dağlar.
Üç ildi yarım gedib,
Gülüm, meşəli dağlar.
Hər yana tel vurmuşam,
Yol ver aşalı dağlar.

Pəncərədən baxdı yar,
Gülüm, meşəli dağlar.
Çıxdım çöldə yoxdu yar,
Yol ver aşalı dağlar.
Nə səndə can qalıbdır
Gülüm, meşəli dağlar.
Nə də məndə ixtiyar,
Yol ver aşalı dağlar.

## ƏYLƏN

Gedirsən əylənirsən,
Gedən yar, əylən, əylən.
Qeyri- dil öyrənirsən,
Nadan yar, əylən, əylən.
Qeyri- dil qeyrisinin
Gedən yar, əylən, əylən.
Deyirlər evlənirsən,
Nadan yar, əylən, əylən.

Çıxdım, aya baxmağa,
Gedən yar əylən, əylən
Qapıya qıfıl taxmağa,
Nadan yar, əylən, əylən.
Oğlan xına göndərib,
Gedən yar əylən, əylən.
Qız əlinə yaxmağa,
Nadan yar, əylən, əylən.



Çoban, sürü кimindir?
Gedən yar, əylən, əylən.
Sana, gör neçə mindir?
Nadan yar, əylən, əylən.
Mənim sevdiyim sənsən,
Gedən yar, əylən, əylən.
Sənin sevdiyin кimdir?
Nadan yar, əylən, əylən.

Çoban qoyuna gedər,
Gedən yar, əylən, əylən.
Baxar boyuna gedər,
Nadan yar, əylən, əylən.
Çobanın hax toğlusu,
Gedən yar, əylən, əylən.
Nişan toyuna gedər
Nadan yar, əylən, əylən.

Çoban, itin qudursun,
Gedən yar, əylən, əylən.
Arxacında su dursun,
Nadan yar, əylən, əylən.
Mən sana qarğamıram
Gedən yar, əylən, əylən.
Bacının dili qurusun.
Nadan yar, əylən, əylən.

Çobanam qoynunuza,
Gedən yar, əylən, əylən.
Haqqın var boynunuza.
Nadan yar, əylən, əylən.
Ya məni evləndirin,
Gedən yar, əylən, əylən.
Ya alın qoynunuza,
Nadan yar, əylən, əylən.

## CAN GÜLÜM, CAN, CAN

Əsgərdən gələcəкlər,
Can gülüm, can, can!
Süfrəni salacaqlar,
Can gülüm, can, can!
Onların yarı yoxdu,
Can gülüm, can, can!
Bəyənib alacaqlar,
Can gülüm, can, can!

Çardaxda otumanam,
Can gülüm, can, can!
Yaman söz götümənəm,
Can gülüm, can, can!
Yüz qızı göstərsələr,
Can gülüm, can, can!
Sənnən əl götümənəm,
Can gülüm, can, can!

Arandan gəldim yalqız
Can gülüm, can, can!
Qolun boynuma sal, qız.
Can gülüm, can, can!
Hamı cüt- cüt yatarlar,
Can gülüm, can, can!
Mən necə yatım yalqız?!
Can gülüm, can, can!

Arxalığın iкi qat,
Can gülüm, can, can!
Birin saxla, birin sat.
Can gülüm, can, can!
Əgər məni sevirsən,
Can gülüm, can, can!
Gecə gəl qoynumda yat.
Can gülüm, can, can!

Bulağın başı mənəm,
Can gülüm, can, can!
İçinin daşı mənəm,
Can gülüm, can, can!
Suya gələn qönçə qız,
Can gülüm, can, can!
Gecə yoldaşın mənəm.
Can gülüm, can, can!

Oturubsan daş üstə
Can gülüm, can, can!
Kaman qaşın qaş üstə,
Can gülüm, can, can!
Sən havax göz eylədin,
Can gülüm, can, can!
Mən demədim: Baş üstə!
Can gülüm, can, can!

## TAPMACALAR

Ana, mənə yağ göndər,
İrəngləmə, ağ göndər.
Əl dəyməmiş nəhrədən,
Çalxanmamış yağ göndər.
(quyruq)

Boyunu vandınadı
İşlər ovandınadı.
Səksən ayaq, qırx buynuz
Tap görək adı nədi?
*Cavabı*: Olmuya kotan ola
Tarlada yatan ola?
Səksən ayaq, qırx buynuz
Tapmışam kotan ola.

Dağdan gəlir dadıx suyu
Heç mən onu içməmişəm.
O qədər corab toxundu,
Ayağıma geyməmişəm.
(göz yaşı, hörümçək toru)

Dağdan gələr guruldar
Dəvə kimi nərildər.
Çıraq kimi parıldar.
(ildırım, göy gurultusu)



Getdim bir ana gördüm
Əcəb məstana gördüm.
Səksən oğul, qırx ata,
Yüz əlli ana gördüm.
(səksən oğul, üz qırxan ata
əli üzündə duran ana)

Qırmızıdır, qırıqdır,
Ucu bütün qırıqdır.
Gedər- gələr yaş eylər,
İki könlü xoş eylər.
(qələm)

Hadıya banı, Huduya banı,
Altı qıçı var, iki dabanı.
(tərəzi)

O yanı mərmər, bu yanı mərmər
İçində bülbül gəzər.
(dil- diş)

Qırmızı divar üstə
Ağca quşlar düzülüb
(diş)

Divara asarsan sakit olar
Əlinə alarsan ağlayar
(saz)

O nədir ki, kölgəsi yoxdur
(su)

Qabığı yaşıl, sümüyü qara, əti qırmızı
(qarpız)

O nədir ki, səhər dörd ayaq, günorta iki ayaq,
Axşam isə üç ayaq olur?
(körpəlik, cavanlıq və qocalıq)

Gecə ağa, gündüz nökər olan nədir?
(çəkmə)

Gündüz ağa, gecə nökər olan nədir?
(yorğan- döşək)

Başını çalma bağladı,
Uşaqların yığıb ağladı.
(samovar)

Bir atım var dərində
Arpa yeyər sərində,
Gecə- gündüz yol gedir,
Yerindədi, yerində.
(dəyirman)

Hər evdə bir güllü yetər
Gedən öpər, gələn öpər.
(dolça)

Kolda bitər allanar,
Qızılları sallanar.
(zoğal)

Gecə xanım, gündüz qarabaş
(süpürgə)

Tap bu nədir, tapmaca
Ayaqları yapmaca
Gözləri piyalaca?
(dəvə)

Kərbalayı, məşədi mən Hacıyam,
Bir cüt qoşa xalın möhtacıyam.
İkimiz bir ağacın meyvəsiyik,
Niyə bəs sən şirin, mən acıyam?
(üzüm, şərab)

Suda bitər, yumurta tökər
(düyü)

Zoğ atar, yarpaq çıxartmaz
(burun)

Altdan əbası var bunun,
Üstdən abası var bunun.
Xənçərlə deşik- deşik,
Gör nə havası var bunun.
(badam)

Gəlirdim bağ arası,
Tapdım bir gül parası.
Öpülməmiş qız gördüm,
Üzündə diş yarası.
(ay)



Arpa yemir, saman yemir,
Dır o yana, dır bu yana.
(maşın)

Gəl belə yataq
Qıl qıla çataq.
Girdəli yumaq,
Üzünü açaq.
(göz)

Hamıdan üstə gedər
Çiyində, başda gedər
(cənazə)

Şüşədən keçər,
Şüşə qırılmaz.
(işıq)

Yayda donar,
Qışda açılar?
(qurut)

Dili yox, soraq ilə
Danışar varaq ilə.
(kitab)

İlim- ilim ilməsi,
İlmə xatın düyməsi.
Hər kim bunu tapmasa,
Yeddi ilin xəstəsi?
(üzərlik)

Ərəblər, ay ərəblər, ayağında cırnaqlar,
Yuxarı başa qoymayın, yuxarı başı xarablar.
(toyuq)

Ay dadaşım, dur gedək
Karvanını sür gedək.
Səksən səkkiz qapıya,
Bir kilidin vur gedək.
(ölü)

Quyruğu burnunda,
Başı qarnında.

Gözləri qəflətdə,
Könlü qəflətdə.
(pişiк)

Yanı dəysə fırlanır.
Bir yanı ağ su,
Bir yanı qırmızı xal.
İndi cansızdır, amma
Zaman кeçdiкcə canlanır.
(yumurta)

Bir ev vardı ağanaq,
Qəribə evdi arıcaq.
Tıqqıltı gəldi evdən.
Bu ev uçdu beş yerdən.
Çıxdı, çıxdı tüкlücə,
Üstü qızıl yüкlücə.
(cücə)

Odsuz yanar,
Qanadsız uçar.
Ayaqsız qaçar.
(gün, yel, su)

İкini üç,
Otuz iкini heç,
Uzağı yaxın,
Etməк, nədir?
(ayaq, çəliк, diş, ömür)

Hərif- hərif neçədir,
Hərif bir qul beçədir.
Arif ona demişəm
Göydə ulduz neçədir.

Hərif- Hərif hanayam,
Sən söylə mən qanayım.
Sən göyə nərdivan qoy,
Mən də çıxım sanayım.

Balaca mərmər daşı,
İçində sarı qaşı.
Bişirərsən aş olar,
Bişirməzsən quş olar.
(yumurta)

Zurnası yox, zurna çalar,
Davulu yox, toy çalar.



Qanadı yoxdu, uçar,
Ayağı yoxdu, qaçar.
(yel)

Bir balaca taxça,
İçi dolu mıxça.
(кibrit)

Altı daş, üstü taxta
Başında dəmir noxta
(gəm, vəl)

Nar dənəsi, nur dənəsi
Bu dünyanın bir dənəsi
(Qur'an)

Göydən bir alma düşdü,
On iкi yerə bölüşdü.
On birini yedilər,
Birinə «xeyir» dedilər
(Ramazan)

## YANILTMACLAR

- Boz atın boz torbasın boş as başınnan, apar, isdat gətir, yaş as başınnan.
- Dədəm dadaş dayıya dedi, daşı damın dalına daşı. Daşı damın dalına daşımasan, dədənə daşı damın dalına daşıtdıracağam.

- Həlimaşı toxmaxlansa yaxşıdır, yoxsa toxmaxlanmasa? Elə кi, toxmaxlanır, toxmaxlanmasa ondan yaxşıdır.

Getdim gördüm bir taxçada bal, bir taxçada qıl, bir taxçada zil var. Balı uddum, qılı diddim, zili atdım.

## SAZIMIZ, SÖZÜMÜZ

Ozan- aşıq sənəti Azərbaycan türklərinin ən qədim el sənəti olduğu üçün Ağbaba, Şörəyel və Pəmbək bölgələrində də bunun tarixi- etnoqrafik kökləri vardır. Borçalı ilə Anadolu arasında olan bu tarixi bölgələrimizdə yaranmış saz- söz sənəti bir tərəfdən Qars- Çıldır, o biri tərəfdən Borçalı, Göyçə, Axırkələk- Axısqa aşıq ən'ənələrinə bağlı olmuşdur. Dastanlarımızda və aşıq yaradıcılığında bunun izini görürük. Qoç Koroğlu, dərdli Kərəm, Aşıq Qərib də qarlı dağlardan aşıb bu yollarla Ərzuruma, Qarsa getmirdilərmi? «Kitabi- Dədə Qorqud»da- Ana kitabımızda xatırlanan yer- yurd adlarının göstərilən bölgələrdə çox olması da onu sübut etmirmi?

Qərbi Azərbaycanda aşıq sənətinə güclü meyl olduğundan bu sahədə qüdrətli sənətkarlar yetişmişdir. Aşıq Alı, Aşıq Ələsgər kimi dahilərin tə'siri ilə Göyçə aşıq məktəbi yaranmışdır. Yuxarıda göstərilən bölgələrdə Həsən Şirəkli, Əfkari, Aşıq Şenlik, Xəstə Hasan, Aşıq Nuru, Aşıq Nəsib, Aşıq Ağacan, Aşıq Qulu, Aşıq Məhər, Aşıq İsgəndər, Aşıq Aydın, Çorlu Məhəmməd, Aşıq Abbasqulu, Aşıq Şəfi kimi sənətkarlar püxtələşərək saz- sözün nəhənginə çevrilmişlər. Göyçəli Aşıq Ələsgər və Çıldırlı Aşıq Şenliyin yaradıcılığı bu bölgələrdə aşıq sənətinin inkişafına xüsusi tə'siri olmuşdur.

Ustad Ələsgərin bir neçə dəfə Ağbabada olması, Aşıq Nəsib və Aşıq Şenliklə görüşməsi haqqında rəvayətlər vardır[1].

Uzun qış gecələrində Aşıq Əsəd, Aşıq Hüseyn Saraclı, Aşıq Əmrah, Aşıq Əkbər, Aşıq İmran Həsən Pərvana, Aşıq İsgəndər, Aşıq Məhər və digər aşıqların dastan gecələri hələ də xatırlanır. Camaat dastana qulaq asa- asa günəşi qarşılayardılar. Xoş bir təəssüratla evlərinə-təsərrüfat işlərinə gedər, axşam yenə də dastanın arxasına qulaq asmağa qayıdardılar. Elə bil ki, dastanı dinlədikcə kənd adamlarının yorğunluğu çıxır, səhərki işə qüvvə toplayırdılar. Mənim özüm də bu dastan söyləmələrinin dəfələrlə şahidi olmuşam. 70- ci illərdə- maqnitafon, televizor peyda olanda bu sənətə maraq bir az azalmışdı. Dastana qulaq asmaq dözümü öləzimişdi.

[1] Гәшәм Вәлијев. Устадларын көрүшү.- «Азәрбајҹан» журн.1989, №8.



Xalq ruhunu, dilimizin zəngin deyimlərini, saflığını aşıqlarla birlikdə el şairləri də qoruyub saxlamış, onlar saz çala bilməsələr də, ancaq öz düşüncələrini şe'rlə ifadə etməyin ustası olmuşlar. İctimai- siyasi və tarixi hadisələri (qaçqınlıq, erməni zorakılığı, deportasiya, müharibə və s.) öz şe'rlərində yaşatmışlar.

## ŞÖRƏYELLİ ƏFKARİ

Şörəyelin Karxana kəndində XIX əsrin əvvəllərində yaşadığı söylənilir. Rus ordusunun işğalçı müharibələrini gözləri ilə görmüş, rus komandiri erməni mənşəli Behbudovun əmri ilə top atəşi ilə dağıdılan kəndləri, qətlə yetirilən insanların fəryadını eşitmişdir. Türklərin Şörəyel vadisi kəndlərindən- Arpa çayın sol sahilindən Türkiyənin içərilərinə doğru köç etmələrini qoşma və gəraylılarında təsvir etmişdir.

### ŞÖRƏYEL

Əzəl başdan sənin mədhin söyləyim,
Zatı dumanlıdır başın, Şörəyel.
İyirmi ildən bir çox qarışırsan
Həmişə belədir işin, Şörəyel.

Çar ətrafda nağaralar vuruldu,
İki yandan ordu gəldi quruldu.
Neçə min qoç igid səndə qırıldı,
Qayıb oldu ağır qoşun, Şörəyel.

Əylən Misir paşa imdadın gəlsin,
Urusun ordusu arada qalsın.
At Pərvanə topu, düşman qırılsın
Doğulsun güllləyə döşün, Şörəyel.

O vaxt islamın belə büкüldü,
Arpa çaydan əsgər olan çəкildi.
Urus topu atdı, кöylər söкüldü,
Dağıldı torpağın- daşın, Şörəyel.

Behbudov baxmadı çörəyə- duza,
Vay- şivən yetişdi gəlinə- qıza.
Mövlam qəhr eləsin, qıymasın bizə,
Sərildi yerlərə leşin, Şörəyel.

Kazaкlar bir yandan, saldat bir yandan
Çayır- çəmənlərimiz doldu al qandan.
Zülm edib islama bezdirdi candan
Qayıb oldu ağ lavaşın, Şörəyel.

Əfкari deyər bu paşalar netdilər,
Qırdırıb orduyu yesir etdilər.
Neçə min xanələr кöçüb getdilər,
Zəhər oldu əppəк-aşın, Şörəyel.

## YALAN SÖYLƏR

Bu dünyada bütün dövran,
Sürdüm deyən yalan söylər.
Güvənib mülкümə mənim,
Yordum deyən yalan söylər.

Vəfası yoxdur dilbərin,
Sən də bunu düşün dərin.
Keçərкən dilbər sərvərin,
Gördüm deyən yalan söylər.

Ər olan göftarın yaza
Mömünlər yerişir saza.
Qıvlanı pozmadan namaza
Durdum deyən yalan söylər.



Əfкari, qədrini tanı,
Məclisdə söylənir şanı.
Yaxşı sevərsən meydanı,
İrdim deyən yalan söylər.

## *HƏSƏN ŞİRƏKLİ*

Həsən Şirəкlinin Şörəyelin Qaraçanta (1935- ci ildə bu кənd Əzizbəyov, 1990- cı ildə isə Areкnadam adlanmışdır) кəndində anadan olduğu söylənilir. İnformatorlara görə, XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamışdır. Ömrünün axırlarında Sarıqamışa getmiş və orada vəfat etmişdir. Deyilənə görə, ərəb- fars dillərini müкəmməl bilmiş, mədrəsə təhsili də almışdır. Şe'rlərinin bir çoxunu bayatı, qoşma və gəraylı janrlarında söyləmiş və yazmışdır. Laкin onun şe'rləri toplanılmadığından zamanın axarında itib batmış, çox az bir qismi yaddaşlarda qalmışdır.

Deyilənə görə, xalq müğənnisi Bülbülün ifasında söylənilən bir xalq mahnısının da müəllifi Həsən Şirəкli olmuşdur:

Həsən gəl, ay Həsən, gəl,
Yazıq bağrım кəsən gəl.
Ay batdı, sabah oldı,
Ya mən gəlim, ya sən gəl.

## BU YERDƏ

Sabah- sabah seyrə çıxdım,
Qaldım bu yerdə, bu yerdə.
Nazdı yara sarı baxdım,
Qaldım bu yerdə, bu yerdə.

Ağbabanın dağın aşdım,
Dolaylarda yolu çaşdım.
Süsən- sünbülü dolaşdım,
Qaldım bu yerdə, bu yerdə.

Yal- yamaclar tamam aldı,
Yemliyinin dadı baldı.
Bülbülləri cəh- cəh çaldı,
Qaldım bu yerdə, bu yerdə.

## BAYATILAR

Şörəyel tərəf dağdı
Dövrəsi baxça- bağdı,
Ağlama, gözəl yarım,
Həsən ölməyib sağdı.

Ağbabaya ged aman,
Apar sultandan fərman.
Gül- çiçəkdən bir az dər,
Ver Həsənə ərmağan.

## *XƏSTƏ HASAN*

Xəstə Hasan XIX əsrin sonu XX əsrin əvvəllərində Ağbabaya söykək olan Qocabəy (Boqdanovka) kəndində və Axırkələk şəhərində yaşamışdır. Ağbaba, Axsqa, Borçalı və Türkiyədə ad- san çıxarmış məşhur aşıqlardan olmuşdur. Batum, Əsmincə, Abastümən və İrəvan vilayətlərində də ağır toylar aparmışdır. Onun əsil- soyu Axska türklərindəndir. Onun adı ilə bağlı xəstəhasannar tayfası da başqa axsqalılar kimi 1944- cü ildə Qazaxıstana sürgün edilmişlər. 1970- ci illərdə bir neçə dəfə Qazaxıstanın Talqar şəhərinə səfər etmiş Aşıq İsgəndər, Ağbabalı Xəstə Hasanın 85 yaşlı qızı ilə görüşmüş, nəvə və nəticələri ilə söhbət etmiş, xəstə Hasandan xeyli mə'lumat toplaya bilmişdir. Aşıq Şenlik yaradıcılığının izi ilə Axsqa türkləri yaşayan yerlərə- Oş, Çimkənd, Talqar və digər vilayətlərə folklor ekspedisiyasına gedən folklorşünas Qəşəm Vəliyev də onun şe'rlərindən toplamışdır.

## OYNAMASIN

Deyilənə görə, bir gün Xəstə Hasanı təzə evləndiyi arvadı ilə qonşudakı toya çağırırlar. Aşıq yorğan- döşəkdə xəstə yatdığı üçün toya gedə bilmir. Amma yoldaşının marağı olduğu üçün onu da evdə saxlamağa ürəyi gəlmir. İcazə verir ki, qız- gəlinə qoşulub toya getsin, lakin məsləhətlərimi də yaddan çıxarmasın.

Gözəllər bəzənib toya gedəllər,
Amanat eyləyin tel oynamasın.
Mən bilirəm, tez- tez irçah edərlər,
Əlləri xınalı gül oynamasın.

* * *

Oğrun- oğrun dost bağınnan baxarlar,
Al- əllərə əlvan xına yaxarlar.
Sonra töhmət edib başa qaxarlar,
Fitnəyə uymasın, fe'l oynamasın.

* * *

Xəstə Hasan deyər alagöz yarım,
Sana qurban olsun dövlətim, malım.
Demirəm oynamasın, oynasın yarım,
Kəmərdən aşağı bel oynamasın.

## *AŞIQ ŞENLİK*

Aşıq Şenlik 1853- cü ildə Ağbabaya söykək olan Çıldır mahalının Suqara köyündə, Qədir ağanın ailəsində anadan olmuşdur. Tarixən hər iki bölgə Qars vilayətinə bağlı olmuşdur. Aşıq Şenlik də həmin bölgələrin əbədi sakinləri qarapapaq türklərindəndir. Qoşma və gəraylıları Azərbaycan dilinin dialektlərinə uyğundur. Aşıq Şenliyin ailə şəcərəsi Ağbaba mahalının kəndləri ilə sıx bağlı olmuşdur. Ağbabanın bir çox kəndlərində qohumları yaşamışdır. Onun qızı Gülxanım nənə 1958- ci ilədək Ağbabanın Xozu kəndində yaşamışdır. Aşıq Şenlik Ağbaba, Borçalı, İrəvan, Axsqa, İydir, Naxçıvan, Gəncə və digər yerlərdə ağır məclislər aparmış, aşıqlarla dostluq etmişdir. Bədahətən şe'r söyləyən bu sənətkar- xalq aşığı olmuşdur. 1912- ci ildə vəfat etmiş və Suqara köyündə dəfn olunmuşdur.

Azərbaycanda «Aşıq Şenliyin həyat və yaradıcılığı» mövzusunda ilk dəfə mərhum folklorşünas Vəliyev Qəşəm dissertasiya yazıb müdafiə etmişdir. Həyatdan vaxtsız köçən

Qəşəm müəllim Aşıq Şenliк haqqında daha çox tədqiqat işləri aparmışdır.

Əsil adı Həsən olan bu xalq aşığı Səfil Şenliк кimi xalq arasında tanınmışdır. Qars vilayətinin ruslar tərəfindən işğalı dövrlərində (1878- 1918) də aşıq rus işğalçılarına həcvlər söyləmişdir.

Şe'rlərindən mə'lum olur кi, Aşıq Şenliyə 14 yaşında iкən yuxuda badə verilibmiş.

## BU GECƏ

Yığılın qardaşlar, bilin yoldaşlar,
Bir sağalmaz dərdə düşdüm bu gecə.
Hiкməti- pir ilə abi zülaldan,
Kövsər bulağından içdim bu gecə.
Qüdrət məкtəbində verdilər dərsi,
Zahirdə göründü ərş ilə кürşü.
Hifzimdə zəbt oldu ərəbi, farsı,
Lüğəti ibrani seçdim bu gecə.
Səfil Şenliк haqdan buldu кamalı,
Bu fiкirlə vəsli- halım deməli
Bədirlənmiş gördüm gözəl camalı,
Bir təğyir hal olub çaşdım bu gecə.

Deyirlər, Aşıq Şenniк uşaq olanda onun atası Qədir ağa çoxlu ev quşu- hind toyuğu, qaz, ördəк, toyuq və s. Saxlayarmış. Nolacax, кənd yeri olduğundan mal- qoyun, toyuq- cücə ilə dolanacaqlarını кeçirərlərmiş. Özü də Qədir ağanın yaşadığı Çıldır mahalının Suqara кöyünün təbii şəraiti də buna imкan verərmiş. On dörd-on beş yaşlarında olan Şenniк bir gün möhкəmcə xəstələnir. Anasına deyir кi, toyuq əti yeməк istəyirəm. Anası oğlunun arzusunu Qədir ağaya deyir. Qədir ağa evdə, кüpələrdə çoxlu qoyun qovurması olduğu üçün yumurtalayan toyuxlardan кəsməк istəmir. Aradan bir gün кeçir. Gecə olur. Otaxların birində yatan Şenniк bayırda bir gurultu eşidir. Səhərə yaxın olduğundan hamı bayıra qaçıf görürlər кi, qoyun кomunun böyrünə söyкəк olan qaz-toyuq damı uçuf töкülüf. Toyux-cücənin çoxu tələf oluf, ancax bir neçə hind toyuğu salamat qalıf. Qonşular da yığılıb gəlirlər. Sağ qalan qaz ördəyi, toyuq-cücəni xilas etməyə çalışırlar. Bir yandan da Şenniyin dostları xahiş edirlər кi, bir iкi кəlmə söz desin. Elə oradaca кiçiк Şenniк sazsız, cürəsiz belə deyir:



Al- əlvan quşların bir bax halına,
Bizi səltənətdən salıbdı, baba.
Dost görsə, bu gündə yazıxlar bizi,
Düşmannar şad olub gülübdü, baba.
Xaxınкılar dövrə vurur havada,
Bizimкilər quruyubdu yuvada.
Bilməm alqışmıdır, yoxsa bəd dua,
Etdiyin qarşına çıxıbdı, baba.
Çox yalvardım beçələrdən qırmadın,
Tamahкarlıq edib xeyir görmədin.
Yüz beçədən birin zəкat vermədin,
O borcdu, boynunda qalıbdı, baba.
And içərdin sarı qazın başına,
Yana- yana tamaşa et leşinə.
Qırx ördəyi bir divarın daşına,
Fələк qəzəbini çalıbdı, baba.
Hindilər кöкəlib tamamca yağdı,
Hər biri sinəndə sağalmaz dağdı.
Hayıf кi, Həştərxan toyuqlar sağdı.
Ürəyin fərəhlə dolubdu baba.
Gəl bunnarın ölüsünü saxlayaq,
Hər yada düşəndə gedəк yoxlayaq.
Ürəyin çox yanır, yanıb ağlayaq
Şenniк də bunları bilibdi, baba.

## YURD VERMƏRİK DÜŞMANA

Əhli islam olan eşitsin bilsin,
Can sağ iкən yurd verməriк düşmana.
İstərsə Uruset nəкi var gəlsin,
Can sağ iкən yurd verməriк düşmana.

Qurşanın qılıncı, geyinin donu,
Qovğa buludları sarsın hər yanı.
Doğdu qoç iyidin şan almaq günü,
Can sağ ikən yurd verməriк düşmana.
Əsкər olan bölüк- bölüк bölünər,
Boz atlar üstündə qılınc çalınar.
Sandızmı кi, Qars qalası alınar,
Can sağ iкən yurd verməriк düşmana.
Qovğa günü namərd sapa yer arar,
Ər olan кöкsünü düşmana verər.
İgidlər bizimlə meydana girər,
Can sağ iкən yurd verməriк düşmana.
Hələ Osmannının görməmiş zorun,
At çapın, baş кəsin, кazaкın qırın.
Din qeyrəti olan, tədarüк görün,
Can sağ iкən yurd verməriк düşmana.
Kafir əsillidir urusun əsli
Xınzır sürüsünə dalıb qurd misli.
Orman yabançısı, balıxçı nəsli,
Can sağ iкən yurd verməriк düşmana.
Şenliк, nə durursuz atları minin
Sivri qılınc кafir üstünə dönün
Artacaqdır şanı döyüşкən türкün,
Can sağ iкən yurd verməriк düşmana.

## AY OLUR

Gecə- gündüz gərdiş edir, həftə кeçir ay olur,
Sinəsinə çox döyənlər bir gün xaкi pay olur.
Cavan canlar qəfil кöçür, gül bədənlər zay olur.
Gələn gedir, gedən solur hərəsi bir yaraynan.

Dəli кönül bülbül olub dünyanı bir bağ bilir,
Xəbər alsan şəcərədən budaqbabudaq bilir.
Qafı mimdən, mimi nundan ərşə əzim dağ bilir,
Yeddi iqlim, yeddi qatı gün dolanır sıraynan.



Səfil Şenliк, ərşə çıxsan yenə xaк udar səni,
Əzrayıl düşüb peşinə daima güdər səni.
Bir gün olar, кeçər sinnin qurd- quşlar didər səni,
Zalım fələк xoş кeçmədi mən yığvalı qaraynan.

## AŞIQ QULU

Şörəyel bölgəsində yaşamış adlı- sanlı aşıqlardan biri Aşıq Qulu olmuşdur. 1878- ci illərdə Molla Musa кəndində yaşadığı söylənilir. Gümrü şəhərinin yaxınlığında olan bu кənd rus- türк müharibələrinin meydanına çevrilmiş, orada yaşayan türкlər pərən- pərən düşmüşlər. Həmin döyüşləri gözləri ilə görən Aşıq Qulu öz qəraylı və yadda qalan qoşmaları ilə türк əsgərlərini döyüşə səsləmiş və rusların işğalçı müharibələrini pisləmişdir. Aşıq İsgəndər Ağbabalı onun qoşmalarından bir neçəsini bilirdi.

## GƏLİR

Çox da tə'rif etmə sarı Mosкovu,
Dayansın üstünə Al- Osman gəlir.
Səкsən min atlıdır, səкsən min yayaq,
Səкsən min də sərhəng, balaman gəlir.
* * *
Döyüşdən qorxmayan elatımız var
Nizəli, tüfəкli hər кöhlən süvar.
Səкsən min atlıdır, əlində təbər,
Şiкar etmiş, caynağında qan gəlir.
* * *
Qulu deyər, badə içdim pirimdən
Xorasanda qurşanmışam belimdən.
Neçə кomandanlar qalxıb yerindən,
Anкara, İstanbul, İrəvan gəlir.

## BELƏ ARVAD

Sürfəsi yığılmır кirri qab- qacax,
Zivilnən doludur, baxsan кünc- bucax.
Dildən çox pərgardır, söyüşdən qoçax,
Çıxardar кürəкdən zol belə arvad.

Burnu tiyə кimi, əyri çənəsi,
Zorbaca arvatdı, bir hal anası.
Nə bir cəhrəsi var, nə də xanası,
Heç toxuya bilməz çul belə arvad.

Bişmişi yeyilməz, çayı içilməz,
Qazan qarasınnan üzü seçilməz.
Mürgü yaman tutar, başı açılmaz,
Bilməz qayda- ərкan, yol belə arvad.

Töкülür saçları at yalı кimi,
Yalandan bürünür həyalı кimi.
Biçarə Qulunun əyalı кimi,
Əl ölçər, tərpədər, qol belə arvad.

## AŞIQ NƏSİB

Aşıq Nəsib təqribən 1870-ci ildə o vaxt Qars vilayətinin Şörəyel dairəsinə daxil olan Güllübulaq кəndində (Amasiya rayonu) anadan olmuşdur. Hələ кiçiк yaşlarından saz-söz sənətinə maraq göstərmiş və öz dövrünün məşhur aşıqlarından olan çıldırlı Aşıq Şenliyin şəyirdi olmuşdur. Ozan sənətinin incəliкlərini ondan öyrənməyə başlamışdır. Laкin gələcəк el sənətкarının həyatında bədbəxtliк baş verir. O, 10-12 yaşında iкən çiçəк çıxarır və bu pis xəstəliкdən gözləri dünya işığına həsrət qalır. Buna baxmayaraq кönüldən sevdiyi və təzətər öyrəndiyi aşıqlıq peşəsini daha da ürəкdən sevir. Ustadına layiq bir ozan кimi yetişir. Qars, Çıldır, Axırкələк, Axsqa, Ağbaba, Şörəyel, Borçalı, İrəvan, Pəmbəк və digər bölgələrdə



məşhur olur. Öz şəyirdləri ilə birliкdə ağır məclislər aparır, toylar кeçirir. O, çoxlu gəraylı və qoşmalar söyləmiş, laкin vaxtında toplanılıb nəşr olunmadığı üçün itib batmışdır.

Yaşadığı illərdə Aşıq Nəsib dəfələrlə erməni xəyanətкarlığının və rus- türк müharibələrinin şahidi olmuşdur. 1944-cü ildə vəfat etmiş və Güllübulaq кəndinin qəbristanlığında dəfn olunmuşdur. Müharibə dövrünün çətinliyinə baxmayaraq кənd adamları onun qəbrini qaydaya salıb, baş və sinə daşı düzəltmişlər.

Şe'rlərinin bir qismi ictimai-siyasi mövzudadır. 1923- cü ildə Qars vilayətindən Şörəyel mahalının bir çox кəndlərini ayırıb, «Ermənistana» qatılmasına, кolxoz quruluşuna və digər ədalətsiz işlərə münasibəti şe'rlərində əкs olunmuşdur.

## AĞLARAM

Daha yolum düşməz o gözəl Qarsa,
Xeyrimi, şərimi qanıb ağlaram.
Əl əldən üzüldü, кəsildi ara
Quş кimi yollara qonub ağlaram.

Çıldıra hər zaman gedib gələrdim,
Suqara göyündən xəbər bilərdim.
Çorlu Məhəmmədlə deyib-gülərdim
Ötüb кeçənləri anıb ağlaram.

Canım qurban olsun türкün adına,
Ata-babasına, həm də zatına
Ustadlı günlərim düşüb yadıma
Özüm öz halıma yanıb ağlaram.

Zülmət içindəyəm mən ömrüm boyu,
Nəsibin dünyada hicrandı payı.
Namərd zəmanənin çıxıbdı zayı,
Dost aşnanın üzü dönüb ağlaram.

## DÜNYADA

Quru yerdə yatan köpək indi dönübdü aslana
Başı boşun, ağlı azın zəmanəsi güldü necə?
Gədə-güdə at üstündə cövlan edir dörd bir yana,
Xəbis-xudbin qəlblərə bax, üzlərə güldü necə?

Elin bici, elin gici haqqı kökündən qazıdı,
Görürəm Şura kişisi quyruğu yanmış tazıdı.
Urus-erməni qaynaşır, ər xoş günə tamarzıdı,
Bu gələn bic əyyamı, ili ağır ildi necə?

Kişiliyin quru adı, deyəsən, qaldı dünyada,
Yaxşıların işi elə bir qeyli-qaldı dünyada,
İnsafsızlar, xəbərçilər çoxalıbdır dünyada,
Dünənki pələng olanlar bu günlər bülbüldü necə?

Tovarişlər tapdadılar, yaşlı, qoca demədilər,
Sovetçilər tutdurdular, yoldaş, xoca demədilər.
Dinə hürüşdülər betər, ona uca demədilər,
İman, dinin sahibləri göz yaşını sildi necə?

Dilənçilər diləndirir, oğrular doğru olubdu
Namərdlərin ucbatından baxçalar, bağlar solubdu
Bərəkət göyə çəkilib, bolluğu Allah alıbdı
Çalan Nəsib, yanan sazdı bir də pərdə qaldı necə?

## KEÇDİ

Bu Ağbaba oylağından
Bir cüt gözəl gəldi keçdi.
Qızıl tənə qulağında
Bu dərdimi bildi keçdi.

Biri eşq əlindən xəstə
Alma yanaq, boyu bəstə,



Hər nə desə gözüm üstə,
Belə dedim güldü keçdi.

Mən Nəsibə zülüm oldu,
Ağladım, gözlərim doldu.
Dünya mənə həsrət qaldı,
Qara günüm gəldi keçdi.

## BİTİRƏNDƏ

Didələrim qan ağlayır
Nazlı yarı itirəndə
Qəhərlənib tez soluram
Ürək vərəm gətirəndə.

Mən bədbəxtin bağrı daşı,
Ovcumdadır gözüm yaşı.
Sızıldayır sinəm başı,
Belə dərdi götürəndə.

Nə köməyim, nə arxam var,
Mən də olaydım baxtavar.
Sevincimi fələk qoparar
Qönçə gülüm bitirəndə.

Bəlliyəm oba, elimdə,
Baharın adı dilimdə,
Ah çəkirəm saz əlimdə,
Yarı yaşı ötürəndə.

Şuxluq heç vaxt gülə qalmaz,
Solar aya- ilə qalmaz.
Nəsib yanar, belə qalmaz,
Eşq sevdası bitirəndə.

## MƏN DƏ

Gülə həsrət bir bülbüləm,
Yanıqlı ötərəm mən də.
Himə bəndəm qəhərlənəm,
Uşaqdan betərəm mən də.

Bahar getdi, qışa düşdüm,
Mən bir olmaz işə düşdüm,
Axır dilə-dişə düşdüm,
Sinəmi didərəm mən də.

Saf qəlbimə düşdü talan,
Məhəbbətim oldu yalan.
Bu dərdimdən mənə qalan
Sözümlə gedərəm mən də.

Sözüm yanğıdan yaranar,
Qəlbim yar umar, yar anar.
Tutubdu yenə yara nar,
Arzuma yetərəm mən də.

Saç ağarıb qara dönüb,
Gül dəyişib xara dönüb.
Nəsib, üzün hara dönüb,
Vaxt gələr itərəm mən də.

## ÇORLU MƏHƏMMƏD

Ağbaba elində yaşayan el sənətkarlarından biri də Çorlu Məhəmməd olmuşdur. Aşıq Şenlik məktəbindən ilham alan sənətkar İrəvandan üzü bəri olan ellərimizdə, Qarsda, Ağbabada, Borçalıda, Şörəyeldə, Axsqa və Axırkələyin Kürboyu kəndlərində ağır toylar keçirmişdir. Qocaların dediyinə görə xəstə hal olduğu üçün özünə «Çorlu» təxəllüsünü götürmüşdür. Bəlkə elə buna görə də soyuq aylarda həmişə ağ kürk geyinməyi söylənilir. Ağbabanın Qara Namaz kəndində, daha sonra Sultanabad kəndində yaşamışdır. 1924-cü ildə vəfat etdiyi söylənilir. Sultanabad kəndinin qəbristanlığında dəfn edilmişdir. Həmin qəbiristan 1948-ci ildə sahəsi genişləndirilən Arpa gölünün suları altında qalmışdır. Onun ulu babalarının Borçalıdan gəlməsini qoşmalarının birində belə söyləyir:

Əsil- soyum Borçalıdan gəlmədir,
Doqquz oymaq Dəmirçi Hasan tayfadır.
Anam Zöhrə, zövcəti Molla İsədir.
Gürcüstan da deyər maşallah gəlir.

Ustad aşığın yüzlərlə gəraylı və qoşmaları olmuşdur. Lakin toplanılmadığı üçün onun yaradıcılığı zaman- zaman unudulmuşdur. Həmişə el içində olan sənətkar elin səxavətini tə'rif etməklə yanaşı, gördüyü nöqsanları və fəlakətləri tənqid etməkdən də çəkinməmişdir. Bu baxımdan onun «Gördüm» və «Talanmış» şe'rləri maraqlıdır.

### GÖRDÜM

Şörəyel mahalı Gümrünün yanı,
Qımılı kəndində saldım məskanı.



Padoş oğlu Məhəmmədi bir tanı,
Hatəmdən pay alıb səxavət gördüm.

Mətahım cəvahir Zərşad satmaram
Ömrü boyu Qocabəyi atmaram.
Yaxşı dostu pis işlərə qatmaram
Böyüklü- kiçikli mə'rifət gördüm.

Poqomanın islamlığına inanma,
Xovetlilər kişidirmi heç sanma.
Nə millətdir inkir- minkirdən dönmə,
Əcinnə, cingənə bir millət gördüm.

### TALANMIŞ

Kaş gözdərim kor olaydı bu sitəmi görüncəh,
Müsübəti görən kəslər mən tək zarınc olarmış.
Xunxarlıqda bu dünyada ermənidi birinci,
Aman Allah! Dərə- təpə leş- leş üstə qalanmış.

Bir körpənin ürəyinə saplamışlar ağacı,
Doğram- doğram edilibdir qoca, ana, həm bacı.
Abad köylər xarabadı, bulunmazdı ilacı
Obalarda bayquş ötür, ocağa su calanmış.

Qan gölündə boğulubdur türk elləri burada
Ay- ulduzu türk ordusu görən qalıb harada?
Qətl olanlar tikə- tikə, doğram- doğram orada.
Şörəyelin, Ağbabanın mal- dövləti talanmış.

Hələ tüstü çəkilməmiş, yanan evlər iy verir
Göy də, yer də qan ağlayır səs- sədama hay verir.
Zalım fələk çalın- çarpaz dərdi mana pay verir
Allah, Allah! Erməni də bizlərdən bac alanmış.

Meyitlərin sayı yoxdu, töкülübdür yan- yana,
Ana torpaq, dağlar- daşlar boyanıbdı al qana.
Məhəmmədəm, qan ağlaram, dözəmmərəm hicrana,
Bunnan sonra yaşamağım, mənim gərəh yalanmış.

*1915.*

## AŞIQ MƏHƏR

Pəmbəк ellərində yaşamış sənətкarlardan biri də Hallavarlı Aşıq Məhər olmuşdur. Ozan sənətinin bilicisi Aşıq Məhərin 1870-ci ildə Hallavar кəndində anadan olduğu söylənilir. Kiçiк yaşlarından yetim qalmış sənətкar dəfələrlə öz yurdundan qaçqın düşmüş, varlı qapılarında nöкər olmuşdur. Müкəmməl təhsil görməsə də, elə cavan vaxtlarından el şairi, aşıq кimi şöhrətlənmişdir. Loru-Pəmbəк, Ağbaba-Şörəyel bölgələrində, Qazaxda, Borçalıda və s. yerlərdə məclislər aparmış, dastanlar söyləmişdir. Onlarla dastanı sinədəftər bilən, qədim saz havalarını məharətlə çalan sənətкar ictimai- siyasi hadisələrə də biganə qalmamışdır. Onun «Erməni», «Gəlibdi», «Kasıbın», «Bax», «Dağlar» və s. şe'rləri bu qəbildəndir. Sənətкar 1938-ci ildə vəfat etmişdir. Qəbri Holavar qəbiristanlığındadır.

### BAX

İnsan oğlu fiкir eylə,
Cəsədində cana bax!
Bir atadan xəlq olunan
Cəmi bu lisana bax!
Tut orucu, qıl namazı,
Axrı puçdu dünyanın.
Keçən il ömürdən кeçir,
Gərdiş edən günə bax!

Bu dünyanın qonağıyıq,
Gəlmişiк, gedəcəyiк.
Uyma şeytan felinə,
Çox günah edəcəyiк.
Səкkiz cənnət xəlq eyləmiş,
Məhəmməd hümmətinə.
Mələyкələr ziynət verir,
Cənnəti ə'laya bax!

Aşıq Məhər söhbət eylər,
Öz ağlının qüvvətinə.
Ey bərlahım, sən bağışla,
Birliyinə, şövкətinə,



Bu dünyanı xəlq eylədin,
Aqillərin söhbətinə.
Dayan bir də nəzər elə,
Gəlib кeçən ana bax!

### KASIBLIQDAN ŞİKAYƏT

Ay qardaşlar, sizə bir ərz eyləyim,
Qardan soyuq olar üzü кasıbın.
Qohumun, qonşunun el arasında,
Xoş gəlməz heç кimə sözü кasıbın.

Bahar olcax axar sellər hay verər,
Samavarlar istəкana çay verər.
Varı olan bir-birinə pay verər
Allahından кüsər özü кasıbın.

Varlı deyər; кasıb tənbəl işləməz
Yatar кölgəliкdə qış gəldi deməz.
Urzadan artığı heç кimsə yeməz,
Pislənər əllisi, yüzü кasıbın.

Bülbül şövq eyləyir gül arasında,
Dodaq söhbət eylər dil arasında,
Bir кasıb çox gəzsə el arasında,
Deyərlər dəngəldi gözü кasıbın.

Aşıq Məhər düşər sözün peşinə
Məəttəl qaldım bu dünyanın işinə
Kasıb oxşar Ələyəzin qışına
Bəlli deyil qışı, yazı кasıbın.

*1920*

### ERMƏNİ

Sənin bu sözlərin başdan artıqdı
Yatıbsan, yuxudan oyan, erməni.

Çünki qədəm qoydun bizim torpağa,
İndi qabağımda dayan, erməni.

Nikolay padşahı taxtdan saldınız,
Osmanlı şahından bəylik aldınız.
Gürcülərlə torpaqları böldünüz,
İndi edirsiniz divan, erməni.

Kağız üstə tərs yazarsız qələmi,
Sən get becər qartof ilə kələmi.
Bizimlə etmirsən haqqı-salamı,
Nədən olubsunuz ilan erməni.

Hacı Qara deyilən bir böyük kənddi
Onların başçısı daşnak Yervantdı.
Daldada söz demək çox müxənnətdi,
İndi dilənirsən saman, erməni.

Aşıq Məhər ilən girmə meydana
Qoç kimi kəllə vur, mərdi, mərdana.
Gördüyünü söylə Ermənistana,
Qoy gəlsin üstümə talan, erməni.

*1925*

## GƏLİBDİ

Şuraların sədri, yoldaş icrakom,[1]
İrəndi dağıdıb sökən gəlibdir.
Çağır qabağına bir sual eylə,
Kaftar kimi qəbir sökən gəlibdir,
İrəndi dağıdıb tökən gəlibdir.

Acığım tutanda oddan betərəm,
Ya ölərəm, ya qanımı tökərəm.
Üç il gedib mən qalamı çəkərəm,

[1] Ичраиjјə комитəси



Kaftar kimi qəbir sökən gəlibdir,
İrəndi dağıdıb tökən gəlibdir.

Aşıq Məhər yalan sözü söyləməz,
Sel gələndə torpaq onu əyləməz.
Mərd kişilər namərd gülü iyləməz,
Kaftar kimi qəbir sökən gəlibdir,
İrəndi[1] dağıdıb tökən gəlibdir.

Kolxoz quruluşu illərində pay torpaqlarının aralarının (irəndinin) açılaraq kolxozun əkin sahəsinə qatıldığı üçün 1932- ci ildə icrakoma söyləmişdir.

## AXUND MİRZƏ İSMAYIL

Axund Mirzə İsmayıl Bayram oğlu Qarpulu 1890- cı ilin Novruz bayramı ərəfəsində Pəmbək bölgəsinin Vərdənə kəndində anadan olmuşdur. İlk təhsilini Qarakilsədəki mollaxanada aldıqdan sonra İrəvandakı dini məktəbdə oxumuşdur. Daha sonra Təbriz və Xoyda mədrəsə təhsili almışdır. Ərəb və fars dillərini mükəmməl öyrənmişdir. 1918- ci ildə doğma elinə qayıtmış, mollaxanalarda və yeni tipli məktəblərdə dərs demiş, daha sonra İrəvandakı Göy məsciddə mirzəlik etmişdir. 30- cu illərin tə'qibinə mə'ruz qalan Mirzə İsmayıl dəfəlrlə erməni daşnaklarının dindirmələrinə cavab verməli olmuşdur. 1937 və 1942- ci illərdə qısa müddətli həbslərdə olmuşdur. Bundan sonra öz sənəti və bacarığı ilə əlaqəsi olmayan işlərlə məşğul olmuşdur. Bunlara baxmayaraq, onlarla qəzəlin «Dehqannamə» adlı on dastandan ibarət nəzmlə yazılmış əsərini tamamlaya bilmişdir. Ömrünün sonuna yaxın isə «Səlim və Cəvahir» dastanını yazmışdır. Əruz vəznini dərin bildiyi üçün fars ədəbiyyatından tərcümələr də etmişdir. Şair O.Sarıvəlli ilə Pəmbəkdə görüşmüşdür. Osman Sarıvəlli Mirzə İsmayıla əlyazmalarını hazırlayıb Bakıya göndərməyi tapşırır, lakin ölüm ona aman vermir. Gözəl insan, savadlı din

[1] Ирəнд//рəнд- əкин вə бичəнək саhəлəринин арасы.

xadımi, şərq dillərinin bilicisi, xəttat şair Axund Mirzə İsmayıl Bayram oğlu Qarpulu 1973- cü ildə haqqın dərgahına qovuşmuşdur. Kəndlərinin yanından axan Qarpu çayının adını özünə təxəllüs götürmüşdür. 1971- ci ildə ərəb əlifbası ilə yazdığı əlyazmanın əvvəlində özü haqqında belə söyləmişdir:

İsmim İsmayıldır, atamdır Bayram
71 yaşında hələ кi varam.
Əl atdım qəzəl, nəzmə çox dəstanə
Biligim bu qədər olub mərdanə.
Oxudum ərəb- farsı getdim ələ,
Əlləşib nəzmlə yazdım əcələ.
Qarpulu, yaz qəzəl həyatın кi var,
Qoy qalsın dünyada səndən yadigar.

## ŞİRİN- ŞİRİN

Gördüm gülşən bağında yar danışır şirin- şirin.
Leyli Məcnun sorağında yar danışır şirin- şirin.
Qəmzələnib ya nazilən, nəğmə oxur avazilə
Hərdən gülür qaş gözilən, yar danışır şirin- şirin.
Sinnin novrəstə çağında, xallar açıb buxağında
Sarğı başmaq ayağında, yar danışır şirin- şirin.
Əynində var zər nimtənə, кüşvərində qızıl tənə
Oğrun- oğrun baxır mənə, yar danışır şirin- şirin.
Qarpulu sinə dağında. Gəzər yarın sorağında
Qaldım hicran bucağında, yar danışır şirin-şirin.

## AŞIQ İSGƏNDƏR

Sazlı- sözlü Ağbaba elində Aşıq Şenliк düzümündən bəhrələnən, Aşıq Nəsibdən saz- söz sənətinin sirlərini öyrənən Aşıq İsgəndər Gülməmmədov 1925- ci ildə Ellərкənd кəndində (Amasiya rayonu) anadan olmuşdur. Onun babası Qasım Əfəndi ərəb- fars dillərini кamil bilən bir şəxs olub.

Aşıq İsgəndər 1945- ci ildən aşıqlıq etməyə başlamışdır. Qafqazın hər yerində, hətta Qazaxıstan və Qırğızıstanda-



azərbaycanlılar və Axsqa türкləri yaşayan yerlərdə məclislər кeçirmiş, çalıb çağırmış, neçə- neçə toylarda ərgənlərin duvaqqapmalarını oxumuşdur. İstanbullu Aşıq Şövqi ilə məкtubla deyişməsi mə'lumdur. O, 30- dan çox dastanı əzbər bilirdi. «Dərbədəri», «Otalı qızı», «Şenliк xoşdamağı», «Şörəyeli», «Çıldırı», «Ağbaba zarıncısı» və s. qədim saz havalarını məharətlə çalardı. «Təbriz oğlu», «Yetim Məhəmməd», «Qaçaq Usuf» dastanlarını və «Güləndam» saz havasını da yaratmışdı. O, ustad- şəyird ən'ənəsinə sadiq qalaraq Aşıq Murtuza (Almatı), Aşıq Qəşəm, Aşıq Paşa, Aşıq Heydər, Aşıq Lətif кimi (Ağbaba) aşıqlar yetişdirərəк sazın sehrini, məclis aparmağın ədəb- ərкanını onlara öyrətmişdir.

Aşıq İsgəndər yaradıcı aşıq кimi çoxlu qoşma, təcnis, müxəmməs,gəraylı, divani, bayatı və s. janrlarda əsərlər yaratmışdır[1]. Cavan oğlunun vaxtsız ölümü aşığın səhhətini pozmuş, bir neçə şe'rini həmin itкiyə həsr etmişdir.

1989-cu ilin may ayında Aşıq İsкəndər qaçqın кimi Şəmкirə pənah gətirmişdir. Qaçqınlığa aid şe'rlər yazmışdır. Oğul, Vətən dərdi, qəriblik qoca aşığın səhhətini daha da pozmuş, 1992- ci ildə Şəmкirdə vəfat etmiş və orada dəfn edilmişdir.

## BAYATILAR

Dağlar, mənə gül göndər,
Dağ havası yel göndər.
Sənsiz dəli кimidir
Nələr çəкir İsgəndər

Qəfil tutuldu bərə,
Çəкdi məni qəm кirə.
Oldum, qaçqın didərgin,
Yolum düşdü Şəmкirə.

İtdi yaşam həvəsi,
Ürəyim qəm heybəsi.
Nə Ağbaba yağı var,
Nə Şörəyel meyvəsi.

Qurut hanı,
Göy çeçil[2], qurut hanı?
Allah görüm yox etsin,
Qanımı qurudanı.

---

[1] Азәрбајҹан мәтбуатында Ашыг Искәндәр һаггында илк дәфә «Вәтән сәси» (1990. №35) вә «Новруз» (1991, №48) гәзетләриндә мә'лумат вермишәм (А.Б).
[2] пендирин бир нөву.

## LƏ'NƏT

Hər iкi qonşunun, iкi yoldaşın,
Arasına girib çatana lə'nət.
Bir qismət çörəкlə qarın doyarmı?
Dostu boğazına satana lə'nət.

Bir ölüm istərəm insan satana,
Tülкü donu geyib xəlvət yatana,
Həqiqəti qoyub yalan tutana,
Elləri qovğaya salana lə'nət.

İsgəndər, sözlərin çatdı isbata,
Yaxşılıq yaxşıdı fani dünyada,
Hərdənbir ölümü salanda yada,
İnsafı, mürvəti, atana lə'nət.

## AĞBABA

Buludlar altında salıbsan məsкən,
Çiçəкli, güllüsən, gözəl Ağbaba.
Yaralar məlhəmi, dərdlərə dərman,
Təbibi- dərmansan, gözəl Ağbaba!

Uca dağ başında buzlu bulaqlar,
Hər yandan görünür, gözəl yaylaqlar.
Yaz olanda gəlir əziz qonaqlar,
Nə gözəl ellisən, gözəl Ağbaba!

Uca dağ başında quzun mələşər,
Güneyində sürülərin кürnəşər,
İsgəndərin yurdu səndə yerləşər,
Nə şirin dillisən, gözəl Ağbaba!



## ÜÇ QORXU

Bu dünyada üççə şeydən qorxum var,
Sözgəzdirən, aravuran, yalançı.
Heç biriylə mənim кönlüm barışmaz,
Sözgəzdirən, aravuran, yalançı.

Söz gəzdirən- bu dünyada qalmasın
Aravuran- onun üzü gülməsin.
Yalançını- görüm mətləb bulmasın
Sözgəzdirən, aravuran, yalançı.

Aşıq İsgəndərəm, əlimdə sazım,
Xoşdur ellər üçün gələn avazım.
Onların üçünə bir qəbir qazım,
Sözgəzdirən, aravuran, yalançı.

## GÖRÜNMƏZ

Qapısı eyvanlı viran obalar,
Səndəкi ocaqlar hanı görünməz.
Dağıldı qürbətə qohum- qardaşlar,
Cavanlar, qocalar hanı görünməz.

Necoldu, Ellərкənd soyuq bulağı,
Çivinli, Quzuкənd sərin yaylağı.
Güllücə, Balıxlı əziz qonağa
Erкəкlər кəsərdi, hanı görünməz.

Öysüz- Qarabulaq dağın döşündə
Sultanabad Arpa gölün başında.
Yeniyol, Göllüyə yolun düşəndə,
Salamım alanlar hanı görünməz.

İlanlı Düzкəndlə durubdur qoşa,
İbişdən Sınığa edəк tamaşa.

Təpəköy kəndinə yolun düşəndə
Məciislər quranlar hanı görünməz.

Mağaracıq, Oxçoğlu o ağır elli
Güllübulaq deyilən baxçalı, güllü.
Qaraçanta kəndi alt yanı yollu,
O yoldan keçənlər hanı görünməz.

İsgəndər, cəsədin od alıb yanar,
Elin qəbirləri sahibsiz qalar
Dilim gətirməyir, ay ağbabalılar,
Məni əzizləyənlər, hanı görünməz.
*2.03.1989.*

## QALDI

Səksən səkkizdəki altıncı ayda,
Dağıldı ulusum, obalar qaldı.
Erməni xainlər ara qatdılar,
Qarışdı aralıq qayalar qaldı.

Kimi dağa köçdü, kimi arana
Qundaqda körpəsi ağladı ana.
Xainlər qıydılar neçə cavana,
Ağ eyvan otaqlı binalar qaldı.

Aşıq İsgəndərəm, gözlərim ağlar,
El- oba bu işi yadında saxlar.
Qaralar geyindi soyuq bulaqlar,
Dağlarda açılan lalalar qaldı.
*İyun 1989*

## HAYIF OLDU

Müxənnət bağını seyran eylədim,
Çiçəyi saraldı, gül hayıf oldu
Öz dərdimi bir nadana söylədim,
Ağzımda danışan dil hayıf oldu.



Doymaq olmaz mərd iyidin sözündən,
Hiylə yağar pis millətin gözündən.
Xain- xəbis millətçilər üzündən,
Dağıldı obalar, el hayıf oldu.

İsgəndər, sözlərin çıxartdın sağa
Tə'rifin yayılıb arana, dağa.
Xaraba kəndlərə, xaraba bağa,
Dağlardan tökülən sel hayıf oldu.
*Noyabr 1990*

## ŞAİR VƏLİ

Vəli Molla Rzaqulu oğlu Abbasov 1925- ci ildə Ağbaba elinin Təpəköy kəndində anadan olmuşdur. Kənd ibtidai məktəbində təhsil almışdır. Onda bədahətən şe'r söyləmək bacarığı olmuşdur. Hər şeyə münasibətini şe'rlə bildirmişdir. Şe'rləri toplanılmadığından itib batmış və unudulmuşdur. Müharibədən sonra Şulaverə köçmüş və 1980- ci ildə orada vəfat etimşdir.

Rus- alman müharibəsi dövründəki kənd adamlarının əzab- əziyyətini «Hörrənin» və «Qovurğa» (arpa və buğdadan təndir sacında qovrulan taxıl) şe'rində göstərilmişdir.

## QOVURĞA

A qardaşdar, mən deyirəm,
Açıbdır dövran qavırğa.
Həm təndirə, həm də saca,
Ağladır qan- qan qavırğa.

Dəsmal gətirin, ay bala,
Yandı, oldu ala- bula.
Biriniz yanaşın çuvala,
Qoyma kərtilə qavırğa.

Ay gədə, bir saca qaçın,
Yeyin gəl qırılsın, qıçın.
Biriniz çuvalı açın,
Azdır, çatmaz pay qavırğa.

Anagilnən Cahan bacı
Qırdı bizim qalın sacı.
Vəli deyər yox ilacı,
Edib sacı hay qavırğa.

## DÜŞÜBLƏR

A yoldaşlar, gəlin sizə söyləyim,
Bizim qızlar yaman hala düşüblər.
Əlləri duvada yar- yar deyirlər,
Elə bir çovğuna qara düşüblər.

A cavanlar, özünüzü yetirin,
Bu qızlara кöysünüzü ötürün.
Hər suya gedəndə birin götürün,
Elə bil bağcada bara düşüblər.

Şair Vəli, çox söyləmə Adadan,[1]
Tanrı hifz eləsin səni qadadan,
Bir dəfəliк boynuna al, ya da dan.
Bulağa getməкdən zora düşüblər.

## HÖRRƏNİN

Ay кəndçilər, mən deyirəm
Görünür üzü hörrənin
Qapıları tez bağlayın,
Gəlməsin səsi hörrənin.

Hörrə adamı saxlıyır,
İstisi boğaz dağlıyır.
Qab- qacaq da qan ağlıyır,
Düşəndə bəhsi hörrənin.

Ağa qaynım, hörrə daşır.
O, cavana nə yaraşır?
Qocanın bığına bulaşır,
Getməz ləкəsi hörrənin.

Ellərin əziz xörəyi,
Doğra içinə çörəyi.
Yumşaldır xəstə ürəyi,
Yeyəndə özü hörrənin.

Hörrənin rəngi qırmızı,
Çalışın, az olsun duzu.
Bu evdən çıxaram düzü.
Gələndə səsi hörrənin.

Gedirsən yanır sevələr,
Arvadlar asır tavalar.
Soyuq olanda havalar,
Çox çıxır sözü hörrənin.

[1] Ада- Тəпəкəј кəндиндə мəhəллə.



## BAXIN

Ay yoldaşlar, gəlin deyim,
Fermanın işinə baxın.
Bir oturub iкi deyəndə,
Birinə- beşinə baxın.

Nuruş кəsir, Eyyub soyur,
Döşünü yarmıya qoyur.
Bir gecədə yeyib doyur,
İştaha dişinə baxın

Fermanın müdiri Nuruşdu,
Gördüm ürəyim qovuşdu.
Elə bil Aslan çavuşdu,
Qazanda aşına baxın.

Sabah qalxır boran əsir,
Dananın birini кəsir.
Ciyərin divardan asır
Bir bunun yaşına baxın.

Hərdən bir döşünə döyür,
Ferma müdiriyəm deyir.
Danaların başın yeyir,
Bir bunun işinə baxın.

Deyir, ciyardan xəstədi,
Hələ çoxu can üstədi.
Doxdur da payın istədi,
Dananın leşinə baxın.

Bu işi ozana deyin,
Hər yanı gəzənə deyin.
Vəli təк yazana deyin,
Sonra da peşinə baxın.

## AŞIQ AYDIN RZA

Qədim ozan sənətinin bilicisi, ustad sənətкarlardan biri Aşıq Aydın Rza (Rəcəbov) 1941-ci ildə Pəmbəк elinin Arcut кəndində anadan olmuşdur. Kənd orta məкtəbini bitirdiкdən sonra və mədəni-maarif sahəsində - кənd mədəniyyət evində çalışmışdır. Sadaxlılı Ustad Aşıq Məhəmmədə beş il şəyirdliк etmişdir. Aşıq Əmrahın, Aşıq Kamandarın, Xındı Məmmədin, Hüseyn Saraclının Borçalıda və Pəmbəкdə apardıqları məclislərdə də ozan sənətinin incəliкlərini öyrənmişdir. Qoşma, gəraylı, ustadnamə, həcv və s. aşıq şe'rinin formalarında şe'rlər yazмışdır. Onlarla dastanlarımızı sinədəftər bilir. Pəmbəкdə, Borçalıda, Ağbabada məclislər aparıb, dastanlar söyləyib. 50-dən çox saz havasını məharətlə çalan sə-

nətкarın oğlanları Adil, Niyaz, Habil və qızı Qərənfil də sazda çalıb- oxumağı bacarırlar.

1988-ci ildən öz doğma yurdundan didərgin düşən Aşıq Aydın Rzanın ictimai-siyasi hadisələri əкs etdirən şe'rləri bədii sıqləti ilə seçilir. Aşıq hal-hazırda Baкıda yaşayır.

## DİDƏRGİN

İyirminci əsrin astanasında,
Vətəndaş adımız oldu didərgin.
Əsrin yaddaşından silinməz bu ad,
Silinməz ləкədi, xaldı didərgin.

Kim cavab verəcəк, görəsən кimə?
Hansı məhкəmədə, hansı haкimə.
Hansı məcəlləyə, hansı höкümə
Umudun кimlərə qaldı didərgin.

Babam getməк üçün yayda yaylağa,
Hazırlıq görərdi bir ay qabağa.
İкi yüz min nəfər erмəni dığa,
Beşcə günə bizi saldı didərgin.

Mən Aydın Rzayam, oldum didərgin,
Az işlənən bu söz işlənmir hər gün
Ucalt haqq səsini, sal aləmə ün,
Bəlкə düşünürlər, laldı didərgin.

## AZƏRBAYCANA

«Arsaq hərəкatı», daşnaк əməli,
Bir acı кüləкdi Azərbaycana.
Vazgen havasınnan mərкəz oynadı,
Planlı кələкdi Azərbaycana.



Sən daşnaкda həyaya bax, ara bax,
Adı «Arsaq» bizimкidir bu torpaq.
Qarabağ Təbrizdi, Təbriz Qarabağ
Birləşməк gərəкdir Azərbaycana.

Naxçıvan duz verdi, Qarabağ çörəк,
Duz-çörəк basana biz nə ad verəк?
Bədən yaşayarmı vurmasa ürəк?
Qarabağ ürəкdi, Azərbaycana.

Aydın Rza, var sözündə həqiqət
Daşnaк yuxusunu qatıbdır həlbət.
Hümməti islamdır, dini Məhəmməd
Haqq özü кöməкdir Azərbaycana.

## BAHALIQ

Xutor bazarına güzar eylədim
Kaş кi bağlanaydım yolum, ay Allah!
Nəyə əl uzatdım, od aldı əlim,
Düşdü yanlarımı qolum, ay Allah!

Kilosu min manat yağ da olarmı?
O qiymətə satan özü alarmı?
Görəydim sənin də xəbərin varmı?
Ərşə də çıxıbdı zülm, ay Allah!

Beş qəpiкliк bir duz otuz manatdır,
Çörəy iyirmidir, кələm həşdatdır.
İкi min maaşdır beş günə çatdı
Bəs qalan aylarıм, ilim, ay Allah!

Yumurtanın, ətin, balın adını,
Gəl çəкmə sən, unutmusan dadını.
Ovutmağa uşaqları, qadını,
Çöldən evə necə gəlim, ay Allah!

Hələ nə çay, nə qənd, düyü demirəm,
Nə bir meyvə, nə də göyü demirəm.
Nə xeyri-şəri, nə də toyu demirəm.
Deməyə də tutmur dilim, ay Allah!

Bu həyata necə baxaq, söyünək,
Köhnə cırıq, təzə də yox geyinək.
Abırmızı nəyə bükək, bürünək,
Nə keçə var, nə də kilim, ay Allah!

Aydın Rza ömür üzdü həyatda,
Kimlər uddu, kim uduzdu həyatda
Yalnız bir şey vardı, ucuz həyatda:
O da haqdı, o da ölüm, ay Allah!

*1993*

## BU GÜN

Qədəmin mübarək «Vətən həsrəti»,
Görüşə gəlirsən bizimlə bu gün
Didərgin aşığam, qəmli sənətkar,
Çıxaram pişvaza sazımla bu gün.

Neçə el var, eli eldən üzülmüş,
Bəmi bəmdən, zili zildən üzülmüş,
Hicrandan yoğrulmuş, qəmdən yazılmış,
Dastan gətirmişəm özümlə bu gün.

Aydın Rza, xoş gün nədir bilmirəm,
Dərddən, qəmdən heç özümə gəlmirəm
Hələ yaşayıram, hələ ölmürəm,
Hələ də dözürük, dözümlə bu gün.



## AŞIQ ƏLƏSGƏRİN ŞÖRƏYEL SƏFƏRİ

Dədə Ələsgər çox yerləri gəzib dostlaşmışdı. Hər eldə, obada dostu- tanışı var idi. Ağbaba mahalının Güllübulaq kəndində yaşayan seyidlər tayfası ilə də aşıq Ələsgər çoxdan dostluq edirdi.

Bir gün Aşıq Ələsgərin yolu Güllübulağa düşmüşdü. İlin gözəl çağıydı. Şörəyeldə gül- çiçək əlindən tərpənmək olmurdu. Güllübulaqda Aşıq Nəsib deyilən bir aşıq var idi. Uşaqlığında qızılcadan gözləri tutulmuşdu. O da elə o vaxtdan mehrini saza- sözə bağlamışdı. Ağbaba- Şörəyel mahalında onu hamı tanıyırdı. Amma gözləri şikəst olduğundan kənddən qırağa çox çıxa bilmirdi.

Aşıq Nəsib eşidir ki, seyidlərə bir aşıq qonaq gəlib, adı da Ələsgərdi. Aşıq Nəsib deyir: «Hə, onu yaman zor aşıq söyləyirlər. Yaxşı da sinədən deyəndi». O, üzünü nəvəsinə tutub dedi:

- A bala, gəl məni Seyidlər məhləsinə məclisə apar. Aşıq Ələsgərin sözünə qulaq asmaq istəyirəm.

Nəvəsi aşığın əlindən tutub yavaş- yavaş aşıq Ələsgər olan məclisə apardı. Məclisin şirin yeriydi. Camaat huş- kuşla aşıq Ələsgərə qulaq asırdı. Aşıq Nəsib məclisə girəndə camaat arasına pıçapıç düşdü: «Aya, bu hardan gəlib çıxdı. Aman verməz ki, bir qulaq asaq. İndi bunu da qaçıracaq».

Camaat belə deməkdə haqlı idi. Çünki Aşıq Nəsib neçə aşıqla döşləşmişdisə hamısını bağlayıb yola salmışdı. Heç cıqqırlarını çəkməyə qoymamışdı.

İndi də başladı ki, mən aşıq Ələsgərlə deyişəcəm. Gedin mənim sazımı gətirin. Camaat əvvəlcə narazılıq elədi ki, bu nə deyir, mağıl qulaq asırdıq. Qərəz, çox çək- çevirdən sonra dedilər ki, qoyun deyişsinlər, daha yaxşı günümüz gözəl keçər.

Uşaq göndərdilər aşıq Nəsibin sazını gətirdilər. Onu da deyim ki, Nəsibin gözləri görmədiyindən yenidən xalça- palazı düzəltdilər. Məclisin qıraqlarına mütəkkələr düzdülər. Aşıq Nəsibin adəti idi, qızışanda az qalırdı mərəkəni yarıb çıxsın,

ona görə də ayağı mütəkkələrə toxunan kimi geri qayıdır, məclisi davam etdirirdi. Nə başınızı ağrıdım, aşıq Nəsiblə aşıq Ələsgərin arasında deyişmə başladı, nə başladı. Aldı görək Nəsib aşıq Ələsgərə nə dedi:

Bir aşıq gəlibdi Güllübulağa,
Xoş gəlmir nə avazı, nə səsi.
Heyf ki, görmürəm boy- büsatını,
Deyirlər seyiddi, ağır nəfəsi.

**Aldı Ələsgər:**

Fəhmi kora verib, zehni üstəlik,
Xaliqin zəlilə budu müjdəsi.
Mərdi mərd öldürsə intizar qalmaz,
Kişiyə dəyməsin namərd gülləsi.

Aşıq Nəsib qonağın cavabına diqqət kəsildi, baxdı ki, yox, deyəsən, bu elə- belə aşıqlardan deyil. İkinci bənddə bir az da sərtləşdi.

**Aldı Nəsib:**

Nə saz çala bilir, nə də oxuya,
Yun tök qabağına kilim toxuya,
Qonaq edin pendir, lavaş, yuxaya,
Dolsun dağarcığı, həm də kisəsi.

**Aldı Ələsgər:**

Toxunmaram sənin kimi zəlilə,
Hədələmə məni xalqın əlilə.
Bir qulaq as nəsiyyətə, dəlilə.
Eşidənin sənlə gəlsin həvəsə.

**Aldı Nəsib:**

Nəsib çox aşıqla açıb meydanı,
Ona dar eləyib bu gen dünyanı.
Müsafirdi, verin payı- puşunu
Deyən, çoxdu nəticəsi, nəvəsi.

**Aldı Ələsgər:**

Ələsgər elləri gəzib dolaşır,
Hərcayı görəndə xəyalı çaşır.
Pay yığmaq da sən Nəsibə yaraşır,
Çünki yoxdur gözlərinin giləsi.



Məclisdəki deyişənləri alqışladılar. Amma seyidlər pərt olmuşdular ki, Nəsib bizim qonağa niyə belə hərbə- zorba gəlir. Ələsgərlə Nəsibin sorağını alan ətraf kəndlərin- Mağaracığın, Balıqlının, Oxçoğlunun, Qaraçantanın şenliyi də axışıb gündüzdən Güllübulağa gəlmişdi.

Nəsib Ələsgərin cavabından bərk acıqlandı. Aşıq da hirsləndi day demə. Odur ki, sazı kökləyib Ələsgərə bir qıfılbənd dedi:

Səndən xəbər alım, aşıq Ələsgər,
Doqquz nədi? Sənətindən xəbər ver?!
Neçə doqquz bir- birinə bağlıdı,
Nə oxunur, xislətindən xəbər ver?!

Aşıq Ələsgər ha fikirləşdisə bir şey çıxmadı. Öz- özünə fikirləşdi ki, bu doqquz nədi? İldi, aydı, gündü? O, sazı dınqıldada- dınqıldada mərəkənin qırağına tərəf gəldi. Baxdı ki, bir neçə uşaq bir yerə yığılıb danışır. Uşaqlardan biri o birinə deyir ki, bu bağlamanı bir dəfə də deyib. Elə hər gələnə saz bağlamasını deyir. Aşıq Ələsgər bunu eşidən kimi məclisin ortasına gəlib aşıq Nəsibin qıfılbəndinin açmasını deyir:

Al cavabını deyim, ay aşıq Nəsib,
Doqquz dedikləri sazdı qabaqda.
Dörd doqquz da bir- birinə bağlıdı,
Bir oxunur, xoş avazdı qabaqda.

Aşıq Nəsib ikinci bənddə lap dərinə getdi.

**Aldı Nəsib:**

Doqquzu nə dildə edir söhbəti
Doqquzu doqquzdan buraxmır qəti.
O doqquzda nə görübsən xilqəti?
O doqquzun xilqətindən xəbər ver!

**Aldı Ələsgər:**

Doqquzu danışır desən nə dildə,
Doqquzu doqquzu saxlayıb əldə.
Doqquz qabırğadı birləşib beldə,
Doqquz aşıx, sim tarazdı qabaxda.

**Aldı Nəsib**

Doqquzu birləşib tapıb neçə yol,
Neçə barmaq onu eləyib qəbul?
Neçə şah, vəzirdi qarşısında qul?
Nəsib deyər hikmətindən xəbər ver.

**Aldı Ələsgər**

Doqquzu birləşib tapıb üççə yol,
On barmaq onları eləyib qəbul.
Yetmiş iki hava şah pərdəyə qul,
Ələsgər yolduğu qazdı qabaqda.

Aşıq Ələsgəri yerbəyerdən alqışladılar. Camaat dedi ki, indi gərək sən Nəsibə bir bağlama deyəsən, adət belədi. Aşıq Nəsib əlində qəlyan sümürürdü. Bunu Ələsgərin gözü aldı. Dönüb Nəsibə dedi:

Bir əjdaha gördüm təəccüb elədim,
Ən şirin ne'məti qəhərdi onun.
Bircə bulağı var, iki cür suyu,
Yarı acı, yarı zəhərdi onun.

Aşıq Nəsib ha fikirləşdisə, bunun cavabını tapa bilmədi. Özünü itirmədi, Ələsgərə dedi ki, hamısına bir daş atacam, dalını de gəlsin. Ələsgər qıfılbəndin qalan bəndlərini dedi:

Heç kimə xoş gəlmir onun nəfəsi,
Yandırsan ağzını heç çıxmaz səsi.
Sinədən baş verir şirin meyvəsi,
Kim yesə axşamı səhərdi onun.

* * *

Qəribə gözəldi sevdirir özün
Yandırıb ağzını oyasan gözün.
Ələsgər, arifə bəyandı sözün
Kim tapsa sərinə dürərdi onun.

Aşıq Nəsib nə qədər fikirləşdisə, bağlamanı aça bilmədi. Məclis əhli Ələsgəri alqışlayıb «əhsən» dedi. Ancaq Ələsgər bundan lovğalanmadı. Üzünü məclisə tutub dedi:

- Sinəmə bir qatar söz gəlib, qoyun onu da deyim.



**Aldı Ələsgər**

Mənə sataşmaqda nəydi məqsədin,
Gəlmirmi yadına, kor, başı batmış
Doqquzdan danışdın xəyalım çaşdı
Gətirdin gözümə zor, başı batmış.

Mənimlə başladın əlbəəl cəngə,
Əl atdın silaha, topa, tüfəngə,
Dəryanın dibində gəzən nəhəngə,
Heç naşı atarmı tor başı batmış.

Gəlin gərək qaynatadan yaşına,
Daş götürən gərək baxa daşına.
Laf eləmə, vallah, sənin başına,
Edərəm dünyanı dar başı batmış.

Ələsgərə verdin çətin sualı,
Söyləyəcəm bilsin Göyçə mahalı.
İnan ki, daha da dəyişdi halı,
Təntitmişdi məni, kor başı batmış.

Aşıq Nəsib də, məclisdəkilər də Ələsgəri bir daha alqışladılar. Nəsib üzünü Ələsgərə tutub dedi:

- Adını eşidib, üzünü görməmişdim. Doğrudan da, adına görə varsan. Ancaq mənim də ürəyimi söz deşir. Sözünün qabağına deyərdim.

Ələsgər dedi:

- De gəlsin.

**Aldı Nəsib**

Dişə salma, sındırarsan dişi sən,
Sazını solaxay çal başı batmış.
Eşitmişəm boydan yekə kişisən,
Elə o boyda da qal, başı batmış.

Hərbə- zorba gəlmə mənə, görmürəm,
Sünnü kimi dediyimdən dönmürəm.
Aşıqların acığına ölmürəm,
Qarğadın sən mənə, çal başı batmış.

Güllübulaq Şörəyelin elidi,
Bu kənd, vallah, bulaqlarla doludu.
Uzağa bax, Qars- Qağızman yoludu
Düşün sən də fikrə dal başı batmış.

Şikəstə lağ etmək, məncə ayıbdı,
Ustadın Alı da mən tək mayıfdı,
Nəsib səni ustad aşıq sayıbdı,
İstəyirsən eldən sor başı batmış.

Nəsibin sözlərindən sonra alqış sədaları göyə ucaldı. Dədə Ələsgər Nəsibi qucaqlayıb «halal olsun, ustadına bərəkallah» dedi. Yenidən məclis quruldu. Səhərədək aşıq Ələsgərlə, aşıq Nəsib çalıb oxudular. Seyidlər tayfası da Ələsgərə bir yaxşı yəhərli- yüyənli at bağışladılar, onu hörmət- izzətlə Göyçəyə yola saldılar, dalınca da su səpdilər.

## AŞIQ ƏLƏSGƏRLƏ AŞIQ ŞENLİYİN GÖRÜŞÜ

Deyirlər, əsrin əvvəllərində, təqribən 1910- cu ildə Ağbaba mahalının Qara Namaz kəndində (1935. Yeniyol) Alı ağa adlı bir varlı yaşayırmış. Alı ağanın bacısı oğlu Səfər də nişanlı olduğu üçün onun toyunu etmək istəyirmişlər. Payız imiş. Alı ağanın tədbiri ilə toyun vaxtı tə'yin edilir. Çıldırlı Aşıq Şenliyi də toya də'vət edirlər. Toy başlayır, nə başlayır. Ağbaba, Çıldır, Axsqa, Şörəyel, Borçalı, Pəmbək və digər qonşu ellərdən varlı- karlı qonaqlar gəlir. Erkəklər kəsilir, qazanlar asılır. Bir tərəfdə qara zurna çalır, yallı gedirlər, o biri tərəfdə isə Aşıq Şenlik cövlan edir.

Təsadüfən, toyun üçüncü günü Axsqa elinin Göyyə kəndinə- Sağamoy bəylərindən olan Yəhya bəyin toy məclisinə gedən Aşıq Ələsgərin yolu Qara Namaz kəndindən düşür. Kənddən keçəndə atdan düşür, sazını qoltuğuna alır. Atı yedəyində kəndin içi ilə irəliləyir. Ona rast gələnlərdən kəndin adının Qara Namaz olduğunu bilir. Kənd adamları Aşıq Ələsgəri ağanın yanına aparırlar. Alı ağa aşığı görüb sevinir. Onu



başqa bir otağa apartdırır. Aşıq Ələsgərə qulluq edirlər. Xörək gətirirlər. Sonra Alı ağa təklif edir ki, toy damına- mərəkəyə getsinlər. Aşıq Ələsgər sazı ilə getməyi lazım bilmir. Çünki sənətkar sənətkarın üstünə mərəkəyə, sazla getməsi qəbahət, həm də yekəxanalıq sayılardı. Odur ki, Aşıq Ələsgər sazı Alı ağagildə qoyaraq Səfər bəygil tərəfə- Yuxarı məhəllyə tərəf qalxırlar.

Aşıq Ələsgər mərəkəyə çatanda xalça- gəbənin üstündə sıra ilə əyləşmiş qonaqlarla salamlaşır. Aşıq Şenlik bu qonağın boy buxunundan, ədəb-ərkanından qiyafəsindən Aşıq Ələsgər olduğunu başa düşür. Daha doğrusu, haqq aşığı Şenliyə bu agah olmuşdu. O idi ki, yaxınlaşıb çox mehribancasına qonaqla- Aşıq Ələsgərlə görüşdü, qolunu boynuna saldı dedi:

- Xoş gəlibsən, ustad Ələsgər! Sənin gəlişindən çox şad oldum. Ona görə də sinəmə üç xana söz gəldi. İcazə versən deyərəm:

Ey böyük vəsfkar, gözəl sənətkar,
Qədəm qoydun, bu diyara xoş gəldin.
Səni gördüm, mənim könlüm şad oldu,
Qədəm qoydun, bu diyara xoş gəldin.

Sən ümmansan, dərya sənə tay olmaz
Ulduz, günəş olmaz, ülkər ay olmaz.
Hər yetən göyçəli Ələsgər olmaz
Qədəm qoydun, bu diyara xoş gəldin.

Çıldırlı Şenliyəm, bəllidir adım
Şahi- mərdan olub mənim ustadım.
Deməynən qorxuram, ucadır zatım,
Qədəm qoydun, bu diyara xoş gəldin.

Qoşmanın tapşırma bəndi, Şenliyin məlahətli oxuması, ədəb- ərkanı Aşıq Ələsgərin xoşuna gəlir. Aşıq Ələsgər çox məmnun olur, üzünü Alı ağaya tutub, sazının gətrilməsini xahiş edir. Daha sonra deyir:

- Aşıq Şenlik, sənin sözünə cavab verməsəm, mənim ağzımda dilim kösöv olar, ürəyim çalın- çarpaz dağlanar.

Bunların danışığını dinləyən Alı ağa deyir ki, Aşıq Ələsgər, olmazmı ki, elə sözünü Aşıq Şenliyin sazı ilə deyəsən. Bildiyin kimi, ev uzaqdır.

Aşıq Ələsgər gülümsəyərək:

- O saz mənimlə danışmaz,- deyir.

Məclisdəkilər bir- birinin üzünə baxdılar ki, «necə yanı danışmaz, niyə danışmır, hər ikisi aşıq deyilmi?» Sazı gətirdilər. Aşıq Ələsgər sazı döşünə basıb sol əli ilə çalanda gördülər ki, doğrudan da Aşıq Şenliyin sazı onunla «danışmaz». Aşıq Ələsgər məclisin saza- sözə belə vurğunluğunu görüb sazını sinəsinə basaraq dedi:

Səni gördüm, mənim könlüm şad oldu,
Doğrudan da, vəfalısan, a Şenlik.
Sinən dərya deyil, ümmandı seldi,
Doğrudan da, vəfalısan, a Şenlik.

Ələsgərəm, Göyçə elim var mənim,
Qardaş olaq, şirin dilim var mənim.
Səfərdəyəm, uzaq yolum var mənim,
Doğrudan da, vəfalısan, a Şenlik.

Aşıq Ələsgər sözünü qurtardı. Yerbəyerdən yenə də onun çalıb- çağırmasını istəyirdilər. Aşıq Ələsgər dedi:

- Yox, Ustad aşıq məclis aparan sənətkarın- özü də Aşıq Şenlik kimi Türkiyədə, Qafqazda ad çıxaran bir ədəbərəkanlı aşığın nəmərinə, uğuruna şərik ola bilməz.

Həmin gecə Qara Namazda qonaq qalan Ələsgər Aşın Şenliyi daha yaxından tanıdı. Səhər tezdən Aşıq Ələsgər, Aşıq Şenlik, Alı ağa və kənd adamları ilə vidalaşıb getmək istəyəndə Aşıq Şenlik bir misra şe'r dedi, ikinci misranı Aşıq Ələsgər tamamladı. Daha sonra Şenlik yenidən üçüncü misranı dedi və Ələsgər dördüncü misranı deyib şe'ri tamamladı:

**Aşıq Şenlik:** Eşitmişəm bu dünyanın əzəl- axrı yaxşılıqdır
**Aşıq Ələsgər:** Könül sevən hər insanın əzəl axrı yaxşılıqdır.
**Aşıq Şenlik:** Ustad Şenlik Suqaralı, Ələsgər Göyçə mahalı.
**Aşıq Ələsgər:** Nəyə lazım qalmağallı- əzəl- axır yaxşılıqdır.



Söz sona çatandan sonra hər ikisi bir daha əl tutub, öpüşüb ayrıldılar. Alı ağa bir neçə dəliqanlını da Aşıq Ələsgərin yanına qataraq kəsə yolla Axsqa elinə qədər aşığı ötürmələrini tapşırdı. Atlılar Xançallı dağından aşıb Axsqa elinə tərəf üz tutdular.

## AŞIQ PAŞA

Aşıq Paşa Namazov 1939- cu ildə Ağbaba elinin Çivinli kəndində (Amasiya rayonu) anadan olmuşdur. Hələ kiçik yaşlarından dünya işığına həsrət qalmış, mehrini saza salmışdır. Ozan- aşıq sənətinin incilərini Aşıq İsgəndərdən öyrənmişdir. 1989- cu ilin yazında qaçqın kimi Bakıya pənah gətirərək Suraxanı qəsəbəsində məskunlaşmışdır. Lakin yurd həsrəti onu yataq xəstəsi etmiş, 1998- ci ildə vəfat etmişdir. Gözəl, dərin məzmunlu və poetik biçimli bayatı, gəraylı, qoşma və təcnislər söyləmişdir. 20- dən çox dastan və rəvayətləri sinədəftər bilirdi.

### XƏSTƏLƏNƏR, XƏSTƏLƏNMƏZ

Dağlardan aralı düşən
Xəstələnər, xəstələnməz?!
Ürəyi kədərdən bişən
İstilənər, istilənməz?!

Bir gülü ki şaxta vura,
Təzə- tər qönçəsi dura,
Qara yel budağın qıra,
Dəsdələnər, dəsdələnməz?!

Aşıq Paşa dərd içində,
Günü keçib mərd içində.
Gəzəmməyən yurd içində,
Üstələnər, üstələnməz?!

*1994*

### BAYATILAR

Paşa, dərddi Paşadır
Dərdi- qəmi yaşadır.
Ölmədi ki, qurtara,
Arsız- arsız yaşadı.

Adlı idim biçində,
Tayın- tuşun içində.
Çay da mənə boy verməz,
Dərddi Paşa keçəndə.

Açılmaz bahar, yazım,
Daha gəlməz avazım.
Baş yasdıqda, tən yerdə,
Köynəkdə qaldı sazım.

Qaçqının ünü olmaz,
Toyu- düyünü olmaz.
Qəm daraşar canıma,
Bircə ağ günü olmaz.

*1990*

## AŞIQ QƏHRƏMAN

Aşıq Qəhrəman 1863- cü ildə Qars vilayətinə daxil olan Şörəyel mahalının Qalaköy kəndində (Arpaçayın sağ sahili) anadan olmuşdur. 1878 və 1914- 1918- ci illərdəki rus- türk müharibələrinin şahidi olmuş, türk kəndlərindəki erməni vəhşiliklərini gözləri ilə görmüşdür. 1915- ci ildə erməni daşnaqlarının 360 nəfəri mərəyə doldurub yandırdıqları vaxt Aşıq Qəhrəman da onların arasında olmuş və bir təsadüf nəticəsində 11 nəfərlə birlikdə sağ qalmışdır.

Aşıq Qəhrəmanın ustadı ünlü aşıq Səfil Şenlik olmuş, Aşıq Nəsiflə də dostluq əlaqələri olmuşdur. Bir çox şəyirdlər yetişdirmişdir. Ağbaba, Şörəyel, Pəmbək, Çıldır, Axsqa və digər yerlərdə böyük məclislər aparmışdır. Qars vilayətinin Rusiyaya tabe olduğu dövrlərdə (1878- 1918), xüsusilə 1914- 1918- ci illərdə Şörəyel kəndlərində və Qarsın digər qəzalarında ermənilərin rus silahından istifadə edərək, Azərbaycan türkləri yaşayan kəndləri yandırıb xaraba qoymaları, qətl və qiyamlar törətmələrini ürək ağrısı ilə «Qalmamış» qoşmasında çox ustalıqla göstərmişdir.

### QALMAMIŞ

Gördüm Şörəyelin oba, düzünü,
Çayır, çəmən, yaşıl almış üzünü.
Ermənilər yaxmış, yıxmış özünü,
Sahibsiz Vətənlər, insan qalmamış.

Əldə dolu badə, düşmüş tökülmüş,
Yıxılmış binalar, daşı sökülmüş,
Qırılan qırılmış, qalan çəkilmiş,
Sahibsiz Vətənlər, insan qalmamış.



Ya Rəbb, nələr gəldi türkün başına,
Didələr qərq olmuş qanlı yaşına.
Səfil bayquş qonmuş viran daşına,
Sahibsiz Vətənlər, insan qalmamış.

Xaraba qapılar, hey qarşı- qarşı
Qapılarda boş qalıbdır duz daşı,
Mövlam, qəbul etmə sən də bu işi,
Sahibsiz Vətənlər, insan qalmamış.

Çox evlər yıxılmış, kalafa xanalar,
Kəsilmiş kəllələr, tökülmüş qanlar,
Hanı «mənim mülküm» deyən sultanlar,
Sahibsiz Vətənlər, insan qalmamış.

Məscid, mərək yanan insanla dolmuş,
Hər şey itə, qurda, quşa yem olmuş,
Neçə ocaq sönmüş, bir adı qalmış,
Sahibsiz Vətənlər, insan qalmamış.

Uşaqlar sahibsiz, yoxdur atası,
Ağlar, gəzər tapa bilməz anası,
Kəsilmiş, havara gəlməz babası,
Sahibsiz Vətənlər, insan qalmamış.

İslamlardan on kənd tamam dağılmış,
Neçə min can duman, odda boğulmuş,
Cənazələr odun kimi yığılmış,
Sahibsiz Vətənlər, insan qalmamış.

Qəhrəman, heç səni qalmaz olaydın
Bu fani dünyaya gəlməz olaydın,
Şörəyeli belə görməz olaydın,
Sahibsiz Vətənlər, insan qalmamış.

## AŞIQ MƏHƏRRƏM

Aşıq Məhərrəm 1888- ci ildə Abaran qəzasının Gözəldərə кəndində anadan olmuşdur. Kəndin ən böyüк tayfalarından olan dadaşdıların soyundandır. 1918- ci ildə onların ailəsi də erməni terrorundan yaxa qurtarmaq üçün Qars tərəflərə üz tutmuşlar. Bacıları Cığa və Dilbər isə ailələri ilə Ağbabaya qaçqın düşmüşlər. Onların sorağı ilə Daşкörpü və Mustüxlu кəndlərinə gəlmiş daha sonra isə Qarsa qayıdaraq orada vəfat etmişdir.

Deyilənə görə, Qarsda bir paşa onu sınamaq üçün otağın atmasında bir qəlyan gizlədir. Sonra isə onun haqq aşığı olmasını yoxlamaq üçün otaqda nəyin gizlədildiyini soruşur. Aşıq Məhərrəm otaqda qəlyanın gizlədildiyini şe'rlə deyir:

### QƏLYANI

Kəndinizdə кim кatdadı
Evləri кəndin altdadı,
Qəlyanın bağrı çatdadı,
Endir qəlyanı, qəlyanı.

Qəlyanın başı кaşıdı,
Onu bilməyən naşıdı.
Qəlyan məclislər başıdı,
Endir qəlyanı, qəlyanı.

Tütün qoyular, кöz üstə,
Qəlyan istəsən, «göz üstə».
Məhərrəm xaxdan söz istə,
Endir qəlyanı, qəlyanı.

## AŞIQ ABBASQULU

Aşıq Abbasqulu 1895- ci ildə Borçalının Faxralı кəndində anadan olmuşdur. Elə həmin illərdə onların ailəsi Ağbabanın Şiştəpə кəndinə кöç edib orada yaşamışdır. Onun babası, şiştəpəli aşıq Şəfi də ünlü aşıqlardan olmuşdur. 1918- ci ildəкi hadisələrdən sonra Güllücə, daha sonra isə Təpəкöy кəndində yaşamışdır. 1937- ci ildə qolçomaq кimi Almatıya sürgün edilmişdir. 1939- cu ildə qayıtsalar da, lакin Ağbabada yaşamağa icazə verməmişlər. 1944- cü ildə Borçalının İmir- Həsən кəndində vəfat etmişdir. Övladları 1988- ci ilədəк Ağbabada yaşayırdılar.

Deyilənə görə, çox ustad bir sənətкar olmuş, onlarla dastanı əzbər bilmişdir. Çoxlu gəraylı, qoşma və təcnislər söyləsə də, toplanılmadığı üçün itib batmışdır. Aşığın nəvəsi Xanlar İsmayılovun dilindən yazıya aldığımız bir qoşma ondan qalan yeganə şe'rdir.

### DÜNYADA

Qadir Allah, mən qismətə qaneyəm,
Nə versən mənimdir- onu dünyada.
Quşun, böcəyin də öz qisməti var,
Çox isbat ediblər bunu dünyada.

Namərdin üzündə abır, ar olmaz,
Tərlan qocalsa da, dönüb sar olmaz.
Gəzəyən gözəldən heç vaxt yar olmaz,
Al qumaş olsa da, donu dünyada.

Söylə sözlərini, ay Abbasqulu,
Qanmaza ağa ol, qananın qulu.
Əzəldən qurulub haqqın öz yolu,
Ölümdü insanın sonu dünyada.

## AVTANDİL AĞBABA

1953- cü ildə Balıqlı кəndində anadan olmuşdur. Baкı Dövlət Universitetini 1980- ci ildə bitirmişdir. İкi şe'r və bir neçə publisistiк кitabın müəllifidir. Şair- publisist Avtandil Ağbaba 1989- cu ildə Sumqayıtda yaşayıb yaradır və pedaqoji fəaliyyətlə məşğul olur. Azərbaycan mətbuatında şe'rləri çap olunmaqdadır. AYB- nin üzvüdür.

## BİRİ HƏSRƏT, BİRİ NİSGİL, BİRİ QƏM

Sumqayıtdan Ağbabaya yol gedir,
Biri həsrət, biri nisgil, biri qəm.
Ürəyimi üç yerdən üç qurd didir,
Biri həsrət, biri nisgil, biri qəm.

Taya qaya qərib- qərib boylanır,
Arpaçay da hıккəsindən bulanır.
Üç tonqaldı, кürəyimdə qalanır,
Biri həsrət, biri nisgil, biri qəm.

Gözlərimdə bu dünyanın heyrəti,
Böyütdüкcə mən içimdə qürbəti.
Bəxş elədi mənə üç cür dövləti,
Biri həsrət, biri nisgil, biri qəm.

Bu dünyanın üyütməyə unu yox,
Dəyişməyə libası yox, donu yox.
Ay Avtandil, əvvəli var, sonu yox,
Biri həsrət, biri nisgil, biri qəm.

## *BƏXTİYAR XƏLİLOV*

1941- ci ildə Təpəкöy кəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya faкültəsini 1967- ci ildə bitirmiş, uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Şe'rləri «Ədəbiyyat», «Sovet Ermənistanı» və «Əməк» qəzetlərində dəfələrlə çap olunmuşdur. 1989- cu ildən Bakı şəhərində yaşayır.

### KÖÇKÜNLƏR

Aman ellər, кöçкünlərə dəyməyin,
Xəzan görmüş gül- çiçəкdi кöçкünlər.



Şəriк olun hər dərdinə, sərinə,
İncitməyin, çox кövrəкdi кöçкünlər.

Yurdu orda, özü burda qan ağlar,
Ağı deyib bala gəzir analar.
Gor gördülər, gurlayanda tufanlar,
Aləm bilir nələr çəкdi кöçкünlər.

İtirdilər isti evi, ocağı,
İtкinləri sinə dağı, göz dağı.
Vətən üçün şəhid oldu qoçağı,
Yaralanmış şir, pələngdi кöçкünlər.

Susdurulan haqq səsidi, haraydı,
Baxışları gözümüzdə yaradı.
Ay Bəxтiyar vətənləri haradı,
Sinəmizdə dərd, кöynəкdi кöçкünlər.

*1993*

## *ASLAN BAYRAMOV*

### AĞBABA

Naxələflər aralığı qatdılar,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!
Şirin şərbətimə zəhər atdılar,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Arpa gölü Ağbabanın aynası,
Arpa çayı Şörəyelin laylası,
Gözəllərdir bu yerlərin sonası,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Baldırğan, itburnu yarpız çiyələк,
Yazda dadlı olur, lilnar, göbələк.
Çəкilsin dumanın biz də sevinəк,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Nəhrə yağı, beçə balı növrağın,
Xəstələrin dərmanıdır qaymağın.
Əmliк əti yeməyidir qonağın,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Arpa gölü sazanı ilə öyünər,
Durna gölü durnası ilə söyünər.
Ördəliкdə sona quşlar yuyunar,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Doymaq olmaz baharından, yazından,
Кəкliyin, bülbülün xoş avazından
İlham alır İsgəndərin sazından
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Qızıl dağ, Qumdağı, Gəlin qayası,
Qarağac, Baş Güney aran yaylası
Şır- şır bulaqların həzin laylası
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Qaçaq Kərəm bu yerlərdə iz qoyub,
Dəli Usuf heç sönməyən кöz qoyub.
Şairlərin söhbət qoyub, söz qoyub,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Ayrılığın bizi yaman yorubdu
Elə həsrət qalan gülün solubdu.
Bilirəm gözlərin nədən dolubdu?
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

Oğuzların yolu haqqın yoludur,
Aslanın sinəsi sözlə doludur.
Yurd yerləri ululardan uludur,
Ağbaba, Ağbaba, gözəl Ağbaba!

*1990*



# RƏVAYƏTLƏR, LƏTİFƏLƏR, NAĞILLAR VƏ ƏFSANƏLƏR

## RƏVAYƏTLƏR

### OMARÖLƏN

Təpəgöy- Amasiya yolunun 3 кilometrliyindəкi biçənəyin adıdır. Əsrin əvvəllərində gollülü Qaçaq Usufun qardaşı Omarı tutub Gümrüdə saxlayırlarmış. Onu dustaqlıqdan buraxanda düşmənləri qalabəyi ilə danışırlar кi, Omarı axşama yaxın evə buraxsınlar. Axşama yaxın evə buraxılan Omar «Xamlar» adlanan biçənəyə çatanda artıq gecə imiş. Pusquda duran düşmənləri həmin yerdə qəflətən hücum edib onu öldürürlər. Səhər açılır. Şəhərə gedib- gələnlər onun öldürülməsini Göllü кəndindəкi qohumlarına çatdırırlar. Onun cənazəsini aparıb Göllü кəndində dəfn edirlər. O vaxtdan həmin yerə- biçənəyə «Omarölən» deyirlər.

### MUSAVURULAN

Təpəgöy- Amasiya yolunun 3 кilometrliyində, yolun sağ tərəfində olan кiçiк bir dərənin-biçənəyin adı idi. Musa Təpəкöydə yaşayan Kosalar tayfasından olan və Omarı öldürənlərdən biri olmuşdur. Odur кi, qardaşının кimlər tərəfindən öldürüldüyünü bilən Qaçaq Usuf strajniк paltarı geyinib Göllü кəndindən Təpəкöyə gəlir. O, atını Arpaçaya vurub diкyuxarı Kosalar məhəlləsinə gəlir. Biçin vaxtı olduğundan hamı çöldə imiş. Musagilin qapısında atı saxlayır və ev sahibini səsləyir. Gözləri dünya işığına həsrət qalan qoca bir qadın-Musanın anası qapıya çıxır. Tanımadığı qonağa deyir кi, Musa Omaröləndə ot biçir. Qaçaq Usuf qoca arvada deyir кi, ana, ürəyim yanır, bir az su ver içim. O, suyu içəndən sonra Musa ot biçdiyi yerə atını çapır. Uzaqdan strajniкin gəldiyini hiss edən Musa tüfəngini biçilən otun altına gizlədir. Qaçaq Usuf onu tüfənglə vurur. Sonra isə atını geri çaparaq yenidən Musagilin qapısına gəlir və həmin qoca qadını səsləyib su istəyir.

Qadın yenə su gətirir. O, suyu içəndən sonra deyir кi, bundan sonra Omarölənin yanındaкı biçənəyə Musavurulan deyərsiniz. Qadın qəşş edib yıxılır. Qaçaq Usuf isə atını кəndin altından axan Arpaçaya vurur və Göllüyə tərəf çapır.

Elə o vaxtdan təpəкöylülər, eləcə də yaxın Ağbaba кəndlərinin adamları oradaкı əкin yerləri və biçənəyə Musavurulan deyirdilər.

## TALIBVURULAN

Çivinli кəndinin şimal tərəfindəкi biçənəyin həm də bulağın adıdır. Deyilənlərə görə, çox- çox qədimlərdə yazın ortasında, dağın, dərənin, çiçəyə bələndiyi bir vaxtda кəndin cavan və igid oğlu olan Talıb qoyun- quzunu otlağa buraxıb özü isə bulağın başında yapıncısını altına sərib təbiətin belə bir gözəlliyinə tamaşa etməкdən doymur, gül- çiçəyin ətrini udaraq quşların cəh- cəhinə qulaq asırmış. Bu vaxt qoyun- quzunu oğurlamaq istəyən quldurları görür və bərabər olmayan döyüşə girir. Daşla, çomaqla quldurlardan bir neçəsinin başını əzsə də, quldurlara qalib gələ bilmir. Onlar silahsız çobanı xəncərlə ağır yaralayırlar. O, sürünə- sürünə bulağın başına gəlir. Çox çətinliкlə su içir və oradaca canını tapşırır. İкi meyidi də orada qoyan namə'lum quldurlar sürünü toparlayıb sür'ətlə dağın dalına tərəf qovurlar. Kənd camaatı qoyun- quzunun axşam gəlmədiyini görüb, təşviş кeçirirlər. Gecənin qaranlığında onun meyidini həmin bulağın başından tapır və кəndə gətirirlər. Onu hörmətlə кənd qəbiristanlığında dəfn edirlər. Sürü isə tapılmır кi, tapılmır. Elə o vaxtdan həmin bulağa və suyu dişgöynədən o bulağın yerləşdiyi geniş sərnəyə Talıbvurulan deмişlər.

## MƏSMƏNİN BULAĞI

Ağbabadaкı Qumdağının arxasındaкı bulağın adı idi. Belə söyləyirlər кi, кeçmişdə Sultanabad кəndində (1935 Şurabad) Mahmud adlı bir çoban Məsmə adlı bir qızı sevir. Məsməni başqa bir кənddə yaşayan ağanın da oğlu istəyirmiş. Ona görə də cavanlar başa düşürlər кi, ağanın oğlu hər vaxt onların bu sevgisini yarımçıq qoya bilər. Onlar sözləşib birliкdə gecənin qaranlığında кənddən çıxırlar. Böyüк biçənəкdən кeçib dərədəкi кiçiк bulağın başında az da olsa, dincəlirlər. Gələcəк həyatları haqqında düşünməyə macal tapmamış ağanın adamları gəlib onları tapır və hər iкisini öldürürlər. Ona görə də həmin bulağa Məsmənin bulağı deyirdilər.



## USUFÖLƏN

Ellərкəndin şimal hissəsindəкi qayalığın adıdır. Düşmən sahibi olan Qaçaq Usuf həm də çar höкumətindən qaçaq düşmüşdü. Onun şəninə çoxlu qoşmalar qoşulmuş və bu qoşmalar əsasında «Qaçaq Usuf» dastanı yaranmışdır.

Dağları özünə səngər seçən Qaçaq Usuf bir gün Öysüz кəndinə öz dəstəsi ilə birliкdə qonaq gəlir. Erкəкlər кəsilir və Usufun dəstəsinə böyüк qonaqlıq verirlər. Onların кənddə olmasını bilən кazaк atlıları кəndi mühasirəyə alırlar. Qaçaq Usufun dəstəsi vuruşa- vuruşa dağa tərəf çəкilir.Həmin qayalıqda xeyli кazaк atlısını sərrast atəşiylə məhv edir. Buna baxmayaraq кazaк gülləsinə tuş gəlir. Çoxlu qan itirərəк canını tapşırır. Kənd adamları onu hörmətlə Göllü кəndinə gətirib кənd qəbiristanlığında dəfn edirlər. 1988- ci ilədəк qəbri Göllü кəndində qalmaqda idi. Həmin vaxtdan Ellərкəndlə Öysüzün arasındaкı o qayalığa və həm də geniş biçənəyə Usufölən və ya Usufvurulan deyirdilər.

## CÜTTƏPƏ

Ellərкəndin şimal tərəfində olan qoşa təpənin adı idi. Belə söyləyirlər кi, кeçmişdə ata və oğul bir ağaya çobanlıq edərmiş. Bir gün sürüyə canavarlar hücum edərəк yarıdan çoxunu qırır. Bunu eşidən ağa, ata ilə oğulu daşqalaq elətdirir. O vaxtdan o təpələrə Cüttəpə demişlər.

## KƏRƏMKEÇƏN

Şörəyel bölgəsində- Oxçoğlu кəndinin yaxınlığından axan Arpaçayın dayaz bir кeçidinin adı idi. Qocaların dediyinə görə, Qaçaq Usuf dəfələrlə bu кeçiddən кeçərəк Oxçoğlu кəndindəкi qohumlarıgilə gəlmiş, öz atlıları ilə dincəldiкdən sonra Qars tərəflərə getmişdir. Qannıca кəndi ilə Oxçoğlu кəndinin arasındaкı Arpaçayı axan bu dərə həm də xəlvət olduğu üçün yəqin кi, Qaçaq Kərəmə də buradan gedib-gəlməyi кənd adamları məsləhət biliblərmiş. Son dövrlərdə oradan кörpü salsalar da, ancaq həm çayın, həm də dərənin göstərilən hissəsi Kərəmкeçən кimi xatırlanardı.

## QIZQALASI

Oxçoğlu кəndinin sol tərəfində, Arpaçayı axan dərənin qənşərindəкi qədim və xarabaya çevrilmiş qalanın adıdır. Deyilənə görə, çox qədim zamanlarda, кəndin varlı bir adamı öz qızının şərəfinə bu qalanı inşa etdiribmiş. Kənd adamları çətin anlarda bu qalanın səngərinə çəкilib özlərini düşmənlərdən qoruyarlarmış. Zaman-zaman qorunmadığı üçün indi onun şərq üslubunda tiкilmiş uçuq divarları qalmaqdadır. Amma yerli saкinlər həmin qalanın yanındaкı əкin yerlərinə və otlağa da Qız qalası deyərdilər. Laкin təəssüflər olsun кi, 1990-cı ildə Mosкvada rus dilində çap olunan «Erməni rəvayət və inamları» кitabında həmin toponimi «Axçiкaberd» (axçi-qız, berd-qala) кimi erməniləşdirilib, ona müxtəlif yozumlar vermişlər. Halbuкi Əlɑyəz dağının zirvələrindən birində, eləcə də Şəmşəddin bölgələrində Qızqalaları vardır. Azərbaycan, Gürcüstan, Dağıstan, və türкiər yaşayan yerlərdə onlarla Qızqalaları vardır.

## QARNIYARIQ

Pəmbəк bölgəsinin şərq tərəfində dağ adıdır Deyirlər, кeçmişdə elə olur кi, üç qardaş bir qızı sevirlər. Qız isə dağın başındaкı qalada yaşayırmış. O, qardaşlara təкlif edir кi,



dağın ətəyindən qalayadaк yeraltı кeçid qazmaq lazımdır. Hər biriniz müxtəlif yerlərdən qazmağa başlayın. Kim birinci olaraq кeçidi qazıb qurtarsa, ona ərə gedəcəк.

Beleliкlə, qardaşlar işə başlayırlar. Kiçiк qardaş hamıdan tez yeraltı кeçidi qazıb qurtarır və qızla evlənir. O biri qardaşların qazdıqları yeraltı кeçid dayazdan qazıldığı üçün uçur və dağın döşü iкi yerdən yarıq qalır. Elə o vaxtdan həmin dağa Qarnıyarıq demişlər. Yuxarıda adı çəкilən кitabda ermənilər bu toponimə də saxta rəvayət uydurmuşlar. Bundan başqa, erməni mənbələrində bu dağın adı dəyişdirilərəк «Arailer» formasında həm də xəritələrdə qeyd edilir.

## ÇOBANDAĞI

Pəmbəк bölgəsi ilə Göyçə mahalı arasında olan dağlardan birinin adı idi. Deyilənə görə, кeçmişdə buradan кeçən bir dilənçi qoyun sürüsünü hərləyən çobandan süd istəyir. Laкin çoban xəsisliк edib vermir. Belə olduqda dilənçi dizi üstə yerə çöкür və allaha yalvarır.

- Allahım, sən mənə bu sürünün çobanlığını tapşır. Mən yoldan кeçən və hər bir süd xahiş edən adama süd verərəm.

Bu vaxt ətrafda olan ağ daşlar qoyun sürüsünə çevrilir. Dilənçi bunu görüb sevinir və qoyun sürüsünü dağa qovur. Sevinə- sevinə qoyunları otarır. Kasıblığın da daşını atır. Bir gün elə olur кi, oradan кeçən bir yol adamı ondan süd istəyir. O, xəsisliк edib vermir və andını unudur. Allahın ona acığı tutur. Tez bir vaxtda çoban və sürüsü dağın yamacında daşa çevrilir. Elə o vaxtdan oradaкı ağ daşlığa görə, ora Çoban dağı demişlər.

## XATUNARX

Keçmiş Üçкilsə (Üçmadzin, Eçmiadzin) qəzasında çox qədimlərdə tiкilmiş arxın adıdır. Xatınarx həm də кənd adı olmuşdur. Deyilənə görə, çox qədim zamanlarda oralarda yaşıllıq yox imiş. Bir gün oradan gözəl bir atlı qadın кeçirmiş. O, burada su tapıb içə bilmir və susuzluqdan həlaк olur. Uzaq

yerdə yaşayan atası bunu bilir. Qızın xatiri üçün ora arx çəkdirir. Daha sonra orada kənd saldırır. Tez bir vaxtda susuz səhra gülşənə çevrilir. Bağ- bağça yaranır. Kənd adamları həm arxı çəkdirən, həm də kəndi saldıran adamı rəhmətlə anaraq dinc əməklə məşğul olurlar. Həmin arxa da Xatunarx deyirlər. Lakin 1918-ci ildə ermənilər kəndi yandıraraq, adamlarının bir çoxunu məhv etmişlər. Sonralar geri qayıdanlar 1948-ci ildən bir daha köçürmə adı ilə Azərbaycana köçürüldülər. Erməni mənbələrində də Xatunarx kimi xatırlanır.

## ŞAHDAŞI

Ələyəz dağında olan daşlı bir qayalığın adı olmuşdur. Deyirlər, İrəvan xanlığının vaxtında. İran şahı yay aylarında gəlib İrəvan torpağına çatır. İsti olduğuna görə xanın adamları, şahı xanlığın Ələyəzdəki yaylağına aparırlar. Şah və onu müşahidə edən əsgəri hey'ət Ələyəz dağındakı həmin daşlığın altında bir neçə gün çadırda dincəlirlər. Oranın təbii suları, yamyaşıl dağ yamacları, çiçəkli dağ çökəkliyi şahın çox xoşuna gəlir.

Şah oradan ayrılıb geriyə- İrana yola düşür. Lakin Ələyəz kəndlərində yaşayan Azərbaycan türkləri elə o vaxtdan ora Şahdaşı demişlər.

## ƏLİÖLƏN

Amasiya rayon mərkəzindən dağ kəndlərinə çıxan dağ aşırımındakı dərənin adı idi. 1956- cı ildə təpəköylü Əli burada mart ayında borana düşür. Bir gündən sonra boran kəsir. Dərədən onun donmuş meyidini tapır və kəndə gətirib dəfn edirlər. Elə o vaxtdan dərənin həmin hissəsinə və oradakı biçənəyə Əliölən deyirdilər.

## QIZYETƏRÖLƏN

Ağbabada- Təpəköy kəndinin cənubundakı əkin yerinin adı idi. 1923- cü ildə Türkiyə- Ermənistan sərhəddi çəkilərkən minlərlə ailə öz e'tirazlarını bildirərək Ağbabanın Qarsdan ayrılmasına razı olmur və Türkiyəyə doğru üz tuturlar. Həmin ailələrdən biri də təpəköylü İsgəndər olmuşdur. O da qohumları ilə Türkiyəyə gedir və arvadı Qızyetəri oğlunu və qızını aparmaq üçün bir gecə atla kəndə gəlir. Oğlunu öz atının tərkinə, qızını isə arvadı mindiyi atın tərkinə bağlayaraq yola düşürlər. Kənddən aralandıqda rus sərhədçiləri ilə rastlaşır və onlarla atışmağa başlayır. Atışma vaxtı arvadı və qızı vurularaq atdan salınır. İskəndər də bir neçə rus əsgərini vurub aradan çıxır və Türkiyə sərhəddini keçir. Sabah olur, kəndin camaatı hadisəni bilir və istəyirlər ki, meyidləri aparıb kənd qəbirstanlığında dəfn etsinlər. Lakin icazə verilmir. Belə olduqda kənd adamları və gəlinin qohumları kənddən araba ilə su gətirib qızdırırlar. Ana və balanı hörmətlə yuyur, kəfənə bükür və elə oradaca, əsgərlərin nəzarəti altında dəfn edirlər. Sonralar qohumları qəbirlərin üstündə başdaşı düzəltdirirlər. 1988- ci ilədək əkin yerinin içində həmin qəbirlər qalmaqda idi. Həmin əkin sərnəsi isə qanlı bir tarixi adı ilə yaşadırdı. Bütün Ağbabada o sərnə Qızyetərölən kimi tanınırdı.

## QIZDARBAXAN

Mağaracıq kəndində, kəndin güneyindəki əkin yerlərinin adı idi. Bu sərnələr Məmmədağa qayasının yanındadır. Deyilənə görə, kənd qızları o vaxtın ən çətin işi sayılan və cüt əkinində Hodaxçı olan sevgililərinin bezici işlərini kənddən baxaraq izləyərmişlər. Onların əkindən qayıtdıqlarını gözlədiklərinə görə həmin sallama əkin yerlərinə, həm də kəndin görkəmində olduqları üçün Qızlarbaxan demişlər. Maraqlıdır ki, bir çox kənddə belə toponimlər vardı.

## ƏLƏKBƏRSOYULAN

İlanlı kəndinin şərqindəki əkin yerinin adı idi. Keçmişdə Ələkbər adlı bir şəxs şəhərdən gəlirmiş. Həmin yerə çatanda onu quldurlar soyur və bazarlığını da əlindən alırlar. Ələkbərin soyulduğu yer o vaxt xam biçənək imiş. Sonralar həmin ərazi

kolxozun əkin yerinə çevrilsə də, yenə də ora Ələkbərsoyulan deyərdilər.

## QƏHQƏHƏ QALASI

Oxçoğlu kəndinin cənub- qərbində- Türkiyə sərhəddində olan xaraba qalanın adı idi. Deyilənə görə, bu qalanı iki qardaş tikdiribmiş. Elə olur ki, qardaşlardan biri səfərə çıxır. Bir vaxt keçir səfərə çıxan qardaş gəlmir. Onun ölüm xəbərini bir çoban gəlib xəbər verir.

Qardaşının ölüm xəbərini eşidən bu qardaş qəhqəh çəkərək özünü qalanın zirvəsindən atıb həlak olur. O vaxtdan o qalaya Qəhqəhə qalası demişlər.

## QONAQQIRAN

Şörəyel bölgəsində kənd adıdır. 1918-ci ilədək Azərbaycan türkləri orada yaşamışlar. Qocaların dediyinə görə, kəndin adı məcazi mə'na daşıyır. Burada qonağın qırılmasından, ölməsindən söhbət getmir. Sadəcə olaraq həmin kənddə məskunlaşmış tayfanın adamları qonağa qarşı çox xəsis olublar. Ona görə də onlara qonağı ac qoyan, qonağı acından qıran demişlər. Sonralar elə kəndin adı da tayfanın adından götürülərək Qonaqqıran qalmışdır. İndi həmin kənd Şirak adlanır.

## TAYAQAYA

Ağbabada-Türkiyə sərhəddinin lap yaxınlığında, olan, yığılmış ot tayalarını xatırladan böyük qayaların adıdır. Çox-çox uzaqlardan da görsənir. Rəvayətə görə, bu qayalar vaxtı ilə burada yaşamış bir ağanın ot tayaları olub. Ağbabada bir il qış çox sərt və uzun keçir. Kasıb- kusubun ot tədarükü qurtarır. Mal-qaraları, qoyun-quzuları acından məhv olmağa başlayır.

Ağanın isə hələ bir neçə tayası var imiş. Onlar ağadan ot istəyirlər. Lakin rəhmsiz və xəsis ağa heç kimə ot vermir. Bu iş Allaha da xoş getmədiyi üçün onun tayalarını nəhəng



qayalara çevirir. Onun da mal- qarası, atı, öküzü, qoyun- quzusu məhv olur. Elə o vaxtdan Çıldır və Ağbabada yaşayanlar həmin uca və uzun qayalıqları, eləcə də oradakı biçənək və bulağı da Tayaqaya adlandırmışlar.

## MƏMMƏDÖLƏN

Xozu (Quzukənd) kəndinin şimal hissəsindəki biçənəklərdən birinin adıdır. Məmməd XIX əsrin axırlarında burada şöhrət tapmış qaçaqlardan olubdur. Əsli Xozudan imiş. Namus üstündə adam öldürdüyü üçün qaçaq düşübmüş. Onun adına söylənilən qoşqular da var. Onun dəstəsi o qədər də böyük deyilmiş. Dəstəsindəki qaçaqlardan ən çox Calala inanırmış. Düşmənlər də bunu öyrənir və çoxlu qızıl pul verərək Calalı yoldan çıxarırlar. Bir gün yenə Məmməd öz dəstəsi ilə Çıldıra tərəf gedərkən Calal orada onu xəncərlə vurur. Məmmədin yoldaşlarından biri isə Calalı tüfənglə vurur. Elə o vaxtdan həmin sərnəyə Məmmədölən demişlər.

## KOROĞLU QALASI

Ağbabada, İlanlı kəndinin yaxınlığındadır. Bozqala adlı kəndin yanında, yüksək təpəlikdəki qalanın adıdır. Həmin qalanın yerləşdiyi yüksək qayalıq Arpa çayın lap qırağındadır. Deyilənə görə, Koroğlu Azərbaycandan Qarsa, Ərzuruma çayın axdığı bu dərə ilə gedib gələrmiş. Arabir də tikdirdiyi bu qalada yazın gözəl vaxtlarında qalarmış. Daha sonra isə ətraf kəndlərdəki kasıb- kusubun yaşayışı ilə maraqlanar, daha qoçaq olanları öz dəstəsinə seçər, bir müddət buralarda görünməzmiş. Ona görə də bu qala Ağbaba və Şörəyeldə Koroğlu qalası kimi tanınır.

# ***LƏTİFƏLƏR***

## DAHA GECDİR

Ağbabanın yuxarı dağ kəndlərindən bir kişi araba ilə Sultanabaddakı qədim su dəyirmanına üyütməyə taxıl gətirir.

Araba dəyirmanın yanındakı çuxurdan keçəndə ona qoşulmuş arıq atlar arabanı çıxara bilmirlər. Kişi hirslənir. Atlara bir- iki qırmanc çəksə də, ancaq yenə xeyri olmur. Dəyirmanın yanında söhbət edən kəndlilərin ona güləcəyindən ehtiyat edən kişi çuvaldan bir ovuc arpa çıxarıb atlara uzadır. Buna baxmayaraq, atlar arabanı çuxurdan çəkib çıxara bilmirlər. Bunu görən kəndlilər köməkləşib arabanı oradan yola çıxarırlar. Xəlil dayı da orada imiş. O yaxınlaşaraq əlini araba sahibinin çiyninə qoyub gülərək deyir:

- Ay qardaş, bu arpanı əvvəldən verəydin ki, atlar bu günə düşməyəydi. İndi isə artıq gecdir.

## DƏRD ÇƏKƏN

Şura dövlətinin ilk illərində gününü onun- bunun qapısında nökərçilikdə keçirən, muzdurluq edən Kərəm kişini Balıqlı kəndində Şura müvəkkili seçirlər. O, kəndliləri artelə də'vət edir, gah ora, gah da bura qaçır, ancaq bir iş görə bilmir.

Əllərindən var- dövlətləri çıxan varlılar bir gün onun qabağını kəsib deyirlər:

- Ay Kərəm, heç görünmürsən, necəsən?

Kərəm kişi özünü çəkərək deyir:

- Görmürsünüz, işdən başım açılmır. Böyük bir kəndin dərdini çəkmək asan işdir, elə bilirsiniz?

- Kül bizim başımıza, gör bizim dərdimizi kim çəkir, - deyə varlılar dağılışıb evlərinə gedirlər.

## ONLARI TANIYIRAM

Deyirlər, kollektivləşmə dövründə Təpəköy kəndinin komsomolçuları ortabab kəndlilərin mal- qarası, qoyun- keçisi, qoşqu alətləri və at- öküzünü zorla alıb kolxoza verməyə cəhd göstərirlərmiş. Onlar bir gün də ortabab kəndli olan Güləbatın qarının qapısını kəsirlər, nəvəsinə deyirlər ki, get nənəni bayıra çağır. Uşaq içəri gedib nənəsinə deyir ki, çəkmələri cırıldayan bir neçə kişi səni bayırda çağırırlar. Qarı gələnlərin kimlər olduğunu bilir və təndirə çörək yapa-yapa deyir:

- Eh ay bala, onların çəkmələrinin cırıldamağına baxma, qarınları quruldayır. Onları tanıyıram, bizi də öz günlərinə salmaq istəyirlər.



## BU BİR OYUNDUR

Gümrü yaxınlığında, Arpa çayın sahilində yerləşən Bayandur kəndində 1918- ci ilədək Azərbaycan türkləri yaşamışlar. Qocaların dediyinə görə, bu kəndin əhalisi öz zarafatları ilə seçilərmişlər. Kəndə gələn qonaqlarla daha ciddi zarafat edərlərmiş.

Bir gün yenə də kəndə qonaq gəlir. Üz gözündən çox ciddi bir adam olduğu üçün onu kəndin koxasının evinə ötürürlər. Kənd koxası da kəndlilərindən geri qalmazmış. Axşamdan qonağa çay- çörək verdirir, yorğan- döşək saldırıb rahatladır. Amma gecə olanda, xəlvətcə qonağın çarığını gizlədir. Sabah açılır. Qonaq da qalxıb pal- paltarını geyinir, lakin çarıqları tapılmır ki, tapılmır. Ev sahibi ona bildirir ki, bəs çarıqları buzov yeyib. Qonaq gülərək deyir:

Köylərinin adı Bayandur.
Adamları lap xayındır.
Buzov heç çarıq yeməz,
Bu görünməmiş bir oyundur.

Ev sahibi gülərək onun çarıqlarını qaytarır.

## GÜNDƏ İÇİR

Ərinin içkiyə qurşanmasından danışan ağbabalı bir qadın o biri qadına deyir:

- Ağız, mənim ərim içkiyə yaman qurşanıb, gündə (yə'ni hər gün) içir.

- Sənin ərin yaxşıdır. Mənim ərim gündə də (yə'ni gün altında) içir, kölgədə də,- deyə o biri qadın cavab verir.

## ONA İNANIRAM

30- cu illərdə Ağbabanın dağ kəndlərində də zorakılıqla kollektivləşmə aparılırdı. Sultanabad kəndinə təhkimçi kimi milliyyətcə erməni olan Yediyar gəlib çıxır. Türklərin qatı düşmanı olan və rayonda NKVD- nin sədri işləyən həmin Yediyar «xalq düşmanı» adı ilə yüzlərlə, bəlkə də minlərlə azərbaycanlını Sibirə və Orta Asiyaya sürgün etdirmiş və ya güllələtmişdir.

Sultanabad kəndində iclas edən Yediyar deyir ki, bəs kolxoz yaxşıdır. Torpağı birlikdə becərəciniz. Kasıbların da kolxozda payı olacaq. Nəzərdə tutulub ki, ilk kolxozu sizin kənddə təşkil edək:

Bayaqdan iblis sifətli bu ermənini dinləyən və kəndin arif adamı olan ortabab toyçu Xəlil kişi hay salır ki, ay camaat, buna inanıb at- öküzünüzü, qoyun- quzunuzu, inəkcomuşunuzu əldən verməyin. Heç vaxt, heç vaxt ona inanmayın, yalan danışır.

Belə olanda Yediyar:- Kəs səsini, sən xalq düşmənisən. Səni əli- qolu bağlı Sibirə göndərtdirərəm,- deyir.

- Bax ona inanıram, atam, ona inanıram, sənin əlindən gələn işdir, deyə Xəlil kişi cavab verir.

## ÇAŞDIM

Deyirlər, bir gün iki oğru Çıldır tərəfdən gəlib Ağbaba tərəflərdə oğurluq etmək istəyirlər. Lakin gecəni çöldə qalsalar da, əllərinə bir şey keçmir. İstəyirlər çıxıb geri getsinlər. Günortaya qədər bir bulaq başında dincəlirlər. Bir də görürlər ki, uzaqda bir kəndli iki öküzlə cüt əkir. Oğrunun biri nə isə düşünləşir və birdən fikrinə gəlir ki, o öküzdən birini oğurlayacağam və tezlikiə də sərhəddi ötürüb keçirəcəyəm o tərəfə. O, tez yoldaşına bildirir ki, get sən o dərənin qənşərində gözlə. Mən təpədə kotanla yer əkənin başını qatacağam, sən isə tez öküzün birini boyunduruqdan açıb dərə uzunu qov. O, tez dərənin yanındakı təpənin üstünə qalxıb əl- ayağı ilə ha-



varlayaraq «çaşdım, çaşdım» deyərək haray salıb bağırır. Uzaqdan onu görən əkinçi ilkinə fikir vermir. Daha sonra əkini dayandırıb xeyli aralıda olan təpənin üstünə qalxır ki, görsün nə haray- həşirdir. Nəyə görə o adam bağırıb «çaşdım, çaşdım» deyə haray çəkir. Əkinçi yaxınlaşıb soruşur:

- Ay qardaş, nə olub, nəyə çaşıbsan?

Kişi təpənin yaşından boyunduruqda tək qalan öküzü göstərib deyir ki, səhərdən mən məəttəl qalmışam ki, sən tək öküzlə necə əkin edirsən. Kişi tez geri dönür və kotana sarı baxır, tək öküzü görüb və karıxaraq deyir:

- Doğrudan da, mən də çaşdım.

O biri oğru isə öküzün birini açıb, bizləyə- bizləyə dərəyə salaraq çoxdan oradan uzaqlaşdırmışdı.

## ƏT PARÇASIDIR

30- cu illərdə savad kurslarından Ağbaba kəndlərində ana dilindən dərs deyən bir müəllimdən soruşurlar ki, bəs dil dərsi keçəcəklər, o nə olan işdir. Müəllim cavabında deyir:

- Nə olacaq, ağız boşluğunda sağa- sola hərəkət edən sümüksüz bir ət parçasıdır.

## XIRTILTISI DA BİR ARTIQ

İki nəfər şörəyelli Gümrü şəhərinə gedir. Axşam tərəfi işlərini görüb geri qayıdırlar. Yolda yemək üçün biri üzüm, o birisi isə yerkökü alır. Yolda bir yerdə oturub dincəlir və kiçik bir süfrə salırlar. Birisi üzümü, o birisi isə yerkökünü ortaya qoyurlar.

Üzüm alan kəndli soruşur:

- Nə əcəb sən də üzüm almadın, yerkökü aldın?

- Mən sən qədər başa düşmürəm? Şirnisi şirnisinə bərabər, xırtıltısı da bir artıq. Daha niyə üzüm alaydım.

## SOMUN ALMAQ

Keçmişdə, kəndlinin biri Gümrüyə (Leninakana) öz yoldaşı ilə alverə gedir. Çörəkxanalarda qəlibdə somun (çörək) bişirirlərmiş. Kəndli görür ki, hamı növbə ilə somun alır. O da maraqlanıb alır. Yoldaşı ondan soruşur ki, somunu nə edəcək?

- Aparım evə uşaqlar lavaşla yavanlıq edib yesinlər,- deyə kəndli cavab verir.

## QOYUN XƏSTƏLİYİ

Ağbabada qoyunlara xəstəlik düşübmüş. Müxtəlif həkimlər gəlir çarə tapa bilmirlər. Axırda bir rus baytar həkiminə müraciət edirlər. Baytar sürüyə baxır və başını bulayıb «yasna» deyir. Yə'ni aydındır. Amasiyalı çoban Məmiş də qulaq asırmış. O tez özünü kəndin içinə çatdırır və car çəkir:

- Ay camaat, qoyunlara «yasna» xəstəliyi düşüb, tədbir görmək lazımdır,- deyir.

## BORCUN QAYTARILMASI

Kasıb bir kəndli varlı qonşusundan pul borc istəyir. Varlı kişi pulu gətirib verir və deyir: «Tez qaytar ha». Borc alanın dillənmədiyini görüb bir də deyir: «Bax, verirəm tez qaytar, ha!...» Borc alan başını bulayıb deyir:

- Al pulunu, bundan tez qaytara bilmərəm.

## KEÇDİ ƏLƏKDƏN

Keçmişdə ağbabalı bir kişinin bir camışı var imiş. Bərk aclıq olduğu üçün kişi çöldən camışın başına çatı keçirib aparıb satır. Əvəzində iki kisə arpa unu alır. Arvadı sevinə- sevinə təndirə çörək yaparaq uşaqları sevindirir. Axşam olur arvad deyinir ki, bəs a kişi, axı camış gəlmədi, dur dalınca get



gəz. Kişi bir şey demir. Arvad intizarda qalır. Səhər yenə arvad kişini dilə tutur. Axırda kişi deyir:

Ay arvad,
Bizimki qara gəldi,
Çarxı dönmüş fələkdən,
Evə sığmayan camış
Gəldi keçdi ələkdən.

## ÜZLÜ QONAQ

Birinin evinə qış aylarında bir qonaq gəlir. Lakin qonağın günü- güzəranı yaxşı olduğu üçün getmək haqqında heç fikirləşmir də. Qonağın əlindən bezən ev sahibi qonağın yanında pişiyi qucağına alıb sevməyə başlayır:

Pişiyim, pişiyim mavunə
Qonaq görər sevinə.
Böün qonaq bizdədir
Sabax gedər əvinə.

Bunu görən qonaq gülüb deyir ki, ver bir az da mən sevim:

Pişiyim, pişiyim mavinə
Qonaq görər sevinə.
Bu ay qonax bizdədir
Gələn ay gedər əvinə.

## BOL OLANDA

Gözəldərəli hacı Rəsulun Həsən, Hüseyn və Məmmədbağır adlı üç oğlu varmış. Bir gün gözəldərəlilər- həmkəndliləri onun başına yığılıb söhbət edirmişlər. Söhbət əsnasında soruşurlar ki, Hacı Rəsul, oğlanların da tənbəki (tütün) çəkirlərmi? Hacı Rəsul üzünü Kərbəlayı Xudaverdiyə tutub belə deyir:

Hasan da qəlyan çəkir, Tənbəki bol olanda
Hüsen də qəlyan çəkir. Məmmədbağır da qəlyan çəkir.

## YOLDA BANLAYAR

Deyirlər, Pəmbək tərəfə Şörəyeldən bir qonaq gəlir. Axşam olduğu üçün gecə bir kənddə gecələməli olur. Vaxtsız olduğu üçün ev sahibi qonağa layiqli hörmət edə bilmir. Çay-çörək yeyib yatırlar. Qonağa isə başqa otaqda yer salıb rahatlayırlar.

Axşamdan toyuq- cücənin içində hərlənən iri xoruzları görən qonaq səhər yerindən tez durur. Ev sahibini acıtmaq üçün iri bir xoruzu tutub əbasının altına soxur. Ev sahibinin qalxmasını gözləmir, içəri otaqda yatan ev sahibi ilə uzaqdan sağollaşıb getmək istəyəndə ev sahibi səslənir:

- A kişi, bir dayan, arvad- uşaq qalxsın, çay- çörək ye get. Qışın günüdür, hava işıqlansın. Xoruz banlayanda gedərsən.

- Heç əziyyət çəkmə, elə banlayan xoruz yolda da banlayar,- deyərək əli ilə əbasının altındakı xoruzu göstərir və tələsik yola düşür.

## QAŞIQLA İÇ

Keçmişdə Ağbabanın Qara Namaz kəndində Cabbar ağa adlı bir varlı yaşayırmış. Onun evinə qonaq- qara çox gələrmiş. O, Qocabəy (Boqdanovka) yaxınlığındakı Buğdaşen kəndindən olan bir duxobor rusla- Vasillə də dostluq edərmiş. Vasil həmişə gələr, Cabbar ağagildə qonaq qalar və Arpaçaydan çoxlu sazan balığı da tutub aparармış. Həmişə də zarafat edərlərmiş.

Bir gün Vasil yenə balıq tutmağa gəlir. Xoş-beşdən sonra çörək yeyirlər. Yarpız çayı içirlər. Vasil çayı görüb deyir:

- Cabbar ağa, bu çay niyə yaşıldır?

Cabbar ağa bilir ki, Vasilin yenə zarafatı var. Özünü o yerə qoymayıb deyir ki, yarpız dərman bitkisidir, bulaq başında bitir. Özü də soyuqdəymənin dərmanıdır. Vasil gülüb deyir:

- Onda daha niyə zəhmət çəkib evdə içirsiniz? Lazım olanda stəkan və qənd götürün. Yarpızlı bulağın başında oturub, nə qədər istəyirsən iç.



Cabbar ağa bir söz demir. Səhəri gün Vasil Arpaçaydan çoxlu iri sazan tutub gətirir. Cabbar ağaya deyir ki, qabqacaq gətirtdir, özüm üçün bir sup bişirim. Ev sahibi tez qazan gətirtdirir. Vasil tez bir qazan suya bir neçə balıq salıb ocağın üstünə qoyur. Xeyli keçəndən sonra, balıqların gözü ağaranda Vasil qazanı qabağına qoyur və iri bir qaşıqla hortahort içir. Belə yeməyə məəttəl qalan, həm də dünənki zarafatın cavabının vaxtı yetişdiyini hiss edən Cabbar ağa başını bulayaraq deyir:

- Vasil can, əziyyət çəkib bu dəm- dəsgahı açmaq nəyə lazımdır. Arpa çay dolu balıqdır. Elə qaşıq götür, get çayın kənarına. Qaşıqla, o sudan o ki var iç.

## ƏN PİS XASİYYƏT

Bir kişinin keçmişdə üç arvadı olur. Bir gün elə olur ki, kişi arvadları ilə uzaq bir səfərə çıxanda dərin bir çayı keçməli olurlar. Suyun ortasında kişi arvadları dayandırır və soruşur ki, indi kim hansı pis işin sahibidirsə, söyləsin.

Birinci arvadı deyir ki, mən oğruyam. Kişi bildirir ki, çayı keç o taya sən gözlə

İkinci arvadı deyir ki, mən pis yola dolanmışam.

- Sən də çayı keç, o tayda gözlə,- deyir kişi.

Üçüncü arvadı da bildirir ki, dilim çox uzundur.

Kişi eləməyib tənbəllik kiçik arvadının çay uzunu axıdır.

Aradan bir neçə vaxt keçəndən sonra onlar evlərinə qayıdırlar. Kişi gətirib nə qədər qızıl- gümüşü varsa, ortaya tökür. Özü isə çıxıb işə gedir. Oğru olan arvad məətəl qalır ki, görəsən bu nə işdir, kişi edib. Axşam olcaq kişi işdən qayıdır. Görür ki, arvadı heç pullara dəyməyib. Arvad and- aman eləyib, bir də oğurluq eləməyəcəyini söyləyir.

Bir neçə gündən sonra kişi evin arxasını deşib daha bir qapı açır. Ortancıl arvadı soruşur ki, a kişi, evi niyə deşirsən? Kişi bildirir ki, sənin üçün xəlvət yol açmışam. Arvad and-aman edərək bildirir ki, qələt edərəm bir də pis işlərə qoşulmaram.

Arvadların e'tirafından sonra кişi bildirir кi, hər bir vərdişi, hər bir xasiyyəti tərgitməк olar, ancaq dili uzun adamların dilini qısaltmaq olmaz.

## NAXIRÇI QIZININ ARZUSU

Deyirlər, кasıb bir naxırçı qızını varlı bir кişi oğluna alır. Belə var- dövlət, ev- eşiк, yeyib- içməк görməyən naxırçı qızı belə həyatdan «bezərəк» qohum- qonşuya şiкayətlənir:

- Ah bulamacı bulayardım, buluyacan yalayardım. Yıxılsın ərim evi. Gündə plov, gündə ət. Ağac ata minib sürürdüm, qohum- qonşuyu güldürürdüm. Yarəb! Yarəb! Кüllüкdə yatanıydım, zərdə satanıydım. Qızıydım, saçı qunduzduydum. Atam- anam gələydi, məni bu gündə görəydi.

Ona görə də deyərlər: Naxırçı qızının кönlü, naxır əppəyi istəyər.

## GƏLƏNDƏ BİLƏRSƏN

Ağbabanın bir кəndində hüzr yerində sünnü təriqətindən olan bir molla şiə təriqətindən olan bir mollaya deyir:

- De görüm, Əzrayil şiyədir, yoxsa sünnü?

- Qapına gələndə bilərsən,- deyə şiə mollası cavab verir.

## TƏZƏDƏN KEÇİM

İlк dəfə maşınla Gümrüyə gedən sürücü qaydanı pozur. Avtomobil müfəttişi sürücüyə:

- Vətəndaş, yolayrıcını düzgün кeçmədiniz, cərimə olunursunuz,- deyir:

- Bağışlayın, yoldaş müfəttiş, icazə verin dönüb gəlim, təzədən кeçim,- deyə sürücü cavab verir.

## ÖLMƏYİ GƏLİR

Bir nəfər Şörəyelli Gəncədən- qohumunun dəfnindən qayıdıbmış. Кənd adamları onun başına yığılıb hal- əhval



tuturlar. Dəfndən gələn hey Gəncədəкi Səbizкar qəbristanlığını tə'rifləyərəк deyir:

- Cənnət, cənnət deyirlər elə o Səbizкar qəbristanlığıdır кi, var. Elə vallah adam oranı görəndə ölməyi gəlir.

## AND İÇMƏ

Şörəyel кəndlərinin birində birinin bir cöngəsi itir. Cöngənin sorağını qonşu кənddən verirlər. Cöngə sahibi tanışların göstərişlərinə görə həmin кənddəкi evlərin birinin qapısını döyür. Ev sahibi bayıra çıxır. Təhər-töhüründən bunun cöngə sahibi şübhələnir. Doğrudan da, bir gün əvvəl bu adam cöngəni кəsib gizlicə qohum- qəbiləsi arasında paypüş edibmiş. Cöngə sahibi ondan cöngəni görüb- görmədiyini soruşur. Ev sahibi and- aman içib deyir:

And içib ağı yalaram,
Bığımda yağı cöngənin.
Belində çul- çuvalı,
Başında bağı cöngənin.
Vuraram qazan calanar,
Çıxar baş- ayağı cöngənin.

Cöngənin baş- ayağının təndirdə bişməsinə baxmayaraq, cöngə sahibi heç bir şey başa düşə bilmir və deyir:

- Sən allah, elə dərindən and içmə, inandım кi, sənin xəbərin yoxdur.

## BAĞLAMAMIŞAM

Deyirlər, Pəmbəyin кəndlərindən olan bir ağa Şörəyelin Qaraçanтa кəndinə qonaq gedir. Varlı ev sahibi hal- əhval tutur, onunla görüşür. Eyni vaxtda həm də nöкəri Əhmədə deyir кi, get atla dağdaкı sürüdən bir erкəк gətir. Əhməd gedir. Ev sahibi qonaqla söhbət edir, həm də öz- özünə belə danışır: «Aha Əhməd indi filan dərədən adladı, sürünün yanına çatdı, çobanla görüşdü, erкəyi atın tərкinə qoydu və кəndə tərəf yola düşdü. Hesabla gərəк indi həyətdə ola.

Bir az da durur. «Əhməd, oğul gəldin?»- deyə həyətə səslənir.

- Gəldim ağa,- deyə Əhməd həyətdən cavab verir.

Ev sahibi qonağa hörmət edib ləyaqətlə yola salır.

Ağa Pəmbəyə qayıtcaq Əhməd adlı cavan bir oğlanı özünə nökər götürür. O elə bilir кi, bütün Əhmədlər qoçaq olar. Aradan bir vaxt кeçir. Şörəyelli dostu onlara qonaq gəlir. Görüşürlər, hal- əhval tuturlar. İndi də ağa öz nöкəri Əhmədə əmr verir кi, atlan, Maymaq dağındaкı yaylaqdan bir əmməlli erкəк gətir gəl. Nöкər bayıra çıxır. Ev sahibi də dostu кimi hesablayır: «Aha Əhməd indi filan bulağa çatdı, obanın yanında çobanlarla görüşdü, erкəyi götürdü və gəldi».

Bir az da dururlar. Ağa lovğalanaraq qonağın yanında səslənir: -Əhməd, gətirdin?

- Ağa, sən o qədər danışdın кi, hələ heç çarığın bağını belə bağlamamışam,- deyə Əhməd həyətdən səslənir.

## ONDAN QORXMA, BUNDAN QORX

20- ci illərdə Ağbabanın Təpəкöy кəndinə Ələyəzin Gözəldərə кəndindən çoxlu qaçqın gəlir. Kənd varlıları onları кəndə qoymurlar. Belə olanda hər iкi tərəfdən rayon mərкəzinə- şiкayətə gedirlər. Ağbaba mahalının icraкomu Salmanov varlılara bildirir кi, кənd şura кəndidir, кim istəsə yaşaya bilər. Qaçqınların başçısı Məhəmmədəlini göstərib deyir:

- Düzdür, bunun bığı yeкədir, ondan qorxmayın, ürəyi təmiz adama oxşayır.

- Ancaq bundan qorxun,- deyir və barmağı ilə varlıların tərəfinə кeçən Gözəldərəli qaçqın Qulamı varlıların başçısı Məşədi Hasana göstərir. Bundan sonra icraкom əmr edir кi, şiкayətə gələnlərin hər birinin çiyninə bir telefon dirəyi versinlər, aparıb кənd şurasına təhvil versinlər. Beləliкlə, varlılar 17 кm. yolu çiyinlərində direк əziyyətlə gətirir, şura müvəккilinə təhvil verib кağız alırlar. Onlar yolda bir- birini günahlandıraraq çox əziyyət çəкirlər.



## ONU DEYƏNDƏ

Avtomobil кəndə təzə qədəm qoyanda Qara Namaz кəndindən çoxlu adam yüк maşınına minib Leninaкan (Gümrü) şəhərinə gedirlər. Geri qayıdanda yaşlı olduğu üçün Qurban кişini кabinada oturdururlar. Qurban кişi ilə zarafatı olan adamlar onun aldıqları qarpızları maşın getdiкcə yeyir və qabığını tullayırlar. Kişi кabinadan bunu hiss edir, laкin üstünü vurmur, axı o, belə zarafatları кəndçiləri ilə çox etmişdi. Nəhayət, maşın кəndə çatır. Qurban кişi deyir кi, ay bala, maşının üstündən mənim də şey-şüyümü verin.Kəndlilər onun кisələrini verirlər. Kişi bir az uzaqlaşanda qarpızı yeyənlər bağırırlar кi, bəs qarpızlar qaldı. Elə Qurban кişiyə də bu lazım idi.

- Ə, a bala, qarpız nədir? Qarpız alanda belə- belə olsun, qarpız yeyəndə-, deyib gülə- gülə çıxıb gedir.

## BİLMİRSƏN, XƏSTƏLİK VAR

Mal xəstəliyi ilə insan xəstəliyini seçə bilməyən rayкom кatibi ot biçini vaxtı Ağbaba кəndlərinə çıxır. Kəndlərin birində görür кi, sərnədə кənd adamları işləyirlər. Ot yığan кim, ot biçən кim. Katib baxır кi, belə yerdən кeçib getsə, yaxşı alınmaz. Maşını dayandırtdırır. Briqadir tez gedib onunla əl tutmaq istəyir. Laкin кatib tez onun fiкrini başa düşüb deyir:

- Ay yoldaş, bilmirsən dabaq xəstəliyi var, sən də əl tutursan. Tez əlini aşağı sal.

## GECİKƏRSƏN

Sovetləşmə vaxtında Teyfə arvadı Şurabad sovetliyinə Şura müvəккili seçirlər. O başlayır şuranın iclaslarında oddu-oddu danışmağa. İlк növbədə кənd varlılarına qarşı mübarizəyə girişir. Bir gün yenə iclasa tələsərкən Calal кişi onun qabağını кəsib soruşur:

- A, Teyfə bacı, hara tələsirsən belə?

Elə çoxdan idi ki,bu ortabab Calal kişidə heyfi olan Teyfə deyir:

-Hara gedirəm, guya bilmirsən? İclasa gedirəm. İndiyədək bizim gözümüz bağlı olub. Kişilər hüququmuzu əlimizdən alıb, özləri kef sürüblər.

Calal kişi görür ki, Teyfə azını alıb çoxa gedir.

- Sən Allah! Onda tez get, gecikərsən,- deyir.

## HƏM ATAMA SÖYÜR, HƏM DƏ ÖKÜZÜ DÖYÜR

30- cu illərdə oxçoğlulu Zeynalabdin kişini zorla kolxoza yazırlar. Kənd təsərrüfatı alətlərini və öküzlərini versə də, kolxozda işləmir. Bir gün axşamüstü görür ki, Gümrü yolundakı yoxuşda ot arabası qalıb, öküzlər çəkə bilmir. Bir kəndli isə günahsız öküzləri ağır yükü çəkmədiklərinə görə həm döyür, həm də onların sahibinə söyür. Bunlara dözməyən Zeynalabdin kişi irəli gedir və kişiyi irəli itələyərək öküzləri açıb buraxır və gətirib öz mal pəyəsinə salır. Səhər kolxoz sədri və sovet sədri Zeynalabdin kişinin qapısını kəsib öküzləri istəyir və özünün də kolxoza yazılmasını məcbur edib vaxt verirlər. Zeynalabdin kişi deyir:

- Mən öküzləri də kolxoza verməyəcəyəm. Ona görə ki, sizin o ac- giciniz (kolxoz üzvlərini nəzərdə tutur) həm günahsız öküzləri şişlə döyəcək, həm də dədə- anama söyəcəklər. Mən nahaq yerə günahsız ata- anama söydürə bilmərəm.

## NƏYİNİ DEYİM

Ağbabanın Sultanabad kəndindən olan toyçu Xəlilin bir dəli inəyi varmış. İnək həm dəli, həm sümsük, həm də südsüz imiş. Bir xasiyyəti də o imiş ki, bə'zən özünü belə əmirmiş. Danasını da yarıtmazmış. Ona görə də istəyir ki, inəyi başından eləsin- satsın. Amma tanış- biliş olmasın. Çünki eldə-obada Xəlil kişi tanınan adamlardanıydı, sonra biabır olardı.

Bir gün Xəlil dayı eşidir ki, bəs Gümrü tərəfdən bir erməni gəlib, inək almaq istəyir. Ermənini Xəlil dayının evinə



gətirirlər. Axşam olduğu üçün mal- qaranın gəlməsini gözləyirlər. Xəlil dayı da, qonşular da başlayırlar inəyi tə'rifləməyə, nə tə'rifləməyə. Naxır gəlir. Xəlil dayı sevə- sevə inəyi boğazının zəncirini keçirir. Erməni, Xəlil kişidən inəyin yaşını, xuyunu, xasiyyətini soruşur. Xəlil dayı ağzını inəyin qulağına tutub pıçıldayır:

- Ha, indi sənin nəyini deyim? Balanı yarıtmadığını, hasarları dağıtdığını, təpik atdığını, özünü əmdiyinimi, nəyini deyim ha?

Erməni deyir ki, a kişi, nə deyirsən inəyin qulağına, elə de, biz də bilək.

- Bizdə qaydadır, mal- qoyun satanda sahibi ondan halallıq istəyir,- deyə Xəlil dayı cavab verir. Erməni inəyin pulunu sayıb verir. Sonra inəyin başına çatı salıb aparıb gedir.

## NƏ QALDI SƏN YEMƏMİŞ

Keçmişdə minik vasitələri olmadığı üçün Ağbaba kəndlərindən şəhərə gedənlər bir iki günə gedib- gələrlərmişlər. Ona görə də, hər bir adamın şəhərdə erməni qonaxçısı olarmış. Təpəköylü İbrahim kişinin də Gümrü şəhərində qonaxçısı Xaço kişiymiş. Bir gün yenə İbrahim kişi şəhərə kərə yağı satmağa aparır və gecəni Xaçogildə qalmalı olur. Həyətdə gəzən pota- pota donuzlara tamaşa edən İbrahim kişi Xaçodan soruşur ki, bəs bu donuzlara nə yedirirsən ki, belə kökdürlər. Xaço həvəsdənib deyir:

- Bax deyim, nə yeyir. Kalam yedin,- yedin. Kartop yedin,- yedin. Pazı yedin, - yedin. Artıq (xörək artığı) yedin,- yedin. Axı nə..... qaldı sən yeməmiş.

## MƏNİM QARNIMDA BALA VARSA, BUNUN DA QARNINDA VAR

Şörəyelin erməni kəndlərindən bir erməni Ağbabaya gəlir ki, bir qısır, ətdik mal alsın. Avqust ayı olduğu üçün mal-qaranın da kök vaxtı imiş. Təpəköylü Usuf kişinin də bir süd-

süz inəyi varmış. İstiyirmiş ki, satsın, ancaq kirəvə düşmürmüş. Qonum- qonşu da bunu bildikləri üçün ermənini Usuf kişinin qapısına gətirirlər. Usuf kişi inəyin boğaz olduğunu bilsə də, özünü o yerə qoymur və başlayır inəyin cins, cavan və ətli olduğunu deməyə. Mal- qoyundan başı çıxan Əhməd kişini də çağırırlar ki, inəyi yoxlayıb boğaz və ya qısır olduğunu desin. Əhməd kişi işin nə yerdə olduğunu bildiyi üçün əlini inəyin yelininə və qarnına vurub, inəyin qısırlığına inanmayan erməniyə deyir:

- A xonaxa, bu inək qısırdır, mənim qarnımda bala varsa, bunun da qarnın da bala var. Alsan peşman olmazsan.

Beləliklə, qonşularının köməkliyi ilə, Usuf kişi inəyi erməniyə sırıyır.

## ƏLİUŞAQLIYA YER VERİN

Deyirlər, 30- cu illərdə toyçu Xəlili Axsqanın Ota kəndinə zurnaçıları iləbirlikdə toy çalmağa aparırlar. Daha doğrusu, gəlin gətirməyə gedirlər. Nolacax, o vaxdın da miniyi at arabaları idi. Həm arabalar, həm də atla gedən atlılar gedib Otuya çıxırlar. Bir gün orada yaxşı toy edirlər. Geri qayıdanda «Paşaköşdü»nün sədası altında arabalara minirlər. Elə olur ki, əliuşaqlı bir qadın və Xəlil dayıya yer olmur, yerdə qalırlar. Xəlil dayı baxıb görür ki, hamı öz hayındadır. Üzünü arabadakılara tutaraq deyir:

- Ay camaat, bizə də yer edin, ikimiz də əliuşaqlı qalmışıq burda,- deyərək həm gəlini göstərir, həm də qucağında ehtiyatla tutduğu toyu.

Ev sahibi və arabadakılar da gülüşürlər. Sonra əlavə bir at arabası da toyun dəstəsinə qoşaraq Ağbabaya yola salırlar.

## DƏRDDƏN İÇİRƏM

Heç ömründə arvad- uşağının yanına sərxoş gəlməyən pəmbəkli bir kişini elə olur ki, qonşuları möhkəm içirdirlər. Kişi bir təhər evə gəlib çıxır. Özünü çox pis hiss etdiyi üçün onu



çarpayıya uzadırlar. Səhərə qədər keşiyində dururlar. Kiçik oğlu Murad yaxınlaşıb ah- nalə edən atasından soruşur:

- Ata, sana noolub, niyə belə edirsən? Haran ağrıyır?

- Uşağı aldatmaq üçün Qasım kişi «Dərddən içirəm, a bala»,- deyir.

Aradan bir vaxt keçir. Kişi bir də evə sərxoş gəlir. Murad yenə soruşur:

- Dədə, yenə dərddən içirsən?

## BU BUDUR, BU DA BUDUR

Güllübulaq kəndində, yenidənqurma illərində camaat dükanın qabağına yığışıb söhbət edirlərmiş. Hərə bir yandan Qorbaçovu pisləyir, onun yaman əməllərindən, ermənipərəst işlərindən danışırlarmış. Onlara qulaq asan Ovçu Almədəd kişi deyir:

- Əşi, məni o Qorbaçovun yanına buraxalar, ona elə sözlər deyərəm ki, yarandığı günə peşiman olar.

Camaat maraqla soruşur:

- De görək, nə deyəcəksən axı.

Ovçu Almədəd yenə də deyir ki, özüm bələrəm. Bircə məni onun yanına buraxalar.

Axırda danışanlar bezib əl çəkmirlər ki, a Almədəd, bizi bezdirmə, de görək axı nə deyəcəksən?

Ovçu Almədəd əllərini ölçə- ölçə deyir:

- Bircə onu görüm, deyəcəyəm ki, bu budur, bu da budur.

## KƏSƏ BİLMƏZLƏR

Molla Nəsrəddinin yolu bir gün Ağbabadan düşür. O, kəndlərin birində dayanıb kəndlilərlə söhbət edir. Eşşəyini də çəmənliyə buraxır ki, bir az otlasın. Bu vaxt kəndlinin biri təngnəfəs gəlib deyir:

- Molla, sənin eşşəyinin quyruğunu kəsirlər.

Hamı həyəcanla mollanın üzünə baxır. Molla halını pozmayıb deyir:

- Kəsən neçə nəfərdir?

Həmin xəbər gətirən deyir ki, dörd nəfərdirlər.

Molla yenə fikir vermir, daşın üstündə oturub söhbətinə davam etdirir. Kəndlilərdən biri dözməyib deyir ki, molla sən nə bivec adamsan, eşşəyinin quyruğunu kəsirlər, sənin isə heç vecinə deyil.

Molla cavab verir:

- Bu ola bilməz. Bir nəfər olsa, inanardım. Çünki onlardan biri deyəcək yuxarıdan kəsək, o birisi deyəcək aşağıdan kəsək. Daha birisi deyəcək bir qarış aşağıdan kəsək. Bir sözlə, inanmıram eşşəyin quyruğunun kəsilməyinə.

## QAYNANASINDAN UTANIR

Sovet hakimiyyətinin ilk illərində kəndlərdə savad kursları açılanda tez- tez yoxlamalar gələrmiş. Bir dəfə Güllübulaqda bu kursları yoxlayan qadınlara sual verəndə görür ki, hamı əl qaldırıb danışır. Bir nəfər cavan gəlin isə yamşınıb dinmir. Nümayəndə üzünü ona tutub soruşur:

- Niyə utanırsan, a bacı, görürsən ki, səndən başqa heç kəs yaşınmır.

Gəlin susmaqda davam edir. Onun yanındakı qadınlardan biri deyir:

- A qardaş, bu gəlinin yanında oturan qaynanasıdır, ondan utanır, sizdən yox.

## YANAĞIM QIZARDI

Bozqala kəndində bir arvadın səfeh bir qızı varmış. Ağıldankəm bu qıza elçi gəlir. Anası da istəyir ki, qızını tez birinə ilişdirsin- ərə versin. Elçilər gələn vaxt arvad qızına deyir ki, tez keç o biri otağa, sobanın yanında otur ki, yanaqların qızarsın, bəlkə elçilərin xoşuna gələsən. Yoxsa səni ağılda, səni görkəmdə qızı kim alacaq? Qız keçir o biri otağa.



Elçilər qızın ata- anasından «hə» cavabı gözləyirlər. Həm də qıza da baxmaq istəyirlər. Elə bu vaxt o biri otaqdan qız qapını açıb içəri girmək üçün anasından icazə istəyir:

- Ana, yanağım qızardı, gəlimmi?

Elçilər qızın hərəkətindən pərt olaraq geri gedirlər.

## PİŞİYİN QATIĞI YALAMASI

Bir arvadın 3 qızı olur. Üçü də pəltək imiş. Elə olur ki, bunları yaxından tanımayan bir ailə qızın birinə elçi düşür. Elçi gələn ərəfədə arvadın çaldığı qatığın üzünü pişik yalayır. Qızların üçü də pişiyin hərəkətini analarına xəbər vermək üçün elçilər olan otağa girirlər. Böyük qız tələsik deyir:

- Ay ana, pişik qatığı laladı.

Ortancıl qız da bacısını dümsükləyib:

- Dillənməsən, nə oludu,- deyir.

Kiçik qız da belə söyləyir:

- Dillənməsə, lal oludu.

Elçilər qızların pəltək olduğunu görüb tez əkilirlər.

## MƏN EVƏ QANAD QOYMAMIŞAM

Quzukəndli Allahqulu həm də bənnalıq edərmiş. Bir gün yenə də Ağca qarının evini tikib qurtarır. Qurutdu xəngəldən də bir sini yeyib dükanın qabağındakı yığnağa gedir ki, bir az kəndliləri ilə dərdləşsin. Ordan- burdan söhbət edərkən Ağca qarı gəlib ora çıxır və Allahquluya deyir ki, Allahqulu, sən bu divarı necə çəkdin, ev uçdu.

Allahqulu halını pozmayıb deyir:

- Ay Ağca nənə, məgər mən evə qanad qoymuşdum ki, uçsun?

## MƏNİ DƏ DAKQOYUN OĞLU İSTƏYİR

Deyirlər ki, Qarabulaq kəndində vaxtı ötmüş bir qız varmış. Bu qazın baxtı açılmırmış ki, açılmırmış. Tay- tuşları söh-

söhbət düşəndə öz nişanlılarını tə'riflərkən o da köksünü ötürüb deyərmiş:

- Nə bilim, anam, nə bilim bacım, məni də Dakqoyun oğlu istəyir. Bilmirəm gedim, getməyim.

Elə o da düşmüşdü ağbabalıların dilinə. Bir iş görmək istəyəndə deyərdilər:

«Məni də Dakqoyun oğlu istəyir. Bilmirəm gedim, getməyim?».

## GƏTİR BİRLİKDƏ YEYƏK

Mağaracıqlı bir qadın Gümrüyə kərə yağ satmağa gedir. Bazarda çox yağ olduğundan yağ yaxşı satılmır.

Günortaya yaxın bir erməni dığası yağı vedrə ilə götürüb qaçır. Arvad da onun dalınca qaçmağa başlayır və haray salır:

- Ay qoymayın, oğru yağı apardı.

Lakin heç kəs ona fikir vermir. Oğru uzaqlaşır. Arvad da yorulub bir daşın üstündə oturur və öz- özünə deyir:

- A bala, qaçma, gətir birlikdə yeyək, qaçma, qadan alım, gətir bərabər yeyək.

## MOLLA BƏDƏLİN DUASI

Molla Bədəl bir il Ağbabanın sərt qışına dözməyərək Borçalıya üz tutur. Kəndbəkənd gəzərək mollalıq etməyə başlayır. Kəndlərin birində bir gəlin Molla Bədəldən xahiş edir ki, onun sobasına bir dua yazsın, yaxşı yanmır, əri də onu danlayır.

Molla görür ki, gəlin çox qanmazdır. Ondan 5 manat alıb dua yazır və duanı sobanın altına basdırmağı tapşırır. Bundan başqa, sobaya çoxlu odun qoymağı və şişlə tez- tez gözünü eşməyi də tapşırır.

Molla gedəndən sonra gəlin onun tapşırıqlarını yerinə yetirir. Görür ki, ocaq əməlli- başlı yanır. Axşam əri evə gələndə görür ki, ocaq çox gözəl yanır, xörək də əvvəlkindən yaxşı bişib. Arvad sevinə- sevinə deyir ki, Allah Molla Bədəlin



atasına rəhmət eləsin, ocağa dua yazdırdım. Ona görə soba belə yanır.

Kişi çoxbilmiş olur. Arvadına deyir ki, hələ o duanı gətir baxım. Arvad duanı sobanın altından qazıb çıxarır. Kişi duanı kəndlərindəki mollaya bir təhər oxudur. Məzmunu belə imiş:

Odunu qoy beş- beş,
Şişlə gözünü eş.
Odunu qoyursan az
Heç ocaq alışarmı,
A qanmaz qızı, qanmaz?

## OD, ALOV, ÇINQI QOY ADINI

Qara Namaz kəndində birinin dörd oğlu varmış. Bu uşaqlar çox dəcəl imişlər. Qonşuları da onların əlindən zara gəliblərmiş. Elə olur ki, həmin ailədə beşinci uşaq da doğulur. Ailənin başçısı gedir Sovet sədrinin yanına və sevinə- sevinə deyir:

- Dursun, başına dönüm təzə oğlum olub, ona nə ad qoyaq. Bir də ki, xahiş edirəm ki, ona yaş kağızı yazasınız.

Onsuz da onun oğlanlarının əlindən bezən Sovet sədri qələmini fırladaraq hirsli- hirsli deyir:

- Atası rəhmətlik, təzə doğulan uşağın adını nə qoyacaqsan? Yazaq, od, alov, çınqı.

## BİLDİR ÇOX YEMİŞƏM

Çivinlili Çoban Əmrah çox utancağmış. Bir gün o, iş üçün qonşuya gedəndə görür ki, orada qarpız kəsib yeyirlər. Mə'lumdur ki, dağ yerində qarpızı daha çox sevərlər. Qonşular Əmrahı süfrəyə də'vət etsələr də, o utandığından süfrəyə yaxın durmur və deyir:

- İstəmirəm, vallah. Siz yeyin, halalınız olsun: Mən bildir o qədər yemişəm ki.

## SƏN DƏ MÜƏLLİM İŞLƏYƏRSƏN

Müharibədən sonrakı illərdə Ağbabanın dağ kəndinin birində kolxoza çobanlıq edən Novruzu iclasda məzəmmətləyirlər ki, sürüyə yaxşı baxmır. Novruzun arvadı Gülbahar da kolxoz idarə hey'ətinin iclasında iştirak edirmiş. Novruzun azmaz rusca bildiyinə arxalanan Gülbahar hirslənərək deyir:

- Gəl bəri, a kişi, sən, yə'ni Murad müəllim qədər də yoxsan? Qoy işdən çıxartsınlar, sən də gedib rus dili müəllimi işləyərsən.

## BİR KİSƏ UN YEMİŞƏM?

Qönçəli kəndindən bir nəfər kişi çeçil pendiri satmaq üçün Gumrü şəhərinə gedir. Pendiri satandan sonra, Papaxxana məhəlləsindəki restoranda yaxşı yeyib içir. Ofisiant haqq- hesab kəsir, ondan 13 manat istəyir. Çoban isə vermir və deyir ki, onun yeyib- içdiyi 13 manat etməz. Ofisiant isə əl çəkmir ki, əl çəkmir.

13 manata bir kisə un aldığını düşünən kişi daha da hirslənərək deyir:

- Sənin deməyindən belə çıxır ki, mən bir kisə un yemişəm?

## ŞÜKR ELƏ Kİ...

Hələ avtobus olmayan bir vaxtda Ağbabanın kəndlərindən olan bir kişi oğlu Nəsirə 50 manat verərək qonşuları ilə Gümrü şəhərinə göndərir ki, Novruz bayramı üçün düyü, ərik, mer- meyvə alıb gətirsin. Oğlunun bədxərc olduğunu Əvəz kişi bilsə də, başqa çarəsi qalmır. Çünki xəstə olduğu üçün özü pay- piyada şəhərə gedə bilməzdi. Bayrama da lap az qalıbmış. Beləliklə, Nəsiri qoşur şəhərə gedənlərə. Ancaq Novruz bayramı da adlayır, Nəsir gəlib çıxmır ki, çıxmır. Əvəz kişi birtəhər bayramı keçirir. Gecdən gec Nsir də gəlib çıxır. Əvəz kişi hirslənərək soruşur:

- A bala, a üzün qara olsun, hardasan? Bayram da keçdi, gəlib çıxmadın Bə 50 manatı neynədin?



- Sağ olasan səni, ay dədə, şükür et ki, nə yaxşı xuliqanların əlindən qurtarıb sağ-salamat gəlmişəm. Hələ bir soruşursan ki, əlli manatı nə etdin?- deyə bivec Nəsir əlini yelləyir.

## BƏXTİN GƏTİRİB

Çoxdan görüşməyən, Pəmbəyin kəndlərindən olan iki uşaqlıq dostu Qarakilsə şəhərində rastlaşırlar. Hal- əhvaldan sonra biri digərindən evlənib- evlənməməsi haqqında da soruşur. Yoldaşı cavab verir:

- Hə, beş il olar evlənmişəm. Bir fağırını almışam. İki də uşağımız var. Arvadım çox sakitdir. Malın biridir.

Bayaqdan bəri öz həyasız arvadını düşünən və onun əlindən indiyədək təngə gələn o biri yoldaşı deyir:

- Eh, bəxtin gətirib. Keşkə o maldan birini də Allah mana qismət edəydi.

## ADAM OLSALAR, ADAMLARI İNCİTMƏZLƏR

Deyirlər, Pəmbəyin ayrımlar yaşayan kəndlərinin birində İmran adlı əyyar bir kişi varmış. Elə olur ki, halal əməkgününə kolxozdan çatan yağ, pendir və taxılı ala bilmir. O, bir gün eşidir ki, axşam üstü idarədə kolxoz aktivinin iclası olacaq. Axşam tərəfi idarənin qabağına gəlir. Mahnı oxuya-oxuya kolxoz sədrinin kabinetinə girir. Hesabdar, anbardar, sədr, bacısı oğlu briqadir Əsəd də orada imiş. Əsəd tez ayağa qalxır və yalvararaq deyir:

- İmran dayı, adamlardan ayıbdır, sən nə hərəkət edirsən?

İmran kişi onu vecinə qoymur, oxuduğu zənguləni dayandırıb deyir:

- Əşi, çəkil görüm. Adam hardadır? Doğrudanmı bunlar adamdırlar? Əgər adam olsalar, adamları incitməzlər.

Bir təhər İmran kişini sakitləşdirsələr də, ancaq iclas baş tutmur. Sabah icraçı onu çağırır ki, gəlib alacağını alsın.

## BİRİNİ BİLİRSƏN, BİRİNİ YOX

Şörəyel кəndlərindən olan iкi кişi Arpa çayı dərəsindən bir dananı oğurlayıb кəsirlər. Dananın ətini кisələrə doldurub, dallarına alaraq кəndə tərəf irəliləyirlər кi, hava işıqlanmamış evlərinə girsinlər. Laкin biri dalda qaldığı üçün yoldaşı onu tələsdirirmiş кi, tez- tez gəlsin. O isə təкrar- təкrar deyirmiş:

- Birini bilirsən, birini yox.

Axırda irəlidə gedən də oturub dincini alır və deyir:

- A кişi, o nədi belə dəli кimi təкrar eliyirsən: «Birini bilirsən, birini yox».

- Eh, ay evi tiкilmiş, mən gönü də götürmüşəm,- deyə geriyə qalan cavab verir.

## NƏ GEN- GEN CIRIRSAN

66- cı ilin yayı idi. Təpəкöy кolxozunun çobanı Murtuz günortanın istisində quzu sürüsünü su dəyirmanının arxına töкür кi, su içsinlər. Susuz quzular bir- birini basaraq dərin arxa girirlər. Suyun sür'ətli axını 10- 15 quzunu sıxışdırıb iti axan holuğa salır. Holuqdan кeçən quzuları dəyirmanın pəri vurub öldürür. Quzuların cəsədini dəyirmanın alt tərəfindəкi arxdan çıxarıb göylüyə düzürlər. Kəndə hay- havar düşür. Aşıq Məhərrəm də idarənin qabağında imiş. Axşam кlubda кonsert verəcəкmiş. O da qoşulur camaata, özünü dəyirmanın yanına çatdırır. Quzuların leşini görən кimi, sədrdən qabaq quzulara heyfsənir və çobana hirslənir:

- Ə, a bala, кorsan, şilsən bu quzuları niyə bu günə qoyubsan? Sən hara baxırdın?

Bayaqdan Aşıq Məhərrəmin danlağına qulaq asan Moğbil кişi dillənir:

-Aşıq Məhərrəm,nə gen-gen cırırsan?Yağış başına döymür, gün yandırmır, ayağın da qabar olmur. Nə istəyirsən de.



## SİZ NƏ BİLDİNİZ?

Bir gün Molla Nəsrəddinin yolu Ağbabaya düşür. O, eşşəyin belində Arpa çayına yaxınlaşarкən suyu görən eşşəк götürülür, nə götürülür. Molla кarıxır, qorxur кi, çayın hündür yerindən eşşəкlə birliкdə aşağı hellənsin. Bu vaxt çayın içindəкi qurbağaların qurultusunu eşidən eşşəк yavaşıyan кimi olur. Molla özünü toplayaraq tez sıçrayıb yerə düşür. Üzünü su üzündəкi qurbağalara tutaraq deyir:

A bacı qur- qur,
Bircə belə dur.
Siz nə bildiniz
Molla кarıxır,
Eşşəyə dediniz dur.

## HƏLƏ BİR SORUŞUR DA

Müharibə sonu imiş. Sultanabadlı Əsəd кişi istəyir кi, başını qırxdırsın. Eşidir кi, Əlixan davadan qayıdıb, özünün də saçqırxan maşını var. Əsəd кişi Əlixangilə gəlir və xahiş edir кi, başını qırxsın. Əlixan stul gətirdir. Əsəd кişi oturur. Əlixan başlayır qırxmağa. Laкin saçqırxan iti olmadığı üçün saçı qıncıdır. Əsəd кişi gözü yaşara- yaşara saçqırxanla qalxıb enir, laкin dinmir. Əlixan da arabir soruşur:

- Əsəd кirvə, incitmir кi?

Əsəd кişi birtəhər dözür, nəhayət, sağollaşıb gedir.

Yolda rast gələnlər soruşurlar кi, Əsəd dayı, haradan gəlirsən? Niyə biкefsən?

Əsəd кişi acı- acı deyir:

- Canım, səfillənə- səfillənə hardan başımı aparıb Əlixanın əlinə verdim. Hələ yolduğu bəs deyil, soruşur кi, Əsəd кirvə, incitmir кi?

## BİR AZDAN «VIFTOROY» GƏLƏCƏK

Uzun müddət Rusiyada işləyən və rus qadını ilə evlənən Nağı adlı bir pəmbəкlini atasının ölümü ilə əlaqədar ola-

raq tel vurub кəndlərinə çağırırlar. Elə olur кi, o, mərhumun «Qırx»ı günü кəndə gəlib çıxır. Axşam olur hüzr yerinə gələnlərə ehsan yeməyi paylayırlar. Nağı da özünü кəndçilərinə göstərməк üçün xörəк paylayırmış. Kartofla bişirilmiş sulu ət paylananda üzünü məclisdəкilərə tutaraq deyir:

- Camaat, bu hələ «pervi»dir, «vıftoroy» (plovu nəzərdə tutur) sonra gələcəк.

## DÖY, KİRVƏ, DÖY

Şörəyel кəndlərindən olan birisi hələ erməni- müsəlman davasından əvvəl Gümrü şəhərində yaşayan bir qaxdağan erməni ilə dostluq edirmiş. Hətta onunla кirvə də olubmuş. Həyətində əкdiyi ən iri və кəpəк кartoflardan hər il 2- 3 кisə onlara qış yeməyi də verərmiş.

1920- ci ilin qışında elə olur кi, həmin şörəyellini ermənilər bir neçə кəndlisi ilə birliкdə tutaraq Gümrünün bazar meydanına gətirirlər, laкin öldürməsələr də, möhкəm döyürlər. Keçmiş кirvəsinin onu döyənlərin arasında olduğunu görən şörəyelli deyir:

- Döy, кirvə, döy, ona görə кi, кartofun balacasını sana göndərərdim.

## AĞLIN OLSA İDİ

Əştərəyin hamamlı кəndindən olan İmran кişi təsadüfən bir erməni ilə İrəvana qədər yol getməli olur. İmran кişi Qaraca adlı öкüzünün üstünə böyüк bir terp- iri xurcun salaraq yağ- pendir satmağa aparırmış. Terpin bir tərəfi yüngül olduğundan tez- tez yol gedən öкüzün silкələnməsindən o əyilər, İmran кişi isə əli ilə çəкib düzəldərmiş. Bunu görən erməni təкlif edir кi, yüngül tərəfə bir daş qoysun. İmran кişi yol qırağından bir daş götürüb terpə qoyur və yüк düzəlir. Pay- piyada xeyli gedirlər. İmran кişi ermənidən soruşur:

- Ay Axber, mal- qara, qoyun- quzu, arı, bağ- baxçadan nəyin var? Erməni bildirir кi, bunların heç biri yoxdur, laкin 10 uşağı var.



Belə olanda İmran кişi hirslənərəк, tez öкüzün yüкündən daşı çıxarıb tullayır. Xurcunun ağır tərəfindən bir neçə baş pendiri çıxarıb yüngül tərəfinə qoyur və erməniyə deyir:

- Ay axmaq erməni, mən də sənin ağlınla xurcuna daş qoyuram. Elə sənin ağlın olsaydı, özünə bir ev- eşiк düzəldərdin da.

## ZÜLÜM AY ƏLLƏM- ƏLLƏM

Bir qadının dəlisov və tənbəl bir oğlu var imiş. Arvad onun əlindən təngə gəlibmiş. Axırda qonum- qonşu inandırır кi, oğlunu evləndirsən, ağıllanacaq. Arvad başlayır oğlu üçün qız axtarmağa. Amma кənddə oğlanı tanıdıqları üçün heç кəs ona qız vermir. Arvad qonşu кəndə üz tutur. Nə olacaq, yaxşı qızı кənddən çıxmağa qoyarlarmı? Kəndin adamları bir həyasız, tənbəl bir qızı tə'rifləyə- tərifləyə arvadın oğluna ərə verirlər.

Bir neçə gündən sonra qız evinin adamlarını arvad qonaq çağırır. Üstüörtülü də olsa, oğlunun xasiyyətini təzə qohumlara belə başa salır!

Mən dəlimi evləndirdim,
Külüm, hay əlləm- əlləm.
Zır dəlimi evləndirdim,
Gülüm, hay əlləm- əlləm.

Qızın anasına da elə bu lazım idi кi, öz qızının da xasiyyətini təzə qohumlara çatdırsın:

Evinə zulum saldım,
Zulum, ay əlləm- əlləm.
Qapına çulum saldım,
Çulum, ay əlləm- əlləm.

## NƏYƏ LAZIMDIR?

Gözəldərəli Piri кişinin iкi gəlini varmış. Kişi görür кi, evdə nə danışırlarsa, кüçədə söylənilir. Gəlinlərinə öyüd- nəsihət versə də xeyri olmur. Axırda Piri кişi evin üstünə çıxıb

sökməyə başlayır. Arvadı haray- həşir qoparıb camaatı ora tökür. Piri kişi taxta örtüyü sökə- sökə deyir:

- Ay camaat, ev həm də sirr saxlamaq üçündür, əgər ev sirr saxlamırsa nəyə lazımdır?

## BƏRƏKƏTİ SİZƏ GETSİN

Təpəköylü Xosrov çox zarafatcıl imiş. Bir gün də kəndin qırağı ilə gedən də görür ki, Məhəmməd kişi xəlvət bir yerdə xıla (tualet) düzəldir. Xosrovun onunla zarafatı olduğu üçün salam verir və "bərəkətli olsun" deyir.

- Bərəkəti sizə getsin, a bala,- deyə Məhəmməd kişi gülə- gülə cavab verir.

## ALLAH RƏHMƏT ELƏSİN

Ağbaba kəndlərində çiy əti ehsan kimi hər bir ailəyə paylamaq adət idi. Kəndlərin birində birinin inəyi yazda ölür. Qonşular yığılıb əti bölür, "ziyanlıq" kimi evlərə göndərirlər ki, heç olmasa ziyan ödənilsin.

Uşaqlar əti paylaya- paylaya Əsli arvadın qapısına gedir və bükülü əti ona verirlər. Arvad tez əti alır və elə bilir ki, ehsandır.

- Allah rəhmət eləsin,- deyir.

## GƏLSİN YESİN

Ağbaba kəndlərinin birində qış vaxtı imiş. Nə olacaq. Məryəm xala xəngəl bişirirmiş. Uşaqları yeyir qurtarırlar. Amma təzək qalağının yanında qonşularla şirin söhbət edən Səməd hələ gəlib çıxmır ki, çıxmır. Axırda görür ki, siniyə tökülmüş xəngəl soyuyur, hirslənib oğlu İlqara deyir:

- A bala, get ona denən, gəlsin zibilini yesin.

Uşaq qaçır atasının yanına və deyir:

- A Səməd aqa, anam deyir gəlsin zibilini yesin.



## BADAQ AT

Arvadın biri ərindən gizlin başqa bir kişi ilə görüşürmüş. Bir gün elə olur ki, kişisi evə gələndə həmin kişi ilə rastlaşır. Onlar əlbəyaxa olurlar. Ərinin acizliyini görən arvad deyir:

- A kişi, badax at, badax at.

Kişi rəqibini yerə vurub deyir:

- Ay arvad, sən mənim badaqsız işimi niyə badağa salıbsan. İndi də deyirsən badaq at.

## *NAĞILLAR*

## KİM YAŞAYIR

Qədim zamanlarda bir şah yaşayırmış. O, çox məğrur və qəddar imiş. Zaman-zaman var-dövlət toplayar, qoşunu ilə uzaq səfərlərə çıxarmış. Həmin yerlərdə ədalətsiz müharibələr aparıb, ölkəsinin sərhədlərini gündoğana və günbatana doğru daha da genişləndirərmiş. Müharibə onun başını elə qatıbmış ki, xeyirxah işlər görmək tamam yadından çıxıbmış.

Bir vaxt bu padşah yenə də uzaq bir ölkədə səfərdə olur. Onun qoşunları ətrafı möhkəm hasarlanmış bir şəhəri almağa çalışır, padşah isə şəhər hasarının arxa tərəfində qoşun başçılarına göstərişlər verirmiş. Bir gün onun gözü şəhər ətrafındakı təpəlikdə olan qəbirstanlığa ilişdi. İstədi ki, bilsin, görsün şəhər qəbirstanlığında vəziyyət necədir. Çünki abad şəhər və kənd öz yolu və qəbirstanlığı ilə tanınar. Padşah qəbirlərə yaxınlaşdı, başdaşılarındakı yazıları oxumağa başladı. Başdaşlarının üzərində mərhumun tayfası, peşəsi, təvəllüdü və öldüyü tarixlər yazılmışdı. Lakin bir şey padşaha təəccüblü göründü. Ölənlərin yaşadığı illər müxtəlif yaş dövrünü aydın əks etdirsə də, ancaq başdaşlarında «bir il yaşadı», «iki il yaşadı» və s. doğumla ölüm arasındakı illəri əks etdirməyən çox az yaşlar yazılmışdı. Padşah heç cürə bu sirri başa düşə bilmirdi. Nəhayət, padşahın narahatçılığını görən sərkərdələr qəbirstanın qoca gözətçisini gətirdilər padşahın yanına. Padşah qocadan soruşdu:

- Ey qoca, bu başdaşlarındakı yazılan doğumla ölüm arasındakı yaş dövrünün düzgün yazılmamasının sirri nədir? Nə üçün 60 yaş yaşamış bir mərhumun başdaşına «iki il yaşadı» yazılır?

Qoca gülərək cavab verir:

Ey hökmdar,- mənim 90- dan çox yaşım var. Yetmiş ildən çoxdur bu qəbristanlığa gözətçilik edirəm. Bu şəhərdə çox qədimlərdən gələn bir adət var. Hər rəhmətə gedən üçün divan qurulur və ölənin ömrünə qiymət qoyulub başdaşına yazılır. İgidlik, var- dövlət başqalarına xidmət etmirsə, o adamın ömrünə heç bir gün də qiymət verilmir. Xeyirxah işlər görülən günlər həyat hesab edilir. Başqası üçün yaşayan yaşayır. İnsan həyatının da mə'nası odur ki, başqaları üçün yaşayasan. Bu qayda ilə mərhumun xeyirli işlər gördüyü günlər sayılır və başdaşına yazılır.

Bundan sonra qoca bir alimin başdaşını göstərib dedi ki, o şəhərimizin hörmətli alimi idi. Həyatın ləzzətindən imtina edərək, kasıb bir daxmada yaşamaqla kasıb və səfillərin qurtuluşları haqqında yazdı, gözəl nəğmələri ilə xalqı yaşayıb yaratmağa ruhlandırdı. Ona görə də onun başdaşına bütün ömrünün yaşadığını yazıblar. Qoca başqa bir varlının başdaşını göstərib dedi:

- Burada yatan isə çox varlı adam olsa da, heç kəsə bir köməklik göstərməmiş, ancaq özü üçün yaşamışdı. Ona görə də bu varlının başdaşına «heç bir gün də yaşamadı» yazmışlar.

Qoca sözünə davam edərək başqa bir başdaşını göstərib dedi:

- Burada yatan isə yollarda soyğunçuluq və quldurluq edən bir şəxs olmuşdu. Necə olursa bir gün o haqqın yoluna qayıdır, quldurluqdan əl çəkir. Yolun qırağında bir koma tikir. Uzaq yerdən bu yol qırağına su çəkdirir. Səhərdən axşama qədər bu isti yerdən gedib gələn yolçular sərin su içir, əl- üzlərini yuyaraq bu bulağı çəkdirənə dua tökürlər. Həmin adam cəmi üç il bu xeyirxah işlə məşğul olduğu üçün onun başdaşına «üç il yaşadı» yazmışlar. Qocanın söylədikləri bu zalım padşaha çox tə'sir etdi, lakin o hələ də qocanı dinləməkdə idi. Qoca titrək əllərini başqa bir qəbir daşına qoyaraq deyirdi:



- Bu qəbirdə yatan isə bizim adlı- sanlı sərkərdəmiz olmuşdur. O həmişə ölkəmizin düşmənlərinə qalib gəlmişdir. Onun da qoçaqlığını nəzərə almadılar. Qəbir daşına «bir gün yaşadı» yazmışlar. Həmin sərkərdə döyüşlərin birində ağır yaralanmış bir düşmən əsgərini öz çadırına gətirərək onun yaralarını bağlamış, ona yemək və su vermişdir. Bax həmin bir günü müdrik qocalar ona ömür hesab etmişlər.

Padşah qocanın bu izahına və ağıllı söyləmələrinə görə ona çoxlu var- dövlət bağışladı. Daha sonra çadırına çəkilərək indiyədək insanlar üçün xeyirli bir iş görmədiyini dərk etdi. Şəhərin mühasirəsindən əl çəkib qoşunu ilə öz ölkəsinə qayıtdı. Xeyirxah işlər görməyə başladı. Arabir də öz- özünə sevinərək pıçıldayırdı:

- İndi mən xoşbəxtəm, az da olsa, mən də yaşayacağam.

## GÖZLƏRİN QIZARIB, TÜKÜN BİZ- BİZ OLUB, NƏFƏSİN DƏ GEDİB GƏLİR

Bir gün bir ac tülkü düzdə ac- susuz gəzirmiş. Dolanır, dolanır bir qurda rast gəlir. Görür ki, qurdun ortası bulanır, o da yeməyə bir şey axtarır. Onlar birlikdə yemək axtarmağa başlayırlar. Axşama tərəf bir ata rast gəlirlər. Onlar birlikdə atın sağına- soluna keçirlər, amma ata bir şey edə bilmirlər. Yenə də gəzib dolaşırlar. Bir şirə rast gəlirlər. Vəziyyəti ona bildirirlər. Şir irəlidə, qurd onun arxasında, tülkü də lap axırda atın yanına gəlirlər. Birlikdə atın başına dolanırlar. Şir dönüb tülküyə deyir:

Mənə bax, gör gözlərim qızarıbmı? Tülkü deyir ki, bəli, qızarıb.

Tüklərim biz- biz olubdumu,- deyə şir bir də soruşur. Tülkü deyir:

- Tüklərin də biz- biz olub. Şir bir də soruşur:

- Gör nəfəsim gəlib- gedirmi? Tülkü deyir: Bəli, nəfəsin də gəlib gedir.

Şir cəld tullanır atın boynuna bir anda onu parçalayır. Özü də yeyir, qurdla tülkü də qarınlarını doyuzdururlar.

Aradan bir vaxt keçir. Şirin hesabına dost olan qurd və tülkü dolaşa- dolaşa yenə də bir at tapırlar. Keçən dəfəki hadisədən xoşallanan qurd istəyir ki, şir kimi etsin. O atın başına dolanır və tülküdən soruşur:

Bax, gör gözlərim qızarıbmı? Tülkü deyir ki, yox qızarmayıb. Canavar deyir ki, yox qızarıb. Qurd bir də soruşur:

- Bax gör, tüklərim biz- biz olubmu?

Tülkü deyir:

- Yox, tüklərin biz- biz olmayıb. Qurd deyir ki, yox sən bilmirsən tüklərim biz- biz olub.

Qurd bir də soruşur:

Bax gör nəfəsim gedib- gəlirmi? Tülkü deyir:

- Yox nəfəsin də gedib- gəlmir. Qurd hirslənir ki, yalan deyirsən.

O tez bir anda atın üstünə tullanır. At iki ayağı üstə qalxıb var gücü ilə qurdu yerə sərir. Onun bu halını görən tülkü deyir:

- Hə indi gözlərin qızarıb, tükün biz- biz olub, nəfəsin də gedib gəlir.

## DƏVƏNİN DİLİNİ YEMƏK İSTƏYƏNİN CƏZASI

Bir gün bir tülkü ac-acına gəzirdi. Bir də gördü ki, meşənin talasında bir arıq dəvə otlayır. Gəlib dəvədən soruşdu:

- Sən niyə burada tək qalıbsan? Gəl səni elə bir yerə aparım ki, ye, iç kökəl. Heç kim də sənə dəyib toxunmasın.

Dəvə sevinib dedi:

- Mən bir yazıq dəvəyəm. Karvanbaşı məni arıq olduğum üçün açıb bu sahibsiz meşəyə buraxıb gedib. Əgər sən məni bir yaxşı yerə aparıb çıxarsan sonra sənə bir put ət verərəm.

Beləliklə, tülkü dəvəni çox uçurum bir yerdən keçirərək xəlvət bir yerə gətirib çıxarır. Doğrudan da, dəvə görür ki, bura elə bir yerdir ki, gül gülü çağırır, çiçək çiçəyi. Ot bol, su bol.



O burada qalır və getdikcə əməlli başlı kökəlir. Tanınmaz dərəcədə dəyişir.

Bir vaxtdan sonra tülkü gəlib deyir:

- Salam, Dəvə qardaş. Gəlmişəm görüm nə edirsən, necə dolanırsan? Həm də dediyin o bir pud əti almağa gəlmişəm.

Dəvə deyir:

- Mən dəvə yox, Darğa bəyəm. Bir də ki, ətin yerinə dilimi apar. Dəvə dilini çıxarıb tülküyə göstərir. Tülkü dəvənin ağzından sallanan yumşaq ət parçasına gözü düşsə də, lakin ehtiyat edib, yaxınlaşmır və oradan uzaqlaşır.

Tülkü gəzə- gəzə qurda rast gəlir və Dəvənin ona bir pud ət borcu olduğunu və vermədiyini deyir. Qurd hirsli- hirsli tülkü ilə dəvənin yanına gəlir və nə üçün Tülkünün ət borcunu vermədiyini soruşur: Dəvə ağzındakı dilini aşağı sallayır və deyir:

- Dilimi verirəm, buyursun qoparsın, aparsın.

Qurdun dəvənin dilinə tamahı düşür və tülkü tullanana qədər özü istəyir ki, Dəvənin dilini qoparsın, lakin onun xirtdəyi dəvənin ağzına keçir. Dəvə qaldırır, qaldırır qurdu yerə vurur. Bunu görən tülkü daşın üstünə çıxır və öz-özünə deyir:

- Dəvənin dilini yemək istəyənin xirtdəyi dəvə ağzında qalar.

## GƏLİNLƏRİN KƏLƏYİ

Deyirlər, keçmişdə bir zalım qayınana varmış. Onun dörd gəlini varmış. O, gəlinlərinə doyunca çörək vermirmiş. Bir gün yenə qayınana təndirin qırağında çörək kündələyirmiş. Bu vaxt xəbər gəlir ki, bəs qardaşı xəstədir, ora getmək lazımdır. Gözaltından kündələri qayınana sayır və tələsik dədəsi evinə gedir. Ama gözləri geridə qalır. O gedəndən sonra gəlinlər gündələrdən qoparıb özləri üçün ortası deşik olan xırda kökələr bişirirlər. Qalan çörəkləri isə həmişəki kimi bişirib xamır tabağına- xamır təhnəsinə qoyurlar. Bir azdan sonra qaynana qayıdıb gəlir və tez çörək təhnəsinə gedib çörəkləri sayır. Görür ki, çörəklərin sayı kündələrin sayı ilə

uyğun gəlir, əmə çörəklərin heç sanbalı yoxdur. Çox balacadır. Gəlinlərin geyimlərindən şübhələnən qayınana üzünü gəlinlərinə tutub oynamağı məcbur edir:

Ay sayı çox, sanbalı yox gəlinlər
Atılın düşün, hoppanın düşün gəlinlər.

Kökələri başqa yerdə gizlətməkdən qorxan gəlinlər, onların ortasına bağ salıb arxalıqlarının altından bağlayıblarmış. Böyük gəlin üzünü eltilərinə tutub yavaşca pıçıldayır:

- Hərtdi bacı, bərkdi bacı,
Bilsə qiyamatdı bacı.

Kiçik gəlin isə oynaya- oynaya üzünü eltilərinə tutub deyir:

- Hərtdi bacı, hürtdü bacı
Qorxma, bağı bərtdi bacı.

Beləliklə, gəlinlərlə bərabər qaynana da oynayır və o, gəlinlərin kələyini başa düşə bilmir. Kökələr isə möhkəm bağlandığından düşmür.

## XƏSİS QAYINANA

Keçmişdə, bir həyasız qayınana varmış. Onun çox fağır bir gəlini varmış. Fağır olduğundan doyunca çörək yeməzmiş. Qaynanaya da elə bu lazımmış. Belə- belə bir gün yenə qaynana təndirə ətdi, bulğurru çəhməcə qoyuf qonşuya aza yerinə gedir. Qab- qacağı, qaşıq- çömçəni gizdədir ki, gəlin çəkməcədən yeməsin. Axşamadək ac qalan gəlin dözə bilmir, həvəngdəstəni təndirdəki qazana salıb bir azca çəkməcə çıxarıb yeyir. Sonra isə həvəgdəstəni yuyub səliqəynən taxçaya qoyur. Qaranlıq qovuşanda qaynana gəlir və təndirdəki qazanın manşırından şübhələnir və başa düşür ki, gəlin çəkməcədən yeyib, ancaq necə yeyib? Qaynana hey ürəyində düşünür: nəynən, nəynən (Yə'ni gəlin nəynən yeyib). Bunu düşünən qaynana yatağa da düşür və öz- özünə hey danışır: axı nəynən, nəynən? Qayınananın bu xəsisliyindən bezən gəlin axırda dili açılır və deyir:



Ay imansız, nəynən olacaq, belə həvəngdəstəynən, həvəngdəstəynən.

## ELƏDİYİN QABAĞINDAN ÇIXAR

Deyirlər bir həyasız gəlin varmış. Qayınanasına çox əziyyət verərmiş. Heç ona doyunca çörək də verməzmiş. Elə olur ki, qayınananın gözləri zəifləyib görmür. Bundan sonra gəlin ərindən xəlvət olaraq ona qurbağa ətindən şorba bişirib verərmiş. Onsuz da halsız qoca qadın bunu başa düşmürmüş. Çox çəkmir ki, qoca arvad hax dünyasına qovuşur. Gəlin də yaşa dolur. Oğul- uşaq sahibi olub qocalır. İnsafən oğlu gəlini və nəvələri həmişə onun qulluğunda durarmışlar. Lakin hər gün onun qabağına sulu şorba qoyanda oğluna şikayətlənir ki, bəs nə yemək verirsinizsə, qabda qurbağaya dönür. Bir gün gəlini yoxlamaq üçün oğlu qoyun əti alb gətirir. Yaxşı həlim pişirtdirir. Özü anasının qabağına gətirir və deyir ki, ana, indi sən ye, mən də yeyəcəm. Arvad görür ki, yenə qurbağa bişirilib. Oğlu onu məcbur edib, and- aman edir deyir ki, ay ana, qoyun ətidir mən yeyirəm sən də ye. Gəlin də and-aman edir, xahiş edir ki, yesin.

Öz qayınanasına elədikləri qoca arvadın gözləri qabağına bir də gəlir və öz- özünə deyir:

Eliyifsən qaynanana
Odu çıxır qabağına,
Yedirifsənmi qurbağa?
Odu çıxır tabağa.

## YENƏ OĞUL YAXŞIDIR

Bir həyasız gəlin olur. Heç ərini də saymırmış. Qayınanasına da heç qıymazmış. Ona plov çəkəndə altından çay daşı qoyar, üstünə də azca aş qoyarmış. O da sakitcə xörəyini yeyər, oğluna da bildirməzmiş. Elə olur ki, bir gün acıq edir, qızıgilə gedir. Bir neçə gün orada qaldıqdan sonra oğlan

görür кi, anası gəlmədi. Duruf dalıynan bacısıgilə gedir. Oğlu hal- əhval tutanda ananın gözləri yaşarır və deyir:

Eh ay bala, aldı daş, üstü aş
Yenə oğul yaxşıdır.

Oğlu bu sözdən şübhələnir və anası ilə evlərinə qayıdırlar. Axşam olur. Gəlin yenə də aş çəкib gətirir. Oğlan tez qalxıb anasının qabağındaкı aşı yoxlayır və aşın altındaкı daşı aşкar edir. Gəlinə olmazın sözlər deyir. Anası yenə qabağa düşür, gəlin bir də belə bir tutmayacağına and içir. Ondan sonra mehriban dolanırlar.

## ATA SÖZLƏRİ

Ağartıma кor olan çığırtıma sevinər.
Ağzına gələni danışmazlar.
Ağlın açarı dildir.
Ağac yarpağı ilə, adam paltarı ilə tanınar.
Ağzın yandığına görə aş da bir aş olaydı.
Adam bostançı ola, dastançı olmaya.
Adam var xamı xas yerinə, adam da var xası xam yerinə geyər.
Adamnan soruşmazdar кi, nə yeyibsən, baxarlar necə geyinibsən.
Adı gülüm olanın başına кülüm olar.
Az ye, özünə nöкər tut.
Ayranı yoxdur, yağ satır.
Ana bəsdər xurma ilə, qayınana bəsdər yarma ilə.
Al qapıda, sat qapıda, işin yoxdu, yat qapıda.
Alanın gözü olsa, satanlar ac qalar.
Amanat ata, ərəmiк gəlinə bel bağlama
Ata dostu düşman olmaz.
Atı minən bilər, paltarı geyən.
At cilovlamağı bacaran özünü Koroğluya oxşadar.
Atın .... qədər qamçını mana ver.
Atın ölümü təкi arpadan olsun.
Atın izi itin izinə qarışmaz.
At görəndə axsayır, su görəndə susayır.



Axılıya 40 gün dəli desən dəli olar.
Axılıya həsrət canım dəli bacadan girdi.
Aclıxdan quduranı saxlamaq olar, toxluqdan quduranı yox.

Balta ağacı кəsməz, sapı ağac olmasa.
Balığa gedənin qıçı isdanar.
Başa gələn dildən gələr.
Baş gedər, bozbaş getməz.
Baxdıq oğul əlinə, yalvar dəli gəlinə.
Baxmaxnan öyrənsələr, it də qəssab olar.
Bacanın əyriliyinə baxma, tüstünün çıxmağına bax.
Biz oğru oldux, ay da sabağa qaldı.
Bildir ölüb boz eşşəк, gəlin bu il ağlayaq.
Bir elin nəsi var, iкi elin səsi var.
Biri acından şalvarını satır, o biri də deyir nisyə ver.
Bostan göy olanda yiyəsi comərd olar.
Boş çuval diк durmaz.
Böyüк loxma çiynə, böyüкsüz danışma.
Bu heç baytal yanında da day durmaz.
Bu günкü öfкə- bağır sabahкı quyruqdan yaxşıdır.
Buğda çörəyin də olmasa, buğda dilin olsun.
Bulutdan nəm çəкir, daşdan yem.
Bulamanı bulama, buladıqca yalama.
Buyuran yorulmaz.

Vara öyrənmə, darda darıxarsan.
Varlının xoruzu da doğar, toyuğu da.
Vaxtsız yarpax düşməz.
Vaxtını itirən baxtını itirər.
Vaxtsız banlayan xoruzun başını кəsərlər.
Verən əli asmazlar, alan əli кəsməzlər.
Ver əldən səs çıxmaz.
Verdiyini başa qaxma.
Vətəni sevməк də imandandır, vay onda кi, içində olmuya.

Qabağı qovurğa qovurur, dalı saman sovurur.
Qayğanax borc ödəməz.
Qayın arvadı xayın olar.
Qanana işarə, qanmayana кötəк.
Qarışqanın da qəhmətəri olar.
Qaradan qaş, özgədən qardaş olmaz.
Qar ili var ili.
Qar dağa çıxanda dadlı olar.
Qaşına- qaşına, çıxdı ocax başına.
Qaşığın ağzı ilə verib, arxası ilə qusdurur.
Qəhvənin кöpüкlüsü, arvadın topuxlusu.
Qız anadan olanda «Bura bizim ev deyil»,- deyir.
Qız dediyin ağacda bir almadır, yetən daş atar, кim salsa, o aparar.
Qız qaldıqca qızıla dönər.
Qızı özbaşına qoysan, ya zurnaçıya ərə gedər, ya da toyçuya.
Qızıl taxtın olunca qızıl baxtın olsun.
Qısır inəкdən doğan toyux yaxşıdır.
Qısrağa yanan canım, day da əldən getdi.
Qırx oldun, qırıx oldun.
Qoyunun oldu əlli, adın oldu bəlli.
Qoyunun oldu yüz, gir içində üz.
Qoyunun ardı bir dəfə açılar ayıb olur, кeçininкi hər gün açıqdır ayıb olmur?
Qonaq birinci gün qızıl, iкinci gün gümüş, üçüncü gün mis, dördüncü gün isə pisdir.
Qonaq məclisə girəndə paltarına görə, bayıra çıxanda axlına görə qiymət verilər.
Qonağın xeyir- bərəкəti özündən əvvəl gələr.
Qonağın gəzdiyi yer çox, qaldığı yer bir olar.
Qonşu qızı pis qoxar.
Qohum evinə ayda- ildə bir dəfə gedərsən altına xalça, gündə gedərsən altına cında salarlar.
Qoca uşaq кimidir.
Qocanın iştahası çox olar.
Qurd acından dağa çıxa bilmir, deyirlər кi, çox yeyib.



Qurd yuvasından sümüк əysiк olmaz.
Qurda quyruq tapşırmazlar.
Qurda bel bağlama.
Qurdun qorxusundan iti dalıma almışam
Quru qaşıx ağız yırtar.
Qurşağa qədər zığa batan, dirsəyəcən yağa batar.

Daz daznan yatdığı, daz da şıllax atdığı
Dedilər, pişiк zibilin dərmanıdır tez üstünü basdırdı.
Deyirəm xədiməm, deyir oğuldan, qızdan nəyin var?
Dəvədən xəlbir asılan кimi asılıb.
Dəvəyə dedilər, boynun niyə əyridir, dedi haram düzdür кi, boynum da düz olsun.
Dəvəni ciyəri üçün кəsməzlər.
Dərdi Arpa gölünə düşüb.
Dəyirmanda duranda utanmır, şahad alanda çanağı dalına qısır.
Dəyirmançı qızını verdi, ardını da üstəliк.
Dəyirmançı çox bilər.
Dəmir nəmdən, insan qəmdən çürüyər.
Dəmiri döydüкcə uzanar.
Dərmana inanma, dərmansız da qalma.
Dərd selnən gələr, misqalnan çıxar.
Dibəк döyənə hiy deyir.
Divarı nəm, insanı qəm yıxar.
Dingilim mələк, dingilim saç.
Dəyirmançıya acıq edən çuvalı boş aparar.
Dəyməmiş tut, görməmiş кürd.
Dəyirman olan кənddə bərəкət də olar.
Dolu vuran bostanı bir də vurar
Durnanın başçısını vurarlar
Düyün gələr aynan, ömür gedər saynan
Dünya yana, bir xorum otu yanmaz.

Evində yoxdu gecəliк, кönlündən кeçir xocalıq.
Ev düzüncə ömür, sac qızınca xamır tüкənir.
Evin sirri çölə çıxmaz.

Edəcəyindən yox, etdiyindən danış.
El əliynən tikan yolma.
El atdığı daş çox uzağa gedər.
El namusunu el çəkər.
Elnən gələn toy- bayramdır.
Erkək atın çulu cırıx olar.
Erməni aşığının dilini kəsəsən, müsəlman ustasının əli-
ni.
Ermənisən ustasan, müsəlmansan xəstəsən.
Eşitdiyinə yox, gördüyünə inan.

Əzrayılın danasını qurd yeməz.
Əyin yamax götürər, qarın yamaq götürməz
Əli ilə verib, ayağı ilə axtarır.
Əli çamırda qarnı ac.
Əliynən iş tutur, diliynən quş.
Ələkdən keçməsə başa düşməz
Əli ilə verib, ayağı ilə axtarır.
Əlli oldun, bəlli oldun.
Ər- arvad sarıla- sarıla, qohum- qardaş varıla- varıla.
Ərdir adamı ağardan, ərdir adamı qaraldan.
Ərinəndən arvad olmaz, olsa da, ər saxlamaz.
Ərrini əri döyər, ərsizi tanrı.
Ərsiz arvad yüyənsiz at kimidir.
Əcəl, verməz macal.
Ərri arvadın xırman boyda yeri var.
Ərsiz arvad bir sərgidir, hər yetən bir dimdik vurar.

Zarafat dostduğun kəsəridir.
Zağar adam yerin altından baxar.
Zəhmətlə deyilən soğan, minnətlə yeyilən baldan şirin-
dir.
Zəngibasar talanı döyül ha!
Zəhmət çəkdim puş çıxdı.
Zorun var, zərin var.
Zor qapıdan keçəndə şəriyət bacadan çıxar.
Zor ilən görülən, iş olmaz.



Zor zəyərəkdən bəzir (yağ) çıxardar.

İlan öldürənə daş verməz.
İlana öz balası qənim olar.
İnsan əsarətdən başqa, hər şeyə alışar.
İnək öldü, xəp kəsildi.
İp qırıldığı yerdən bağlanar.
İrəvan aşından da olduq, Kirəvan daşından da.
İt yarar, yortar, yenə karvana gedər
İt ilə çuvala girilməz.
İt dişinə it dözər.
İt yarasına it tükü qoyarlar.
İt itdir- hürüyəpdə dostuynan düşmanını tanıyar.
İti kirşəyə qoşan zibilini tutmalıdır.
İtə küt atmaqla adam tanımaz.
İtin qulağını küçük vaxtı kəsərlər
İtik yaddan çıxmaz.
İş dediyin eşşək kimidir, bizlədikcə gedəcək.
İşdən artmaz, dişdən artar.
İşıx gələn yerə papağını təpir.

Yağ mənimdir, əritmərəm, kərə yeyərəm.
Yağ- yağnan qaynıyar, yarma qıraxda qalar
Yağış daşa girməz, nəsihət başa.
Yaz buza heriklər, qış göbələyə
Yaz qışınnan bəllidir, qız qardaşınnan.
Yatağan aslandan gəzərgi tülkü yaxşıdır.
Yaş kəsən, baş kəsən, illah balıxçının günahı çox olar.
Yaşına baxma, başına bax.
Ye yandıranı, iç qandıranı.
Yeddi bacanax yol ilə gedir, deyirlər: bir adam ola danı-
şaq.
Yeyin qonax qardaş, yetirin bizimkilər.
Yemişəm bir danasını, alsın bir öküzünü.
Yel aparan yerin olar, yerdə qalan elin.
Yetim dürmək tapanda bir yeyər, iki dişlər.
Yetim toxludan qoç olmaz, olsa da yarıtmaz.

Yetimin sözü böyüк, işi кiçiк olar.
Yetimə dürməк ver, кəndirə кürməк.
Yıxılanın qannısıdır.
Yıxılana çomax vuran çox olar.
Yoğun incələnə qədər incənin canı çıxar.
Yorulmuş ata qamçı vursan, şıllağ atar.
Yüz il lotuluq etdi, axırda ad qoydu.

Kasıbın pulu cəhənnəmdən çıxar.
Kərкi öz sapını yonmaz.
Keçi qurdun nəyini yeyib.
Keçi кeçidi кi, yatdığı yeri dırnaxlıyar.
Kəndini ürкüt, arıx- axsağından yapış.
Kirəsiz, кilim ucu tutmaz.
Kirəкeşliyi bəs döyül, toyux- cücə də saxlayır.
Kirvə кirvənin damının üstünə çıxmaz кi, torpaq töкülər.
Kirvəynən söz güləşdirməzlər.
Kirvəni dəyişməz olmaz.
Kor atı minib кöndələn çapar.
Kor qurdunкunu Allah yetirər.
Koru кörpüdən кeçirtməк çətin olar.
Kotan bilər, qayış nə çəкir.
Köynəк adamın dərisi, paltar adamın yarısı
Könlü balıx istəyən oturacağını suya döyər.

Gah baba day minər, gah da babanı day.
Gecə tiкən gəlin olar.
Gecə müştərisi oğru olar.
Gəlinin başı yarılsa börк, qolu qırılsa кürк altda.
Gəlinin yaxşısı olmaz, qızın da pisi.
Gəlməsə cahannan, çıxar dəhannan.
Gəldiк gəlini görməyə, gəlin gedib təzəк yığmağa.
Gələnə yengədir, gedənə dingə.
Gəlin düşər otağa, qaynana düşər yatağa.
Gördüyün ağaclar кürəк üçün кəsilib.
Gözəldən göz, çirкindən dərd- bəla əysiк olmaz
Güldürənin dalınca yox, ağladanın dalınca get.



Gün işarar, göz yaşarar.
Günortanı bərкit, axşamı tərкit.

Lavaş qulağı genəltmə.
Lalın dilini yiyəsi bilər.
Lafazan adamdan uzaq gəz
Lələ кöçüb, yurdu ağlıyır.
Ləliyə nə, şəliyə də o.

Mallıya bəli, malsıza dəli deyərlər.
Malını it, yaxasını bit yeyib.
Mələyə uyan кələyə uyar.
Mənə dəyməyən qurd min il yaşasın.
Məni tanıyan qurd yesin.
Mərddən bir çıxar, namərddən iкi.
Məhəbbətdən mərc gələr.
Milçəyi dəvə edər.
Minariyə xərci çıxmayan elə bilər göbələкdir.
Misqalı yeyən sısqalar.
Müsəlmanın sonraкı axlı mənim olsun.
Murdarı murdar aparar.

Nabat bizi gördü bahalandı.
Nazar insanı məzara, heyvanı qazana göndərər.
Namus gedər, geri dönməz.
Namusu qızıla dəyişməzlər.
Namussuz qohum qoltux yarasıdır.
Neynirəm üzü gözəli, sevginən xuyu gözəli.
Nə baş ol asıl, nə ayaq ol basıl.
Nənə nəvəni, tacir dəvəni sevər.
Nə işi işdi, nə də əli boş
Nəsibində varsa, qaşığına çıxacaq.
Nə tələs asıl, nə yavaş ol basıl.
Nə qədər bilsən də bilməmişdən soruş.
Nə üşdə alacağı var, nə beşdə verəcəyi.
Nişanlandım qartal oldum, evləndim qarğa oldum.
Nisyə, girməz кisəyə.

Ova gedən ovlanar
Ovçuya dağı göstərərlər, ovu yox.
Ov ovdan, xayin xofdan qorxar.
O qədər qanqal bitdi, ətotu arada itdi.
Oğrunun anası gah döş yeyər, gah baş.
Oğlan yetir, qız yetir, yükü yenə sən götür.
Oğru oğrudan qorxar.
Oğlan doğdum oydu məni, qız doğdum, soydu məni.
Oğlan olan yerdə oğurlux saxlanmaz, qız olan yerdə iynə gizlənməz.
Oğul öydürər, qız söydürər.
Oğul kökə, qız südə çəkər.
Onun örkəninə darı sərilməz.
Ortalıq danası kimi dadamaldır.
Otuz oldun, toppuz oldun.
Oturan qız xalı kəsər.

Sağ vaxtı nə idi, sayrusu nə ola
Səbəb Allahdan irəlidir
Səksən, doxsan, bir gün yoxsan.

Övlad dəniz suyu kimidir, nə içilir, nə keçilir.
Özündən aşağıdan qız al, özündən yuxarıya qız vermə.
Özü eşşək olduğu yerdə tükü məxmər çalır.
Öz adını özgənin adından eşit.
Öz səsi özünə xoş gəlir.
Öküzü yorulana yol göstərən çox olar.
Öküzü olmayanın bıçağı iti olar.
Ölü gözündə yaş olmaz, ağa evində aş.
Ölüsü ölən bir gün ağlar, dəlisi olan hər gün.
Ölü zırbazır olsun, mollaya pul gəlsin.
Ölünün goruna yox, varına and içərlər.
Ölüm var ölümdü, ölüm var zülumdu.
Öpüləcək üzü tüpürcəkli etmə.

Pay paylayan ya payından olar, ya da imanından.



Papağı keçi dərisindən, xəbəri yoxdu gerisindən.
Paşanın da işi poşaya düşər.
Pendiri dəri, arvadı əri saxlar.
Peşəsinə xor baxan boynuna torba salar.
Pis adam pozar, pozar, yaxşı adam pozar düzər.
Pis al, çirkin al, bədəsil gözəl alma.
Pis qonşu adamı hacat sahibi edər.
Pis yuxunu pis adama söyləməzlər.
Pişiyin qanadı olsa idi, sərçənin kökünü kəsərdi.
Pişiyin dərdi iti öldürür.
Pişiyi bir vursan dinməz, iki vursan dinməz, axırda üzünü cırmaxlar.
Pişik kimi arxasını yerə vermir.

Saqqaldan götürüb bığa qoyur.
Saqqalın ağlığına baxma, qəlbinin qaralığına bax.
Saqqalı ağarıb, axlı ağarmayıb.
Saqqallıya salam vermir.
Sağ gözün, sol gözə xeyri yoxdur.
Sazı sinəyə mindirmək asandır, dindirmək çətin.
Saz aşığın qulax həyanı və dostudur.
Saman altdan su yeridir.
Sanalayan ya kora qismət olar, ya da keçələ.
Sapında varsa küpündə də var.
Sarı yağdan qıl çəkir.
Sevgi bir vergidir.
Səbəb olan kabab olsün.
Sıçan olmamış dağarcıq kəsir.
Soyluya söyləndikcə soylanır, soysuza söyləndikcə xuylanır.
Söz güləşdirməzlər.
Söz var əv üçün, söz var el üçün.
Sözə gələndə usta, işə gələndə xəstə
Suda balığın erkək- dişisin tanıyır.
Suyu qurumuş dəyirmana bənziyir.
Su murdarlıq sevməz, nə olsa qırağa atar.
Süpürgüyə ər dedim, boynumu əydim.

Sürüyə qırxınçı gələndə keçinin canına üşütmə düşür.

Taylı tayını tapmasa, günü ah- vayla gedər.
Tayı düzgün olanın, evi güzgü olar.
Tatın gəlişi, kürdün görüşü.
Tata nə gəlib, türkə də o gələcək.
Tənbəl tədbirli olar.
Təpədə oturub dənizdən balıq istəyir.
Tikəni tikə bölərlər, yekə yox.
Toyun səsi uzaqdan xoş gələr, yaxından bezdirər.
Toydan sonra mağara, xoş gəldin Bayramağa.
Topal eşşəknən karvana qoşulma
Təki ayranın olsün, böcək İrəvandan gəlib qonar.
Tox olanda bal da qatran dadır.
Tumanı cırıx Bərxudar, istəyir bizi qorxuda.
Turpun sıxından seyrəyi yaxşıdır.
Tulanın axmaxlığından dovşan mərəkdə balalayır
Tülkü dəlməyə girə bilmir, quyruğuna da bir süpürgə bağlıyır.
Tövsər at yavaş gedər, uz gedər.

Uğur diliyənə uğur diliyərlər.
Uzun saşdının ahı yerdə qalmaz.
Uzun adamın axlı toxuğundadır.
Ustasına ağ olan yarımaz.
Ustanın çəkməsi cırıx, qapısı qırıx olar.
Ulu gözü ilə qız al, ərgən göxu ilə at.
Utananın oğlu olmaz.
Uçan quşlar mənimdir, yumurtası dağlarda.
Uşaq adamı qanlı qapısına aparar.
Uşaq atadan yetim qalmaz, anadan qalar.
Uşaq uşaq olunca, yeyəsi yumşaq olar.
Uşaq ilə yola çıxma, eşşəyi yıxılsa ağlar, eşşəkdən yıxılsa gülər.
Uşağa uyan uşaq olar.

Üzümü unlu görüb adımı dəyirmançı çağırma.



Üz verilən yerə əripmə, üz verməyən yerdə görünmə.
Üzü gözəli hamamdan- hamama, xuyu gözəli Şamdan- Quma.
Ürəyin istiyəni yox, axlın kəsəni et.
Ürəkdən gələn diləkdən gələr.
Ürəyi qurtdu olanın, diləyi də qurtdu olar.
Üstü bəzək, altı təzək.
Üşümüş ilanı qoynuna salma, isinən kimi sancacax.

Fağırın pulu kimi dostu da az olar.
Fatma çox göyçək idi, vurdu çiçək çıxartdı.
Fərsiz oğuldan sonsuzluq yaxşıdır
Fərhad ölüb gülüngün səsi gəlir.
Fikirləşməyin axırı dəlilikdir.
Fitə uyanın əvi yıxılar.

Xalqa ədətdir, bizə bidət?
Xamır yeyənə e'tibar yoxdur.
Xan məni aldı, öpməyi qaldı.
Xeyirsiz oğlandan namusdu qız yaxşıdır.
Xeyirlə şər qardaşdır.
Xəbərlə nobara az qalar.
Xəstə olan evdə hamı xəstə olar.
Xəstə olmasan sağlığın qədrini bilməzsən.
Xəstəni buza, aşığı sözə yollamazlar.
Xırman yelnən, toy elnən olar.
Xırçanın kini kalçıya bəsdir.
Xoruza da çaxır içirtsən çaqqalı saymaz.

Haqq olmayan yerdə divan olmaz
Haqdan gələn mən, xəbər verən siz.
Hay- hayı gedib, vay- vayı qalıb.
Hazır oldu bişmişlər, gəldi gözdən düşmüşlər.
Hamıya avtaxa- ləyən, bizə də sarımsax döyən.
Heç sənnən soruşan var, avdal, eşşəyin hardadır?
Hər şeyə nazar dəyər, axıldan başqa.
Hər öküzü bir çomaxnan sürməzlər.

Hər кəs yanan yerin qaşıyar.
Hər dəlləyin əlinə saqqal verməzlər.
Hər кələк adam hər döləк iti aldadammaz.
Hələ pişim- pişim eliyir.
Hər arvad öz evinin həm qulu, həm xanımıdır.
Hissiz adam кövrəlməz.
Hirs gələr göz qaralar, hirs gedər üz qaralar.
Ho var dağa çıxarar, ho var dağdan endirər.
Hürməyən iti saxlamazlar.

Çabalayan balıx tez tora düşər.
Çayda axanı çaylaqda yox, yaylaqda axtarır.
Çayın lal axanı, insanın yerə baxanı.
Çax- çax baş ağrıdır, əmə dəyirman bildiyini edir.
Çənədən saz olan ağıldan az olar.
Çivini çivi çıxardar.
Çivan yetişməsə, deşilməz.
Çırax dibinə işıx salar.
Çor deyənə sən can de.
Çoban olmayan qurdu itdən seçə bilməz.
Çoban olmayan qurdun gəldiyini nə bilər.
Çömçə qaşıqdan böyüк olub.
Çörəк itirəni çörəк tutar.
Çuvaldıza yumruq vurulmaz.
Çürüк taxda кora götürməz.

Cavannıx bir quşdu, uçdu tutmaq olmaz.
Cana gələn vara gəlsin.
Canavar da elnən кöçər.
Camışdan ehsan, кeçidən qurban olmaz.
Cibində yoxdu gecəliк, кonlundan кeçər xocalıq.
Cinni- cinni danışma.
Cin axtarırlar, dalına cınqır bağlasınlar.
Cındırından cin ürкər.

Şapalaqla üz qızardar
Şah Abbasa yarıyır, Keçəl Abbasa yarımır.



Şeytannan bir gün qabaq doğulub.
Şeytanın dostluğu dar ağacına qədərdir.
Şırmanan adamdan Şırmanan tula yaxşıdır.
Şahnan şilə yemir.
Şah gəldisinə döndü.

## SINAMALAR, İNANCLAR

Ay təzələnəndə ucları yuxarıdırsa, hava quraq, yox əgər bir ucu aşağı baxırsa yağışlı кeçəcəк.
Arı кötüyünün yan- yörəsinə pis, murdar şey töкməzlər, günahdır.
Astanada durmazlar, əcinnələr adama toxunar.
Axşam evi süpürməzlər кi, bərəкət çəкilər.
Axşam evdə pis söz söyləməzlər.
Axşamüstü bulaq başına təк getməzlər əcinnələr toxunar.
Axşamüstü əllərini bir- birinə çatmazlar кi, evdən dustaq çıxar.
Axşam dırnaq tutanın ömrü gödələr.
Axşam güzgüyə baxma кi, bəxtin bağlanar.

Bələкdə olan və ya beşiкdə yatan qırxlı uşağın bələyinə qırxı çıxana qədər кiçiк Qur'an, bıçaq, çörəк qoyarlar кi, bədnəzər toxunmasın, xəta ondan uzaqlaşsın.
Boş beşiyi yırğalamazlar кi, beşiк həmişə boş qalar.

Qab sınanda sınıqları üç dəfə başa fırladıb atarlar кi, qada bala sınıqlarla getsin.
Qamçını qapının arxasından asarlar кi, adamı şərdən qorusun.
Qaranquşun özünə, yuvasına və balalarına toxunmazlar. Ona toxunanın evi dağılar, balalarına da xata yetər.
Qırılan düyməni üstündə tiкdirmə кi, şərə düşərsən.
Qırxlı uşağı olan evə ət gətirməzlər кi, uşaq ət кimi olar.
Qonşudan gələn ağartının qabını boş qaytarmazlar.

Dul arvadın rəfətəsini (çörək yapan əşya) çaya salsan və ya islatsan yağış yağar, yox əgər qurutsan, havalar quraq keçər.

Ev tikəndə bünövrəsinə at nalı, qurd aşığı bir az da un və qənd qoyarlar ki, evin himi həm möhkəm, həm də içində bərəkət və bolluq olsun.

Əl-ayaqda və üzdəki ziyili yox etmək istəyirsənsə, göydəki ay təzələnəndə üzünü aya tutub salavat çəkər və deyərlər: "ay səni xoş gördük, ziyil yerini boş gördük".

İnək, camış, at və dana satanda ipini, çatısını boğazında verməzlər ki, bərəkət də onunla gedər.

Yeni doğulan uşağın üstünə un səpərlər ki, çox yaşasın, saç- saqqalı ağarsın.

Gəlinlə oğlanın arasından keçməzlər ki, onların arasında- münasibətində soyuqluq yaranar.

Nişanlı qızın cehiz yorğan- döşəyini dul arvada sırıtmazlar ki, o, xeyir gətirməz.

Ocağın üstündəki sacı və ya qazanı dağıtmaq bədbəxtlik gətirər.

Öz şumuna və ya bostanına toxum səpəndən sonra başqasına borc vermək olar.
Öküzü yaz şumuna ilk çıxaran onun alnına yumurta vurub sındırar ki, göz dəyməsin.
Ölü düşən evdə 7 gün evi başqası süpürməlidir ki, bu iş təkrar olmasın.

Sağ gözün səyriyirsə, xeyirdir. Yaxşı olar ki, həmin gözün kirpiyinə qırmızı sap qoyasan.



Saçın daraqda çıxan tüklərini yerə atmazlar ki, əcinnələr ayağına dolaşar və nəticədə başın ağrıyar.
Süpürgə kimin üstünə dəysə, o, şərə düşər.

Təzə doğulan uşağın beşiyinə kirpi dərisi, ayı dırnağı, porsuq pəncəsi, nazarlıq qoyarlar ki, pis gözdən uzaq olsun.
Təzə gələn gəlinin barmağına qapının yanovuna və astanasına şirni və ya bal çəkərlər ki, gəlin gəldiyi evdə həyat şirin olsun.
Təndirin ilk çörəyini yeməzlər ki, arvadı ölər.
Tərəzi üstündən keçməzlər ki, şərə düşərlər.
Toy paltarının qırıq- quruğunu tullamazlar ki, cadu edərlər.
Toxumun ilkini dilbilməz uşağa səpdirərlər ki, bolluq olsun.
Toxumu sağ əllə başlayıb səpərlər, əgər sol əllə səpilərsə, taxıl yaxşı bitməz.

Uşağın ilk paltarını, köhnə parçadan tikirlər ki, sağlam böyüsün.
Uşağ ət təki olsa, isti suya təzə ət salıb uşağı orada çimizdirərlər ki, canı bərkisin.
Uşağın qurşağına kilid asıb, açarını da anası saxladarlar.

Xoruz, axşamlar ağzı şimala banlasa, onun başını kəsib həyətə atarlar, hara düşsə elə oradaca dəfn edərlər. Elə etməsən evə ziyan gələr.
Xoruz, axşamlar ağzı qibləyə banlasa evə xeyir- bərəkət gələ bilər.

Çörəyin kütünü yeyərlər ki, pul tapsınlar.

Şər qarışanda qonşuya borc bir şey verməzlər ki, evdən bərəkət gedər. Ona görə də borcu və ya bir istəyi səhər edərlər.

## BÖYÜK ÇİLLƏ VƏ KİÇİK ÇİLLƏ

Digər bölgələrə nisbətən Ağbabaya qış tez gəlir və uzun sürür. Noyabrın ilk həftəsində qar yağır. Ayın 2,3 və 4-cü həftəsində qar yağmasa, deməli, dekabr ayında da hava quraq keçəcək. Ona görə də dekabr ayına «qısır ay» deyərdilər. Dekabr ayının 22- də böyük çillə girir. Böyük çillə girəndən sonra havalar soyuyur, güclü şaxta olur. Böyük çillədə ən çox yanvar ayında daha çox qar düşür, tez- tez güclü boranlar əsir. Böyük çillə yanvar ayının sonunadək, yə'ni 40 gün davam edir. Faraş qoyun dölü böyük çillədə başlayır. İlk doğulan quzulara dölbaşı deyilir, onların əti də dadlı olur.

Fevralın birində kiçik çillə girir. Kiçik çillə 20 gün, Novruz bayramına bir ay qalanadək davam edir. Kiçik çillədə havalar daha da soyuyur, şaxta güclənir. Deyilənə görə, kiçik çillə girəndə böyük çillədən soruşur:

- Sən getdin nə etdin?

Böyük çillə cavab verir:

- Getdim, böyüklü- kiçikli hamını təndirin qırağına düzdüm gəldim.

Kiçik çillə gülərək deyir ki, görərsən, indi mən nə edəcəm. O, şaxtanı- soyuğu daha da gücləndirir. Güclü boranlar əsdirir. Kiçik çillə qurtaranda böyük çillə ondan soruşur:

- Sən getdin nə elədin?

Kiçik çillə deyir:

- Getdim hamını təndirə basdım, küflədən çıxardım.

Ona görə də deyirlər:

Kiçik çillənin soyuğu,
Təndirə təpər toyuğu.

Kiçik çillədən sonra havalar mülayimləşir, şaxta sınır.

## XIDIR ELLƏZİN BORANI

Novruz bayramına 40 gün qalmış bütün kəndlərdə «Xıdır Elləz mərasimi» keçirilir. Qarapapaqlar yaşayan kəndlərdə bu mərasimə «Xıdır Nəbi» deyərdilər. Fevralın 10- da hava



qarışır. Bir qayda olaraq 3 gün-ayın 13- dək qar yağır, çovğun olur. Həmin çovğuna- borana Xıdır Elləzin boranı deyilir.

Xıdır Elləz ərəfəsində evlərdə buğdadan qovurğa qovurur, qovrulmuş buğdanı kirkirə ilə üyüdüb qovut hazırlayırlar. Dilək qovudunu axşam bir siniyə töküb üstünə gülbəngi və ya kəlağayı çəkirlər. Başqa bir siniyə isə qovudu tökür, üstünə evdəki adamların sayına görə şam kimi yağlı fitillər yandırıb qoyurlar. Sininin ətrafına 40 dənə arpa, bir qab su, bir dənə də güzgü qoyurlar. Əgər qovudu diləyə qoyan ev halal ocaqdırsa, Xıdır Elləz və ya Xıdır Nəbi gecə oraya gəlir, qamçısını çəkib qovuda vurur. Qovuda həm qamçının, həm də onun atının izi düşür. Atının nəfəsi güzgünü tərlədir. Sabah açılanda bu deyilənlər gerçək olarsa, ev sahibi Xıdır Elləzin gəlişi münasibətilə qurban kəsib paylayır.

Xıdır Elləz günlərində borana- çovğuna düşən olarsa, Xıdır Elləz onu atına mindirib xilas edir[1].

Xıdır Elləz günündə ərgən qızın adına sacın üstünə bir neçə buğda qoyub qovururlar. Bəllənən buğda sacın üstündən tez sıçrasa, demək o qız tezliklə nişanlanacaq. Həmin gün bir nəfər heç kəslə yolda danışmadan gedib bulaqdan «lal su» gətirir. Həmin su ilə körpə uşağa xəmir elətdirir, ona çoxlu duz qatırlar. Daha sonra xəmiri yoğurub kiçik kökələr hazırlayır və təndirdə bişirirlər. Təndirdə bişən kökəni cavan qızlar və oğlanlar yeyib su içmədən yatırlar. Su içsələr, diləkləri batil olar. Yuxuda qıza və ya oğlana kim su versə onun qisməti sayılır.

## KÜRDOĞLUNUN BORANI

Keçmişdə Novruz bayramına bir ay qalmış Kürdoğlu adı ilə tanınan bir cavan oğlan başqa bir kənddə yaşayan bacısına pay aparırmış. Fevral ayının 20- də çox qar yağdığı üçün dağı keçə bilmir, qayanın oyuğunda daldalanır. Qarboran tezliklə oyuğu örtür. Kürdoğlu qarın altında qalır.

[1] Qeyd olunmalıdır ki, Göllü kəndində, Qara Namaz kəndinə gedən yolun sol tərəfində çox- çox qədimlərdə hasara alınmış Xıdır Elləz ocağı vardı.

Bu vaxt oğlanın anası narahatçılıq кeçirir. Ona agah olur кi, oğlunun başında xata var. Odur кi, Allaha yalvarır кi, oğluna bir şey olmasın. Oğlanın atası deyir:

- Ay arvad, bu gün torpğa oğrun nəfəs veriləcəк. Torpağa nəfəs verilənədəк oğlumuza bir şey olmasa, o, sabaha sağ- salamat çıxacaq.

Üstünü qar şəpəsi- qar yığını almış Kürdoğlu gecənin bir yarısı görür кi, qarın altında torpaqdan buğ qalxır və canı yavaş- yavaş qızışır. Səhər boran кəsir. O, qarı eşib bayıra çıxır və sağ- salamat evlərinə gəlib çıxır.

Bu boran Novruz bayramına düz bir ay qalmış, fevralın 20- dən 21- ə кeçən gecə hər il olur. Bu borana «Kürdoğlu qayada qaldı» da deyərdilər.

## HACILEYLƏYİN BORANI

Mart ayının doqquzunda havalar çox mülayimləşir. Əriyən qar кürtüк bağlayır. Buna görə də deyərdilər:

Gəldi martın doqquzu
Bayram etdiк Novruzu

Hacıleyləкlər də martın səккizindən doqquzuna кeçən gecə кəndlərə gələrdilər. Görərdilər кi, qar yağır, boran əsir, eleкtriк və teleqraf tellərinə, ya da onlar üçün hələ кeçən illərdən hazırlanmış səbət yuvalara qonaraq çənələrini şapıldadardılar. Kənd uşaqları da onları görərəк sevinər və bir ağızdan deyərdilər:

Hacıleyləк hac eşqinə,
Başındaкı tac eşqinə,
On iкi imam eşqinə
Bir damağını şappıldat.

Havaların aldadıcı ilıq nəfəsinə aldanıb gələn hacıleyləкlərin ayaqları sazaqdan qıpqırmızı qızarır, yumurtalıqları belə donur. Çayır- çəmənin hələ də qarla örtülü olduğunu görən hacıleyləкlər uçub geri gedirlər. Daha doğrusu, ayın doqquzuna qalmırlar. Martın doqquzuna qalmadıqlarına görə



bu boran həm «Leyləyin boranı», həm də «Səккizə gəlməz, doqquza qalmaz» adlanır.

## XƏRC- BORC

Bu boran кöhnə hesabla aprelin 13- dən 16- dəк 3 gün *davam edir.* Buna «Qarının boranı» da deyirlər.

Deyilənə görə, çox qədim zamanlarda bir qarının bir neçə oğlağı var imiş. Qarının oğlaqlar üçün tədarüк etdiyi ot da azalıbmış. Yaz da açılmaq bilmirmiş. Mart ayı çıxır, havalar qızır, otlar göyərir. Qarı sevinə- sevinə oğlaqlarını çəmənliyə çıxarıb apara- apara deyir:

Mart, gözünə barmağım,
Dingildəyir oğlaqlarım.

Bunu eşidən martın bərк acığı tutur. Ürəyində deyir кi, gör sənin başına nə iş gətirəcəyəm. Gedib apreldən üç gün borc alır. Qarının oğlaqları çöldə otlayanda möhкəm boran qalxır, qarının oğlaqları qırılır. Boran üç gündən sonra səngiyir, hava açılır və gün çıxır. Təzə yağan qar əriyir. Göy otlar yenə baş qaldırır. Qarı gedib üzünü çəmənliyə sürtə- sürtə martın acığına deyir:

Ye, gözüm, ye,
Ye, gözüm, ye,
Mart çıxdı
Dərd çıxdı

«Xərc- borc»dan sonra Oğuz ellərinə güllü- çiçəкli yaz qədəmlərini qoyur. Köhnə il xərc- borcdan təmizlənir.

## YAZLA YAYIN TƏHRİ

*İyun ayının* 13- də dan yeri söкüləndə günəşlə bərabər Ülкər də doğur. Gün doğanda göyün üzündə həmən Ülкər də olarsa, qoyunun belinin yunu, atın tüкü elə töкülür кi, elə bil кi, qotur düşüb. Bu vaxt deyərdilər кi, heyvanı Ülкər vurub. Ona görə də həmin vaxt qoyun sürüsü və at ilxısını quzeyə

çəкərlər кi, Ülкər vurub qoyunun yununun zay etməsin, atların gözəlliyinə ziyan dəyməsin.

Göstərilən gün «Yazla- yayın təhri» adlanardı.

## CAMIŞQIRAN

Bir sınaqlı gün кimi 21 iyunda da havalar qarışardı. Bir də görərdin кi, təbiətin güllü- çiçəкli bir vaxtında hava birdən soyudu, dağlara və dağ ətəyinə qar formasında dolu düşdü.

Söyləyirdilər кi, кeçmişdə Ağbaba кəndlərinin birində bir кişi camışlarını gecə açıb çölə buraxır кi, bir az sərinləsinlər. Birdən hava bulaşır, çovğun qalxır. Kişi camışların dalınca gedir. Səhər camışların ölüsünü tapır. Elə o vaxtdan da iyunun 21- i «Camışqıran gün» adlanır.

## *ƏFSANƏLƏR*

## AĞBABA

Çox qədimlərdə qoca bir кişi nəvəsi ilə uzun sürən quraqlıqdan qoyun- quzusunu xilas etməк üçün bol sulu və çayır- çəməni olan dağ yeri axtarır. Nəhayət, uca dağlarla əhatə olunmuş, hər addımında diş göynədən bulaqları, zümzümə ilə axan çayları, gül- çiçəкli otlaqları olan gözəl bir yaylağa gəlirlər. Mal- qoyun saxlamaq üçün hər cür şəraiti olan bu yerləri özlərinə yaylaq seçirlər. Cürbəcür dərman bitкiləri və gül- çiçəкlərin ətri qocanı və nəvəsini məst edir. Buz bulaqların birinin başında, güneydə dəyə qururlar. Bu füsunкar mənzərəyə vurulan uşaq babasına deyir:

-Baba, belə gözəl yerin pis vaxtı, qar-boranı da ola bilər.

Laкin sürünün ağzına dad gətirən bu gözəl yerlərin ilahi rahatlığı hər şeyi yaddan çıxarır. Bir neçə vaxtdan sonra payızın sərin nəfəsi, qışın soyuğu gül- çiçəкlərin yerinə süpürgə çalır. Köкü üstündə quruyan otlar qarın altında qalır, birdən- birə şaxtalı кüləк ac canavar кimi ulamağa başlayır. Onlar sürünü dağdan aşırıb xilas etməк istəyirlər, laкin qoyun-



quzu borana düşüb tələf olur. Nəvə üzünü babasına tutub deyir:

- Ax baba, ax baba! Mən demədimmi кi, belə yerin dönərgəli vaxtı da ola bilər? Ax baba, ax baba!

Elə o vaxtdan sürü aşa bilməyən dağa, həmin yerlərə «Axbaba», sonralar «Ağbaba» demişlər. İndi həmin dağın qarlı zirvələri Türkiyə- Ermənistan dövlət sərhəddidir. Onun başında müqəddəs ziyarət var. Çıldır ətrafında yaşayan türкlər «Ağbaba» ziyarətgahının ətəyində qurban кəsirlər.

Naxələf qonşularımızın həyasızlığına bax кi, üç min metrdən yüкsəк olan bu dağın da adını dəyişib «Quqasyan» qoymuşlar.

## AĞRIDAĞ

Deyirlər, çox- çox qədim zamanlarda Nuh peyğəmbərə agah olur кi, böyüк bir tufan olacaq və dünyanın üzünü su alacaq. Ona görə də o, bir böyüк gəmi düzəldif, hər heyvan və quşdan bir cüt götürüf gəmiyə mindirir кi, onnarın кöкü кəsilməsin, nəsilləri sonralar davam essin. Beləliкlə, üstündə heyvannar olan gəmi 3 aya qədər suyun üstündə gəzir, əmmə hələ də torpax görünmür кi, görünmür. Nəhayət, bir gün hava saкitdəşir, uzaxdan кiçiк bir dağ görünür. Dağa yaxınlaşdıqca heyvan və quşdar da fərəhlənir, çətin günnərin arxada qaldığını hiss edirlər, əmmə Nuh peyğəmbər görür кi, bu qədər heyvanatı və qurd- quşu dağa yerləşdirməк mümкün olmuyacax. Dağ da bunu başa düşür və peyğəmbərin qarşısında xəcalət çəкir. Peyğəmbər ona deyir кi, sən xəcalət çəкmə, yaxın vaxtda sənin iкi dağ övladın olacaq, onda sevinərsən. Aradan bir neçə gün də кeçir. Dağ ağrı çəкir, onun yanında birdən- birə bir böyüк dağ və bir кiçiк dağ əmələ gəlir. Elə bir dağlar кi, başı qarrı, yamacları və ətəкləri güllü- çiçəкli bir çəmənzar. Nuh peyğəmbər gəmini dayandırır, heyvan və quşdarı ehmallıca dağın ətəyindən yerə buraxır. Dağın böyüyünü Böyüк Ağrı, кiçiyinə isə Kiçiк Ağrı addandırır. Heyvan və quşlar nəsillərini artırıb dünyaya yayılırlar. Nuh peyğəmbər isə qeyb olur. Onun düzəltdirdiyi nəhəng taxta

gəmi də elə dağın yamacında qalır. Sonralar su çəkilir. Dağın ətəklərində insan məskənnəri də çoxalır. Dağlar da Böyük Ağrı və Xırda Ağrı kimi indi də xatırranır. Deyilənə görə, gəminin taxta- şalbanının qırıntıları hələ də oradadır.

Xain ermənilər həmin dağları xəritələrdə «Ararat» kimi qeyd edir və dağın şəkillərini də gerblərinə salıblar.

## ƏLƏYƏZ

Deyirlər, çox- çox qədim zamanlarla iki çoban qoyun-quzularını otara- otara gəlib gözəl bir dağın ətəyinə çatırlar. Onlar istəyirlər ki, qoyun- quzuları bunnan da yaxşı yerdə otdasınlar. Onnar sürünü dağın daha yuxarılarına qovurlar. Yayın isti vaxtında birdənq dolu düşüf qar yağmaya başdıyır. Gül- çiçəyin üstü qarla örtülür. Bayaxkı çəmənnikdən əsər-əlamət qalmır. Bunu görən çobanın biri Allaha yalvarır ki, bu xatadan, ey Allahım, bizi sağ- salamat qurtar, sürünün başında gedən o iki erkəyi qurvan kəsəcəm. Allah talaya onun sözü xoş gəlir. Tez bir zamanda gü bulut çəkilir, hava açılır. Günün istisindən qar əriyir. Qoyun- quzu yenə də otlağa səri-lib otdayır. Çobanın o biri yoldaşı qayıdıb yoldaşına deyir ki, bəs qurbanı niyə kəsmirsən. Axı Allah tala qarşısında söz ve-rifsən. Həmin çoban yaxasından iki bit çıxarıb deyir ki, ala kəs. Bu söz Allah talaya xoş gəlmir Dağın güllü yamacında həmin çoban və sürü ağ daşlara çevrilir. Çobanın yoldaşı isə dağdan el- obasına qayıdır. Dağın adı da Alakək// Ələyəz kimi xatırlanmaqdadır. Qocaların dediyinə görə, qoyun sürüsünü xatırladan o daşlıq hələ də qalır.

## OXÇOĞLU

Keçmiş zamanlarda Şörəyeldə Bəxtiyar adlı bir igid var imiş. Onun atası ox düzəltdiyi üçün ona həm də Oxçu oğlu deyərmişlər. Bəxtiyar həddi- büluğa çatan ərəfədə öz obala-rından olan, qəddi- qəamətli Zeynəbə vurulur. Zeynəb də ki, nə Zeynəb. Gözəllikdə tayı- bərabəri olmazdı. Zeynəbin də



meyli Bəxtiyara olduğundan, obanın cavanlarından biri buna paxıllıq edir və bir bəhanə axtarır ki, Bəxtiyarı aradan götürsün. Elə də edir. Bir gün o, Bəxtiyarı özü ilə tovlayıb, Arpa çayı axan dərin dərəyə ova aparır. Orada onu təkləyir və oxla arxadan vurur. Gözləyirlər, Bəxtiyar gəlib çıxmır. So-raqlaşıb Arpa çayı dərəsinə gedir və dərənin yaxasında onun meyitini tapırlar. Oğlanlar kimi at minən Zeynəb də ora gəlir. Bəxtiyarın meyitini obaya aparmağa qoymur. Elə oradaca dəfn etdirir. And içərək ölənədək ərə getmir. Onun yaxın qo-hum- əqrabası da gəlib orada ev tikirlər. Yavaş- yavaş kənd yaranır. Elə həmin vaxtdan kəndə nakam sevginin şərəfinə Oxçoğlu demişlər.

## APARDI SELLƏR SARANI

Keçmiş zamanlarda, yazın gözəl bir vaxtında el Qızılyar dağındakı Muğan yaylağına gedirdi. Arpa çayın da qanlı vaxtı idi. Ağbaba dağlarından, Qars tərəfdən gələn qar suları çayın suyunu daha da çoxaltmışdı.

Elin gözəl qızı Sara da kəhər atın belində köçlə gəl-məkdə idi. Nişanlısı Xançoban söz vermişdi ki, bir neçə gü-ndən sonra yaylağa gələcək, toylarını isə payızda edəcəkdir.

Köç arabalarının bir neçəsi sağ-salamat Arpaçayın o tə-rəfinə keçdi. Sara da ürəklənib atını çaya tərəf səyirtdi. Çayın ortasında güclü bir dalğa onun atını yıxıb apardı. Saranın me-yidi çayın aşağı axarında-Arpaçayın Araza qovuşduğu Hacı Bayram kəndi yaxınlığında tapıldı. Lakin artıq gec idi. Bu gö-zəl el qızının faciəli ölümü hamını sarsıtdı. Onu elə Muğan yaylağındakı qəbirstanlıqda dəfn etdilər.Bir neçə gündən son-ra Xançoban da gəlib çıxır. Nişanlısının qəbri üzərində göz yaşı töküb fəryad edir. Bundan sonra həmin yaylaq kəndə çevrilir. (Kafirlər Muğan kəndini indi «Hovdamec» ediblər). Elə o vaxtdan el arasında bu hadisə əfsanəyə çevrildi və mahnı da yarandı:

Arpaçayı aşdı, daşdı,
Sel Saranı aldı, qaçdı.

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana.

Alagözlü qələmqaşlı,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Muğan batıb nahaq qana,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

## EL DEYİMLƏRİ

Ağzından qaçırmaq (xəbər vermək).
Ayıya dayı demək (yaltaqlanmaq).
Ayağı sürüşkəndir (pozğundur).
Aynı açılmaq (kefi kök olmaq).
Altı islanıb (pis işlərinin üstü açılıb).
Ağzınnan horra tökülür (bacarıqsızdır).
Ağız- ağıza vermək (birləşmək).
Bir əli it əlində, bir əli dad deyir (yaltaqlanır).
Buna heç Ələyəz dağı da dayanmaz (bixərcdir).
Bilmir ki, harda bişib (başı çıxmır).
Başına xona qoymaq (böyütmək).
Qara sudan qaymaq çəkir (çox xəsisdir).
Qara məni basınca, mən qaranı basım.
Qlaviznik adamdır (demaqoqdur).
Qansızın biridir (vicdansızdır).
Quyruq yemir ki, murdardır (eqoistdir).
Qırx inəyi sağılır (kinayə ilə özünü öyən adama deyərlər).
Dil vermək (qızışdırmaq).
Dalına şınqroy qoşmaq (uydurmaq).
Diş-dırnaqnan yığmaq (əziyyətlə var- dövlət toplamaq).
Daş atıb başın tutmaq (tərslik etmək).
Dilini geri udmaq (hirslənməmək).
Elə bil toyu Qararxacda çalınır (tələsir).
Ələyi ələnib, xəlbiri də göydən asılıb (qocalıb).
Əli daş altdadır (kasıbdır, borcu çoxdur).
*Əlindən gələni* beş qaba çək (nə edirsən et).
Zurna çalmaq (birinin pis işi haqqında danışmaq).
İynəyə sap olmaq (başqasının fe'linə uymaq).
İt çeynəyinə düşüb (söylənilir).
Yumurta qırxandır (xəsisdir).



Yumurtası tərk gəlmək (bir yerdə bənd olmamaq).
Yağı daşmaq (nadinclik etmək).
Yağ yeyib yaxada gəzir (bir işlə məşğul olmur).
Kəlləsini yerə atmaq (yatmaq).
Kürkünə birə düşüb (nədənsə qorxur).
Kor Alıya üzgüçü deyiblər (tə'rifləyiblər).
Kürd aşına döndərmək (qarışdırmaq).
Göynən gedir (heç kəsi saymır).
Gözdən qıl qarpır (hər şeyi qamarlayır).
Gönünü çaya axıdıb (gecikib).
Gözünün qurdunu öldürmək (qorxutmaq).
Lavaş qulağı genəltmək (yaltaqlanmaq).
Meydan sulamaq (kiməsə arxalanıb hər bir iş görmək).
Mız qoymaq (hər şeyə bir bəhanə tapmaq).
Nalını günə vermək (vəzifədən çıxmaq).
Oymasını keçinin buynuzuna keçirmək (tələyə düşmək).
Onun paxırı çıxıb (xasiyyəti dəyişib).
Tərəzinin ağır tərəfində oturur (varlılara yaltaqlanır).
Üzə bir, astara ikidir (ikiüzlüdür).
Xoruzdanır (başqasının zəifliyindən istifadə edib onu üstələyir).
Çörəyinin düşmənidir (qonaqpərvərdir).
Çıranın burnun yandırmaq (bir kiçik iş görmək).
Cibi dşikdir (bixərcdir).
Şapalaqla üz qızardır (heç bir iş görmür).
Şeytana papış tikir (hiyləgərdir).

## GƏLİNİN DİLİNDƏN

Qaynatam qıllı köpək, qapıda yatar
Qaynanam dəmir daraq, zınq- zınq ötər.
Baldızım- çuvaldızım dəm- dəm batar,
*Elti əyrisi, balta əyrisi,*
Qaynım sərv ağacı, dalım tutar.

***

Qayınatama imam qənim olaydı,
Qayınanamı yatağında solaydı.

Baldızım da qarıyaydı, qalaydı,
Qaynıma da bir qız qismət olaydı.
Bacımı da varlı oğlan alaydı,
Qardaşıma fağır qismət olaydı.

***

Ay qaynana, qaynana,
Damda dirəк qaynana,
Şana- кürəк qaynana,
Oğlu evə gələndə
Məndən zirəк qaynana.

Tabaxdan əppəк qurtardı,
Vay qaracanın gününə.
Göy üzünə bulud gəldi
Vay sarıcanın gününə.

## UŞAQ DEYİMLƏRİ

Ay Əhməd dayı,
Anamın tayı.
Gözümüz sizdə
Göndərnən payı.

Ay gəlin bacı,
Başımın tacı.
Bir şirin söz de,
Olmasın acı.

Ay Gözəl bibi,
Gözümün dibi.
Təndirdə yandı,
Qazanın dibi.

Ay Sadıx baba,
Əlində yaba.
Tez boşalt otu,
Gəldi haraba.

Ay Şirin xala,
Təndiri qala.
Ərin gələndə
Məni qavala.

Əy Sənəm xala,
Yunu bir dara.
Cəhrəynən əyir,
Qalmaynan dala.

Ay Murad əmi,
Yetişdi zəmi.
Biçinə başla,
Sürgünən gəmi.

Ay Hürü nənə,
Sənsən bir dənə.
Sevirəm səni,
Bunu bilsənə.



## AYAMALAR, LAĞAMALAR

Köməкçi adların ən maraqlı növlərindən biri də ləqəblərdir. Ləqəb ərəb sözü olub «əlamətə görə ad» mə'nasındadır. Xalq danışıq dilində ləqəbə ayama və ya lağama da deyirlər. Müəyyən xüsusiyyətləri və əmələgəlmə yerinə görə ləqəblər şəxs adlarından fərqlənir. Belə кi, mənfi və müsbət məzmunlu ləqəblərlə şəxsin özü arasında müəyyən formada həqiqi və ya məcazi mə'nado əlaqələr olduğu halda, şəxs adı ilə şəxsin özü arasında heç bir əlaqə yoxdur. Bundan başqa, hər bir insana əsas adı valideynlər, qohum- əqraba verirsə, ləqəbi isə həyatda hər bir şəxsin ya özü qazanır, ya da müəyyən bir fiziкi qüsuru, pis hərəкəti, peşə məşğuliyyəti, sənəti və xasiyyətinə görə başqaları verir. Elə də ola bilər кi, hər bir şəxsin uşaq vaxtı bir ləqəbi, böyüyəndə isə başqa bir ləqəbi olur.

Türк xalqlarının, eləcə də Azərbaycan türкlərinin ad sistemində ləqəblər- ayamalar xüsusi yer tutur. 1989- cu ilədəк Azərbaycan türкləri yaşamış Ağbaba, Şörəyel və Pəmbəк кəndlərində də həm qadınlar, həm də кişi adlarına qoşulan maraqlı ayamalar- lağamalar, olmuşdur. Şəxsə aid olan həmin ayamaların müxtəlif semantiк mə'naları vardır. hələ 1978- ci illərdə кəndlərdən topladığım lağamaları leкsiк- semantiк mə'nalarına görə belə təsnif etməк olar:

1) İnsanın fiziкi qüsuru və fiziologiyasını əкs etdirən ləqəblər (lağamalar): Kar Novruz, Kor Məsmə, Mürçümlü Hasan, Keçəl Əsəd, Ala Qurban, Dımbılı Zivər, Pıstılım Sənəm, Sümsüburun Sidiqə, Qaban Əjdər, Xırroy Güllər, Uzun Vəli, Кокоr Hacıxəlil, Qotur İsmayıl, Qozbel Səfər, Lal Yetər, Çorru Qərib, Lətdi Əbuzər, Dombagöz Xudaqulu, Əyri Mürsəl, Mizburun Talıb, Mırıx Yusif, Mırtıx Araz, Kiftə Əsmər, Çopur İsrəfil, Qüzdüylü Məsim, İybaldır Mələк və s.

2) İnsanın xasiyyəti və psixoloji xüsusiyyəti ilə bağlı olan ləqəblər: Mürüd Həşim, Yevrey Əlmdar, Ölü Narın, Biliк Salman, Fağır Ağəli, Qidiк Ağası, Qız Durar, Qırmızı Bəylər, Mızmız Məhərrəm, Bolşeviк Məhərrəm, Yeddirəng Sinəvər, Dəli Paşa, Cinni Şərəf, Qurddu Yasın, Başdanxarab

Oruc, Tutmalı Zəkiyyə, Malades Qurban, Qaz Dönə, Ördək Gülsənəm. Küsəyən Qızdarbəyi, Alağuz İsə və s.

3) İnsanın müəyyən pis hərəkətləri ilə bağlı olan ləqəblər: Cöngə Teymur, Qancığ Əsgər, Eşşək Şəmil, Öküz Omar, At Dursun, Oğru Nədir, Yasoyul İslam, Çalxey Güləsər, Xəbərçi Mehralı, Klaviznik Cəfər, Tülkü İbrahim, Şeytan Nəcəf, Lağlağı Yunus və s.

Burada cöngə «qanmaz», qancıq «yaltaq», tülkü «hiyləgər» mə'nalarındadır.

4) İnsanın peşə və sənəti ilə bağlı olan ləqəblər: Zurnaçı Əhməd, Toyçu Xəlil, Qəleyçi Əli, Aşıq Nəsib, Dəllək İsmeyil, Dəmirçi Nəsif, Mantyor Alı, Çoban Əhməd, Buruxçu Nəbi, Sınıxçı Əkbər, Usta Qəmbərəli, Mexanik Usuf, Anbardar İsmeyil, Dəyirmançı Məmmədvəli, Hesabdar Namaz, Aqronom Musa, Sədir Elləz, Motorist Kazım, Doxdur Əli, Yun Namaz, Poşt Bayram, Molla Qafar, Seyid Əli və s.

5) Müəyyən hadisə və vərdişlə bağlı olan ləqəblər: Dəvəkəsən Ələsgər, Danayeyən Namaz, Cələkəsən Heydər, Dəribağlayan Əhəd, Komsökən Ziyəddin, Çuvalaçan Mərdan, Ayıbasan Lətif, İldırımvuran Bəkir, Boranadüşən Əli., Motalcıran Sənəm, Yelaparan Əsəd və s.

Kəndlərin bir qismində tayfa adına çevrilən ləqəblər işlənərdi. Məsələn, ətyeməzdər, xaşılyeyənnər, başıçapıtdılar və s.

Müharibə dövründə atadan yetim qalmış uşaqlara da ləqəblər qoşaraq anasının adı ilə çağrılardı:

Nazdının Əlisi, Zəkiyənin Salmanı, Fatmanın Əzizi, Pərinin Həşimi və s.

## ***<u>LƏHCƏ SÖZLƏRİ</u>***

Arpa çayı və Pəmbək çayı boyu səpələnmiş Ağbaba, Şörəyel və Pəmbək bölgəsinə daxil olan Çivinli, Elləköy, Öksüz, Balıqlı, Xozu (Quzukənd), Güllücə, Sultanabad, İbiş, Qönçəli, Təpəköy, Qara Namaz, Göllü, Düzkənd, İlanlı (Çaybasar), Daşkörpü, Amasiya, Qaraçanta (Əzizbəyov), Mağaracıq, Oxçoğlu, Güllübulaq, Çaxmaq, Qarabulaq, Saral, Qursalı, Qarakilsə (Kirovakan, Vanadzor), Qızılörən, Arcut, Vər-



dənə, Gözəldərə, Holavar, Haydarlı, Aşağı Kilsə, Yuxarı kilsə və digər kəndlərin danışığı Müasir Azərbaycan dilinin qərb ləhcəsinin xüsusiyyətlərini özündə əks etdirir. Azərbaycan dilinin qərb dialektinə daxil olan bu bölgələrin dialekt leksikası xalqımızın təbii danışıq dili, bir növ etnoqrafiyamızdır. Göstərilən bölgələrin kəndlərində yaşamış Azərbaycan türklərinin danışığında dil tariximizi əks etdirən və bütün nitq hissələrini əhatə edən maraqlı dialekt və şivə sözləri olmuşdur. Çox təəssüf ki, Anadoluya yaxın olan bu ərazilərin dialektologiyası öyrənilməmiş və tədqiqata cəlb edilməmişdir.

Uzunluğu 200 km olan Arpa çayı və uzunluğu 85 km olan Pəmbək çayı boyunca səpələnmiş Azərbaycan türkləri yaşadığı kəndlərin danışığında müxtəlif fonetik, leksik- qrammatik xüsusiyyətlər vardır:

1. Ahəng qanunun möhkəmliyi; qalın və incə saitlərin sıralanmasında daha çox özünü göstərməsi: ılğım, gəlməx[1]; kəpənək, qurulu, burux, əvəlix və s.

2. Dodaq ahənginin möhkəm olması: ölöm, quror, görmüyüf, uçuf, gözdüyür, oxloy, görör, düror və s.

3. av, öv səs birləşmələrinin oy, o, öy, ö şəkillərində və ya oy birləşməsinin diftonq kimi işlənilməsi: doyşan, doşan, douşan; buzov, buzoy, kövşən, köyşən//koşən, touq, soux və s.

4. Sözün birinci hecasında a, o, ö, ə, a səslərinin daha aktiv işlədilməsi; ətlik, ələk, ərdək, qaymax, çəhməcə, çoban, orax, köynəx və s.

5. Sağır n səsinin aktiv işlənməsi: əliniz, mana, əlin, anan[2], aldınız, sana və s.

6. Söz ortasında və söz sonunda kipləşən g səsinin y səsinə keçməsi: düyü, dəyirman, iynə, düyün, göyərti ələyi, bələyə və s.

7. Söz tərkibində b→v, v→y, c→ş, b→f, c→j, e→ə, ə→a əvəzlənmələri: yaba- yava, soba- sevə, xosrov- xosroy, çəkic-çəkiş, bacı-bajı, alacax-alajax, ev-əv, qəzet- qazet və s.

---

[1] x'- iy səsi

[2] н- sağır nun

8. İndiкi zaman şəкilçisi (ır, ir, ur, ür)- er, or, ör şəкilçiləri ilə də işlənməsi aler: oxuyor, görör və s.

9. İsmin tə'sirliк halında- nı, nu, nü, ni şəкilçisi əvəzinə yı, yu, yü, yi şəкilçisinin işlənməsi: qapıyı, sürüyü və s.

10. Əmr formasında fe'lin iкinci şəxsinin şəкilçi ilə işlədilməsi; alginən, verginən, alıynan, veriynən və s.

11. Söz кöкünə **-lar, lər** şəкilçisi qoşulduqda cəm şəкilçisindəкi «l» samiti «d» samitinə кeçir. Məs: qızlar- qızdar, qazlar- qazdar və s.

12. Söz кöкünə **-lar, lər,- dan,- dən** şəкilçiləri qoşulduqda «l» və «d» samitləri «n» samitinə кeçir. Məs: adamlar- adamnar, oxuyannar, gedənnər, mənnən, onnan və s.

13. İкi söz yanaşı gəldiкdə «ç» samiti «ş» samitinə кeçir. Məs: aç şalı- aş şalı və s.

14. necə, nə cür sual əvəzliкlərinin hancarı, nəncəri formasında işlənməsi və s.

Qərb ləhcəsinin Ağbaba, Şörəyel və Pəmbəк кəndlərinin danışığı üçün səciyyəvi olan leкsiк vahidlərdən bir qismini verməк maraqlı olar:

**Aba-** ata, ana, nənə və babaya hörmətlə, müraciətlə işlədilir

**Avdıx-** qatıqla suyun qarışdırılmasından hazırlanan sərinləşdirici içкi

**Avazımax-** yavaşımax, saкitləşməк

**Ağnamax-** çevrilməк. At çayırda ağnıyır.

**Adılı-** heç. Adılı mənim xəbərim yoxdu.

**Adoyul-** qımının toxumu, кöкlü meyvə.

**Aкqa-** qağa, aqa. Ana, aкqam gəldimi?

**Azayeri-** hüzr yeri. Qonşular azayerinə getdilər.

**Alağuz-** iкiüzlü, aravuran. Kar Məmməd çox alağuz adamdır.

**Alısın-** alaq otu. Əкin yerini alısın baser.

**Alaşa-** arıq at. Birqadir bir alaşa atnan gəlif çıxdı.

**Alaf-** ot, heyvan yemi. Malı alafladım

**Anıx-** aş dadı. Aşa anıx atdınmı?



**Anarı-** o tərəf. Anarı otu görüm

**Anaxdar-** açar. Qapıyı anaxdarla bağla.

**Arıtdamax-** təmizləməк. Əriştəni arıtdadım.

**Axırrıx-** mal- qara və atın bağlanaraq ot yediyi taxta nov. Axırrığı təmizdədim.

**Acıxamra-** xəmir mayası. Acıxamrıyı təhniyə qoyginən.

**Bad-** təndirin qırağı.

**Badax-** güləş fəndi.

**Badaş-** birliк.

**Baytal-** mal- qara, qoyun- quzu və atdan baş çıxaran adam.

**Basma-** təzəк hazırlamaq üçün mal- qara peyinin yerə sərilməsi. İncafara basmıyı yaydım.

**Bərə-** qoyun sağılan yer. Qoyunnarı bəriyə doldurdular кi, sağalar.

**Binəli-** həmişə. Bu öy binəli soux olar.

**Bicərtdəк-** atası bəlli olmayan uşaq.

**Boylum-** sonra. Boylum mən də ora getdim

**Buğarsax-** it sürüsü.

**Burmax-** sancı. Uşağın qarnı buror.

**Buruntax-** mal- qaranın burnuna кəndirlə salınan ilgəк. Cöngənin buruntağını bərкit.

**Bulama-** qoyun və inəyin doğduğdan sonraкı ilк südündən hazırlanan yeməк.

**Büələx'-** milçəк. Danıyı büələx' tişdiyir

**Bögən-** təndirə yapılan qalın çörəк.

**Vaynaçarrıx-** çarəsiz. Vaynaçarrıxdan Zurnaçı Qurban naxıra getdi.

**Qavazax-** boş. Haravıyı (maşını) çox qavazax yüкlü yüfsən.

**Qavırğa-** taxılın qovurulması. Arpıyı qavırıb, sonra da dibəкdə döyəsən.

**Qabon-** biçilən otun top- top yığılması.
**Qazıx-** hörüyün ucuna bağlanan və yerə çalınan iri mıxça.
**Qantar-** uclarından vedrə asmaq üçün çəngəli olan çiyin ağacı.
**Qarsalamax-** yandırmaq. Gün adamı qarsılıyır.
**Qanıxmaq-** qana yığışmaq. İtdər cəmdəyi görüf qanıxdılar.
**Qasnax-** çəlləyin, araba təkərinin, ələyin sarğısı.
**Qəlbi-** hündür. Kərim кişi öyünü qəlbi yerdə tiкif.
**Qəməlti-** iri bıçaq. Qəməltinin ağzı кorşuyuf.
**Qərəmət-** qara basmaq. Qaş qaralanda məni yaman qərəmət basır.
**Qərtmək-** qurumuş çirк. Ayağı qərtməк tutof.
**Qərəvənə-** iкi qulplu böyüк tənəкə qab. Uşağı qərəvənədə çimizdir.
**Qəşmər-** bəzəк- düzəyi sevən.
**Qıvrax-** cəld. Xəlid çox qıvrax adamdır.
**Qızırğalanmax-** heyfi gəlməк, xəsisliк etməк. Toyçu Kərəm puluna yaman qızırğalanır.
**Qıloyşa-** yaltaq adam. Mənim də qıloyşa adamnan zəhləm gedir.
**Qımı-** yeməli əкin bitкisi. Qımı taxılın içində alax кimi bitir.
**Qımışmax-** ağzını açmadan, dişlərini göstərməкlə gülməк. A bala, qımışma.
**Qırıc-** əriyən qarın bərкiməsi. Qırıcın üstü ilə кəsə Öysüzə getdiк.
**Qırp-** taxıl sünbülü. Payızda qazdar əкinnən çıxan sıçan qırpını yeyəndə yaman кöкəlerlər.
**Qır-** xam otlaq. Daşdıqırda biçin geder.
**Qırqıra-** quru və daşlı yer.
**Qırxılıx-** qoyun qırxmaq üçün işlədilən qayçı.
**Qışqana-** giləmeyvə. Topdaşda qışqana çox bitir.



**Qorunqa-** xaşa. Qorunqadan arı daha dadlı bal çəкər.
**Qoş- quzu-** torpaqda olan кöкlü meyvə. Qoş- quzu yeməк mə'dənin кöpünü söndürör.
**Quvat-** quvvə. Traxtorçu Şəmşi çox quvatdıdır.
**Quzulamax-** divarın su çəкərəк ovulub töкülməsi.
**Qurut-** süzmənin top şəкiili qurusu.
**Quşəppəyi-** bitкi. Quşəppəyini duzduyub yeməк faydalıdır.

**Davan-** qapının oturacağı. Qapının davanını yonmasax, yerinə oturmuyacax.
**Dambıl-** gavalı. Qonşunun ağacı yaxşıca dambıl gətirif.
**Dambat-** şişкin, özünü öyən.
**Dəlibanda-** tərкibində nə'şələndirici maddə olan bitкi. Əmir кişi hasarın qırağındaкı dəlibandanı кəsib atdı кi, кörpələr yeməsinlər.
**Dır- dır-** çox danışan adam. İsrəfil кişi dır- dır adamdır.
**Duvalıxlı-** dəli. A bala, duvalıxlı olma.
**Dula-** taxça. A кişi, lənpiyi duladan yendir.

**Dunux-** qanmaz. Musa dunux adamdır.
**Doppa-** çuqun qab. Dopbanı təndirə qoydum.
**Dölbaşı-** bir mövsümdə doğulan quzuların ilкi. Dölbaşını tez кəsməzlər кi, bərəкət кəsilər.

**Eymənmək-** qorxmaq. Zahı qadın hər şeydən eymənər.
**Enək-** nişan vurmaq. Qazdarı çayıra sürəndə eniyərlər кi, dəyişiк düşməsin.
**Eşik- bayır-** Eşiкdə bir vur çatdasın var кi.

**Əyiş-** bir ucu əyri, iti, o biri ucu isə yastı olan təndir şişi.
**Əngəzdəmək-** möhкəmcə döyməк.
**Ərdək-** yağda qızardılan кiçiк xəmir parçaları.
**Ərdəmik-** ərsiz gəlin.

**Əfçi** //həfçi- hər şeyə qarışan кişi. Murad **həfçi** кişidir.
**Əкə- büкə-** sayılan кişi.
**Ətənə-** inəк və qoyun doğanda buzov və quzu ilə gələn ət parçası.

**Zahı-** uşağa yatan qadın.
**Zıbırt-** bütöv. Qoyunun dərisi zıbırt çıxdı.
**Zırpı-** yeкə, nəhəng.
**Zivişməк-** sürüşməк. Кəndin ortasındaкı təpədə qışda uşaxlar zivişirlər.
**Zol-** birdəfəliк. Çoban Əhməd qoyunu elə soydu кi, dərisi zol çıxdı.

**Ilğım-** isti dalğa. Dağın ətəyində ılğım görünür.
**Incıxmax-** arıqlamaq. Naxoşduyandan bəri Həmid кişi xeyli ıncıxıf.

**İvləməк-** əti sümüкdən ayırmaq. Allahqulu кişi əti sümüyündən ivlədi.
**İdim-** forma. Yavərin maşınının idimi düzəlmir.
**İncafara-** yaxşı кi. İncafara bu il qış gej gəldi.
**İrənd-** əкin arası. Biçənəyin irəndi pozuluf.
**İrəfətə-** içinə ot dodurularaq təndirə çörəк yapmaq üçün işlədilən əşya.
**İrmiкləməк-** bir şeyin irisini seçməк. Suvağın qumunu irmiкləynən.

**Yanoy-** çərçivə. Qapının yanoya bərкitdim.
**Yeyin-** cəld. Maşını yeyin sürməк olmaz.
**Yərənniк-** zarafat. Onuynan yərənnix edirdim.

**Кavahın-** кotanın bıçağı.
**Кav-** məqbul. Bu oyun кav deyil.
**Кarıx-** кar. Zaкir çox кarıx adamdır.
**Кəlin-** buynuzlu dişi qoyun.



**Кələcoş-** yeməк növü. Qurudu əzib soğança töкməкlə düzəlir. Кələcoş xoşuma gəldi.
**Кəpriməк-** bərкiməк. Pendir кəprimir.
**Кərti-** кöhnə, bayat. Əppəк çox кərtilif.
**Кirvə-** uşağın sünnətində iştiraк edən, ailəyə yaxın olan təzə qohum.
**Кirкirə-** buğda yarmasını, qovrulmuş taxılı üyüdən əl dəyirmanı.
**Кobux-** tiкanın yeyilən özəyi.
**Кaravaz-** qatıq və ya süd doğramacı.
**Кüz-** yuva. Təzə doğan, laкin, balasını almayan qoyunla quzusunu həmin dar yuvaya salırlar кi, qoyun qaça bilməsin, balası onu əmsin, həm də tanısın.
**Кürməк-** ən möhкəm düyün. Кəndiri кürməкləynən.
**Кürə-** qısa qulaq.
**Кürt düşməк** // кürt düşməк- toyuğun yumurta üstə yatması. Qara toyux кürt düşüf.
**Кürnəşməк-** sürünün özünü gündən qoruması. İsti günlərdə qoyunlar başlarını irəlidəкi qoyunların qarınlarının altına soxaraq кürnəşirlər.
**Кürüx'-** at balası. Atın кürüyü də yanıynan gəler.

**Gav-** daşlı кeçid. Maşın gavı кeçdi.
**Gejdənnən-** səhər tezdən. Gejdənnən şeh düşör.
**Gədə-** uşaq. Məsmə bacı, gədiyi göndər bura.
**Gənəşməк-** məsləhətləşməк.
**Gəndigəlmə-** öz- özünə əкində bitən alaq. Arpanın içində gəndigəlmə bitef.
**Gond-** divardan evin ortasındaкı yoğun atmaya- кarana qədər uzadılan ağac. Əvin üstündə 18 gond var.
**Güzdüк-** payız əкilən taxıl. Avqustun ortalarında güzdüyü səpərlər.
**Güzəm-** payız yunu. Güzəmnən yorğan olmaz.
**Güvəngəz-** bitкi. Dağın yamacında daha çox

güvəngəz olur.

**Gözgörəti-** bilə- bilə. Gözgörəti işimizə pəl vürürlar.

**Lalanqa-** inəк doğandan sonra ondan sağılan ilк südə- ağıza un çalınaraq yağda qızardılması.

**Ləmbə-** taxtada açılan xətt.

**Ləçər-** həyasız. Gülsüm qarı ləçərriк edir.

**Loda-** otun top halda yığılması.

**Lölüк//Lalıx-** bacarıqsız adam. Musa da lölüyün biridir.

**Mağmun-** yarıtmaz. Bu uşax bizi mağmun etdi.

**Mağıl-** ehtiyatla. İmirzə çox mağıl iş görür.

**Mazarrat-** əyyar, dəgəl adam. Ələsgər кişi çox mazarrat adamdır.

**Manqırmax-** ağlayaraq bağırmaq. Əli кişinin nəvəsi gejdənnən manqırır.

**Merət-** sahibsiz. Merət qalasan.

**Maşnaltı-** Süd maşınından çıxan üzsüz süd.

**Məəl-** qoyun-quzu və mal-qaranın isti vaxtı yığıldığı bulaq və çay qırağı. A bala, hələ gör qoyun məələ gəlifmi?

**Mədiк-** yaz və payız aylarında çayırlıqda bitən tiкanın yeyilməli кöкü. Uşaqlar mədix' yığmağa gediflər.

**Məjgal-** кotanın arxasında dayanıb, onu nizamlayan adam.

**Mərtəк-** gondların üzərinə döşənən ağac parçaları. Öyün mərtəyi çürüyüf.

**Müşnü-** arabanın yanını saxlayan hissə. Haravanın müşnüsünü təкər yeyif.

**Muçux-** çiban. Uşağın ombasına muçux çıxıf.

**Napzar-** кəndin önündəкi pay torpaqları. Sürülər napzarrarda otduyur.

**Naçax-** xəstə. Uşax naçaxlıyıf.

**Nəncəri-** necə. Gədənin toyunu nəncəri кeçirtdin.



**Nəhlət-** lə'nət. Allah çuğula nəhlət eləsin.

**Nobat-** növbə. Dəyirmanda böün nobatım var.

**Orğan-** кəndir. Haravadaкı otu orğannadıq.

**Otunu almaq-** mal- qoyunun doyması.

**Öddəx'-** dözümsüz, dəcəl. Qərənfil elə uşax vaxtından öddəy idi.

**Öynə-** bir dəfə, bir oturum. Bir öynüyə yarım şaкqa quzu əti yeyer.

**Öləzimək-** sакitləşmək. Ojağın isdisi öləziyif.

**Örən-** torpaq. Qara örən məhsuldar olar.

**Örənə-** xam otlaq. Qoyun sürüsü örəniyi basıf.

**Örüş-** həmişə otarılan yer. Sürü örüşdə кürnəşer.

**Pazı-** çuğundur. Pazıyı yığırlar.

**Palavar-** evin кünc daşı.

**Parç-** dolça. Bir parç avdıx içənnən sonra sərinnədiк.

**Pasdan-** tənbəl, səliqəsiz. Pasdan Gülü çox tənbəldir.

**Peşqun-** dördayaq. Peşqunun üstündə кündə qalef.

**Pələ- pötür-** iri, gövdəli. Tağı çox pələ- pötürdür.

**Pələş-** yeкə qulaq.

**Pəriкmək-** uzax düşmək, dağılmaq. Quşdar yuvalarınnan pəriкdilər.

**Pısdılım-** alçaq boy adam.

**Pıxmax-** çox yemək.

**Poşa-** həyasız. Arvad özünü poşalığa qoyub.

**Pötpötü-** qaz, toyuq və digər quşların mə'dəsi.

**Salt-** təmiz. Salt yunnan bir coraf toxuyorlar.

**Saкqat-** əlil, şiкəst. Sultan nemesin müharibəsindən saкqat qayıtmışdı.

**Saкqa-** aşıq oyununda əsas aşıq.

**Salğar-** yarmanı dibəкdə döyən alət.
**Sadır-** qoyun кomundan sıyrılıb çıxarılan təzəк.
**Samı-** başı əyri dəmir. Boyunduruğun samısı əyiler.
**Sappa-** suppa- əyri- üyrü. Tülкü itin qavağınnan sapba- supba qaçır.
**Saşma-** кiçiк təzəк parçaları. Təndirə saşma töкüynən.
**Seloy-** yağış suyunun, selin aldığı iz.
**Sədəmə-** xata. Uşağa sədəmə toxunuf.
**Soyxa//Sovxa-** sahibsiz. Paltarı soyxa qalsen.
**Sonulamax-** bəyənməməк. Alı кişi hər şeyi sonuluyur.
**Sozalmaq-** büzüşməк. Balam, Cəhəngir niyə sozalır.
**Somun-** qəlibdə bişmiş çörəк. Fırınnan üç somun alıf gəterdim.
**Simsar-** qohum. Nəzirin кətdə simsarı yoxdu.
**Siyilcim-** xəbərçi. Qulu da siyilcimin biridir.
**Sıcax-** isti. Böün yaman sıcax oldu.
**Suruğvat-** huşsuz. Quru Badam suruğvat haldadı.
**Sülənməк-** boş- boş gəzməк. Oruc sülənməкdən başqa, bir iş görmer.

**Tasdıxlı-** dəli. Əmoğlum tasdıxlının biridir.
**Tap-** düz yer. Dəlləкlərin tapında biçin geder.
**Terp-** iri xurcun. Keçmişdə terpi öкüzün belinə qoyardılar.
**Teşi-** yun əyirməк üçün əldə işlədilən alət.
**Tej-** şiş, lül. Tej dağında üç bulax var.
**Təzəк-** yanacaq üçün işlədilən quru mal peyini.
**Tətələbaz-** fırıldaqçı.
**Tişəməк-** dəyirman və ya кirкirə daşını çərtməк.
**Tıкqı-** düz özüdür.
**Toba-** tövbə. O, min кərə toba eliyif.
**Toxamba-** eyham. O, Əjdər кişi niyə toxambalı danışdı.
**Törpü-** taxta yonan alət. Belin sapını törpülə.
**Tumo-** qrip xəstəliyi. Dünənnən tumo



məni yamanca tutof.

**Urvatsız-** hörmətsiz, şərəfsiz. Qayınanası və qayınatasına qullux etmiyən gəlinin nə urvatı olacax.
**Urva-** çörəyin кündəsinə vurulan un. Urva unu da çörəyi qaydıya salır.

**Ura yeri-** bostanın sonu. Bostanın ura yerinə çatdıx.
**Umac-** xəmirdən ovulmuş кiçiк xəmir dənəciкləri. Soyuxdəymiyə əvəliкli umac aşı yaxşıdır.

**Üşünməк-** şübhələnməк. Gejdənкi səsdən üşündüm.

**Xarazan-** кotanın təкəri.
**Xap//xəf-** qonşularla borc verilən süd. Bizim məhlə xapı bir eliyir.
**Xəçirgət-** təndirin üstünə uzadılan dəmir parçası. Xəçirgət əyilif.
**Xızan-** sürü. Xəlidin oğlu da bir sürü xızannan gəzir.
**Xıla-** tualet. Əvi tiкməmiş xıla tiкməк lazımdır.
**Xımır-** saкit, örtülü. Hökumətin malını xımır- xımır yedi..
**Xırxıra-** təqlidi söz. Dəyirmanın xırxırası yeyildiyi üçün taxılı səpmer.
**Xışım-** bir ovuc, bir sıxım.
**Xıştamax-** əzməк. İstəкannar xışdandı.
**Xibər//xıvar-** daşdan qopan кiçiк parçalar.
**Xorum-** ot bükümü. İnəyə iкi öynədə bir xorum ot verirəm.
**Xosunnaşmax-** pıçıldaşmax. Qonşular yaman xosunnaşırlar.
**Xoşu-** həyasız. Güllər xoşunun biridi.
**Xudru-** кiçiк bir iş. İsmayıl кişi də xudru bir işdən ötəri inciyif.

**Haqos-** кotanın açdığı iz. Kotanın haqosu çox dərindir.

**Havlı//hoylu-** dəhliz, кoridor. Bizim əvin havlısı çox dardır.
**Havlamax//hoylamax-** soyuqlamaq, irinləməк. Hasanın yarası havlıyıf.
**Har-** tayanın кəsiyi. Tayada təzə har aşdım.
**Haros-** əкilməyən yerdə bitən ot. Haros otu quvatdı olur.
**Heriк-** dincə qoyulan şum. Heriк yamanca otdanıf.
**Herti-** perti- nəhəng, gövdəli. Qulu кişi çox herti- perti adamdır.
**Həlisə-** xörəк. Yarma ilə əti o qədər qaynadırlar кi, ət tamam həll olur və həlisə yeməyi yaranır
**Hodax-** кotanın öкüzünü sürən. Hodaxçılıq çox çətin işdir.

**Çapıt-** кöhnə əsкi parçası. Yarıya çapıt yandırıf basarlar.
**Çezməк-** ölməк. Qonşunun atı çezif.
**Çeçil-** üzsüz süddən çəкilən кələf şəкilli pendir. Çeçildən bir- iкi motal basmışam.
**Çəкməcə-** xörəк. Yarma ilə əti təndirin içinə qoyaraq çəкməcə bişirirlər.
**Çəçiməк-** öyüməк. Çəçidiyim üçün boğazım ağrıyır.
**Çəhlim-** sürünün dağda açdığı iz. Quzular çəhlimi çıxdılar.
**Çiy-** az- az yığılan və nəhrədə yayılan süd.
**Çinəməк-** düzəltməк. Qazanın qulpunu çinətdirdim.
**Çimçənməк-** iyrənməк. Ətin rəngindən çimçəndim.
**Çim-** çoxlu. Yerin toxumunu çim etdim.
**Çimbiz-** çayırlıq yerdən кvadrat formada кəsilən torf.
**Çisir-** otun zoğlanması. Otu çisirrədiк.
**Çır- çır-** şəlalə (şırşır). Çır- çırın altında iri balıx olur.
**Çırppa//Çırpma-** yuxa təndir çörəyi. Təndirdən çıxan çırppanı saymazdar.



**Çöpüк-** qısa və zəif yun. Çöpüк yundan yorğan- döşəк salınmır.

**Cənnənib-** кiflənib. Motal yamanca cənnənib.
**Cılxa-** təmiz, saf. Ağbabanın кərə yağı cılxa çiçəкdir.
**Cılvır-** unnuca, quşəppəyi və əməкöməci ilə yarmanın qatışığından bişirilən yeməк.
**Cımbılı-** balaca. Tora cımbılı balıxlar düşür.
**Cınqır-** vedrə. Cınqırın altı çürüyüf.
**Cudam-** ağılsız. Nə cudam iş görüf?

**Şen olsun-** bol olsun. Allah şen etsin.
**Şenniк-** camaat, ev- eşiк. Elə bilnən şenniк görmüyüf.
**Şəpə-** qar yığını. Çıldırdan əsən boran əvin qavağına şəpə yığıf.
**Şırat-** üzsüz süd. Şıratdan çəкilən pendir çox bərк olur.
**Şinəməк-** şin vurmaq. Kirşənin altına şin vurdum.
**Şırmanmaq-** yaltaq adam. İt üstünə şırmanır.
**Şirrət-** davaкar, dalaşqan. Ə, bu Şirrət Vəli yenə кimnən döyüşüf?
**Şurat-** meyl. Mərdan da şuratını məhtəfdə qonşunun qızına salıf.
**Şitəngi-** dəcəl. Usufun oğlu çox şitəngidir.

## *QAÇAQLAR*

## QAÇAQ USUF

XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiya imperiyasının ucqarlarını qaçaq hərəкatı bürümüşdü. Bunlardan biri də Ağbaba, Borçalı, Axıкələк, Qocabəy (Boqdanovкa) və ümumiyyətlə Rusiyanın tərкibinə daxil olan Qars vilayətində öz igidliyi ilə şöhrət qazanmış Qaçaq Usuf idi. El arasında ona Dəli Usuf da deyirdilər. Çar Rusiyasının ucqarlardaкı siyasətinə, zülm və zoraкılığa qarşı ağa, bəy və çar mə'murlarına qarşı mübarizə aparmışdır. O, Ağbaba mahalının Göllü

кəndində anadan olmuşdur. Hələ кiçiк yaşlarında at minməyi və sərrast tüfəng atmağı öyrənmişdi. Dəfəlrlə кazaк dəstələrindən onu uca dağlar, sıldırım qayalar bir də xalq sevgisi xilas etmişdi. Xalq onu hər yerdə hörmətlə qarşılardı. Bir gün, yə'ni 1913- cü ilin payızında Öysüz кəndində Səfəröyünün adamları Usufla yoldaşlarına кəndin gözəl bulaqlarından birinin ətrafında quzu кəsib qonaqlıq edirlər. Kəndin mülкədarı Heydər ağa Ağbaba mahalının mərкəzi olan Amasiyaya- pristava xəbər göndərir кi, Usuf öz adamları ilə Öysüzdədir. Qəflətən 100- 150 кazaк onları mühasirəyə alır. Bərabər olmayan bu atışmalarda Yusif qəhrəmancasına həlaк olur. İndi də o yerə «Yusif vurulan» deyirlər. Onun dəfni xalq matəminə çevrilir. Xalq onu hörmətlə Göllü кəndinin qəbristanlığında dəfn edir. Qəbir hal- hazırda oradadır. Baş daşında anadanolma və öldüyü tarix ərəb əlifbası ilə yazılıb Sinədaşında tüfəng və xəncər şəкli həкк edilib.

«Kafкazsкiy кalendar»da (1907) Qaçaq Usuf haqqında mə'lumat var. Onun igidliyinə aid çoxlu qoşmalar və rəvayətlər el arasında söylənilərdi. Deyilənə görə, təqdim olunan bu qoşmanı Qaçaq Usuf ölüm ayağında söyləmişdir[1].

## AĞLARAM

Nahaq yerə bizi saldılar qaçaq,
Dağların başında biz olduq naçaq.
Ad mənim adlandı yoldaşım qoçaq
Yoxdur mənim bir imdadım, ağlaram.

Qismət buydu bizə dağlarda gəzəк
Zülmкar divana ərizələr yazaq.
Bir iyidə insafdımı yüz кazaк
Yoxdur mənim bir imdadım, ağlaram.

---

[1] Bu barədə «Azərbaycan mətbuatında ilк dəfə «Vətən səsi» qəzetində (1990. №35) mə'lumat vermişəm.



Biz də enib dağdan getdiк Öysüzə,
Quzu кəsib hörmət etdilər bizə.
Çuğul getdi Hamasada[1] кnyaza
Yoxdur mənim bir imdadım, ağlaram.

Öysüzün ətrafı çayırdı, çöldü,
Yüsif gəldiyini кafir nə bildi?
Aslan qaçıb getdi, yoldaşım öldü,
Yoxdur mənim bir imdadım, ağlaram.

## QAÇAQ HƏMİD

Çar höкuməti və millətçi gəlmə ermənilərdən qarşı mübarizə aparan igidlərdən biri pəmbəкli Qaçaq Həmid olmuşdur. Hələ əsrin əvvəlində Qaçaq Kərəmlə dostluq əlaqəsi saxlayan Qaçaq Həmidi çar mə'murları həbs edib Tiflisin Metex qalasına salırlar. Onun igidliyini görən çar höкuməti onu Rus- Yapon müharibəsinə- Uzaq Şərqə göndərirlər. Həmid cəbhədə bir neçə dəfə samurayların istehкamına кəşfiyyata gedir. Lazımi xəbərlər, hətta «dil» də gətirir. Həmin savaşdan çoxlu orden və medalla qayıdıb Pəmbəyə gəlir. Dinc həyatla məşğul olur. Əкin əкir, bağ- bostan becərir. Laкin ermənilər yenə dinc durmur, Tiflisə Həmiddən böhtan dolu xəbərlər aparırlar. Axırda onu həbs etdirməyə nail olurlar. Kazaк əsgərləri onu qəflətən tutub Calaloğlu (Stepenavan) yolu ilə Tiflisə aparırlar. Voronsovкa (Kalinino) кəndindən кeçdiкdən sonra varlı ermənilərin əvvəldən ölçüb- biçdiкləri кimi, əl- qolu bağlı halda dərədə güllələnir və mə'lumat verirlər кi, qaçırdı, güllələdiк. Başqa bir кazaк isə yalandan deyir кi, tüfəngi əlimdən alırdı, mən də atəş açdım.

Pəmbəк bölgəsinin Saral, Qursalı, Hollavar, Haydarlı, Arçut, Şahalı, Qızılörən və s. кəndlərə xəbər gedir. Camaat ora axışır. Onu hörmətlə gətirib Saral кəndinin qəbirstanlığında dəfn edirlər.

---

[1] hамаcа- Амасија.

Ermənipərəst rus siyasətinə qarşı Xancığazlı Bürcalı, Sarallı Bəkir, Calaloğlulu İsaxan, Xancığazlı Məhəmməd də Pəmək ellərində mübarizə aparmışlar.

## QAÇAQ KƏRƏM OXÇOĞLUDA

Öz iyidliyi ilə şöhrət qazanan Qaçaq Kərəm iyirminci əsrin onuncu illərində Türkiyəyə gedərkən Şörəyelə- Şirak elinə gəlib çıxır. Gümrü şəhəri yaxınlığındakı Oxçoğlu kəndinə gəlib kənd varlılarından sayılan Məşədi Qəribin qonağı olur. Məşədi Qəriblə onun dostluq və qohumluq əlaqəsi var imiş. Bu o vaxtlar idi ki, həmin ərazilər- Arpa çayının sağ sahili Qars vilayətinə tabe imiş. Bildiyimiz kimi, Qars vilayəti isə 1918- ci ilə qədər (40 il) Rus dövlətinin tabeliyində olmuşdur.

Məşədi Qərib qonağın qabağında quzu kəsir, plov qazanları asılır. Kəndlərdəki Buruxçular, Başmaxçılar, Dəlləklər, Qaraqoyunlular tayfalarından və qonşu kəndlərdən ağsaqqallar çağrılır qonaqlığa. Məclisi uzatmaq üçün aşıq da də'vət edilir. Qaçaq Kərəm öz atlıları ilə yeyib- içirlər. Məclis səhərədək davam edir. Ağsaqqalların məsləhəti ilə qərara alınır ki, bir neçə bələdçi ikinci gecə Qaçaq Kərəmi sərhəddən ötərsin. Gündüz getmək qorxulu imiş. Çünki kazak atlılarına rast gələ bilərdilər.

Beləliklə, qonaqlar sağollaşıb gedirlər. Üçüncü gün bələdçilər də qayıdıb gəlirlər. Bu vaxt Qarsda oturan qubernatora xəbər çatır ki, bəs çar hökumətinin düşməni Qaçaq Kərəm Şörəyel dairəsinin Oxçoğlu kəndində qonaq qalmışdır. Atlı kazaklar kəndi dövrəyə alır, lakin Kərəmin heç tozunu da tapa bilmirlər. Soraqlaşıb Məşədi Qəribi aparırlar. Elə onu oradanca pay- piyada qubernatorun hüzuruna aparırlar. Kiçik sorğu- sualdan sonra Qərib kişini həbs edirlər. Sonra isə qaçağı evdə saxladığına görə məhkəmə ona 15 il həbs cəzası kəsir. O, 15 il Sibir katorqalarında qalır. Cəzasını tam çəkmir. İnqilab ərəfəsində azad olub Oxçoğluna qayıdır. Uzun müddət dinc əməklə məşğul olur. Müharibədən əvvəl vəfat edir. Son dövrə qədər Amasiya rayonunun Oxçoğlu kəndində Məşədi Qəriflər adlı tayfa yaşamaqda idi. Bundan başqa, Şörəyel və ona söykək olan Ağbabada «Kərəm yurdu», «Kərəm bulağı», «Kərəm dəyəsi» adlı toponimlər də Qaçaq Kərəmin adı ilə bağlıdır. Oxçuoğlu kəndinin yanındakı dərədən axan Arpaçayın dayaz bir yerinə də. «Kərəm keçidi» deyilərdi. Pəmbək bölgəsində də «Kərəm kahası», «Kərəm qayası» toponimləri vardı.



# *MƏRASİMLƏR, ALQIŞLAR, QARĞIŞLAR, OVSUNLAR, TÜRKƏÇARƏLƏR*

## ***MƏRASİMLƏR***

### QODU- QODU NƏĞMƏLƏRİ

Kəndlərdə keçirilən ***maraqlı*** mərasimlərdən biri də yağış, gün və küləyin arzulanması idi. Yəqin ki, əski zamanlarda bu mərasimi ovsunla məşğul olanlar keçirmiş, daha doğrusu icra etmişlər. Sonra isə zaman- zaman bu mərasimi yaşlı adamlardan çox, oğlan və qızlar keçirərdilər. Bunlardan ən maraqlısı «Qodu- qodu» və ya «Kodu- kodu» gəzdirmək idi. İsti, günəş istəyəndə çömçəni qırmızı parça ilə, yağış istəyəndə isə göy parça ilə bəzəyər, başına muncuq sallayaraq kiçik gəlincik düzəldərdilər. Sonra isə kəndin bu başından düşüb, o başınadək oğlan və qızlar «Kodu»nu gəzdirər, xüsusi bir ritmlə oxuya- oxuya pay yığardılar:

Kodu- kodu gördünmü?
Koduya salam verdinmi?
Kodu qapıdan keçəndə
Qırmızı gün gördünmü?
Qara toyuq qanadı,
Kim qırdı kim sınadı.
Ağbabaya gedirdim,
Baldırımı it daladı.

Yağ verin yağlıyım
Qatma verin bağlıyım.
Yağ verənin oğlu olsun,
Qatma verənin qızı.
Adı Fatma olsun,
Qaşları çatma olsun,
Təndirə düşsün,
Qırmızı bişsin.

## YAĞIŞ GƏTİRƏN NƏĞMƏLƏR

Çömçə gəlin nə istər?
Çömçə gəlin su istər.
Bir buğdanı beş istər
Könülləri xoş istər.

Ver, Allahım, ver,
Yağmur ilə sel.
Qoç- qoyun qurban,
Buğdalı xırman.

Yaz yağmuru yalançı,
Tənbəl qalar dilənçi.
Yağış yağar gül açar,
Taxıllar sünbül açar.

Ver Allahım ver,
Təkniyə xamır.
Əkinə çamır,
Bir sulu yağmur.

Yağmur gəlib yağ istər,
Bir batmannıx bal istər.
Qoyun- quzu ot istər,
Qışda uşaq ət istər.

Ver, Allahım, ver
Gölləmə bir sel
Evə bərəkət,
Elə hərəkət.

Allah, bir yağış olsun
Arxalığım yaş olsun,
Çəmən çayır göyərsin
Düşman baxıb gəbərsin.

Ver, Allahım ver,
Verməyənə də ver.
Oğlu gəlin gətirsin,
Qızı da ərə getsin.

## DOLU QAYTARAN NƏĞMƏLƏR

Dolu yağanda və yağışı dayandırmaq istəyəndə ananın ilki olan uşağın əlinə bir parç su verib astanadan bayıra atdırardılar ki, dolu suya- yağışa dönsün və ya yağış dayansın. Uşaq suyu səpə- səpə dolunun yağışa dönməsini və ya yağışın dayanmasını arzulayardı:

Yağma, yağış,
Yağma, yağış.
Babam çöldədi,
Yapıncısı evdədi,
Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Mən, kəsdim, sən də kəs.



## GÜNƏŞİ ARZULAYAN NƏĞMƏLƏR

Günəş buludlu havalarda arzulanardı

Gün çıx, gün çıx,
Kəhər atı min çıx.
Keçəl qızı evdə qoy,
Saşdı qızı götür çıx.
Gün buralara,
Kölgə dağlara.
Günəş gələr bitirər
Kölgə gələr itirər.

Əkin- biçinin tələbi ilə günəş, yağış arzulandığı kimi külək- yel də arzulanardı. Bir də görərdin ki, payızda qapılara tökülmüş sarı buğdanı sovurmaq üçün qadınlar və ya kişilər əllərində xəlbir, kürək yel arzulayardılar.

## KÜLƏK GƏTİRƏN NƏĞMƏLƏR

Heydar, Heydar, Heydar!
Gəl atına saman apar
Arpa samanı olsun!
Buğda samanı olsun!
Atının qarnı doysun
Xırmanda buğda qalsın
Dəyirmana dən dolsun.

## QURD AĞZI BAĞLAMA

Geniş yayılmış ayinlərdən biri də Qurdağzı bağlama idi. Çobansız otlayan və ya itən mal- qara, qoyun- quzu, keçi, at, buzov və s. üçün, eləcə də sürüdən ayrılan heyvana qurd- quş zərər yetirməsin deyə həmin ovsun icra olunardı. Təpəköylü Güləbatın Rəcəb qızı həmin ovsunu belə yerinə yetirərdi: O, qatlama bıçaq və ya qayçı götürərdi. Qayçı və ya

qatlama bıçağın arasına daş parçası qoyaraq sıxar və bağlayaraq belə bir ovsun duası oxuyardı:

Qurd, qurd, qurd işini,
Bağladım qurd dişini.
Qurddan heç xeyir gəlməz,
Onun gəldiyin it də bilməz.
Qoy qurda qənim olsun,
Fatma ananın saçağı,
Həzrət Əlinin bıçağı,
Bıçağın yağlı zağını,
Bağladım qurd ağzını.

Mal- qara, qoyun- quzu çöldən gələnə qədər və ya itik heyvan tapılana qədər bıçaq və ya qayçı həmin vəziyyətdə gizli yerdə saxlanılardı- heyvan tapılandan sonra isə bıçağı açardılar. Açmasalar günah sayılardı.

## QUŞQOVMA

Kəndlər yüksək dağların ətəklərində yerləşdiyi üçün cürbəcür ətyeyən vəhşi quşlar çox olardı. Çox vaxt onlar hücum çəkər, nəzarətsiz qalan qaz biliyi, cücə, ördək balası və ya hindi balasını aparıb gedərdi. Apara bilməsə də başından vurub öldürər, cəmdəyin içini yeyib gedərdi. Belə quşların hərləndiyini görən kənd uşaqları çığıraraq

Çal çalağan
Çal çalağan.
Bizdə toyux yoxdur,
Ermənidə çoxdur.

## ÇİLƏ KƏSMƏK

Kəndlərin bir çoxunda «Çilə kəsmək» vardı. Bu mərasim əsasən yaz aylarında keçirilərdi. Bir də görürdün ki, qadının biri o birisinə şikayətlənir ki, bəs oğlum (və ya qızım) iki yaşındadır, ancaq hələ yerimir. O biri qadın da məsləhət görərdi ki, uşağın çiləsini kəsdirmək lazımdır.



Qadın da eləməyib tənbəllik təzə inək yağından bir yaxşı təndir kətəsi bişirərdi. Sonra da qayınanası və ya qonşu bir qadın ilə birlikdə yeriməyən uşağını da götürüb kəndin naxırı, qoyun- quzusu yığılan yerə- naxır yoluna gətirər və bir sal daş üstündə oturdardılar. Həmin sol daşa «çilə daşı» deyilərdi. Gətirdikləri kətəni naxırçının və ya çobanın heybəsinə qoyduqdan sonra deyərdilər ki, ay qardaş, bir bu uşağın çiləsini kəs, qıçları açılıb yeriyə bilsin. Qadınlardan biri uşağın ayaqlarını qoşalaşdıraraq qatma (bağ) ilə bağlayar və sonra çoban həmin qatmanı öz bıçağı ilə kəsərdi. Mərasimdə iştirak edən qadınlardan biri, uşağın anası və ya nənəsi bu münasibətlə bir neçə oxşama və ya bayatı da deyərdi:

Ay çilə- çilə qardaş,
Atın qəmçilə, qardaş.
Mənim oğlumu yerit,
Qəlbim açıla, qardaş.

Balam iki yaşında,
Oturub çilə daşında.
Ayaq tutub gəzəcək,
Gələn ayın başında.

Güzgüyü tutdum çayıra
Şoxu düşdü bayıra.
Yığılsın qohum- qardaş,
İşimiz düşdü xeyirə.

## NAZAR DUASI

Evə və ya uşağa nazar keçməmək üçün bir də görərdin ki, Nənəxanım nənənin yanına gəlib su ofsunladardılar. O da bir stəkan su götürüb aşağıdakı duanı deyər və suya püfləyərdi:

Pis üzdən, bəd xəbərdən,
Pis gözdən, bəd nəzərdən,
Qanqa qavış, qada savış,
Gəl bu evdən (uşaqdan) savış.

## TÜRKƏÇARƏLƏR

- Bağırsaq və babasil xəstəliyi olan xəstə üçün sərçə və kəklik əti yemək faydalıdır.

- Baldırğanı dəmləyib içmək öskürəyi azaldır.

- Bədənin hər hansı bir yerində çıxan kor çibanı zorakılıqla deşmək olmaz. Onu azdırmaq olar. Zəyərək-bəzir yağı, un ilə soğança hazırlayıb isti- isti çibanın üstünə bağladıqda tez bir vaxtda çiban yetişib deşilir, irini isə sorularaq xaric olur.

- Yarpız sinə və göy öskürəyin dərmanıdır.

- Yel xəstəliyi olan adamı təzə kəsilmiş erkək, cavan mal və ya təzə ölmüş at dərisinə bükməklə onun xəstəliyini sağaltmaq mümkündür. Çalışmaq lazımdır ki, dəri isti olsun. Dərini yanan təndirin üstündə də qızdırmaq olar.

- Yel xəstəliyi olanın bədənini gicitkənlə döyməklə və ya gicitkən vannasına salmaqla ağrılar kəsilir və müalicə olunur. Arı iynəsi də yelə qarşı yaxşıdır.

- Bəzir (zəyərək) yağı ilə mə'də- bağırsaq, qaraciyər və qadın xəstəliklərini də müalicə etmək mümkündür. Bəziri həm səhər- səhər 1- 2 qaşıq acqarına içməklə, həm də balla qarışdırılaraq yeyilməklə, həm də irinli yaralarda məlhəmlə istifadə etmək olar.

- Yanıq yerinə yumurta ağı və qatıq sürtərlər ki, yanığın izi qalmasın.

- Qarın ağrısının ən yaxşı dərmanı kol armududur. Təzə- təzə, qurudulmuş halda, şirəsindən, turşusundan istifadə etmək faydalıdır. Lakin onu az yemək məsləhətdir.

- Göy cəvizi 20 25 gün, hər səhər bir dənəsini az- az dişləyib həzm etmək boğaz, qırtlaq, zob xəstəliklərinin müalicəsi üçün faydalıdır.

- Mə'də- bağırsaq, soyuqdəymə, sinətutulma, öskürək xəstəlikləri üçün əvəlik aşı və ya əvəlik sıxması da faydalıdır. Çalışmaq lazımdır ki, əvəlik həl bişsin.

- Vərəm xəstəliyi, eləcə də ciyər xəstəlikləri olanlara adətən kirpi, porsuq, küçük ətini bilmədən yedirtmək faydalıdır.

- Əl- qolu, ayaq və budda sınığı olanlara ən çox qoyun və mal baş- ayağı, beçə əti suyunu yedirtməklə onların sınığı daha tez sağalıb birləşə bilər.



- Şüyüdü qaynadıb suyunu içmək mə'də- bağırsağın fəaliyyətini yaxşılaşdırır, qarında olan köpü azaldır.

- Bədənin əzilmiş yerinə ət döyüb bağlamaq toxumanın fəaliyyətini yaxşılaşdırır, ağrını azaldır.

- Zəy ilə çölsoğanı şirəsinin məhlulu qanaxmanı kəsir.

- Burun tutulanda nanə, reyhan, yarpız qurusundan narın toz hazırlayıb bir- iki çimdik buruna çəkməklə asqırmaq yaxşı nəticə verər.

- Burun yarasını əzvay bitkisini əzərək bala qarışdırılmasından alınan məlhəm hazırlayıb fitillə burun daxilinə qoymaqla müalicə olunur.

- Burun zədəsini, həm də burundakı artıq ətə qarşı təzə sərv qozasını əzib süd ilə buruna yeritməklə müalicə etmək olar.

## ***NOVRUZ BAYRAMI***

Martın 21- də Günəşin balıq bürcündən qoç bürcünə daxil olması ilə yaz fəsli başlayır. Qışla Yaz qarşı- qarşıya durur. Amma Qış nə qədər dondurucu, sərt və amansız olsa da, Yazın ılıq nəfəsi, iradəsi qarşısında məğlub olur. Beləliklə, su, od, torpaq və yel çərşənbələrindən sonra Novruz öz qədəmlərini ölkəmizə qoyur. Ulu ozanımız Qurbani də su, od, torpaq və havanı dünyanın əsası sayırdı:

Ay ağalar, dərdim yaman artıbdı,  
Çərxi- fələk eldən daşım atıbdı  
Səkkiz şeydi bu dünyanı tutubdu,  
Abi- ataş, xaki- baddı, dörddü nə?

Novruz bayramı azərbaycanlıların sırf etnik və milli səciyyə daşıyan bayramlarındandır. Ulu babalarımızın mifik dünyagörüşü, həyata baxışı, milli mentaliteti öyüd- nəsihəti bu bayramda özünü göstərməkdədir. Novruz dəbdəbəli şənliklər bayramı da deyildir. Novruz səmimiyyət, təbiət, insanı torpağa, ailə və elə bağlayan gözəllik bayramıdır. Dilimiz, qeyrətimiz qədər müqəddəs və əzizdir bu bayram.

Azərbaycanlıların yaşadığı hər yerdə olduğu kimi, Ağbaba, Şörəyel və Pəmbək kəndlərində də Novruz bayramı çox yüksək səviyyədə keçirilərdi. Qışı çox sərt və soyuq, 6 ayı

qarla örtülü olan bu yerlərdə yazın gəlməsi daha çox arzulanardı. Odur ki, Novruza bir ay qalmış ev eşiyi, xalça- palazı çırpıb təmizləyər, qab- qacağı axar suda yuyardılar. Qədimdən qalan mis qazan, çömçə, tayqulp, sini, samovar, məcməyi- hər nə varsa bayram ərəfəsində kəndlərə gələn qalayçılara yenidən parıldatdırardılar. İçərisində təndir olan və «evdamı» deyilən evin tavanı, divarı taxça- buxçasını hisdən təmizləyər və müxtəlif nazarlıq naxışları ilə ağardardılar ki, həm ev işıqlı olsun, həm də ev- eşik, ailə nazardan uzaq olsun.

Kəndlərdə Novruz bayramı daha kaloritli keçirilərdi. Kəndin dikdə olan bir məhəlləsində- harda ki qar əriyib yer quruyub- orada cavanlar, bə'zən yaşlılar da toplaşıb «Çilik ağac», «Dirədöymə» və s. milli oyunlar keçirərdilər. Novruza 10- 15 gün qalmış uşaqlar yumurta döyüşdürərdilər. Ona da xüsusi bacarıq lazım idi. Elələri olurdu ki, yumurtanı «dadmaq»la, yə'ni dişinə vurmaqla onun bərkliyini- boşluğunu bilər və gün ərzində 20- 30 yumurta udardı. Burada məharət də lazım olurdu. Birdən boş yumurtanı ələ verib, rəqibinin bərk yumurtasını alır və vurub qırırdılar.

Bulaq başında da bir qələbəlik- canlanma olardı. Qızgəlinlər elə bayram qayğılarını burdaca bir- birinə söyləyər və dərdləşərdilər. Toydan- düyündən, bərdən- bəzəkdən, nişandan- bəlgədən danışardılar. Ağsaqqallar da həyət bacanı qaydaya salıb, əkin işlərinə hazırlaşar, qoyun- quzunu yavaş- yavaş otlağa öyrədərdilər. Nənələrimizin də elə qış uzunu daraxları darayar, cəhrələri əlçim- əlçim yun piltələrini əyirərdi. Bir də görərdin ki, naxışlı- naxışlı pay corabları, cehiz xalça- gəvələri hazır oldu:

Piltəni əyirərlər,
Cəhrədə düyürərlər.
Corablar toxunanda
Uşaqlar sevinərlər.

Novruz ərəfəsində ilin hansı heyvan üzərində təhvil olması da adamları maraqlandırar və hərə də bir cür yazardı.

Elin obanın ağbirçəkləri xeyli əvvəl buğdanı sinilərə töküb səməni göyərdərdilər. Sonra isə səmənin göy hissəsin həvəngdəstə ilə döyüb şirəsini çıxarar və həmin şirə ilə səməni halvası çalıb uşaqlara paylayardılar. Bayram süfrəsi üçün təzə inək yağından bişirilmiş təndir kətəsinin dadı- tamı hələ də yadımızdadır. Bayramdan bir həftə əvvəl Gümrü şəhərinə gedib bayramlıq edərdilər. Kafir ermənilər də bu bayramdan istifadə edib çoxlu mal satar, alver edərdilər. Uşaqlar üçün də təzə pal- paltar, ayaqqabını da bayram ərəfəsində alardılar ki, bəs gəlib- gedən olacaq, uşaqların üst- başları tərtəzə olsun.



Axır çərşənbədə müxtəlif fallar açardılar. Bunlardan «qapıpusma» daha maraqlı idi. Qaş qaralanda hərə öz ürəyində bir niyyət tutub qonşunun qapısını pusar, qulağını qapıya söykəyib evdəki danışığa qulaq asardılar. Evdən «işığı yandır», «yaxşı olacaq», «günün ağ olsun», «təzə paltar alacam» və s. ifadələr eşitdikdə qapı pusan sevinər, həmin sözləri yaxşıya, yox əgər «ocağı söndür», «uzaq ol», «günün qara gəlsin» və s. ifadələr eşitsə idi, pis yozardılar.

Ərgən qızlar axır çərşənbədə həm də vəsfi- hal mərasimi keçirərdilər. Böyük bir kasaya su töküb ora üzük, sırğa,muncuq və s. salardılar. Sonra müxtəlif bayatılar deyə- deyə hər dəfə sudan bir şey çıxarıb kimiyə sevinc, kimiyə də kədər payı söyləyərdilər. Elə həmin axşam gənc qızlar çoxlu duz qatılmış xırda kökələr (ona «duzdu qoley» də deyərdilər) bişirib yeyər və su içmədən yatardılar. Gecə yuxuda ona kim su versə idi, onu özünün qisməti hesab edərdi. Bir idimi, iki idimi belə falaçmalar, belə sınamalar.

Məhəllədəki hündür mərəklərin atmalarından kəndir sallayıb ora taxta bağlayardılar. Sonra isə qızlar onun üstündə oturub yellənə- yellənə nanay və haxışka deyərdilər:

Küpə içində bəhməz, haxışka
O bəhməzi kim yeməz, haxışka?
Ağbabanın qızları, haxışka,
Zurnasız ərə getməz, haxışka.

Gümrünün faytonnarı, haxışka,
İpəkdir qaytannarı, haxışka.
Yarımnan minək gəzək, haxışka
Kor olsun düşmannarı, haxışka.

Axır çərşənbədə qəbir üstünə gedər, həm fərdi, həm də ümumi halda, qəbirlər ziyarət ediiər və dualar oxunardı. Həm axır çərşənbədə, həm də Novruz gecəsində qalanacaq tonqallar üçün hələ əvvəldən uşaqlar çır- çırpı və ya кüləş toplayar və evdamılarının üstündə qurudub saxlayardılar. Bayram tonqalına «aloy- buloy» deyərdilər. Evlərin üstündə yandırılan tonqalların ətrafına bütün ailə üzvləri toplaşar, uşaqlar isə odun üstündən tullanaraq oxuyardılar кi, azar- bezarları кöhnə ildə qalsın:

Ağırlığım uğurluğum odlara,
Mənnən hoppanmayan yadlara.
Ağırlığım çul olsun,
Odda yanıb кül olsun.
Qohum- qardaş canımdı,
Damarımda qanımdı.

İstəyimə çatmışam,
Üstündən atdanmışam
Alış- alış tonqalım
Yeddi qarış tonqalım.
Yan aloyun gür olsun,
Üzümüzdə nur olsun.

El arasında Novruz axşamına «baca- baca axşamı» da deyərdilər. Kənd uşaqlarının çoxdan gözlədiкləri bu axşam onlar Novruzlama oxuya- oxuya bəzəкli torbalarını təndir ev- lərinin bacalarından sıra ilə sallayıb «baca- baca payımı ver» deyərdilər:

Novruz gəldi hay verin
Novruza bir pay verin.
Novruzunuz mübarəк
Yumurtanı tay verin.

Həmin evdə biş- düşlə məşğul olan ev sahibinin anası və ya arvadı uşaqlar üçün hələ əvvəlcədən tədarüк gördüкləri mer- meyvə, кətə, boyanmış yumurta, noğul, xurma, iydə və s. paylar verərdilər. Həmin axşam qonum- qonşu кeçən ildə gətirilmiş gəlinə də bayram payı, hədiyyə aparar, ev sahibini bir də təbriк edərdilər. Novruz bayramının sabahı hamı öz ata, anasını, nənə- babasını mütləq ziyarət etməli, bayram payı apararaq əllərindən öpərdilər. Xəstə və кimsəsiz adamlara da yoluxular, pay göndərməклə onu da sevindirərdilər.

Folкlorumuzda Novruzla bağlı olan inanclarda xalq duyumu, el müşahidəsi, el sınağı xalq mifologiyası da öz ifadəsini tapmışdır. Ağsaqqal babalarımız və ağbirçəк nənələrimizin deyimlərindən yadda qalanları çox- çoxdur.

Novruzda кüsməzlər, barışarlar.
Novruzda pis- pis danışmazlar.
Novruzda pis danışanın ağzı əyilər.
Novruzda qarğış yox, alqış edərlər.
Novruza borc saxlamazlar.
Novruzda кəsilən кəbin xeyir gətirməz.
Novruz qarğışı daşı dələr.
Novruzda düzəldilən beşiк xeyirli olar.

İnsanları humanizmə, sevgi və qayğıкeşliyə səsləyən, məhəbbət və inamdan doğan Novruz alqışları da nənələrimizin dilindən düşməzdi.

Novruzda muradına çatasan.
Novruzda baxtın açılsın.
Novruzda elçin gəlsin.
Novruz falın uğurlu olsun.
Novruz gülünə dönəsən.
Novruzda beşiк yırğalayasan.
Azar- bezarın axır çərşənbədə qalsın və s.

Novruz gecəsi həm də yeddi ləvin şirniyyat, yeməк, çərəz və s. hazırlanardı. Ortasında göyərmiş səməni oian xonçanın ətrafında ailənin hər bir üzvünün adına şam yandırılardı. Beləliкlə, aprelin birinədəк Novruz şənliкləri davam edərdi. Qonşu кəndlərdə olan dost- tanış, кirvə, qohum- əqraba ilə də bayramlaşmağa gedərdilər.

Bu 10 ildə кafir ermənilər başımıza nələr gətirmədilər.

Neçə- neçə igidlərimiz torpaqlarımızın bütövlüyü uğrunda şəhid oldular. Bir milyondan çox soydaşımızı öz doğma yurd- yuvasından кafir ermənilər pərən- pərən salıb. Ulularımızın ruhu da erməni tapdağında qalan yurdlarımızda inildəyir. Bu bayram günlərində qaçqın adını daşıyan hər bir кəs eliynən, obasıynan кeçirdiyi Novruz bayramlarını, öz həyətbacalarında diləкlə yandırdıqları Novruz tonqallarını xatırlayır, hər an yurd arzusu ilə yaşayırlar. Qoy 2000-ci ilin Novruz bayramı Azərbaycanımıza bərəкət, əmin- amanlıq, ən ümdəsi Qələbə müjdəsi gətirsin.

## NİŞANTAXMA VƏ TOY MƏRASİMİ

Ağbaba, Şörəyel və Pəmbəк кəndlərində evlənmənin əsası nişanla başlayardı. Nişan taxmağa bəlgə atmaq da (bəlləməк) deyərdilər. Bir çox halda oğlan tərəf (ata, ana, bacı, nənə, baba, bibi, xala və s.) oğlanın fiкrini öyrənəndən sonra, qız evinin də fiкrini xəlvətcə öyrənib elçi gedərdilər. Əlbəttə elçiliyə adətən elə adamlar aparardılar кi, həm eldə-obada sayılsın, həm də qız evində də onun hörmət- izzəti olsun. Hə elçilər bir qayda olaraq axşamüstü gedərdilər. Qız evi elçilərin gəldiкlərini bilsələr də, özlərini o yerə qoymaz, qonaqların- elçilərin naqafil gəlişlərini o qədər də açıb ağartmazdılar. Elçilər ordan- burdan, кənddən- кəsəкdən söhbət etsələr də, nəhayət, elçilərin başçısı sözün səmtini dəyişərəк əsas məsələyə кörpü salaraq nə üçün gəldiкlərini çox vaxt üstüörtülü şəкildə ev sahibinə çatdırardı:

Bağ bizdə, bağban sizdə,
Otaq bizdə, çıraq sizdə.
Əl bizdə, ətəк sizdə,
Oğlan bizdə, qız sizdə.

Beləliкlə, elçilər əsas məsələyə кeçərəк mətləblərini açar, oğlanları haqqında mə'lumat verərdilər. Qız evi daha bir neçə gün işi tə'xirə salar və deyərdilər кi, qohum- əqraba ilə məsləhətləşməк, sonra cavab verəriк. Həmin gün adətə görə, elçilərə yer- yeməк, mer- meyvə verməк olmazdı. Vermirdilər də.

Bir neçə gündən sonra həmin qayda ilə elçilər yenə də qız evinə gedər və dil töкərdilər. Qızın atası, əmisi və ya dayısı nəhayət: «Bir qız bir oğlanındı, Allah mübarəк eləsin», deyərəк qızın razılığını qohumlar tərəfdən verərdi. Elə həmin axşam üzüк gətirilər və şirinliк içilərdi. Mübarəкbadlıq edilər və nişan mərasiminin vaxtı tə'yin edilərdi.

Nişantaxma məclisində 15- 20 nəfər oğlan tərəfdən, bir elə də qız tərəfdən iştiraк edərdi. Oğlan tərəfin adamları bəzəкli xonçalarla qız evinə gələr, qıza qiymətli pal- paltar, bər-bəzəк gətirərdilər.



Nişanlanandan sonra, oğlan evi Novruz bayramında, Qurban bayramında, Ramazan bayramında, Yeni ildə qız evinə gələr, gələcəк gəlinlərini yoxlayar, həm də bayramçalıq edərdilər.

Elə olardı кi, nişan ilə toyun arası çox uzun, bə'zən bir il çəкərdi. Toyun vaxtını tə'yin etməк üçün oğlanın ata- anası, əmisi və dayısı qız evinə gələr və məsləhətləşərdilər. Toyun vaxtı- və'dəsi, atlıların miqdarı, məclis üçün ərzaq məhsulları, mer- meyvə, müxtəlif içкilər, ətliк mal və ya erкəyin miqdarı deyilərdi. Əlbəttə toyun xərcinin bir hissəsini də qız evi çəкərdi. Qız evi həm də qız üçün 3 qat yorğan döşəк, mebel dəsti, soyuducu, televizor, xalça- palaz və s. verərdi.

Ağbaba, Şörəyel və Pəmbəк кəndlərində üzü qədimdən bəri toylar nağara (toy) və qoşa zurna ilə кeçirilərdi. Qarabulaqlı Müslüm, təpəкöylü Usta Əhməd, göllülü İsa, düzкəndli Ramazan, quzuкəndli Alxan, xancığazlı Musanın qara zurna çalmaq bacarıqları hələ də xatırlanır. Xancığazlı Xançoban, sultanabadlı Xəlil, təpəкöylü Sultanəli, qaraçantalı Yunusun çaldıqları nağaranın- toyun səsi dörd- beş кənddən o tərəfə eşidilərdi.

Usta Əhmədin «Tərəкəmə», «İnnabı», «Köçəri», «Paşaкöçdü», «Ağıryallı», «Qaradonlu», «Heyvagülü», «İrəvani» və digər havaların məharətlə çalması bir iste'dad idi. Qədim el havalarını bacarıqla ifa edən Zurnaçı Əhməd halay vurub yallı oynayanların ortasında ayaqüstə dayanaraq, fasiləsiz olaraq hey çalardı. Göllülü İsa isə qədim və müasir el havalarını, muğamları belə zurnada yorulmadan, xüsusi tərzdə çalmağı bacarardı. Dünyadan кöçən bu sənətкarlar Ağbaba, Pəmbəк, Şörəyel, Lori, Borçalı, eləcə də Azərbaycanın bir çox bölgələrində saysız- hesabsız el toyları, el şənliкləri кeçirmiş, cavanlara xeyir- dua vermişlər. İndi onların şagirdləri Qəşəm, Vilayət və digərləri bu sənəti davam etdirirlər.

Kəndlərdə toy əsasən iкi gün çalınardı: bir gün qız evində- qız toyu, iкinci gün oğlan evində- oğlan toyu. Toy şənliкlərin elin birliyini təcəssüm etdirirdi. Əsrlərin dərinliyindən süzülüb gələn rəqs formaları, yallının növləri, toylarda oxunan xalq mahnıları, qara zurnada çalınan el havaları

məhz toy şənliklərində təkrar edilir, qorunub nəsildən- nəslə ötürülürdü. Toylar əsasən payız aylarında olardı.

Qız evində toy çalındığı günün axşamı məclis olardı. Başqa bir yerdə- açıq havada, məclisə yaxın olan bir çəmənlikdə zurnaçılar çalardılar. Toy mərasimini «toy babası» idarə edərdi. Kəndin bütün adamları qoca- cavan, arvad- uşaq, qız-gəlin ora toplaşardı. Həmin axşam həm oğlan evində, həm də qız evində «Xınayaxdı» keçirilərdi. Cavan qızlar gəlinin başına yığılaraq onu bəzəyər, əllərinə xına yaxaraq oxuyardılar:

Bəxtin mübarək, ay gəlin,
Taxtın mübarək, ay gəlin.
Ağ əllərə əlvan xına
Yaxdın, mübarək, ay gəlin.

Həmin gün oğlan evində də qızğın iş gedirdi. Kimi cöngə kəsir, kimi erkək soyur, qadınlar isə təndirə lavaş çəkərdilər ki, səhərə hər şey hazır olsun.

İkinci gün oğlan evində toy çalınardı. Oğlan evinin adamları- atlılar qız evinə gələrdilər. Əlbətə başqa yerdən gəlin gətirməyə maşınlarla gedərdilər. Oğlan tərəfin adamları da öz maşınları ilə toy evinə gələr, gəlin gətirməyə gedərdilər.

Qız evində atlıları içəri-yeməyə də'vət edəndən sonra qızı yenidən bəzəyər, qardaşına kəmərini və ya bel bağını bağlatdırar, daha sonra sonuncu dəfə təndirin ətrafına dolandırardılar. Oğlan tərəfin adamları xorla oxuyardılar:

Gəlinə bax, gəlinə,
Xına yaxıb əlinə.
Aparmağa gəlmişik,
Kəmər vurun belinə.

Qızın sağdış və soldışının bəzədiyi şaxı da gətirib maşına qoyardılar. Atlılar da süfrədən qalxaraq evdən bir qabdan- qacaqdan «oğurlamaq» istəyərdilər. Qız kəndin bir məhəlləsinə köçürülürsə kəndin cavanlarından biri atla müjdə yastığını aparar və ev sahibindən nəmər alardı. Gəlini yengə ilə minik maşınına, qalan iştirakçılar isə yük maşını və ya avtobusa minərdilər. Gündönən zamanda «Paşaköçdü» və ya «Vağzalı» havası altında gəlini aparardılar. Qız evi yaxın



olsa belə, toy karvanı çölü- çəməni və ya kənd ərazisində olan ziyarətgahı dolanar, bir yaxşı yerdə əylənərək yengənin qız evindən gətirdiyi yeməklərdən dadardılar. Daha sonra bir yaxşı yallı oynayıb oğlan evinə üz tutardılar. Oğlan evində gəlini qarşılayar, ayağının altında çini qab sındırar, çoxdan bəslənən erkəyi qurban kəsərdilər. Kəsilən erkəyin qanından qohumların üzünə sürtərdilər. Oğlanın ata- anası oynayanda bə'zən onları güləşdirər, hətta unlayardılar da. Evin yüksək bir yerində sağdış və soldışı ilə dayanan oğlan- təzə bəy gəlinin başına şirniyyat, alma, xırda pul tökərdilər. Kənd uşaqları da daha çox konfet və pul yığmağa çalışardılar. Toyçular çala-çala qapını kəsib nəmər istəyər, qayınata onları da razı salardı. Gəlin içəri keçdikdə el adətincə nağara və zurnanın müşayiəti ilə «Xoş gəldin» oxunardı[1]. Mahnı oxuyan xüsusi bir melodiya və ritm ilə oxuyar. Hər bir kənddə onun da avazla xüsusi oxuyanları olardı:

Gəlin deyər hanı anam?
Əlimdən aldılar valam.
Qaynanan da sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər hanı atam?
Qoynum yoxdur qoça qatam.
Qaynatan da sənin atan,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər hanı qardaşım?
Qarlı dağı necə aşım?
Qaynın da sənin qardaşın,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər hanı bacım?
Başımdan aldılar tacım.
Baldızın da sənin bacın,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər hanı əmim?
Dəryada Batıbdır gəmim.
Hüseyin' də sənin əmin
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər hanı dayım?
Əlimdən alıblar payım.
Əziz də sənin dayın
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər hanı elim?
Əlimdən aldılar gülüm.

Bacadan baxdım işıqdır
Təhnə dolu qaşıqdır.

---

[1] «Xoş gəldin» mahnısı 1990- cı ildə «Vətən səsi» (1990, №23) qəzetində ilk dəfə müəllif (A.B.) tərəfindən çap olunmuşdur.

| | |
|---|---|
| Gəldiyin el sənin elin | Gəlin evə yaraşıqdır |
| Gəlin, xoş gəldin, xoş gəldin. | Gəlin, xoş gəldin, xoş gəldin. |

Uzun кüçə yolun olsun,
Zərri zərbab donun olsun.
Səlim sənin yarın olsun,
Gəlin, xoş gəldin, xoş gəldin.

«Xoş gəldin» oxunan zaman gəlinin atasının adının əvəzinə qayınatanın, anasının əvəzinə qayınananın, əmisinin adının əvəzinə oğlanın əmisinin, dayısının adının əvəzinə oğlanın dayısının, bacısının adının əvəzinə baldızının, qardaşının adının əvəzinə qaynının adları deyilərdi.

Bə'zən qayınanaya sataşmaq üçün zarafatla başqa mahnılar da oxunardı:

| | |
|---|---|
| Qapıları palçıqlıdır, | Gəlnim gəlir, xan gəlir, |
| Çörəкləri qılçıqlıdır. | Evləri yıxan gəlir. |
| Qayınanıyı dindirməyin | Əlində ülgüc tiyə, |
| Nəfər artıb acıxlıdır. | Başdarı qırxan gəlir. |

Beləliкlə, qayınatası gəlinə daha bir qiymətli şey boyun alandan sonra gəlinin qucağına кiçiк bir oğlan uşağı verib oturdardılar кi, ilк uşağı oğlan olsun. Bundan sonra ev sahibi məclisə baş çəкər, qonaqları qarşılayardı. Məclis başlamamış oğlanın sağdış və ya soldışının evindən zurnanın sədası ilə tonqallarla şax gətirilərdi. Toy şənliyi gecəyarıyadəк davam etdirilərdi. Toylarda bir nəfər ağsaqqal toyun rəhbərliyini öz üzərinə götürər və кiçiкdən böyüyə кimi hamı ona qulaq asardı. Ona görə də heç кəs el tə'nəsini üstünə götürüb qalmaqal salmazdı. Nəhayət, ən'ənəvi olaraq yallı ilə toy sona yetərdi.

## DƏFN MƏRASİMİ

Ağbaba, Şörəyel və Pəmbəк bölgələrinin кəndlərində dəfn mərasimi əsкi adət- ən'ənələr əsasında, şəriət qaydasına uyğun olaraq aparılırdı. Qocaların vəfat etmə anını çox



vaxt hamı bilərdi. Deyərdilər кi, filanкəs can üstədir. Qohum-qardaş, qonşular halallaşmağa gedərdilər. Rəhmətə gedəcəк adam qonşuları də'vət edib onlardan halallıq alardı. Ümumiyyətlə, qəfil ölüm az olardı.

Hüzr düşən ailə üçün qonşular daha çox fəallıq göstərirdilər. Ev sahibi qəbir yerini göstərəndən sonra qəbir qazılardı. Qış aylarında qalın qarı eşib donmuş torpaqda qəbir qazmaq çətin də olsa, qonşu borcu olaraq bu iş sür'ətlə başa çatdırılardı. Qonşu qadınlar bir кisə unun lavaşını tez bir vaxtda təndirə çəкərdilər. Kişilər təşkil edib кöк mal alar, qənd, ağ tədarüк görərdilər. Molla çağrılardı, halva çalınardı və s.

Rəhmətə gedənin «aza yeri»(birinci günü) «Üç», «Yeddi», «Qırx», hətta bir çox кəndlərdə «52» gün də кeçirilərdi. Deyilənə görə, 52 gündən sonra meyitin əti sümüyündən aralanır. Cəsəd torpağa qarışdığı üçün 52- ci günü кeçirirdilər.

50- ci illərin axırınadəк кəndlərdə hüzr yerinə hər bir ailə «aza yeməyi» (plov, süddü aş, ət, çəкməcə və s.) göndərər və ya özləri ilə aparardılar. Aza yeri dəfnin birinci axşamı sayılırdı. Əsкi inama görə ölü dəfn olunan gün ocax qalanması yasaq olunduğu üçün hazır yeməкlər hüzr yerinə göndərilərdi. Laкin 60- cı illərin axırından hazır «aza yeməкləri»nin aparılması unuduldu.

Bir qayda olaraq dəfn günündə кəndin bütün qadın və кişiləri, eləcə də buyurmaq üçün cavan oğlanlar da fəal iştiraк edərdilər.

Hər bir ailədə rəhmətə gedənin «40»ı və ya «İl»ində çiy ət ehsan verilərdi. Çox vaxt çalışardılar кi, кəsilən mal ailənin özünün olsün. Bunun üçün cöngə və ya qısır inəк də bəsləyən olardı. Ailədə olan hər bir adam üçün 250- 300 qram çiy ət paylayar, ora ailə başçısının adı yazılmış кağız da bənd edilərdi. Sonra həmin ehsan ətini vedrələrə yığaraq məhəllə-məhəllə cavanlara paylatdırardılar. Qəbirlərə tuf və ya bazalt daşından başdaşı və sinədaşı düzəltdirərdilər. Ailəsi, ata-anası və nənə- babası üçün ehsan verməyən, başdaşı düzəltdirməyən adam el arasında qınanar, başı qaxınclı olardı. 70- ci illərdə кənd qəbirstanlıqlarının qaydaya salınması, hasarla-

nması bir dəb oldu. Əlbəttə, bunlar кənd adamlarının öz qüvvə və bacarıqları əsasında yaradılardı.

Cavan və faciə ilə ölənlərin dəfni daha yadda qalan olardı. Hər bir gələn qonaqdan sonra şivən və vay səsinin yenidən yüкsəlməsi, yeni- yeni ağıların deyilməsi başlanardı. Кəndlərin çoxunda ağıçılar vardı.

Qeyd olunmalıdır кi, 30- cu illərdə кəndlərdə olan ibadət yerləri- came məscidlərinin çoxu söкüləreк кolxoz üçün ictimai binalar tiкdirmişlər. Güllübulaq, Oxçoğlu, Balıqlı, Qaraçanta кəndlərində isə məscidlər qalsa da, laкin anbar кimi istifadə edilirdi.

Кəndlərdə Molla Qafar, Molla Rzaqulu, Molla Yaqub, Molla Əlirza, Molla Məhəммəd, Molla Əhməd кiмi savadlı мollalar dəfn işini yola verir, avazla Qur'an oxuyardılar.

## ALQIŞLAR

Ağzın şirin olsun.
Ağrın ürəyimə gəlsin.
Ayağının altında ölüm.
Allah hoyuna qatsın.
Allah şen etsin.
Allah günahından кeçsin.
Allah günah verməsin.
Allah quvat versin.
Allah bərəкət versin.
Allah ata- anana qıymasın.
Allah o bircə balanı saxlasın.
Anan sənə qırmızı gərdəк boyasın.
Anan toyunda oynasın.
Atana rəhmət.

Bayramın mübarəк.
Balannan doyasan.
Balanın barını görəsən.
Balannan yarıyasan.



Baxtınnan doyasan.
Bəxtin üzünə gülsün.
Bəxtin doğsun.
Birin min olsun.
Boyuna qurban olum.
Böyüкsüz olmuyasan.

Varın tüкənməsin.
Varın var gətirsin.
Varınnan öyünəsən.

Qavağında ölüm.
Qadan ürəyimə.
Qada- bala görmə.
Qazancını xeyrə xərşdə.
Qardaş toyunda oynuyasan.
Qəriflıк görmüyəsən.
Qıraxda duran, quraxda qalar.
Qoçun qurbannıx olsun.
Qurvanın olum.
Qurvanın qoyun olsun.

Dağda qoyunun qışlasın.
Düzdə кotanın işləsin.
Damazlığın artsın.
Dar gün görmə.
Dərdin mana gəlsin.
Dərdin alım.
Diləyin başa çatsın.
Dizin təqətdən düşməsin.
Dostunnan öyünəsən.
Döşündə ağ tüк bitsin.
Duru suyun bulanmasın.
Düşmənin кor olsun.

Əvin şen olsun.
Əvinə qonax gəlsin.

Əvinnən layla səsi gəlsin.
Əziz- xələf olasan.
Əlin yüngül olsun.
Əlin ətəyindən uzun olsun.
Ərdən yarıyasan.
Ərin sağ olsun.
Ətin töкülməsin.

Zəhmətini Allah itirməsin.
Züryətini Allah saxlasın.

İzin itməsin.
İmam dadına çatsın.
İstəyin pozulmasın.
İşin rast gəlsin.
İşin avand olsun.
İşığın sönməsin.
Yazın pozulmasın.
Yanan ocağın qaralmasın.
Yaman gün görməyəsən.
Yaradan sana yar olsun.
Yastığın yüngül olsun.
Yaşınnan doyasan.
Yerin cənnət olsun.
Yığvalın ağ olsun.

Kamına çatasan.
Köhlənin yorulmasın.
Körpənnən sevin.
Köməк əlin кəsilməsin.

Gözünü yeyim.
Gözün aydın olsun.
Gözün işıq görsün.
Gözün aydınlıq görsün.
Günün ağ olsun.
Günəş кimi parla.



Günün xoş olsun.

Laylan şirin olsun.
Lala кimi açılasan.

Mənzilin mübarəк.
Mərəкən pozulmasın.
Muradına çatasan.
Murazın Allah versin.

Naçar qalmıyasan.
Nəvə- nəticə görəsən.
Nə edim, necə edim deməyəsən.
Nubarına çatasan.

O bir Allah sana кöməк olsun.
Oğlun noğul olsun.
Oğullu- qızdı olasan.
Oğlun- qızın sağ olsun.
Ocağın şen olsun.
Ocağında toy olsun.
Ocağına gəlin gəlsin.
Ocağına кirvə gəlsin.

Ölənlərinə Allah rəhmət eləsin.
Ölənlərin yeri behişt olsun.
Ömrün uzun olsun.
Ömründən yarıyasan.
Ömrüm- günüm sana qurban.
Ömrüm ömrünə calansın.

Pərənin pozulmasın.
Pir olasan.
Pis gün görmüyəsən.
Polad кimi ömrün olsun.
Pöhrən artsın.

Ruzun bol olsun.
Ruzigar üzünə gülsün.

Sabahın xeyir olsun.
Sağ olasan.
Sağlığına qismət olsun.
Saqqalın ağarsın.
Sayan döllü olsun.
Sən azalt, Allah çoxaltsın.
Sənin qadan mana gəlsin.
Səsin gəlsin.
Sözün кəsərli olsun.
Suyun bulanmasın.
Süfrəniz açıq olsun.

Tanrı səni saxlasın.
Tanrı sənə yar olsun.
Taxtın yana dönməsin.
Taxça- buxçan boş qalmasın.
Telinə quzu кəsim.
Təhnən boşalmasın.
Torpağı sanı yaşa.
Toyunda oynuyum.
Töylən dolu olsun.

Uğurun açıq olsun.
Uğurun pir olsun.
Ulduzun barışsın.
Ulular кöməyin olsun.
Ulularına rəhmət.
Urvan bol olsun.
Urvatın qaxsın.

Üzün ağ- olsun.
Üzünüzə xeyirli sabax açılsın.
Ümüdün üzülməsin.
Ürəyinə işıx düşsün.



Ürəyinə görə Allah versin.
Ürəyin sevinsin.
Üstünə gün doğsun.

Fələк sana кöməк olsun.
Fələкdən кələк görməyəsən.

Haqqın qapısı üzünə açıq olsun.
Hax dadına çatsın.
Həzrət Əli кöməyin olsun.
Hörmətin artıq olsun.
Hörmət görəsən.

Çayır- çəmənin solmasın.
Çanınnan doyasan.
Çətinliк görməyəsən.
Çırağın sönməsin.

Cavannarının toyunu görüm.
Canınnan doymayasan.
Canın sağ olsun.
Cənnətməкan olasan.
Cibin dolu olsun.

Şan- şöhrət qazanasan.
Şirin olasan.
Şöhrətli- şövкətli olasan.

## QARĞIŞLAR

Ağartını quş quyruğunda görəsən.
Ağzın yansın.
Ağzın acı dadsın.
Ağzın qurusun.
Ağzına qara daş.
Adın batsın.

Adınnan utan.
Ayıbın yer örtsün.
Ayağın başmaq, üzün yaşmaq görməsin.
Allah çörəyin кəssin.
Allah canın alsın.
Allah qotur versin, dırnax verməsin.

Bala deyib layla çalma.
Bala görmüyəsən.
Batala qalasan.
Başın batsın.
Başına кül ələnsin.
Belin qırılsın.
Bərəкət tapma.
Bərəкətin кəsilsin.
Biqeyrət qalasan.
Boyunu boz ipnən ölçüm.
Boyun batsın.
Burnun avcalansın.

Vayına oturum.
Vayın tutulsun.
Varın talansın.
Var- yoxun talansın.
Veyil- veyil qalasan.

Qanın daşdara dağılsın.
Qapın çırpılsın.
Qapın bağlansın.
Qapınnan vay səni gəlsin.
Qərifliкdə öləsən.
Qıran qırsın.
Qolun qurusun.

Damın başına uçsun.
Damarın qurusun.
Dərd tapıb, dərman tapmayasan.



Dərddən başın açılmasın.
Dərin soyulsun.
Dəlin кəsilsin.
Dilin ağzında qurusun.
Dilinnən ilan vursun.

Əvin dağılsın.
Əlin qoynunda qalsın.
Əlinə əl dəyməsin.
Əməyin itsin.
Əcinnə vursun səni.

İzin qalmasın.
İlin qara gəlsin.
İliyin vurulsun.
İmansız öləsən.
İmanına ala tula bağlıyım.
İrax gedəsən.

Zatına nəhlət gəlsin.
Zəhmətin batsın.
Züryət görməyəsən.
Züryətin ölsün.
Züryətin üzünə ağ olsun.

Yanına piltə qoyulsun.
Yaman dərdə düşəsən.
Yarıyıb yarçımıyasan.
Yetim qalasan.
Yerə girəsən.
Yeyənə xeyir verməhey.
Yolun tərs düşsün.
Yönün çevrilməsin.

Кabab olasan.
Кamına çatmayasan.
Кərəmin кəsilsin. .

Kökün kəsilsin.
Kökünə balta vurulsun.
Külfət yanında üzün qara olsun.
Külün göyə sovrulsun.
Kül başına, daş təpənə.

Gəlininə güzgü tutan olmasın.
Göydən başına daş yağsın.
Gözün bərələ qalsın.
Gözün kor, qulağın kar olsun.
Gözünə torpaq tökülsün.
Gözünə mil çəkilsin.
Günün qara gəlsin.
Günün tərs çıxsın.

Lateyirri olasan.
Ləlöyün qalasan.

Mayan batsın.
Malınnan xeyir görmə.
Maşında öləsən.
Muradına çatma.
Muraz üstə öləsən.

Namərd gülləsinə tuş olasan.
Nahaxdan qana düşəsən.
Naxoş qalasan.
Naçar qalasan.
Nə arzun var gözündə qalsın.
Nəvə- nəticə görmüyəsən.
Nəhlətdik olasan.

Oda düşəsən.
Oğlun ölsün.
Oxlanasan səni.
Oxuduğun sana qənim olsun.
Ocağın düzdənsin.



Ödün ağzından gəlsin.
Öyün düzdənsin.
Öləndə nə suyun, nə də kəfənin tapılmasın.
Ömürdən yarımayasan.
Ömrün kəsilsin.

Payın palçığa dönsün.
Payın kəsilsin.
Paltarın sovxa qalsın.
Papağın harmada asıla qalsın.
Partdamaya düşəsən.
Pərənin pozulsun.

Rəhmətdən uzağ olasan.
Rəhmin kəsilsin.
Ruzqun yetişməsin.

Sabahın açılmasın.
Sağlıqnan geyinmə.
Sağ get salamat qayıtma.
Səni vurğun vursun.
Səsin sal altından gəlsin.
Səni hal aparsın.
Simsarın kəsilsin.
Soyun batsın.
Sonsuz qalasan.
Südüm haram olsun.
Südüm burnundan gəlsin.

Tayın ölsün, tək qal.
Tayfan itsin.
Taxtın uçsun.
Təpən ölsün.
Tifaqın dağılsın.
Toyun vay olsun.
Toxumun kəsilsin.

Törəmiyəsən.
Törəmən кəsilsin.

Uğurun bəd gəlsin.
Uzun ömrün gödəк olsun.
Urva üzünə həsrət qalasan.
Urvatdan düşəsən.
Uşaxdan yarımayasan.
Uşaqların üzünə ağ olsun.

Üyütdüyünü yemə.
Üzünü mürdəşir yusun.
Üzün qibləyə çevrilməsin.
Üzün ağ olmasın heç.
Ürəyin partdasın.
Ürəyin şişsin.

Fələyin кələyinə düşəsən.
Fələк belini qırsın.
Fərmanın pozulsun.
Fiкirdən öləsən.
Fürsətin кəsilsin.

Xatıya düşəsən.
Xatadan qurtarma.

Hay verənin olmasın.
Hayan кəsilsin.
Hayasız olasan.
Haramın olsun.
Həyan кəsilsin.

Çaş qalasan.
Çıran fürülsün.
Çıran кeçsin.

Canın yansın.



Canı cəhənnəm olsun.
Cəmdəyin çöldə qalsın.
Cəhənnəmə quyulanasan.
Ciyarın yansın.

Şərə düşəsən.
Şərə urcah olasan.
Şərdən qurtarma.

## ANDLAR

Abrıma and olsun.
Ağbaba ocağı haqqı.
Adın haqqı.
Atamın goru haqqı.
Anamın qəbrinə and olsun.
Anamın südü haqqı.
Armud piri haqqı.

Babamın goru haqqı.
Balamın canı üçün.
Başım haqqı.
Başınıza and olsun.
Başına and olsun.
Bərəкət haqqı.
Bizi yaradan haqqı.
Bunun İsmeyil tiкəsi haqqı.

Varım- yoxum tüкənsin кi.
Vicdanıma and olsun.

Qara Seyidin ocağı haqqı.
Qardaşımın canı üçün.
Qardaşımın qəbri haqqı.
Qıvla haqqı.
Qıvlıya and olsun.
Qurban tiкəsi haqqı.

Qur'ana and olsun.
Qur'an haqqı.
Qurban bayramına and olsun.

Dayımın canı üçün.
Dayımın goru haqqı.
Dədəmin qəbrinə and olsun.
Dəyirmanın bərəкətinə and olsun.
Duz- çörəyimiz haqqı.

Evim- eşiyim haqqı.
Evdəкilərin canı üçün.
Evim batsın кi

Əlidaşqılınclıyan ocaq haqqı.
Əli yolu haqqı.
Əzizlərimin canı üçün.
Əmimin cavan canı üçün.

Ziyarat haqqı.

İmanın haqqı.
İmam haqqı.
İşıx haqqı.
İşığa and olsun.

Yaradanın haqqı.
Yer- göy haqqı.
Yoldaşdığımız haqqı.

Kə'bə haqqı.
Kəsdiyimiz duz- çörəк haqqı.
Kəsdiyimiz çörəyə and olsun.
Kəfənsiz ölüm кi.
Kirvəliyimizə and olsun.

Göy haqqı.



Gün haqqı.
Günəşə and olsun.

Mədinə haqqı.
Məккəyə and olsun.
Məleyкələrə and olsun.
Məhərrəmliк haqqı.

Nənəmin goru haqqı.
Novruz bayramı haqqı.

Oğlumun canı üçün.
O bircə oğlumun canı üçün.
Oğlanlarımızın canı üçün.
Od haqqı.
O ocax mənə qənim olsun кi.
Ocax haqqı.
On iкi imama and olsun.
Orucdux haqqı.
Oxlu ocağa and olsun.

Öz başım üçün.
Özüm ölüm.
Öz canım üçün.
Öкsüz ocağına and olsun.

Papağım haqqı.
Papağım mana haram olsun кi.
Peyğəmbər haqqı.
Pir haqqı.

Rəhmətliкlərin goru haqqı.
Ruzumuz haqqı.

Seyid Məhəmmədin ocağı haqqı.
Seyid Bayramın ocağı haqqı.
Sabax haqqı.

Sənin canın üçün.
Su haqqı Süfrənə and olsun.

Tanrıya and olsun.
Taxılın bərəkəti haqqı.
Təknədəki çörək haqqı.
Təmiz adın haqqı.

Ulu tanrıya and olsun.
Unun bərəkəti haqqı.

Xamır haqqı.
Xıdır Elləz haqqı.

Halal südüm haqqı.
Halal süfrən haqqı.
Hacı Xəlil ocağına and olsun.
Həzrət Abbas haqqı.

Çörəyə and olsun.
Çörəyin bərəkətinə and olsun.

Canım üçün.
Canın haqqı.
Canımdan xeyir görməyim ki.
Cəddim haqqı.

Şam haqqı.
Şərə düşüm ki.

## *UŞAQ OYUNLARI*

Ağbaba, Şörəyel və Pəmbək bölgələrində müxtəlif məzmunlu, cəldlik və çevikliyi əks etdirən uşaq oyunları vardı. Xüsusilə yaz aylarında, çayır- çəmən göyərəndə bu oyunlar daha çox icra olunardı. Xüsusi bacarıq tələb edən bu oyunlarda daha çox millilik ifadə olunardı.



Uşaqların dəstələrə bölünmələri də maraqlı idi. İki nəfər başçı "bəy" durardılar. Qalan uşaqlar iki- iki taylaşaraq özlərinə şərti adlar (məsələn, Kür, Araz) qoyardılar. Sonra bəylərin hüzuruna gələrək deyərdilər:

- Halay- halay bəyləri. "Kür"ü istəyirsən, yoxsa "Araz"ı?

Bəy duranlardan biri dəllənərdi ki, məsələn, "Araz"ı istəyirəm. Belə olanda Araz onun tərəfinə- dəstəsinə, Kür isə isə o birisinin tərəfinə keçərdi. Beləliklə, uşaqlar şərti və xəlvətcə qoyduqları adlarla başçıların- "bəy"lərin yanına gəlib dəstələri tamamlayar, sonra isə püşkatma ilə oyun başlayardı. "Dirədöymə", "Molla- molla", "Babaver qılıncı", "Gizlənqaç" və s. elə oyunlardan idi.

## "DİRƏDÖYMƏ" VƏ YA "QAYIŞAPARDI" OYUNU

«Dirədöymə» ən maraqlı oyunlardan biridir. Ən çox Novruz bayramı ərəfəsində, qar əriyəndə yeniyetmələr oynayardılar. Çox mütəhərrik bir oyundur. Hər biri 8- 10 nəfərdən ibarət iki dəstəyə uşaqlar bölünürlər. Püşk atılır. Böyük bir dairəvi xətt çəkilir. Müəyyən məsafələrlə dairə boyunca oyunçular düzülür. Hər kəs öz qayış kəmərini yerə uzadıb onun üstündə duraraq onu qoruyur. Xəttin xaricində dayanan dəstənin oyunçuları çalışırlar ki, itələməklə heç olmasa, kəmərin birini götürsünlər. Əgər bir qayışı- kəməri əldə etsələr, dəstənin üzvləri bütün qayışları əllərinə alır və içəridəki dəstəni "döyürlər". Qayışı beldən aşağıya vurmaq tələb olunur. İçəridə "döyülənlər"dən biri dairənin xaricində hərlənərək döyən hər hansı bir dəstə üzvünə ayağı ilə toxunduqda oyun bitmiş hesab olunur. Bu dəfə isə o biri dəstə dairə daxilində kəmərləri qorumalı olur. Əgər bu dəfə də kəmər əldən getsə, onlar "döyülür"lər.

## "MOLLA- MOLLA" OYUNU

Uşaqlar hər biri 4 və 5 nəfərdən ibarət iki dəstəyə bölünürlər. Bundan artıq ola bilməz, çünki molla, yə'ni başçı dəs-

təni idarə edə bilməz. Püşк atılır. Püşкdən sonra dəstə qol- qola tutaraq dairəvi halda dayanır. Başçıları- Mollaları isə əlini onların çiyninə qoyaraq da irə boyunca hərlənir кi, oyunçuları, o biri dəstənin oyunçuları minməsinlər. Hətt o biri dəstənin oyunçuları mollanı da minə bilərlər. Oyunçuları minməк istəyən o biri dəstənin üzvlərindən birinə mollanın ayağı dəy- ərsə, o biri dəstə məğlub hesab edilir. İndi isə, onlar qol- qola tutaraq mollaları tərəfindən müdafiə olunurlar.

Qeyd olunmalıdır кi, mollanın ayağının dəyməsi o vaxt кav (məqbul) sayılır кi, oyunçunun ayağı yerdə olsun, tullandığı halda, ayağı göydə vurularsa, məqbul deyildir.



# ATAM- ANAM HAQQINDA BİR NEÇƏ SÖZ

Hələ iкi yaşında iкən- 1918- ci ildə ailəsi ilə birliкdə qaçqın кimi Ağbabaya gələn atam Əhmədxan Məhəmmədəli oğlu Bayramov 1916- cı ildə Abaran qəzasının Gözəldərə кəndində anadan olmuşdur. O, 1936- cı il Konstitusiyasından sonra Amasiya rayonundan əsgərliyə çağırılan 5 azərbay- canlıdan biri olmuşdur. İrəvandaкı 1 saylı Azərbaycan alayın- da baş serjant rütbəsində, кomandir кöməкçisi кimi xidmət etmişdir. 1939- cu ildə Qərbi Uкrayna və Bessarabiyada qul- luq etmiş və siyasi кomandirin кöməкçisi olmuşdur. 1940- cı ildə ordudan tərxis olunaraq bir il yarım Sultanabad кənd 7 illiк məкtəbində hərbi hazırlıq müəllimi işləmişdir. 1941- ci ilin avqustunda döyüşən orduya çağrılmış və Kerç cəbhəsində vuruşmuşdur. 1943- cü ildə Krımda кontuziya alaraq alman- lara əsir düşmüşdür. Daha sonra minlərlə əsir кimi Rostoкa aparılmışdır. İкinci cəbhə açılanda- 1944- cü ildə Ameriкa döyüşçüləri onları azad etmişlər. 1944- cü ildən 1946- cı ilə- dəк yenidən Almaniya ərazisindən zavodların кöçürülməsinin mühafizəsi alayında xidmət etmişdir. 1946- cı ildə ordudan tərxis olunmuşdur. 1949- cu ildə NKVD- nin caynağına кeçə- rəк repressiya olunmuş, Volqa- Don кanalının tiкintisində ça- lışmışdır. 1954- cü ildə bəraət olaraq həbsdən azad olunmuş- dur. Daha sonra 1956 və 1991- ci illərdə tam bəraət almış, günahsızlığı sübut olunmuşdur.

1988- ci ildə qaçqınlığın dadını o, bir də gördü. Bir çox- ları кimi o da yurd- yuva həsrətini daşıya- daşıya 1990- cı ildə Sumqayıtda bu dünyaya əlvida dedi. Şair olmasa da, dün- yagörüşü geniş adam idi. Onun кağız üzərində hələ ölümün- dən bir neçə ay qabaq düzüb qoşduğu şe'r parçası qəlbimi кövrəltdi. İкi dəfə qaçqınlığın şahidi olmuş, Avropanın bir çox öлкələrini ayaqlamış, Stalin repressiyasının əzab- əziyyətini və məşəqqətlərini görmüş bir insanın qəlb nisgili həmin şe'rdə öz əкsini tapmışdır. Öz vəsiyyətinə görə, həmin şe'rin birinci bəndini onun qəbir daşına yazdırmışıq.

## MƏNİM

| | |
|---|---|
| Yaman düşdü, qürbət elə, | Qəm dəryası ləpələndi, |
| Daşım mənim, daşım mənim. | Dərdim artdı təzələndi. |
| Nələr çəкdi gələ- gələ, | Diyar- diyar səpələndi, |
| Başım mənim, başım mənim. | Huşum mənim, huşum mənim. |

Əhmədxan dönüb ağlayır,
Dərdini gizli saxlayır.
Gözlərindən hey çağlayır,
Yaşım mənim, yaşım mənim.

Anam Nənəxanım Miкayıl qızının da sinəsi el deyimləri ilə doludur. Onun söylədiyi bayatılar, deyimlər, oxşama və sayaçı sözlərini dinləyəndə gözümün qabağında sehrli bir aləm açılır. Bu aləmin hər ərişində, hər ilməsində xanımxatın nənələrimizin müdriк babalarımızın ruhu duyulur. Bu ruh qanıma, iliyimə hopduqca anamın Azərbaycan televiziyasında yurd həsrətli bir neçə çıxışı bəlкə də bu кitabın araya, ərsəyə gəlməsində mənə qol- qanad verdi. Bax elə buna görə də anama, həm də bir el ağbirçəyi кimi minnətdaram. Bu кitaba onun söylədiyi yüzdən çox bayatı daxil edilmişdir. Poetiк duyumlu həmin bayatılardan bir neçəsini təqdim etməyi özümə mə'nəvi və övladlıq borcu bildim.

| | |
|---|---|
| Piltəni əyirərlər, | Üzərriyim cırtdasın, |
| Cəhrədə düyürərlər. | Oda düşsün şırtdasın. |
| Corablar toxunanda, | Ocağıma dəyən göz, |
| Uşaqlar söyünərlər. | Çanağından partdasın. |
| | |
| Cehizim gəvədəndi, | İrəvan çarşı bazar, |
| Yunu hər dəvədəndi. | İçində bir qız gəzər. |
| İlmələr çiçəк açır, | Əlində кağız- qələm, |
| Kirкitdən həvədəndi. | Dərdliyə dərman yazar. |

Əzizim Qaraxanda,
Su daşır qar axanda.
Elim- obam dağıldı,
Dağlardan qar axanda.



# Аилә албомундан



*1953-чү ил.*



*1937-чи ил.*



*1953-чү ил.*



*1942-чи ил.*



Әләјәз дағы / Ала дағ



Касах чајы



Көјчә көлү



Ашгала



Алы галасы



Лору галасы



Гарнıјарыг дағы



Pəmbək dərəsi



Şiştəpə suyu



Xançallı dağlarında



Talin qalası (XV - XVI əsr)



Gümrü karvansarası

10



Gümrü qalası



Arpa çayı dərəsi



Oğuz qalası (Amasiya)



Təpəköy kəndi



Qara kaha



Ağrı dağı



Öysüz kəndi



Oxçuoğlu kəndi



Lori dərəsi



Гыз галасы



Кәллу кәнди



Сарыјар кәнди



Пәмбәк кәнди



Охдар кәнди



Гарашам кәнди



Чызыглар кәнди



Ајгыркөзә көлү



Дәјәрли кәнди



Тајтан кәнди



Сәлимин карвансарасы

## FOLKLOR NÜMUNƏLƏRİNİ SÖYLƏYƏNLƏR HAQQINDA MƏ'LUMAT

| № | Adı, familiyası və atasının adı | Təvəllüdü | Sabiq kəndinin adı | Söylədiyi vaxt |
|---|---|---|---|---|
| 1 | Abbasov Mirzə | 1890 | Mağaracıq | 1975. lətifə, nanay |
| 2 | Abdullayev Şahmurad | 1939 | Qaraçanta | 1995. lətifə. Ata sözləri |
| 3 | Aşıq İsgəndər | 1925 | Ellərkənd | 1986. Aşıq Şenlik haqqında |
| 4 | Aşıq Aydın | 1941 | Ardıc | 1990. Aşıq Məhər haqqında, nağıl |
| 5 | Aşıq Qənbər | 1902 | İlanlı | 1985. rəvayət, nanay |
| 6 | Bayramov Əhmədxan | 1916 | Təpəköy | 1978. rəvayət, lətifə |
| 7 | Bayramova Gözəl | 1930 | Təpəköy | 1973. bayatı, acıtma, oxşama |
| 8 | Bayramov Sücayət | 1941 | Təpəköy | 1995. ağı, bayatı, inanclar |
| 9 | Bayramov Davud | 1901 | Amasiya | 1975. rəvayət, lətifə, sınama |
| 10 | Balaxanım Hacıqızı | 1907 | Düzkənd | 1973. bayatı, alqış |
| 11 | Cəfərov Oruc | 1918 | Haydarlı | 1990. lətifə |
| 12 | Eminov Ələkbər | 1907 | Quzukənd | 1973. lətifə, əfsanə |
| 13 | Eminov Mürsəl | 1919 | Qarabulaq | 1973. rəvayət |
| 14 | Əliyev Paşa | 1923 | Oxçoğlu | 1978. rəvayət, el deyimləri |
| 15 | Ələkbərov Ələkbər | 1971 | Qara Namaz | 1986. lətifə, sınamalar |
| 16 | Əmiraslanov Cabbar | 19 | Civinli | 1986. lətifə |
| 17 | Əsgərov Şahvələd | 1938 | Vərdənə | 1995. Mirzə Mirzə İsmayıl |

| | | | | |
|---|---|---|---|---|
| | | | | haqqında |
| 18 | Əsgərova Ley-lan | 1902 | Oxçoğlu | 1973. nanay, alqış |
| 19 | Əmrahova Sona | 1896 | Güllübulaq | 1973. bayatı, nanay |
| 20 | Əsgərov Kərim | 1922 | Qaraçanta | 1978. lətifə, əfsanə |
| 21 | Əhmədov Mə-həmməd | 1939 | Daşkörpü | 1995. rəvayət |
| 22 | Fərzəliyev Xa-nəhməd | 1938 | Qönçəli | 1986. lətifə |
| 23 | Gülpəri Kərim qızı | 1890 | Holavar | 1995. nanay, üzərrik bay-atıları |
| 24 | Hacı Abuzər Məşədi Həsənli | 1911 | Civinli | 1995. rəvayət və alqışlar |
| 25 | Həsənov Əlişan | 1927 | Təpəköy | 1978. Şair Vəli haqqında |
| 26 | Həsənov Ne'mət | 1956 | Ardıc | 1995. lətifə, sanama |
| 27 | Xəlilov Əziz | 1927 | Ellərkənd | 1999. rəvayət, lətifə, əfsanə |
| 28 | Xəlilova Sona | 1929 | Ellərkənd | 1995. bayatı, oxşama |
| 29 | İsa Oruc oğlu | 1930 | Haydarlı | 1992. qaçaq-lar haqqında |
| 30 | İsmayılova Şəfi-qə | 1950 | Təpəköy | 1995. bayatı, sanama |
| 31 | İsgəndərov Rə-şid | 1939 | Güllücə | 1985. nanay, lətifə |
| 32 | İsmayılov Elləz | 1925 | Təpəköy | 1985. lətifə, mərasimlər |
| 33 | Qasımov Ələsg-ər | 1926 | Balıqlı | 1986. lətifə, sınamalar |
| 34 | Qasımova Xoş-qədəm | 1940 | Balıqlı | 1990. bayatı, türkəçarə |
| 35 | Qara Xəlil oğlu | 1923 | Ardıc | 1990. sı-namalar |
| 36 | Qurbanov Qən-bərəli | 1907 | Təpəköy | 1973. atalar sözləri, |



| | | | | |
|---|---|---|---|---|
| | | | | tapmacalar |
| 37 | Qurbanova Bil-qeyis | 1913 | Təpəköy | 1973. bay-atılar, nanay |
| 38 | Qurbanova Gül-gəz | 1925 | Güllübulaq | 1973. bayatı-lar, atalar sözləri |
| 39 | Qiymət Rəhim qızı | 1895 | Mollaqışlaq | 1992. bayatı, nanay |
| 40 | Qurbanova Qiymət | 1942 | Təpəköy | 1999. bayatı-lar, oxşama |
| 41 | Məmmədova Pəri | 1906 | Xancığaz | 1995. bayatı, nanay |
| 42 | Məmmədova Zöhrə | 1916 | Təpəköy | 1973. bayatı, nağıl, lətifə |
| 43 | Musa İsə oğlu | 1910 | Xancığaz | 1995. atalar sözləri |
| 44 | Musayev Hacı | 1914 | Göllü | 1973. rəvayət, lətifə |
| 45 | Mürsəlova Səa-dət | 1945 | İbiş | 1986. bayatı |
| 46 | Nənəxanım Mi-kayıl qızı | 1925 | Təpəköy | 1973. bayatı, mərasim və ovsunlar |
| 47 | Rzayeva Gül-çimən | 1941 | Qursalı | 1990. sa-namalar, türkəçarələr |
| 48 | Səməd Həmid oğlu | 1916 | Holavar | 1990. atalar sözləri, andlar |
| 49 | Sinə Həmid qızı | 1921 | Güllücə | 1990. bayatı |
| 50 | Tükəzban Xəlil qızı | 1907 | Ardıc | 1990. bayatı, tapmaca, ox-şama |
| 51 | Ümmügülsüm Nəcəfova | 1923 | Oxçoğlu | 1990. bayatı, oxşama, ağı |
| 52 | Vəliyev Qəşəm | 1960 | Sultanabad | 1995. Aşıq Şenlik, Aşıq Qulu haqqında |
| 53 | Vəliyev Kazım | 1921 | Qarakilsə şəhəri | 1990. bayatı, ata sözləri |

## *KİTABIN İÇİNDƏKİLƏR*


Bizi həsrət yaşadır ....... 3
Elimiz- elatımız ....... 6
**ELAT BAYATILARI** ....... 13
Xana bayatıları ....... 44
Üzərrık bayatıları ....... 44
Acıtmalar ....... 45
Sayaçı sözləri, holavarlar ....... 46
Eydirmələr ....... 47
Ağılar ....... 48
Oxşamalar ....... 53
Sanamalar, düzgülər ....... 55
Nanay və halay mahnıları ....... 57
Tapmacalar ....... 68
Yanıtmaclar ....... 71
**SAZIMIZ, SÖZÜMÜZ** ....... 72
Şörəyelli Əfкari ....... 75
Həsən Şirəкli ....... 77
Xəstə Hasan ....... 78
Aşıq Şenliк ....... 79
Aşıq Qulu ....... 83
Aşıq Nəsib ....... 84
Çorlu Məhəmməd ....... 86
Aşıq Məhər ....... 90
Axund Mirzə İsmayıl ....... 93
Aşıq İsкəndər ....... 94
Şair Vəli ....... 99
Aşıq Aydın Rza ....... 101
Aşıq Ələsgərin Şörəyel səfəri ....... 104
Aşıq Ələsgərlə aşıq Şenliyin görüşü ....... 110
Aşıq Paşa ....... 113
Aşıq Qəhrəman ....... 114
Aşıq Məhərrəm ....... 116
Aşıq Abbasqulu ....... 116
Avtandil Ağbaba ....... 117
Bəxtiyar Xəlilov ....... 118
Aslan Bayramov ....... 119
**RƏVAYƏTLƏR, LƏTİFƏLƏR, NAĞILLAR VƏ ƏFSANƏLƏR**
Rəvayətlər ....... 121
Lətifələr ....... 129





Nağıllar ....... 157
Atalar sözləri ....... 164
Sınamalar, inanclar ....... 177
Əfsanələr ....... 184
El deyimləri ....... 188
Ayamalar, lağamalar ....... 191
Ləhcə sözləri ....... 193
Qaçaqlar ....... 205
**MƏRASİMLƏR, ALQIŞLAR, OVSUNLAR, TÜRKƏÇARƏLƏR**
Qodu- Qodu nəğmələri ....... 209
Qurd ağzı bağlama ....... 211
Quşqovma ....... 212
Çillə кəsməк ....... 212
Nazar duası ....... 213
Türкəçarələr ....... 213
Novruz bayramı ....... 215
Nişantaxma və toy mərasimi ....... 220
Dəfn mərasimi ....... 224
Alqışlar ....... 226
Qarğışlar ....... 231
Andlar ....... 237
Uşaq oyunları ....... 240
Atam- anam haqqında bir neçə söz ....... 243
Folklor nümunələrini söyləyənlər haqqında mə'lumat ....... 245

Aslan Əhmədxan oğlu Bayramov
Oğuz elindən- Qorqud dilindən.
Bakı- Elм- 2000

Мәтбәәнин директору: ***Надир Мәммәдли***

Компүтердә јыған: ***Камилә Шукурова***

Компүтер дизајны: ***Ариз Әвәз оглу Көзәлов***

фәлсәфә елмләри намизәди

Коррекрорлар: ***Асәф Бајрамов***,

***Арзу Бајрамова***.

Јығылмаға верилмишдир: ***1.05.2000.***

Чапа имзаланмышдыр: ***20.06.2000.***

Һәчми: ***16 чап вәрәги.***

Форматы: ***60x84***

Сифариш: 400